# 1 TƏBİƏT

## Müəllim kitabı

Lela Mikiaşvili • Maia Levidze • Qiorqi Kvantaliani

Gürcüstan Təhsil və Elm Nazirliyi
tərəfindən 2018-ci ildə qrif verilmişdir.

Təbiət 1
Müəllim kitabı
Tbilisi, 2018

Müəlliflər: **Lela Mikiaşvili, Maia Levidze, Qiorqi Kvantaliani**

Redaktorlar: **Maka Seskuriya, Elene Beriaşvili**
Dizayner: **İa Maxatadze**
İllüstratorlar: **Sopio Kintsuraşvili, Qiorqi Mağradze**
Texniki dizayner: **Tinatin Berberaşvili**
Tərcümə edəni: **Qızxanım Əhmədova**

© Bakur Sulakauri nəşriyyatı, 2018
Bütün hüquqlar qorunur

"Bakur Sulakauri nəşriyyatı" MMC, 2018
Ünvan: Davit Ağmaşenebeli 150, Tbilisi 0112
Tel: 291 09 54, 291 11 65
Elektron poçt: info@sulakauri.ge

ISBN 978-9941-30-348-7

The Natural Science 1
Teacher's Book

© Sulakauri Publishing, 2018
all rights reserved.

Tbilisi, Georgia
www.sulakauri.ge

# MÜNDƏRİCAT

1. GİRİŞ ........ 5

2. DƏRSLİYİN QURULUŞ PRİNSİPLƏRİ ........ 8

3. DƏRSLİYİN HƏR BİR STRUKTUR ELEMENTİ İLƏ (ŞAGİRDİN KİTABI, ŞAGİRDİN DƏFTƏRİ, MÜƏLLİMİN KİTABI) BAĞLI ƏTRAFLI ŞƏRHLƏR VƏ ONLARIN İSTİFADƏSİ QAYDASI. ........ 9

4. DƏRS MÖVZULARI ........ 10

5. I SİNFİN TƏBİƏT STANDARTI ........ 11

6. MİLLİ TƏDRİS PLANI İLƏ MÜVAFİQLİK ........ 17

7. DƏRSLİKDƏN İSTİFADƏSİ QAYDASI........ 20

8. VƏRDİŞ-BACARIQLARIN İNKİŞAFI ........ 21

CARİ DƏRSLƏRİN ARDICILLIĞI ........ 23

9. TƏBİƏTŞÜNASLIĞIN TƏDRİSİ METODLARI ........ 134

10. ŞAGİRDİ NECƏ QİYMƏTLƏNDİRƏK? ........ 137

# 1 ● GİRİŞ

"İbtidai siniflərdə məqsədyönlü hesab edirik ki, Sulxan Saba və Qoqebaşvili tərəfindən şərh edilən təbiət hadisələri və onlar tərəfindən verilmiş anlayışlardan, terminlərdən istifadə olsun. Onlarda təbiətin bütövlükdə təhlili qaydası və təbiətlə insanın emosional yanaşma sahələri qorunub saxlanılmışdır".

Quram Ramişvili

Biz epiqrafda söylənilən fikirlə razılaşırıq ki, bu yaşda şagirdlərin intellektual-əqli inkişafı yolunda bütöv nəzərlərin formalaşdırılması məqsədəuyğundur. Onun əsasını persepsiyanın psixoloji nəzəriyyəsi təşkil edir ki, bunun əsasında da, ilk növbədə, bütöv təsəvvürlər formalaşırlar, sonra isə xırdalıqlar, bütövün hissələri dəqiqləşdirilir; qavrama təbiətinə "bütöv təsəvvürlərdən özəl təsəvvürə qədər" prinsipi ilə biliyin qazanılması uyğun gəlir. Burada biz yenə də ibtidai siniflərdə inteqrativ və bütöv tədrisin Qoqebaşvili sayağı ənənəsinə qayıdırıq ki, bu da İakobun davamçısı olan Luarsab Botsvadzenin proqram qaydasında aydın şəkildə oxunulur: "bir fənn çərçivəsinin digər fəndən ayrılması mümkün deyil. Ümumiyyətlə, tədris zamanı vəhdətin pozulması, fənlərin ayrılması və özəlləşdirilməsi məktəblərdə ötürülən biliyin böyük nöqsanını təşkil edirdi. Hər bir fənnin nailiyyəti uşaqda tədrisin səbəb olduğu həvəsdən və onun məqsədəuyğunluğundan asılıdır. İdrakda yer tutan anlayışlar arasında möhkəm bağlantının mühafizə olunduğu halda, tədris də həvəsli və məqsədyönlü olur; müxtəlif biliklər bir-birlərini işıqlandırmalı və tamamlamalıdır… Dərslərin bu şəkildə baş verdiyi halda, uşaqlar arasında ardıcıl, bütöv təəssüratlar qalır və onlar fənləri də tam dərk edirlər" (Birinci ibtidai xalq məktəbinin müvəqqəti proqramları, Tb., 1919; səh. 14-15).

Qoqebaşvili tərəfindən bu yanaşma üçün təməlin qoyulmasını professor Quram Ramişvili də təsdiq edir. O yazır: "Təhsilin milli konsepsiyası barəsində söhbət etdikdə, bir məsələnin baş qaldırdığını önəmli hesab edirik. İ. Qoqebaşvilinin "Ana dili", "Təbiətin qapısı", "Tarixi hekayələr" və "İncil hekayələri" bir-birlərini tamamlayırlar. Burada heyrətamiz bir vəhdət var ki, bununla da həm gürcü filosofları və tarixşünasları üçün, eləcə də təbiətin tədqiqatçıları üçün böyük əxlaqi təməl qoyulmuşdur". Fənlərin tədrisində məlumat axınının baş qaldırması bu həyat bütövlüyünü və ilkin əlaqələri pozmuşdur. Bu bütövlüyün və ahəngdarlığın bərpasını-qorunub saxlanılmasını zəruri hesab edirik. Məktəblərdə fənlərin tədrisi elə qurulmalıdır ki, biliyin bütövlüyü qorunub saxlanılsın, insan və təbiət arasında ilkin əlaqələr bərpa olunsun. Bu müdriklik həqiqi biliyin zəruri əsasıdır" (Q. Ramişvili, Ana dili nəzəriyyəsi, Tb. 2000, səh.17).

Təbiətşünasların tədrisinin yuxarıda sadalanan prinsiplərindən (inteqrativlik və bütövlük) məntiqi üç əsas məqama keçid alırıq ki, bunları da təbiətşünaslıq dərsliklərini qurduqda rəhbər tuturuq.

Birinci odur ki, təbiətşünaslığın tədrisi ekoloji olmalıdır. Bu, yalnız ətraf mühit məzmununun daşınmasını bildirmir.

Bizim anlayışda ekologiya – canlı orqanizmlərin qarşılıqlı əlaqələri və onların ətraf mühitlə münasibəti haqqında elmi bilikdir. Bu bilik dünya haqqında bütöv təsəvvür yaradır və imkan verir ki, dərs prosesini bütövlükdə təhlil edək. Təbiətşünaslığın tədrisi zamanı hər hansı bir fənn və ya hadisə şagirdin xarici dünya kontekstində nəzərdən keçirilir. Şagirdin yaş artımı ilə birlikdə, bu mühitin sərhədləri də genişlənir. Təbiətin mühafizəsi məsələlərindən irəli gələrək, təbiətşünaslığın tədrisinin məqsədlərindən biri odur ki, uşağa canlı və ya cansız təbiəti sevdirsin və ona olan həssas yanaşmasını inkişaf etdirsin, təbiətin mühafizəsi zərurəti anlayışını formalaşdırsın və onu müəyyən əmək bacarıqları ilə təchiz etsin. Uşağın ümumi inkişafına önəmli şəkildə pedaqoji cəhətdən təşkil edilmiş mühitdə onun tərəfindən bilik və vərdiş-bacarıqların müntəzəm qazanılması səbəb olur. Çox vacib bir mühitdir ki, xarici aləm haqqında qazanılmış bilik anlayışlar məqamına endirilməsin və uşaqlara müəyyən ardıcıllıqla, onların şəxsi təcrübələrinə istiqamətləndirməklə və ibtidai siniflərin şagirdləri üçün çatdırılma forması ilə verilsin. Bu yaşda (6-dan 10 yaşına qədər nəzərdə tutulur) uşaqların idraki inkişafının əsas xətti əyani-əməli düşüncədən əyani-şəkilli, sonuncudan isə mücərrəd təfəkkürə keçiddən ibarət olur. Bizlə münasibətdə onu bildirir ki, doğrudur, uşaqlar üçün mütləq təbiətşünaslıq təsəvvürləri və öyrəniləsi anlayışlar yaratmalıyıq. Bu təsəvvürləri və anlayışları

şagirdlər arasında konkret təbii fənlərin vasitəsilə yarada bilərik, çünki bu yaşda biliyin əldə edilməsinin əsası mücərrəd təsəvvür deyil, fənnin özü və ya hadisədir. Uşağın təfəkkürü anlayışdan fənnə (hadisəyə) tərəf deyil, fəndən (hadisədən) anlayışa doğru yönəlməlidir.

Yanaşmamızın ikinci önəmli məqamı dərs prosesinin elə bir quruluşunu nəzərdə tutur ki, uşağın beyninin hər iki yarımkürəsi (hemisfero) əqli işdə iştirak etsin. Bu münasibətdə tərəfimizdən təklif olunan tədris metodikası, proqram, dərslik və tövsiyələr insan beyninin xüsusi araşdırmalarına istinad edir ki, bunlar da şagirdin yaradıcılıq vərdiş-bacarıqlarının inkişafı problemləri ilə bağlı olurlar.

Yanaşmamızın üçün önəmli məqamı təbiətin öyrənilməsi və praktiki işlərin vasitəsilə ətraf mühitlə düzgün əlaqələrin qurulmasını nəzərdə tutur. Bu məqsədlə dərsliyə də, müəllimin kitabına da bir çox praktiki işlər daxil edilmişdir və bunlar da tədqiqat və təbiətin öyrənilməsinə marağın yaranmasına səbəb olurlar. Tərəfimizdən sadalanan hər üç məqam təbiətşünaslığın holist, yəni bütöv (wholly (ing.) – bütövlükdə, tamamilə) tədris konsepsiyasını nəzərdə tutur. Bu konsepsiya məşhur amerikalı alim J. Hasard (Jack Hassard, science experiences, 1990) tərəfindən işlənib hazırlanmışdır. Holist təlim-tədris modeli şagirdi bütöv şəxsiyyət kimi nəzərdən keçirir və insanın beyninin tam fəaliyyətinə istinad edir. Beynin sağ və sol yarımkürələri müxtəlif növdə idraki proseslərdə iştirak edirlər. Hər bir yarımkürənin funksiyalarının dominant sahələri var; sol yarımkürədə yavaş-yavaş və məntiqi ardıcıllıqla çatdırılmış məlumatın qavranılması və işlənilməsi, sağ yarımkürədə isə qeyri-verbal, bütövlükdə-sintez, şəkilli-təsviri məlumatın qəbulu və işlənilməsi (məsələn, ritm, melodiya, fantaziya, rənglər….) dominantlıq edir.

Holist təhsildə birlikdə sol yarımkürə tipində əqli fəaliyyət və sağ yarımkürə növündə əqli fəaliyyət nəzərdə tutulur. Bununla yanaşı, bu konsepsiya uşaqlar arasında mövcud fərqləri nəzərdə tutur, onların əqli imkanlarının növlərinə əsasən, xüsusilə də, Qardner tərəfindən təyin edilən əqli imkanların səkkiz növünü nəzərdə tuturuq (çoxtərəfli intellekt). Bunlardır:

1) Fərddaxili – şagird fərdi araşdırmalar və refleksiya vasitəsilə materialı mənimsəyir;
2) Fərdlərarası – şagird başqaları ilə əməkdaşlıqla təhsil alır;
3) Musiqili – əşyaların öyrənilmə vasitəsi ritm və musiqi qanunauyğunluqlarıdır;
4) Məkan – əşyaları öyrənmək üçün şagirdə qrafiki obyektləri müşahidə etmək və onu təşkil edən elementləri manipulyasiya etmək tələb olunur;
5) Kinestetik – şagird hərəkətlə, yerdəyişmə ilə, təmasla öyrənir;
6) Sözlü-linqvistik – şagird materialı eşitdiyi və oxuduğu sözlərin vasitəsilə mənimsəyir;
7) Məntiqi-riyazi – şagirdin riyazi düsturlarla və məntiqi kateqoriyalarla manipulyasiya qabiliyyəti vardır.
8) Naturalist – şagird natural idrakın xüsusi qabiliyyətinə malikdir; onun təbiət fənləri və hadisələrini öyrənməyə güclü meyli vardır.

İnsanda, adətən, bu səkkiz tipdən bir-ikisi dominantlıq təşkil edir, amma az-çox hamısı təqdim olunur. Dərslik şagirdlərin əqli imkanlarının hər növdə aktivləşdirilməsini nəzərdə tutan dərs prosesinin aparılmasına dəstək verməlidir.

C. Hasarda əsasən, holist təhsil uşağın əqli imkanlarının bütün sadalanan növlərinin aktivləşdirilməsini nəzərdə tutur ki, bu da yarımkürə növündə əqli işdən başqa, sensomotor növündə əqli işə (fiziki obyektlə birbaşa əlaqəni nəzərdə tutur) və emosional növdə əqli işə (hissiyyat-emosional tədrisi nəzərdə tutur) dəstək verir.

Belə ki, nəticə çıxarmaq olar ki, insanları (o cümlədən təbii ki, uşaqları da) müxtəlif növdə idraki bacarıq və imkanlar xarakterizə etdiyindən irəli gələrək, tədrisin holist modeli də həm pedaqoji, psixoloji və eləcə də sosial bərabərlik baxımından mütərəqqi və qəbul ediləndir.

İbtidai siniflərdə təbiətşünaslığın tədrisinə xüsusi tərbiyəvi funksiya həvalə edilir. Özünəməxsus biliyi ötürməklə yanaşı, təbiətşünaslıq kursu şagirdlərin ekoloji, estetik, vətənpərvərlik və əmək təliminə xidmət etməlidir və bu da şagirdlər arasında müvafiq vərdiş-bacarıqların və əhval-ruhiyyənin, yanaşmaların aşılanması ilə ifadə olunmalıdır. Belə ki, təbiətşünaslıq dərsliyinin tərbiyəvi funksiyası da olmalıdır.

Dərsliyin tərbiyəvi funksiyasında eləcə də müstəqil iş bacarığının inkişafı da nəzərdə tutulur. Pedaqogikada müasir tədqiqatlar təsdiq etmişlər ki, təbiətşünaslıq dərslərində şagirdlər verilən məsələlərin müstəqil həlli yollarını axtardıqlarında nəinki onların fənnə olan maraqları artır, eləcə də tənqidi təfəkkür, analiz və yaradıcılıq bacarığı, qəbul edilən məlumatın sistemə gətirilməsi və s. kimi bacarıqları effektiv inkişaf edir.

Təbiətşünaslıq dərsliklərinin quruluşunun bizimsayağı nəzərin mükəmməlləşdirilməsi üçün bir məsələyə də toxunmalıyıq. Ötən əsrdə Şərqi Avropa ölkələrində ibtidai məktəbin əsasını belə bir fikir təşkil edirdi ki, ibtidai siniflərdə tədris biliyin müəyyən ehtiyatının mənimsənilməsinə, məktəbin növbəti pilləsi üçün

lazımi məlumatın baza səviyyəsində yaradılmasına yönəldilməlidir. Müasir (ənənəvidə olduğu kimi) pedaqoji nəzəriyyələr üstünlüyü ibtidai məktəbdə təhsil və tərbiyə prosesinin şəxsiyyətin inkişafına yönəldilməsi fikrinə verirlər. Bizim fikrimizcə, bu iki yanaşma bir-birini istisna etmir, amma diqqət yenə də inkişafa yönəldilməlidir.

Tərəfimizdən təqdim edilən birinci sinfin təbiət dərsliyi yuxarıda formalaşdırılmış nəzərlərin əsasında tərtib edilmiş və onun təyinatı birinci sinifdə növbəti məsələlərin həyata keçirilməsinə dəstək verməlidir: təbiətin öyrənilməsinin güclü motivasiyasının yaradılmasına, ətraf mühit anlayışının cücərməsinə, şagirdlərdə hər şeylə maraqlanmağa, təəccüblənməyə və kəşf-öyrənmə yolu ilə yaranmış məmuniyyət hissinin inkişafına, uşağın davranışının əsas formasının (oyunun) təlim davranışı ilə tədricən dəyişməsinə (yəni təlim davranışının formalaşmasına), idraki vərdiş-bacarıqların inkişafına və ümumiyyətlə, təlimə olan müsbət yanaşmanın hazırlanmasına.

# 2. DƏRSLİYİN QURULUŞ PRİNSİPLƏRİ

- **İnteqrativlik** – dərslikdə Milli Tədris Planı ilə nəzərdə tutulmuş hər dörd istiqamət (elmi tədqiqat-axtarış, canlı aləm, cisimlər və hadisələr, Yer kürəsi və ətraf aləm) sintez şəklində təqdim edilmişdir, eləcə də vətəndaş tərbiyəsi sahəsindən bəzi mövzular verilir;
- **Anlaşıqlılıq** – 5-6 yaşında uşaqların psixoloji xüsusiyyətləri və ehtiyacları nəzərdə tutulmuşdur;
- **Müntəzəmlik və ardıcıllıq** – hər bir öyrənilən mövzu vahid strukturla və əks əlaqələrin nəzərə alınması ilə qurulmuşdur;
- **Nəticələrə yönəlmək** – dərslik standarla müəyyən edilmiş nəticələrin dərs ilinin sonu üçün əldə edilməsinə dəstək verməlidir;
- **Anlamaq və aktivlik** – dərsliyin tərtibatı və tədris metodikası elə düşünülmüşdür ki, şagird tərəfindən materialın ağılla mənimsənilməsi təmin edilsin – məlumatın üzərində müstəqil iş, öz qüvvələrinə inanmaq və sinif yoldaşları ilə əməkdaşlıq yolu ilə;
- **Əyani vəsait və hissiyatlı qavrama** – dərslik insanın bütün hisslərinin aktiv çalışdırılması-tətbiqi ilə şagirdlər tərəfindən biliyin qazanılması və vərdiş-bacarıqların inkişafına dəstək verir;
- **Emosional qavranış** – dərslik dərs prosesinin maraqlı və həvəsli keçməsinə dəstək verir və bu da uşaqlarda təlimə və fənnə olan müsbət emosional yanaşmanı təmin edir;
- **Tərbiyəvi** – təbiət dərsliyi əqli inkişafa paralel olaraq şagirdlərin ekoloji və estetik tərbiyəsinə, eləcə də təhlükəsizlik və gigiyena vərdiş-bacarıqlarının aşılanmasına xidmət etməlidir;
- **Dərsliyin funksionallığı** – bu prinsipdə tədrisin bütöv sistemində təbiət dərsliyinin, bu sistemin elementi kimi, başqa elementlərlə (dərs materialları, tədris vəsaitləri, başqa fənlərin dərslikləri) qarşılıqlı əlaqədə funksional yüklənməsi nəzərdə tutulur;
- **Normativ sənədlərlə uyğunluq** – dərsliyin tematikası və tədris metodikası ümumi təhsilin milli məqsədlərinə və Milli Tədris Planı ilə müəyyən edilmiş üstünlüklərə və tələblərə əsaslanır.

# 3. DƏRSLİYİN HƏR BİR STRUKTUR ELEMENTİ İLƏ (ŞAGİRDİN KİTABI, ŞAGİRDİN DƏFTƏRİ, MÜƏLLİMİN KİTABI) BAĞLI ƏTRAFLI ŞƏRHLƏR VƏ ONLARIN İSTİFADƏSİ QAYDASI.

I sinfin təbiət dərsliyi komplektdir. Onun tərkibinə daxildir: şagirdin kitabı, şagirdin dəftəri və müəllimin kitabı. Şagirdin kitabı özünəməxsusdur. Birinci sinif dərsliyi olduğuna görə, onda, ümumiyyətlə, oxu mətni yoxdur. II semestrdən, bəzi hallarda, həmin vaxt üçün şagirdlərin öyrəndikləri hərflərdən istifadə etməklə yalnız qısa və sadə təlimatlara yol verilir. Belə ki, şagirdin kitabı əsasən illüstrasiyaların və çalışmaların komplektidir ki, bu da uşaqlara müxtəlif işləri yerinə yetirməyi təklif edir. Şagirdin dəftəri “Təbiət 1” iş vərəqlərinin toplusunu təqdim edir. Bunda şagird şəkil çəkir, rəngləyir, sadə modellər düzəldir, əşyaları qruplaşdırır və s.

1 sinfin iş dəftəri, cilddə ardıcıllıqla bərkidilmiş ayrı-ayrı vərəqlərin toplusudur. Hər bir dərs üçün şagirdə 1 və ya 2 bu cür vərəq lazım olacaqdır. Vərəqlər mövzulara əsasən nömrələnmiş və birinci sinif şagirdləri üçün (müəllim öz nəzərinə əsasən, asanlıqla hər hansı bir səhifəni qopartdıra bilər) bunlardan istifadə etmək əlverişli olur. Əlavə şəklində dərslikdə rəngli vərəqlər də vardır. Müəllimin kitabında bütün dərslərin ssenarisi xırdalıqları ilə təqdim edilir. Təbiət fənni proqramı ilə bu fənnin tədrisində inkişaf etdirilməsi önəmli olan özünəməxsus vərdiş-bacarıqlar müəyyən edilmişdir. İ sinifdə tədqiqat vərdiş-bacarıqlarının elementar səviyyədə inkişafına dəstək verilməlidir, özəlliklə də: müşahidə, tədqiqat, təsvir, siyahıya alma, təsnifat və kommunikasiya vərdişlərinin inkişafının təməli bu yaş dövründə qurulur.

Təklif edilən dərslər və fəallıqlar I sinfin fənn standartı ilə dörd istiqaməti də nəzərdə tutur: **elmi tədqiqat-axtarış, canlı aləm, cisimlər və hadisələr, Yer kürəsi və ətraf aləm.**

Dərsliklə nəzərdə tutulmuş fəallıqlar standartla müəyyən edilmiş bütün nəticələrin əldə edilməsinə dəstək verir.

# 4. DƏRS MÖVZULARI

I sinfin təbiətində xüsusi tədqiqat əsasında, birinci sinif şagirdlərinin yaşı və maraqlarını nəzərə almaqla mövzular öyrənilir. Mövzular 32 dərs həftəsi üçün nəzərdə tutulmuşdur. Müəllim üçün ehtiyat və təkrar üçün bir neçə dərs nəzərdə tutulmuşdur. Hər bir mövzu 2 və ya artıq məsələni əhatə edir. Cəmi şagirdin kitabında 58 dərs verilmişdir. Şagirdin dəftəri tematik olaraq dərsliyə əlavə edilir və mövzunu yaxşı dərk etməkdə yardım edir.

Dərs mövzularının ardıcıllığı belədir:

Mövzu: Mən və mənim bədənim
1. Mən və təbiət
2. Bədən hissələri

Mövzu: Mənim məktəbim
3. Məktəbə səyahət
4. Məktəbdən kənar səyahət
5. Evdən məktəbə qədər yol

Mövzu: Nəqliyyat və yol nişanları
6. Yol hərəkatı qaydaları
7. Yol nişanları və nəqliyyat
8. Hansı nəqliyyatla səyahət edək?

Mövzu: Ətrafımızda
9. Təbii və süni
10. Canlı və cansız
11. Ətrafımızda
12. Təbiətin keşiyində
13. Yaşayış mühiti
14. Nə nədən hazırlanır?
15. Ailə harada yaşayır?
16. Mebel və şəxsi əşyalar

Mövzu: Payız
17. Payız
18. Payızın rəngləri
19. Məhsul yığımı
20. Biz meyvəni sevirik
21. Meyvədir və ya tərəvəz?
22. Tərəvəz – faydalı qida
23. Qida məhsulları
24. İçki

Mövzu: Qış
25. Nə geyinirik?
26. Qış
27. Yeni il də gəldi
28. Təhlükəli əşyalar

Mövzu: Hissiyyat orqanları
29. Əşyaları necə tapırıq?
30. Qoxu və dad
31. Hissiyyat orqanları

Mövzu: Sağlamlığın keşiyində
32. Həkim və dərmanlar
33. Sağlam olmaq istəyirsənmi?
34. Hamımız birlikdə idman edək

Mövzu: Yaz
35. Yazın gəlişi
36. Gecə və gündüz
37. Həyətimizdə yaz

Mövzu: Bitkilər
38. Bitkilər aləmi
39. Çəmənliyi nə bəzəyir?
40. Otaq bitkiləri
41. Bizim meşə
42. Meşə sakinləri

Mövzu: Heyvanlar aləmi
43. Bizim dördayaqlı "dostlarımız"
44. Ev quşları
45. Bəziləri gəzir, bəziləri sürünür
46. Su sakinləri
47. Quşların səsləri
48. Kiçik altıayaqlı heyvanlar
49. Zooparkda

Mövzu: Kosmos
50. Teleskop, mikroskop
51. Səma cisimləri
52. Kosmosa səyahət
53. Günəş "sönərsə", nə baş verər?

Mövzu: Yay
54. Yay da gəldi
55. Kəndimiz
56. Sinif "meşəsinə" ekskursiya
57. Təbiətdə davranış qaydaları
58. Mənim vətənim

# 5. I SİNFİN TƏBİƏT STANDARTI

| NƏTICƏLƏRIN INDEKSI | STANDARTIN NƏTICƏSI |
|---|---|
| **1. İSTIQAMƏT: ELMI TƏDQIQAT-AXTARIŞ** | |
| **TƏB.IBT.(I).1.** | Şagird bacarmalıdır:<br>Praktiki fəallıqlarda iştirak etməyi və elementar tədqiqi vərdiş-bacarıqları nümayiş etdirməyi. |
| **1. İSTIQAMƏT: CANLI ALƏM** | |
| **TƏB. IBT. (I).2.** | Şagird bacarmalıdır:<br>Orqanizmləri (bitkilərin və heyvanların) əsas əlamət-xassələrin əsasında təsvir və xarakterizə etməyi;<br>Orqanizmləri qruplaşdırmağı, qrupları xarakterizə və müqayisə etməyi, onların tipik nümayəndələrinin quruluşunun, hərəkətinin və həyat dövrünün özünəməxsusluqları barədə müzakirələr aparmağı;<br>Orqanizmlərin həyat tələbatları və ətraf amillərin onlara təsiri barəsində müzakirələr aparmağı. |
| **2. İSTIQAMƏT: CISIMLƏR VƏ HADISƏLƏR** | |
| **TƏB. IBT.(I).3.** | Şagird bacarmalıdır:<br>Cisimlərin və onların tərkib materiallarının/əşyalarının xassələrini xarakterizə etməyi;<br>Səsin, işığın və istiliyin mənbələri və yayılması üzrə müzakirə aparmağı;<br>Aqreqat vəziyyətin dəyişikliyində istiliyin ötürülməsi rolu üzrə müzakirə aparmağı;<br>Asanlıqla müşahidə edilən hərəkət və qüvvələri xarakterizə etməyi. |
| **3. İSTIQAMƏT: YER KÜRƏSI VƏ ƏTRAF MÜHİT** | |
| **TƏB. IBT. (I). 4** | Şagird bacarmalıdır:<br>Lokal mühitdə istiqamətlənməyi;<br>Su və qurunun önəmli obyektlərini təsvir etməyi və müxtəlif növ planda və xəritədə onları tanımağı;<br>Təbii resursların əhəmiyyəti barəsində müzakirə aparmağı;<br>Dövri təbii hadisələri təsvir etməyi və onların səbəbləri barəsində müzakirə aparmağı. |

## İLİN SONUNDA ƏLDƏ EDİLƏN NƏTİCƏLƏR VƏ ONLARIN İNDİKATORLARI:

### Istiqamət: elmi tədqiqat-arayış

**TƏB.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.**

**Nəticə əyanidir, əgər şagird:**

- Öyrənilən cisim/hadisə haqqında sadə sualları verir;
- Özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;
- Təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir;
- Cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;
- Suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə);

- Verilən suala cavab vermək üçün fərdi fikirlərinə və ya müşahidə nəticələrinə əsaslanır;
- Fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir.

## Istiqamət: Canlı aləm

### TƏB. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.

**Nəticə əyanidir, əgər şagird:**

- insanın hissiyyat orqanlarını və onların funksiyalarını adlandırır (məs., göz – "görürəm", qulaq – "dinləyirəm", dil – "dadı duyuram", burun – "qoxunu hiss edirəm", dəri – "istilik və soyuğu, hamar və ya nahamar səthi duyuram");
- tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz", "şokolad şirindir – dil" yaxud "qar ağdır və soyuqdur – göz və dəri", "limon sarıdır və turşdur – göz və dil");
- insan üçün (məs., qidanın yararlı olduğunun təyin edilməsi, küçədə təhlükəsiz hərəkət) və heyvanlar üçün (məs., təhlükənin vaxtında aşkar edilməsi, qidanın əldə edilməsi, sığınacağın axtarılıb tapılması) hisslər və hissiyyat orqanlarının əhəmiyyəti barəsində müzakirələr aparır;
- hissiyyatın gücləndirilməsi məqsədilə müxtəlif sadə cihazlardan (lupa, fonendoskop) istifadə edir və bədən xassələrini təsvir edir ki, bunlar da bu cihazlardan istifadə edildikdə əyani görünürlər;
- şəxsi gigiyena əşyalarını (məs., daraq, diş fırçası, dəsmal) adlandırır, gigiyena qaydalarına riayət edilməsinin əhəmiyyəti barəsində müzakirə edir.

**Məzmun**

Hissiyyat orqanlarının – gözün, qulağın, burunun, dilin və dərinin vasitəsilə ətraf mühitin müxtəlifliyinin qavranılması mümkündür. Gündəlik həyatda hissiyyat orqanları insana yardım edir ki, cisimləri onların xassələrinə əsasən (məs., rəng, qoxu, faktura, forma, səs) qəbul etsinlər və tanısınlar. Hissiyyatlar insanı təhlükədən qoruyurlar (məs., küçədə hərəkət etdikdə), imkan verirlər ki, ətraf mühitdə baş verən dəyişiklikləri qavrasın (məs., havanın dəyişkənliyini). İnsanın hissiyyat orqanlarını qoruması, elementar gigiyena normalarına əməl etməsi çox vacibdir. Heyvanlar üçün hissiyyat orqanları düşməndən yaxa qurtarmaq və qida əldə etmək üçün xüsusilə önəmlidir.

**Tövsiyə edilən fəallıqlar**

Müəllim:
- Şagirdlərə konkret əşyanı göstərir və xahiş edir ki, onun xassələrini adlandırsınlar, adlandırılan xassələri müvafiq hissiyyat orqanları ilə əlaqələndirsinlər;
- Şagirdlərin bir qrupundan xahiş edir ki, hər hansı bir əşyanı fikirləşsinlər və onun xassələrini təsvir etsinlər, digər qrup isə həmin əşyanı tapmalıdır;
- Şagirdlərə tapşırıq verir ki, tanış əşyanı gözübağlı tapsınlar, əşyanın xassələrini təsvir etsinlər və izah etsinlər ki, necə tapa bildilər;
- Şagirdlərdən xahiş edir ki, buraxdığı səsin əsasında əşyanı tapsınlar (məs., həmin əşyanı döyəcləmək nəticəsində).
- Şagirdlərə audiomaterialı dinlətdirir (məs.,heyvanların səslərini, müxtəlif təbiət hadisələrini: yağışı, şimşəyi, dənizin təlatümünü müşayiət edən səslər) və xahiş edir ki, bu səsləri buraxanları tapsınlar;
- Real mühitdə, videomaterialda və ya kompüter simulyasiyalarının istifadəsi ilə şagirdlərə küçə

vəziyyətini göstərir. Xəbərdarlıq nişanlarının anlaşılması və onlara reaksiyanın göstərilməsi üçün hissiyyat orqanlarının əhəmiyyəti barəsində müzakirələr aparmağı onlardan xahiş edir;

- Şagirdlərdən xahiş edir ki, hissiyyatın müxtəlif orqanlarından istifadə etməklə lokal mühiti araşdırsınlar (məs., sinif otağı, məktəb həyəti) və konkret cisimləri təsvir etsinlər;
- Tapşırıq verir: gözlərini yum və qələmin hansı rəngdə olduğunu mənə söylə. Stəkana toxunma və mənə söylə, stəkanda isti sudur və ya soyuq? Nə üçün deyə bilmirsən? Şagirdlərə nəticə çıxarmaqda yardım edir ki, cismin hər hansı bir xassəsini yalnız müəyyən hissiyyat orqanı qavraya bilər;
- Şagirdlərə elə növdə tapşırıqlar verir ki, bunların analizi əsasında onlar şəxsi gigiyenaya əməl edilməsi (məs., əlləri tez-tez yumaq, bədəni yumaq, dişləri fırçalamaq, kompüterdən istifadə etdikdə gigiyena normalarına əməl edilməsi) zərurəti barəsində nəticə çıxara bilsinlər.

**TƏB.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir.**

**Nəticə əyanidir, əgər şagird:**

- özünü, sinif yoldaşlarını, başqa insanları əyani xarici əlamətlərə əsasən təsvir edir (məs., hündürlük, saçın rəngi, gözün rəngi, çillər);
- bədən hissələrinə əsasən müxtəlif heyvanları təsvir və müqayisə edir (məs., baş, əl-ayaqlar, quyruq, qulaqlar, dimdik, qanadlar, xortum);
- tanış bitkilərin əsas hissələrini tanıyır və adlandırır (məs., gövdə, yarpaq, kök, çiçək, meyvə);
- parçalardan bitkilərin, heyvanların və insanın bütöv bədəninin modelini quraşdırır;
- canlı cisimləri bitkilər və heyvanlar kimi qruplaşdırır, öz qərarını əsaslandırır;
- insan üçün heyvanların və bitkilərin əhəmiyyəti barəsində müzakirələr aparır (məs., bitkilərin müxtəlif hissəsinin qida üçün, tikinti materialı üçün, ətraf mühitin gözəlləşdirilməsi üçün istifadəsi; heyvanların və insanların dostluğu; heyvanların verdikləri qida məhsulları);
- müxtəlif mühitdə yaşayan bitkilərin/heyvanların müqayisəsi üçün sualları formalaşdırır.

cavabları axtarır: sinif otağında, məktəbin həyətində, lokal mühitdə yetişən müxtəlif bitkiləri (məs., yarpaqların forması və ya ölçüsünə əsasən, gövdənin formasına, qalınlığına və ya uzunluğuna əsasən, çiçəklərin rəngi və ya ölçüsünə əsasən) və ya heyvanı (məs., soxulcanı, ilbizi, kəpənəyi, parabüzəni) müşahidə edir; müşahidə nəticələrini müxtəlif forma ilə ötürür (şifahi nitq ilə, şəkillərlə, kollajla, fotoşəkillərin vasitəsilə).

**Məzmun**

Canlı cisimlər müxtəlif hissələrdən ibarətdirlər. Bitkilərin kökü, gövdəsi, yarpağı, çiçəyi, meyvəsi və toxumu olur. Heyvanların böyük hissəsinin başı, bədəni və əl-ayaqları olur. Onlardan bəzilərinin quyruğu, dimdiyi, buynuzu, bığları və s. olur. Bitkilər və heyvanlar bir-birlərindən müxtəlif əlamətlərlə fərqlənirlər, məsələn, bədən hissələri ilə, məkanda hərəkət bacarığı ilə. Heyvanlar kimi, bitkilər də bir-birindən bədən hissələrinin forması, ölçü, rəng və s. ilə fərqlənirlər. İnsan öz xeyri üçün bitkilərdən və heyvanlardan istifadə edir: qidalanmaq üçün, tikinti materialı üçün, ətraf mühiti gözəlləşdirmək vəs. üçün.

**Tövsiyə edilən fəallıqlar**

Müəllim:

- Şagirdlərdən xahiş edir ki, insanın, heyvanın bədən hissələrini tapsınlar və sadalasınlar, onların təyinatını müzakirə etsinlər;
- Şagirdlərə məlum və ya naməlum bitkilərin/heyvanların illüstrasiyalarını/videomaterialı göstərir. Xahiş edir ki, onları xarici əlamətlərinə, yaxud da bədənin hissələrinə əsasən bir-biri ilə müqayisə etsinlər;

- Bitkilərin/heyvanların müxtəlifliyi mövzusu üzrə sinif sərgisini təşkil edir (məs., şagirdlərdən xahiş edir ki, gəzən/uçan/üzən heyvanların rəsmlərini, herbarilərini, aplikasiyalarını, fotoşəkillərini təqdim etsinlər; bir-birindən fərqli çiçəkləri olan bitkiləri təqdim etsinlər). Xahiş edir ki, canlı cisimlərin müxtəlifliyi barəsində nəticə çıxarsınlar;
- Şagirdlərdən xahiş edir ki, hər hansı bir bitkini və ya heyvanı seçsinlər (məs., öz ev heyvanlarını), onun barəsində əhvalat danışsınlar və onunla ünsiyyət haqqında öz təcrübələrini sinif yoldaşları ilə paylaşsınlar, insanlar üçün heyvanların və bitkilərin əhəmiyyəti barəsində nəticə çıxarsınlar;
- Şagirdlərə müxtəlif bitkini/onların hissələrini paylayır və xahiş edir ki, onları araşdırsınlar və göstərilən meyar əsasında bir-biri ilə müqayisə etsinlər (yarpaqlar – formanın əsasında, gövdələr – qalınlığın, hündürlüyün və bərkliyin əsasında, çiçək və meyvə - rəngin, formanın, ölçünün əsasında və s.);
- Heyvanlarla təhlükəsiz ünsiyyət qaydaları barəsində söhbət üçün qonağı dəvət edir (veterinarı, kinoloqu, heyvanların təlimçisini).

## İstiqamət: cisimlər və hadisələr

**TƏB.1.4. Şagirdlər tərkib əşyalarına/materialın xassələrinə əsasən cisimləri müqayisə edə bilirlər.**

**Nəticə əyanidir, əgər şagird:**

- Ətrafındakı cisimləri təsvir edir və onların tərkib əşyaları/material barəsində (məs., qayçı- dəmir, dəftər-kağız, pozan-rezin) söhbət aparır;
- Gündəlik həyatda yayılmış əşyaları/materialları tanıyır və adlandırır;
- Əşyaları/materialları asanlıqla müşahidə edilən xassələrin (məs., şəffaflıq, elastiklik, səthə qalxma bacarığı, suyadavamlılıq) əsasında xarakterizə edir;
- Eyni əşyalardan/materialdan hazırlanmış əşyaları qruplaşdırır..

**Məzmun**

Ətrafımızda mövcud cisimlər müxtəlif əşyalardan/materialdan (məs., kağız, metal, ağac, rezin, plastmas, şüşə) ibarətdir. Müxtəlif cisim eyni əşyadan/materialdan, amma eyni təyinatlı cisim (məs., qaşıq) – müxtəlif əşyalardan/materialdan hazırlana bilər. Əşyalar/materiallar bir-birindən müəyyən xassələri ilə fərqlənir: şəffaflıq, elastiklik, kövrəklik və s. Cismin xassələri nəinki onun formasından və ölçüsündən, eləcə də tərkib əşyalarının/materialın xassələrindən də asılıdır.

**Tövsiyə fəallıqları**

Müəllim:

- Şagirdlərə iki fərqli əşyanı göstərir və xahiş edir ki, onları bir-biri ilə müqayisə etsinlər; şagirdlərə yardım edir ki, əşyanın xassələri ilə bağlı sözlərdən istifadə etsinlər (məs., böyük, qırmızı, ağır, parlaq);
- Şagirdlərə müxtəlif əşyalardan/materialdan (məs., kağız, dəmir, şüşə, ağac, plastilin) hazırlanmış əşyaları paylayır və xahiş edir ki, onların xassələrini araşdırsınlar (məs., hamarlıq, şəffaflıq, elastiklik, suda batıb-batmaması, suyu keçirib-keçirməməsi);
- Şagirdlərə müxtəlif əşyalardan/materialdan hazırlanmış əşyaların dəstini paylayır və xahiş edir ki, eyni əşyalardan/materialdan hazırlanmış əşyaları qruplaşdırsınlar;
- Şagirdlər qruplarına eyni əşyaları paylayır (məs., qaşıqları, topları) və onlardan xahiş edir ki, plastilindən eyni əşyaların modellərini hazırlasınlar. Fəallığın sonunda şagirdlər hazırladıqları modeli və orijinalı bir-biri ilə müqayisə edirlər, müəllimin köməkliyi ilə aşkar etdikləri fərqləri müvafiq materialın xassələri ilə əlaqələndirirlər.

**TƏB.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır.**

**Nəticə əyanidir, əgər şagird:**

- Məktəb mühitində (məs., sinif otağı, məktəbin dəhlizi, məktəbin həyəti, idman zalı, tualet, bufet, həkimin kabineti, böyüklərі gözlədiyi yer) mövcud obyektləri tanıyır və sadalayır və onların təyinatı barəsində danışır;
- Müxtəlif səmtləşmə terminlərindən istifadə edir (məs., uzaqda, yaxında, məndən sağda, məndən yuxarı, aşağıda) və məktəbin ərazisində mövcud obyektlərin yerini özü ilə münasibətdə müəyyən edir;
- Məktəbin ərazisində səmtləşmək üçün sadə təlimatları yerinə yetirir və özü də təlimat verir, ən çoxu 1-2 istiqamətdə (məs., irəli və sağa);
- müşahidə əsasında məktəbin şəklini çəkir, xüsusi diqqətini çəkən xırdalıqlar barəsində söhbət aparır;
- Müəllimin yardımı ilə, sinif yoldaşları ilə birlikdə lokal  mühitdə (məs., sinifdə, məktəbdə, həyətdə, küçədə, evdə) davranış qaydalarını formalaşdırır və onlara əməl edir (məs., məktəbin təmizliyinə əməl edir).
- Küçədə hərəkət qaydalarını əks etdirən şərti işarələri tanıyır və izah edir, onlara əməl edilməsi zərurətini izah edir, təhlükəsiz hərəkət qaydalarına əməl edilməsi zərurəti barəsində danışır.

**Məzmun**

Məktəbdə mövcud hər bir obyektin (məs., sinif otağının, idman zalının, tualetin, bufetin, kitabxanın, təhlükəsizlik nərdivanının və ya çıxışın) fərqli təyinatı və yeri vardır. Səmtləşmək üçün istiqamət terminlərini (məs., uzaqda-yaxında, sağda-solda, yuxarıda-aşağıda) bilmək və düzgün istifadə etmək lazımdır. Məktəb mühitində müəyyən qaydalara əməl etmək lazımdır (məs., təmizliyə riayət etmək, səs-küydən uzaq olmaq). Küçədə piyadaların və maşınların təhlükəsiz hərəkətini təmin etmək üçün şərti işarələr hazırlanmışdır.

**Tövsiyə edilən fəallıqlar**

Müəllim:
- Dərsin başlanıldığı ilk günlərdə, məktəblə tanışlıq məqsədilə, məktəbin ərazisini və onun yaxınlığındakı ərazini gözdən keçirmək üçün şagirdləri həyətə çıxarır;
- Şagirdlərdən xahiş edir ki, sinif otağında gördükləri əşyaları adlandırsınlar və bu əşyaların təyinatı barəsində danışsınlar. Evdə olan əşyalarla müqayisə etsinlər, ev və məktəb arasında oxşarlığı tapsınlar. Müəllim çalışmalıdır ki, məktəb mühitini şagirdlər üçün maraqlı və doğma etsin;
- Şagirdlərə istiqamət terminlərinə əsasən (məs., gizlədilmiş əşyanı tapmaq üçün iki addım irəli, üç addım sola atın) məkanda yerdəyişmə tələb edən oyunları təklif edir;
- Şagirdlərə istiqamət terminlərini əhatə edən (məs., qələmi kitabın sağına qoy) konkret təlimatları verir;
- Şagirdlərdən xahiş edir ki, məkan istiqamətlərini əhatə edən tapşırıqları vərəqdə və ya kompüterdə yerinə yetirsinlər (məs., masanın altında top şəklini çək);
- Elə bir tapşırıqları təklif edir ki, bunları yerinə yetirdikdə şagirdin özü istiqamət terminlərindən ibarət sadə təlimat versin (məs., Qiorqiyə həkimin otağını necə tapmağı izah et; təsvir et, dəhlizdən sinif otağına necə keçək);
- Sinif otağında və ya məktəbin həyətində yol hərəkatı qaydaları mövzusu üzrə simulyativ oyunları təklif edir. Yaxşı olardı ki, yol simulyativ oyunları üçün işarələri şagirdlərin özləri hazırlasınlar.

**TƏB.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir.**

**Nəticə əyanidir, əgər şagird:**

- Gecə-gündüz ərzində müşahidə olunası dəyişiklikləri adlandırır;
- Gecə-gündüzün sahələrini fərqləndirir – səhər, gündüz, axşam, gecə və öz fəallığı/məşğulluğu ilə əlaqələndirir;
- İlin fəsillərini adlandırır və bir-biri ilə müqayisə edir, onları fərqləndirən işarələr barəsində müzakirələr aparır, onların hər biri üçün xarakterik hava barəsində danışır;
- Həftənin günlərini sadalayır, həftənin günlərini onlar üçün önəmli xüsusiyyətlərə əsasən fərqləndirir (məs., dərs günü – istirahət günü);
- İlin fəsillərinə əsasən insanın fəaliyyəti (məs., bitkilər əkmək, məhsul yetişdirmək, məhsul yığımı), heyvanların hərəkəti (məs., quşların uçub getməsi, qış yuxusu) və bitkilər üçün xarakterik dəyişikliklərin (məs., çiçəkləmə, yarpaq tökülməsi) misallarını sadalayır.
- İlin fəsillərinə əsasən paltarı çeşidlərə ayırır.

**Məzmun**

Gecə-gündüzün və ilin fəsillərinin əvəz edilməsi ritmik hadisələrdir. Gündüz-gecəyə və ilin fəsillərinə əsasən, hava, bitkilərin və heyvanların həyat tərzi və insan fəaliyyəti fərqli olur.

**Tövsiyə edilən fəallıqlar**

Müəllim:

- Şagirdlərdən xahiş edir ki, gecəni və gündüzü fərqli əlamətlərə əsasən təsvir etsinlər;
- Şagirdlərdən xahiş edir ki, öz müşahidələri əsasında gecə-gündüz ərzində heyvanların davranışını xarakterizə etsin (ev heyvanın, məs., tutuquşunun, itin, pişiyin davranışı üzrə müşahidə nəticələrinin və ya videofilmin əsasında) və fikirlərini bildirsinlər ki, onların müşahidə obyekti nə üçün belə və ya elə hərəkət edir;
- Şagirdlərə ilin fəsillərini əks etdirən şəkilləri göstərir. Xahiş edir ki, onların fərqli əlamətləri barəsində müzakirə etsinlər və tapsınlar, onlar üçün sevimli ilin fəslini adlandırsınlar;
- Şagirdə təklif edir ki, qutuya tökülmüş rəngli vərəqlərdən hər hansı bir vərəqi çıxarsın və ilin fəsli ilə əlaqələndirsinlər. İzah edir ki, nə üçün bu rəngi adlandırılan fəsillə əlaqələndirmişdir;
- şagirdlərə oyun təklif edir: şagirdin kartına yazılmış ilin fəslini səssiz, mimika və jestlərlə canlandırmalı, sinif yoldaşları isə tapmalıdırlar ki, kartda ilin hansı fəsli yazılmışdır;
- Bir neçə şagirddən xahiş edir ki, sinif yoldaşlarına öz ad günləri barəsində danışsınlar. Müəllim suallarla söhbətə istiqamət verir: sənin ad günündə hava əsasən necə olur? Sən və yoldaşların necə geyinirlər? Qar/yağış olmuşdurmu? Ağaclar çiçək açmışdırlarmı və ya yox və s. Bu suallara cavab aldıqdan sonra sinif tapmalıdır ki, onun ad günü ilin hansı fəslindədir.

# 6. MİLLİ TƏDRİS PLANI İLƏ MÜVAFİQLİK

| Dərslərin və mövzuların adları | Dərs vaxtının müddəti | STANDARTIN ISTIQAMƏTLƏRI VƏ NƏTICƏLƏRI | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | BITKI ARAŞDIRMASI-AXTARIŞI | CANLI ALƏM | | CISIMLƏR VƏ HADISƏLƏR | YER KÜRƏSI VƏ ƏTRAF ALƏM | |
| | | 1. Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. | 2. Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir. | 3. Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. | 4. Təb.1.4. Şagirdlər tərkib əşyalarına/materialın xassələrinə əsasən cisimləri müqayisə edə bilir. | 5. Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır. | 6. Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir. |
| 1. Mən və təbiət | | | | | | | |
| 2. Bədən hissələri | | | | | | | |
| 3. Məktəbə səyahət | | | | | | | |
| 4. Məktəbdən kənar səyahət | | | | | | | |
| 5. Evdən məktəbə qədər yol | | | | | | | |
| 6. Yol hərəkatı qaydaları | | | | | | | |
| 7. Yol nişanları və nəqliyyat | | | | | | | |
| 8. Hansı nəqliyyatla səyahət edək? | | | | | | | |
| 9. Təbii və süni | | | | | | | |
| 10. Canlı və cansız | | | | | | | |
| 11. Ətrafımızda | | | | | | | |
| 12. Təbiətin keşiyində | | | | | | | |
| 13. Yaşayış mühiti | | | | | | | |
| 14. Nə nədən hazırlanır? | | | | | | | |

| | | 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|---|---|
| 15. Ailə harada yaşayır? | | | | | | | |
| 16. Mebel və şəxsi əşyalar | | | | | | | |
| 17. Payız | | | | | | | |
| 18. Payızın rəngləri | | | | | | | |
| 19. Məhsul yığımı | | | | | | | |
| 20. Biz meyvəni sevirik | | | | | | | |
| 21. Meyvədir və ya tərəvəz? | | | | | | | |
| 22. Tərəvəz – faydalı qida | | | | | | | |
| 23. Qida məhsulları | | | | | | | |
| 24. İçki | | | | | | | |
| 25. Nə geyinirik? | | | | | | | |
| 26. Qış | | | | | | | |
| 27. Yeni il də gəldi | | | | | | | |
| 28. Təhlükəli əşyalar | | | | | | | |
| 29. Əşyaları necə tapırıq? | | | | | | | |
| 30. Qoxu və dad | | | | | | | |
| 31. Hissiyyat orqanları | | | | | | | |
| 32. Həkim və dərmanlar | | | | | | | |
| 33. Sağlam olmaq istəyirsənmi? | | | | | | | |
| 34. Hamımız birlikdə idman edək | | | | | | | |
| 35. Yazın gəlişi | | | | | | | |
| 36. Gecə və gündüz | | | | | | | |

| | | 1 | 2 | 3 | 4 | 5 | 6 |
|---|---|---|---|---|---|---|---|
| 37. Həyətimizdə yaz | | | | | | | |
| 38. Bitkilər aləmi | | | | | | | |
| 39. Çəmənliyi nə bəzəyir? | | | | | | | |
| 40. Otaq bitkiləri | | | | | | | |
| 41. Bizim meşə | | | | | | | |
| 42. Meşə sakinləri | | | | | | | |
| 43. Bizim dördayaqlı “dostlarımız” | | | | | | | |
| 44. Ev quşları | | | | | | | |
| 45. Bəziləri gəzir, bəziləri sürünür | | | | | | | |
| 46. Su sakinləri | | | | | | | |
| 47. Quşların səsləri | | | | | | | |
| 48. Kiçik altıayaqlı heyvanlar | | | | | | | |
| 49. Zooparkda | | | | | | | |
| 50. Teleskop, mikroskop | | | | | | | |
| 51. Səma cisimləri | | | | | | | |
| 52. Kosmosa səyahət | | | | | | | |
| 53. Günəş “sönərsə”, nə baş verər? | | | | | | | |
| 54. Yay da gəldi | | | | | | | |
| 55. Kəndimiz | | | | | | | |
| 56. Sinif “meşəsinə” ekskursiya | | | | | | | |
| 57. Təbiətdə davranış qaydaları | | | | | | | |
| 58. Mənim vətənim | | | | | | | |

# 7 ● DƏRSLİKDƏN İSTİFADƏ QAYDASI

Dərs prosesi başlayana qədər müəllim şagirdin kitabında verilən təbiətşünaslığın tədris konsepsiyası və özünəməxsusluqları ilə bütövlükdə tanış olmalıdır.

Birinci sinif şagirdlərinin böyük əksəriyyəti hələ oxumağı bacarmır və ya çox çətinlik çəkir, buna görə də təbii ki, şagirdin dərsliyində heç bir mətn yoxdur; onlar üçün tapşırıq elə tərtib edilmişdir ki, onlar, əsasən, təcrübə almaqla öyrənirlər, yəni – birbaşa müşahidə, sınaq, tədqiqat, təmas, şəkil çəkmək, rəngləmək, materialın üzərində işləməklə öyrənirlər, əqli əməliyyatlarda və didaktik oyunlarda aktiv iştirak etməklə, müzakirə ilə və onlar üçün yeni bilik”kəşf etməklə”. Şagirdin dərsliyində mətn olmadığına görə, müəllimin kitabında hər bir dərs xırdalıqlarla təsvir edilmişdir. Müəllim həftənin mövzusu ilə tanış olur, sonra da dərs mövzusunun başlığı, məqsədləri, lazımi material, uşaqlar üçün yad olan sözlərin və dərsin gedişi ilə tanış olur. Sonda verilən əlavə (alternativ) fəallığı müəllim öz nəzərinə əsasən istifadə edə bilər (və ya ümumiyyətlə istifadə etməyə bilər).

Müəllimin kitabında dərslərin nömrələnməsi və təsviri şagirdin dərsliyində verilən məsələlərin (mövzuların) ardıcıllığına dəqiq uyğundur və bu da müəllimin dərsləri planlaşdırmasını asanlaşdırır. Dərsin gedişinin (fəallıqların) təsvirində ayrılmış 3-6 əsas fəallığa başlıq verilmiş və vaxt parçası ilə işarə edilmişdir. İşarə edilmiş dəqiqələr istiqamət üçündür və icbari deyil. Dərs vaxtına qənaət edildiyi halda, müəllim təklif edilən əlavə fəallıqdan da istifadə edə bilər. Amma hər bir halda, yaxşı olardı ki, müəllim tələsməsin və uşaqlara sakit işləmək imkanını versin.

Sinifdə şagirdlərin sayını və onların imkanlarını nəzərə almaqla, müəllim təklif edilən fəallıqlardan, onun fikrincə, əldə edilən nəticələrə tərəf aparan ən yaxşı fəallıqları seçə bilər. Şagirdlərə ev tapşırıqları verilmir. Müəllim dərsi elə planlaşdırmalıdır ki, təlim-tədris prosesi dərs vaxtına yerləşə bilsin. Dərslərin hamısı qısa yekunlarla və ümumiləşdirmə ilə başa çatdırılmalıdır, b.a. refleksiya baş verməlidir. Yekunlaşdırdıqda, yaxşı olardı ki, ötən və növbəti dərslərlə əlaqələr qeyd edilsin.

Şagirdin dəftərində yerinə yetirilmiş işlərin bir hissəsi, yaxşı olardı ki, divarlara yapışdırılsın və ya divar boyu asılmış kəndirə bərkidilsin və il boyunca belə qalsın. Uşaqlar öz əl işlərinin sərgisini çox bəyənirlər, lazım gəldiyində onlardan istifadə etmək də asan olur.

Beləliklə, müəllimin kitabı ilə müəllimlərə təbiətşünaslığın bizim dərsliyimizlə (Təbiət 1) tədrisi metodikasını təklif edirik, amma müəllimi bununla məhdudlaşdırmırıq. Təcrübələrinə və şərtlərə əsasən, onlar əlavə olaraq özləri də tədris üsullarını və fəallıqları seçə bilərlər, çünki bu halda bunları daha effektli hesab edirlər və onların fikrincə, hər bir dərsin məqsədlərini həyata keçirməkdə və standartla nəzərdə tutulmuş nəticələrin əldə edilməsində daha yaxşı dəstək verirlər.

# 8. VƏRDİŞ-BACARIQLARIN İNKİŞAFI

Dərs prosesinin ən önəmli komponentlərindən biri şagirdlərin b.a. həyat vərdiş-bacarıqlarının inkişaf etdirilməsidir. Dərsliyin məzmununu və strukturunu elə tərtib etməyə çalışdıq ki, tənqidi təfəkkür və təbiətşünaslıq fənni üçün xas olan vərdiş-bacarıqlarının inkişafında şagirdlərə yardım edə bilək. Bu vərdiş-bacarıqlar anlayışında nəyi nəzərdə tutduğumuzun müəllimlər üçün aydın olması üçün onlardan hər birini qısaca xarakterizə edirik.

### Tənqidi təfəkkür vərdiş-bacarıqları

Tənqidi təfəkkür bacarığı səbəb-nəticə anlayışları ilə fikri nəzərdə tutur ki, bu da qərarın qəbul edilməsinə yönəlmişdir – insan nəyə inanmalı və ya necə hərəkət etməlidir.

"Tənqidi təfəkkür düşüncənin mürəkkəb prosesindən ibarətdir və bu da məlumatın qavranılması ilə başlayır və qərarın qəbul edilməsi ilə başa çatır. Tənqidi təfəkkür anlayışların dərk edilməsini və onların gizli mahiyyətini araşdırmağı, nəzakət çərçivəsində onlara olan şübhəli yanaşmanı, onların fərqli nöqteyi-nəzərlə qarşılaşmasını, onların doğruluğunu əsaslandırmaq üçün inandırıcı və etibarlı sistemlərin təqdim edilməsini və bu strukturlara istinad edərək müəyyən nöqteyi-nəzərin işlənib hazırlanmasını nəzərdə tutur. Tənqidi təfəkkür mürəkkəb bir prosesdir. Bir çox hallarda, hesab edilir ki, bu prosesə yalnız böyük yaşlı şagirdlər qoşulmalıdırlar. Bu, belə deyil. Uşaqlar da, öz inkişaf səviyyələrinə uyğun olaraq, bu mürəkkəb prosesə çox yaxşı cəlb oluna bilərlər. Onlar böyük həvəslə mürəkkəb problemlərin həllində iştirak edirlər və mühüm qərarlar qəbul edirlər" (C. Stil, K. Meredit, C. Temfli "Tənqidi təfəkkür üçün anlayışlar cizgisi",I dərslik).

Dərslikdə verilən çalışmalar və tapşırıqlar şagirdlərin qarşısında problemlər qaldırır, onlar üzrə müzakirələri, qərarın yollarının axtarışını təklif edirlər. Müəllim şagirdləri həvəsləndirməlidir ki, onlar tənqidi və yaradıcılıqla düşünsünlər, alınan məlumat biliyini sınasınlar, faktları analiz etsinlər və öz təsəvvürlərini ölçüb-biçsinlər. Tənqidi təfəkkür vərdiş-bacarıqları arasında qeyd etmək lazımdır: anlayışı, istifadəni, analizi, sintezi və qiymətləndirməni.

### Təbiətşünaslıq üçün xarakterik olan vərdiş-bacarıqlar

Bu vərdiş-bacarıqların inkişafı elmi tədqiqatın təməlinin qoyulmasına və biliyə sahib olmağa, o cümlədən şagirdlərin qarşısında baş qaldıran problemlərin həllinə və alınan biliyin yeni vəziyyətdə istifadəsinə dəstək verir.

### Müşahidə

Müşahidə bacarığı təbiətşünaslığın öyrənilməsinin təməli bacarığıdır və bütün digər özünəməxsus vərdiş-bacarıqların əsasını təqdim edir. İnsan məhz müşahidə nəticəsində ətraf mühitdə mövcud əşyalar və hadisələr barəsində əsas məlumatı toplayır. Müşahidə diqqəti, fikri, dinləməni, təması, müqayisəni, hərəkəti… və insanın nəyi müşahidə etdiyini təsvir edə bilməsini nəzərdə tutur.

### Təsnifatlandırma

Təsnifatlandırma bacarığı da çox mühüm bacarıqdır və onu ibtidai sinifdən inkişaf etdirmək lazımdır. Şagirdlər əşyaları və hadisələri əsas xüsusiyyətlərə əsasən qruplaşdırırlar; əvvəlcə - bir neçə asanlıqla müşahidə edilən əlamətə əsasən, sonra isə bir neçə əsas əlamətinə əsasən.

### Kommunikasiya

Bu bacarıq olmadan müşahidə və ya hərəkət (sınaq) nəticəsini başqaları ilə paylaşmaq mümkün olmaz. Buna görə də o, həm tədqiqat zamanı, eləcə də gündəlik həyatda eyni şəkildə vacibdir. Kommunikasiya zamanı şagird təsvir edir, izah edir, göstərir, yazır, şifahi ötürür, aydın şəkildə danışır.

### Ölçmə

Ölçmə qabiliyyəti olmadan tədqiqat-axtarış mümkün olmaz. Ölçü zamanı şagird müqayisəvi və miqdar xüsusiyyətlərini toplayır. İbtidai siniflərdə şagirdlərə uzunluq, çəki, temperatur və vaxt ölçü vahidlərini bilmək və onlardan istifadə etmək lazımdır (birinci sinifdə hələ tələb edilmir).

### Müqayisə-qarşılaşdırma

Müqayisə və qarşılaşdırma bacarığı əşyalar və hadisələr arasında oxşar və fərqli xüsusiyyətləri görməyi və təyin etməyi nəzərdə tutur. Bu bacarığın inkişafı biliyin sistemə salınmasına və tənqidi düşüncəyə dəstək verir.

### Nəticənin çıxarılması

Nəticənin çıxarılması bacarığı artıq təhlil edilən bacarıqların inkişafına dəstək verir; nəticənin çıxarılması əldə edilən göstəricilərin, müşahidə və ya sınaq nəticələrinin analizindən və məlumatın sintezləşdirilməsinə sonra baş verir.

### Proqnozlaşdırma

Proqnozlaşdırma üçün şagird onun tərəfindən artıq öyrənilən və üzərində işlənilən məlumatdan istifadə edir ki, bu istiqamətdə gələcəkdə nəyin baş verə biləcəyini ehtimal edə bilsin, yəni alınan biliyin və təcrübənin əsasında şagird gözlənilən nəticələri qabaqcadan görə bilməlidir.

## DƏRS 1

| | |
|---|---|
| **Mövzu:** | Mən və mənim bədənim |
| **Dərsin adı:** | Mən və təbiət |
| **Dərsin məqsədi:** | Şagirdlər illüstrasiyaya əsasən cisimləri və hadisələri tapmalı, təsvir etməli və çeşidlərə ayıra bilməlidirlər;<br>Şəxsi fikirləri və müşahidə nəticəsində suallara cavab verməli, ehtimallarını söyləməlidirlər;<br>Göstəriciləri cədvəl vasitəsilə qeydə almalı-təşkil etməlidirlər;<br>Suallara cavab vermək üçün lazımi göstəriciləri toplamalı/yazmalıdırlar;<br>İlin fəsli (yay) haqqında və ona xas hava haqqında söhbət aparmalıdırlar;<br>Şəxsi fikirlərinə istinad edərək, suallara cavab verməlidirlər;<br>Müxtəlif kommunikasiya formasından istifadə etməlidirlər. |
| **MTP standartının nəticələri ilə əlaqə indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə);<br>şəxsi fikirlərinin və ya tədqiqat nəticələrinin təqdimatında kommunikasiyanın müxtəlif formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir. |
| **Lazımi material:** | A4 vərəqləri, rəngli karandaşlar, təbaşir. |

**1. Fənnin nəyi bildirdiyi və təyinatı barəsində söhbət** (2-3 dəq.)

Müəllim birinci təbiətşünaslıq dərsini söhbətlə başlayır. O, dərsliyi göstərir və diqqəti onun xarici üz cildinə yönəldir. Dərsliyin adı və təyinatı haqqında danışır ki, bu fənn necə öyrənilir (açıq səma altında dərslər, sınaqların keçirilməsi, təbiət hadisələrini müşahidə etmək, söhbətlər və s.)

**2. Dərsliklə tanışlıq** (4-5 dəq.)

Müəllim şagirdlərdən xahiş edir ki, dərsliyi açsınlar və onu gözdən keçirsinlər. Yaxşı olardı ki, kitabı gözdən keçirməklə alınan təəssüratlar barəsində, onlar üçün maraqlı olan mövzular üzrə söhbət aparılsın. Daha çox cəlb olunma və kommunikasiya məqsədilə, sual-cavab da keçirilə bilər ki, burada müəllimin şagirdlərin ötən bilikləri, maraqları, ətraf mühitə olan yanaşmaları və s. haqqında təsəvvürü yaranacaqdır.

**3. Sxemin təşkil edilməsi** (8-15 dəq.)

Müəllim şagirdlərdən xahiş edir ki, yayı harada və necə keçirdiklərini yada salsınlar. Bu fəallığı müəllim istəyinə əsasən apara bilər: könüllülər 2-3 cümlə ilə yay təəssüratları barəsində danışa bilərlər və ya şagirdlər yayın bir gününün şəklini çəkə bilərlər.

Paralel olaraq, müəllim lövhəni 2 hissəyə bölür və şagirdlər hələ oxuya bilmədikləri üçün solda simvolik dəniz şəklini çəkir, sağda isə - dağ şəklini. Sonra hər bir şagirddən xahiş edir ki, lövhəyə yaxınlaşsın

və yayı harada keçirdikləri tərəfə “+” işarəsini qoysunlar. Yaxşı olardı ki, onlar tərəfindən yerinə yetirilən şəkillər divara yapışdırılsın. Sonda, sxemdə hər bir şagirdin məlumatı qruplaşacaqdır.




Qruplaşdırdıqdan sonra sual-cavab keçirilir. Şagirdlər hansı sütuna düşdükləri mühiti təsvir edirlər. Əlbəttə ki, bunda onlara hava, temperatur, mühit, təbiət və s. haqqında müvafiq suallar verməklə müəllim yardım edəcəkdir.

**4. Dərslik üzərində iş** (5-8 dəq.)

Müəllim şagirdlərdən xahiş edir ki, dərsliyin birinci dərsini açsınlar, şəkilləri diqqətlə müşahidə etsinlər və təsvir etsinlər (dəniz, meşə, dağ, yürüşçülər...)

Sonda isə müəllim sual verir:

– Sizin fikrinizcə, onları birləşdirən nədir?

– Dağı, meşəni, çayı, çəməni birlikdə necə adlandırardın?

Şagirdlər çoxlu fikir söyləyə bilərlər, müəllim onlara suallar verməklə fikirlərini ifadə etməkdə yardım edir.

**5. Dərsin yekunlaşdırılması** (3-5 dəq.)

Müəllim şagirdlərin söhbətini bir daha yekunlaşdırır və sual verir:

– Necə düşünürsünüz, təbiətşünaslıq nəyi öyrənir?

(ehtimal: təbiəti, ətraf mühiti...)

Müəllim diqqətlə hər hansı bir cavabı dinləyir və diqqəti düzgün cavablara yönəldir (şagirdin söylədiyini təkrar edir, onu tərifləyir və s.)

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=HKndoaBDN0w

## DƏRS 2

| | |
|---|---|
| **Mövzu:** | Mən və mənim bədənim |
| **Dərsin başlığı:** | Bədən üzvləri |
| **Dərsin məqsədi:** | Şagirdlər insanın (özlərinin) bədəninin xarici hissələrini tanımalı və adlandırmalıdırlar; |
| | Solu-sağı tanımaqda çalışmalıdırlar; |
| | Şagirdlər arasında müşahidə, sintezləşdirmə və sosial bacarıqların inkişafına dəstək verilməlidir; |
| | Şagirdlər öyrəndikləri obyekti müşahidə edə bilməlidirlər; |
| | Praktiki fəallıqlarda iştirak etməlidirlər; |
| | İllüstrasiyada və həqiqətdə cisimləri tanımalı, təsvir etməli və təsnif etməlidirlər; |
| | Suala cavab vermək üçün şəxsi fikirlərinə və müşahidə nəticələrinə əsaslanmalıdırlar; |
| | Xarici əlamətlərə əsasən özünü və sinif yoldaşını təsvir etməlidirlər; |

| | |
|---|---|
| | Parçalardan insanın bütöv bədən modelini quraşdırmalıdırlar. |
| **Yeni sözlər:** | qaş, çiyin, alın, kipriklər. |
| **MTP standartının nəticələri ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;<br>təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir;<br>cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>suallara cavab vermək üçün lazımi göstəriciləri toplayır və yazır (şəkillərin, şərti işarələrin vasitəsilə);<br>özünü, sinif yoldaşlarını, başqa insanları əyani xarici əlamətlərə əsasən təsvir edir (məs., hündürlük, saçın rəngi, gözün rəngi, çillər);<br>parçalardan bitkilərin, heyvanların və insanın bütöv bədəninin modelini quraşdırır. |
| **Lazımi material:** | qayçı, yapışqan, iki qırmızı və yaşıl lent (yaxud da başqa kiçik əşya). |

**Dərsin gedişi:**

**1. Oyun – “Oxşar və fərqli”** (3-6 dəq.)

Müəllim uşaqlardan xahiş edir ki, göstərilən yerə çıxsınlar və imkan daxilində, hündürlüyə əsasən (hündürdən qısaboyluya tərəf) düzülsünlər. Onlardan hər biri öz yerini tapmalı və durmalıdır.

Müəllim, lazım gəldiyində, özü şagirdləri gözün, saçın və ya başqa əlamətlərin əsasında düzə bilər. Fəallıq başa çatdıqda müəllim şagirdlərdən xahiş edir ki, öz yerlərinə qayıtsınlar, lövhənin yanında isə iki şagirdi saxlayır, birincini və sonuncunu.

Uşaqlardan xahiş edir ki, onları bir-biri ilə müqayisə etsinlər, oxşarlıq-fərq əsasında (Ehtimal ki, oxşarlıq belədir: iki əl, iki göz, iki qulaq). İşi yekunlaşdırdıqda müəllimlə birlikdə (sualların vasitəsilə) şagirdlər nəticə çıxarırlar ki, şagirdlər bir-birindən boylarına, saçlarının rəngi və ya gözlərinin rəngi ilə və s. seçilirlər.

Sonra müəllim sual verir: baxın, kim insanın bədən hissələrini, yəni hər kəsdə olan hissələri adlandırıb göstərə bilər?

Şagirdlər əlləri, ayaqları, başı, barmaqları və s. adlandırır və göstərirlər. Heç kimin yadına düşmədiyi halda, müəllimin özü sual verir ki, alın, dodaqlar, qaşlar, kirpikləri harada yerləşir.

**2. “Sol-sağ” oyunu** (3-5 dəq.)

Müəllim:

– İnsanın neçə ayağı var? Neçə əli?

– Bədənin daha hansı hissəsi cüt olur?

– Əllərimi bir-birindən necə fərqləndirə bilərəm (bu hansı əldir)? Necə deyirik? (sol əl və ya sağ əl).

Müəllim uşaqlardan xahiş edir ki, ayağa dursunlar; özü də onların arasında durur. Hamı bir tərəfə baxır. Müəllim göstərir ki, hansı onun sağ və hansı onun sol əlidir. Sonra sol əlini qaldırır və hər kəsdən xahiş edir ki, sol əllərini qaldırsınlar, sonra da sağ əlini qaldırır.

Müəllim sol əlində qırmızı rəngli lenti tutur (yaxud da başqa əşyanı), sağ əlində yaşıl lenti. Eyni zamanda uşaqlarla razılaşdırır: qırmızını qaldırmaq sol əli qaldırmağı, yaşılı qaldırmaq isə sağ əli qaldırmağı bildirir. Bir neçə dəfə oynayırlar. Sonra müəllim üzünü şagirdlərə tərəf döndərir və hərəkətlərini təkrarlayır. Uşaqlar rəngə diqqət verməli və hərəkətləri düzgün yerinə yetirməlidirlər.

**3. Bədən üzvləri üzrə oyunun davamı** (2-3 dəq.)

Müəllim bədən üzvlərini sıra ilə adlandırır (təkrar adlandıra bilər) və fasilələr edir: sağ qulaq, sol ayaq, sol əl, sağ yanaq, sol tərəf....

Şagirdlər müəllimin adlandırdığı yerə əllərini qoyurlar. Uşaqlar bir-birinə baxır və nəzarət edirlər ki, tapşırığı düzgün yerinə yetirirlər və ya yox. Müəllim şagirdlərin hamısına diqqət verir və nəzarət edir.

**4. Dərslik üzərində iş** (3-4 dəq.)

Müəllim uşaqlardan xahiş edir ki, müvafiq dərsdə kitabı açsınlar və kitabda verilən şəkilləri növbəti sözlərdən istifadə etməklə təsvir etsinlər: yuxarı – aşağı, sarışın – əsmər, qaragözlü – mavigözlü, böyük-kiçik, uzun – qısa.

Növbəti çalışmada onlar aşağı şəkillərdə sağda və solda yerləşən əşyaları adlandırsınlar.

**5. Çalışma dəftərində iş – "Kitabın qəhrəmanları ilə tanış olaq"** (10-15 dəq.)

Qruplarda iş:

Şagirdlər parta arxasında kiçik qruplarda otururlar, çalışma dəftərinin müvafiq səhifəsini götürürlər və qırıq xətlə kəsirlər. Sonra onlar verilən parçaları kəsməlidirlər (qızın və oğlanın bədən hissələri) və vərəqin yuxarı hissəsində yalnız konturlar verilmiş fiqurları yapışdırmalıdırlar. (Qrup dərsliyin bir vərəqində işləyə bilər və ya bir neçə vərəqdən istifadə edə bilər).

Müəllimin sualları:

– Hansı (təsviri) aldınız?

– Necə düşünürsünüz, bu uşaqlar neçə yaşındadırlar?

Sonra müəllim uşaqlara bildirir ki, bu qəhrəmanlar onların həmyaşıdlarıdır və ya onlarla hələ çoxlu görüşləri olacaqdır.

**6. Dərsin yekunlaşdırılması** (1-2 dəq.)

Müəllim uşaqlara xatırladır ki, bu dərsdə nəyi öyrəndilər, onlar üçün maraqlı olan nə idi, nəyi yadda saxladılar, nəyi bəyəndilər? Kitab qəhrəmanları ilə yenə də görüşmək istərdilərmi?

**Tövsiyə:**

Bu dərslərdə verilən fəallıqları müəllim öz nəzərinə əsasən istifadə edə bilər (bütün fəallıqların istifadəsi vacib deyil), sinfin əhval-ruhiyyəsi və imkanlarını nəzərə almaqla.

Sinifdə məhdud imkanlı şagirdin olduğu halda, müəllim ona yaxınlaşır və bədən hissələrini göstərməkdə və adlandırmaqda yardım edir.

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=pgVfLhsoykU

## DƏRS 3

| | |
|---|---|
| **Mövzu:** | Mənim məktəbim |
| **Dərsin başlığı:** | Məktəbə səyahət |
| **Dərsin məqsədi:** | Şagirdlər lokal mühitdə səmtləşə bilməli, təsvir etməli və məqsədyönlü şəkildə yerdəyişməyi bacarmalıdırlar; |
| | Dərs mühitində mövcud obyektləri tapa bilməli, onları sadalamalı və təyinatı barəsində söhbət edə bilməlidirlər; |
| | Şagird sadə təlimatları yerinə yetirməyi bacarmalı və özü də təlimat verməlidir, ən çoxu 1-2 istiqamətdə; |
| | Məktəbdə davranış qaydalarının zərurətini dərk etməlidir; |
| | Məktəb avadanlıqları, şəxsi və ya sinif yoldaşlarının əşyaları haqqında qayğıkeş münasibət formalaşmalıdır. |

| | |
|---|---|
| **MTP standartının nəticələri ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |
| | Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır. |
| **Nəticə əyanidir, əgər şagird:** | öyrənilən cisim/hadisə haqqında sadə sualları verir; |
| | özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir; |
| | məktəb mühitində (məs., sinif otağı, məktəbin dəhlizi, məktəbin həyəti, idman zalı, tualet, bufet, həkimin kabineti, böyükləri gözlədiyi yer) mövcud obyektləri tanıyır və sadalayır və onların təyinatı barəsində danışır; |
| | müxtəlif səmtləşmə terminlərindən istifadə edir (məs., uzaqda, yaxında, məndən sağda, məndən yuxarı, aşağıda) və məktəbin ərazisində mövcud obyektlərin yerini özü ilə münasibətdə müəyyən edir; |
| | Məktəbin ərazisində səmtləşmək üçün sadə təlimatları yerinə yetirir və özü də təlimat verir, ən çoxu 1-2 istiqamətdə (məs., irəli və sağa); |
| | müəllimin yardımı ilə, sinif yoldaşları ilə birlikdə lokal mühitdə (məs., sinifdə, məktəbdə, həyətdə, küçədə, evdə) davranış qaydalarını formalaşdırır və onlara əməl edir (məs., məktəbin təmizliyinə əməl edir). |
| **Lazımi material:** | rəngli karandaşlar və ya flomasterlər. |

**1. Məktəbin daxili ərazisi ilə tanışlıq** (8-10 dəq.)

Müəllim şagirdlərə bu dərsin məqsədini xatırladır – onlar məktəbin binasını nəzərdən keçirməli və görməlidirlər ki, onların sinif otaqlarından kənarda "nə baş verir". Bunun üçün şagirdlərdən xahiş edir ki, bir-birlərindən geri qalmasınlar (yaxşı olardı ki, bu ekskursiya zamanı müəllimə hər hansı bir valideyn və ya həmkarı yardım etsin).

Bu marşrut şərtidir və bu ardıcıllığa riayət etmək vacib deyil.

a) İlk növbədə, qonşu sinfə baş çəkirlər. Müəllim izah edir ki, burada onların qonşuluğunda bu və ya digər sinif oxuyur, hal-hazırda öz sinif otaqlarında məşğul olurlar. "Yaxın" terminindən istifadə etmək olar.

b) Bufetə baş çəkəndə müəllim izah etməlidir ki, hansı vaxt bura gəlmək olar, növbəyə necə riayət etməlidirlər. təmizliyə və s., müəllim şagirdləri bufetdə işləyən insanlarla, aşpazlarla tanış edir. Terminlərdən istifadə edir: otağımızın sağında, solunda.

c) Tualet, bir qayda olaraq, ayrı-ayrıdır – qızlar və oğlanlar üçün. Uşaqlar yadda saxlamalıdırlar ki,

Onları bir-birindən necə ayıra bilməlidirlər (lövhəsi ilə, yazısı ilə və ya başqa əlaməti ilə);

Müəllim tualetdən istifadə edildiyi halda, vacib olan gigiyena tələblərini şagirdlərə xatırladır.

d) Həkim kabinetinin yerini hər kəs yaxşı yadda saxlamalıdır ki, lazım gəldiyi halda, ona dərhal müraciət etsinlər. Müəllim şagirdləri həkimlə tanış edir (şəfqət bacısı ilə).

Burada yaxşı olardı ki, o da bir-iki cümlə ilə uşaqlarla söhbət etsin. Burada növbəti terminlər gərəyiniz ola bilər: yuxarı, aşağı.

e) Direktorun otağına da girmək yaxşı olardı, əgər direktor həmin zaman məşğul deyilsə (müəllim əvvəlcədən onunla görüşü razılaşdırır), uşaqları onun otağına aparır və o da qısa müddət onlarla söhbət edir.

Kitabxanaya, idman zalına baş çəkmək yaxşı olardı ki, uşaqlar onların yerini yadda saxlaya bilsinlər. Müəllim eləcə də uşaqlara tənəffüs zamanı təhlükəsiz hərəkət qaydalarını izah etməlidir.

**2. Oyun – Qaydalar bizə lazımdır və ya yox?** (3-5 dəq.)

Müəllim sinfə qayıdan şagirdlərlə qaydalar haqqında əvvəlcə söhbət aparmadan belə bir oyun təklif edir: hamı dövrə arxasında durur. Dövrə sıx olmalıdır. Şagirdlər əllərini irəli uzatmalı və bir-birindən tutmalıdırlar – kim necə bacararsa, hər növ qayda xaricində. Sonra əllərini buraxmadan çevrilməlidirlər.

Şagirdlər bu tapşırığı (çevrilməni) yerinə yetirə bilməyəcəklər və bir-birinə qarışacaqlar, çaşıb səs-küy salacaqlar.

İndi müəllim şagirdlərə oyunun belə bir qaydasını təklif edir:

Hər bir irəliyə uzadılmış sağ əllərini sol əlin üzərinə qoymalı və yoldaşının əlindən tutmalıdır (sağ və sol əlləri çarpazlaşdırmaq). Bu qaydaya əməl edildiyi halda, dairədə duran hər bir uşaq elə çevrilə biləcək ki, yoldaşının əlini buraxmasın və nə də ki dövrə pozulmasın (bu halda, uşaqlar bir-birinin əlini tutaraq, kürəkləri ilə bir-birinə yaxın duracaqlar). Oyun bir dəfə təkrar olunmalıdır. Bu qaydanı pozanlar çevrilə bilməyəcəklər və ya əllərini buraxanlar oyundan çıxacaqlar.

**3.Sinifdə davranış qaydalarının işlənib hazırlanması** (5-7 dəq.)

Oyundan sonra müəllim uşaqlara izah edir ki, qaydalara əməl etməklə yaxşı nəticələrə tərəf gedirik, qaydalara əməl etmədikdə isə - qarışıqlıq yaranır. Məktəbdə (və sinifdə) olan zaman məktəbdə davranış qaydalarına əməl etmək lazımdır ki, yaxşı oxuyaq və nailiyyət əldə edək. Gəlin, bu qaydaları birlikdə fikirləşək, yadda saxlayaq və sonra əməl edək. Müəllim cümləni başlayır, uşaqlar isə başa çatdırırlar. Məsələn:

I. Müəllim – biri danışanda, başqaları….

Şagirdlər – başqaları dinləyirlər.

II. Müəllim- nəyi isə demək istədiyində….

Şagirdlər - əlimizi qaldırmalıyıq.

III. Müəllim – sinfə daxil olduğumuzda….

Şagirdlər – gülümsəyirik və bir-birimizə salam veririk;

IV. Müəllim – xəbər almadan dostunun əşyasını …….

Şagirdlər – götürmək olmaz.

V. Müəllim – yoldaşımız çətinlik çəkdiyində ….

Şagirdlər – ona yardım etməliyik.

(digər sadə qaydaları da fikirləşmək olar: “yoldaşı incitmək olmaz”; müəllimin tapşırıqlarını yerinə yetirməliyəm”, “özümüzün və başqalarının əşyalarını qorumalıyıq”… )

Hər bir qaydanı formalaşdırdıqdan sonra yaxşı olardı ki, müəllim soruşsun ki, onların fikrincə, bu qaydalara əməl etmək vacibdirmi və ya yox? Hər kəs bu qaydanı pozduğu halda, nə baş verə bilər?

**4. Dərslik üzərində iş** (5 dəq.)

Müəllim şagirdlərdən xahiş edir ki, sinif otağında gördükləri əşyaları adlandırsınlar və bu əşyaların təyinatı barəsində danışa bilərlərmi. Sonra bu əşyaları evdəki əşyalarla müqayisə etsinlər və, evdə və məktəbdə olan əşyalar arasında oxşarlığı tapsınlar.

Müəllim şagirdlərdən xahiş edir ki, dərslikdə bu dərsin uyğun səhifəsini axtarsınlar və aşağıdakı şəkli müşahidə etsinlər. Şəkildə kitabımızın qəhrəmanı verilir boş çanta ilə. Burada məktəb və qeyri-məktəb ləvazimatlarının şəkli çəkilmişdir. Müəllim şagirdlərə xatırladır ki, qaydalardan birinə əsasən, bizim vəzifəmiz “özümüzün və başqalarının əşyalarına ehtiyatla yanaşmaqdır”.

– Məktəb əşyaları hansılardır? Qəhrəmanımıza məktəb əşyalarını seçməkdə kim yardım edəcəkdir?

Şagirdlər başa düşməlidirlər ki, verilən şəkillərdən hansı məktəb əşyalarıdır və onları adlandırmalıdırlar. Bundan sonra müəllim qısaca söyləyir ki, nəyi məktəb əşyaları adlandırmaq olar, uşaqların çantalarında kitabda şəkli olmayan məktəb əşyaları da ola bilər. Buna görə də belə bir əşyalar da diqqətsiz qalmalı deyil.

**5. Çalışma dəftərində iş** (3-5 dəq.)

a) Müəllim şagirdlərdən xahiş edir ki, çalışma dəftərlərini açsınlar. 1 çalışmada müxtəlif əşyalar verilmişdir. Müəllim şagirdlərdən xahiş edir ki, göy karandaşla, onların fikrincə, yalnız məktəbdə lazım olan əşyaları rəngləsinlər, yaşılla – evdə istifadə etdikləri əşyaları, qırmızı ilə - həm məktəbdə, eləcə də evdə istifadə etdikləri əşyaları.

b) Aşağıda verilən tapşırıq istiqamət terminlərini çalışdırmaq üçün lazımdır.

Masanın altında top şəklini çəkin.

Rəfin üzərinə dibçək gülünü qoyun.

Kətilin sağında xalça şəklini çəkin.

Partanın üzərinə karandaş qoyun, sağa – qırmızını.

**6. Aktiv iş** (2-3 dəq.)

Müəllim şagirdlərdən xahiş edir ki, qaşıq tutduqları, şəkil çəkdikləri və s. əllərini qaldırsınlar. Bundan sonra sağ və sol, yuxarı və aşağı istiqamət, yaxın və uzaq, irəli və geri hərəkət çalışması başlayır. Məs., karandaşı kitabın soluna qoy, sağa isə karandaşçərtəni qoy və s. Sonda, bu növdə çalışmaların vasitəsilə şagirdlər həvəslə, b. a. Oyunla, istiqamət terminlərindən istifadə etməklə, məkanda hərəkət etməyi bacaracaqlar. Yaxşı olardı ki, müəllim nəzərə alsın ki, məs., gizlədilmiş əyşanı tapmaq üçün eyni zamanda yalnız iki istiqamət terminindən istifadə etmək məqsədəuyğundur: sağa/sola və irəli/geri.

**7. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

Müəllim sualların vasitəsilə şagirdlərə dərsdə keçilən fəallıqları xatırladır və imkan daxilində onları qiymətləndirir.

## DƏRS 4

| | |
|---|---|
| **Mövzu:** | Mənim məktəbim |
| **Dərsin başlığı:** | Məktəbdən kənara səyahət |
| **Dərsin məqsədi:** | Şagirdlər ətraf mühitdə səmtləşməyi və məqsədyönlü şəkildə yerdəyişməyi bacarmalıdırlar;<br>ətraf mühitdə mövcud obyektləri tanımağı, daşınan və daşınmaz əşyaları qavramalı və qeyd etməlidirlər;<br>təlimata əsasən, sadə tədqiqi fəallıqlarda iştirak etməlidirlər;<br>canlı və cansız cisimləri qruplaşdırmalıdırlar;<br>istiqamət terminlərindən istifadə etməlidirlər;<br>tədqiqat nəticələrini şifahi şəkildə ötürməlidirlər;<br>şagirdlər müşahidə bacarığını inkişaf etdirməlidirlər;<br>sadə elmi terminologiyadan istifadə etməlidirlər. |
| **MTP standartının nəticələri ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir.<br>Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır. |
| **Nəticə əyanidir, əgər şagird:** | özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;<br>cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>şəxsi fikirlərin və ya tədqiqat nəticələrinin təqdimatında kommunikasiyanın müxtəlif formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir;<br>canlı cisimləri bitkilər və heyvanlar kimi qruplaşdırır, öz qərarını əsaslandırır;<br>Məktəb mühitində (məs., sinif otağı, məktəbin dəhlizi, məktəbin həyəti, idman zalı, tualet, bufet, həkimin kabineti, böyükləri gözlədiyi yer) mövcud obyektləri tanıyır və sadalayır və onların təyinatı barəsində danışır;<br>Müxtəlif istiqamət terminlərindən istifadə edir (məs., uzaqda, |

| | |
|---|---|
| | yaxında, məndən sağda, məndən yuxarı, aşağıda) və məktəbin ərazisində mövcud obyektlərin yerini özü ilə münasibətdə müəyyən edir; |
| **Lazımi material:** | rəngli karandaşlar və ya flomasterlər. |

**1. Məktəbin ərazisini nəzərdən keçirmək** (10-20 dəq.)

Bu dərsdə müəllim uşaqları məktəbin həyətinə aparır, şagirdlər məktəbin yaxınlığındakı ərazini müşahidə edir və öyrənirlər (ehtimal olaraq: yaşıl kollar, meyvə ağacları, oyun meydançası, küçə və s.), ötən dərsdə öyrəndikləri terminləri də yada salırlar: sağa/sola, irəli/geri, yaxın/uzaq. Yaxşı olardı ki, həyəti gözdən keçirən zaman müəllim şagirdlərə konkret təlimatlar versin ki, bunlar da istiqamət terminlərindən ibarət olacaqlar. Bundan sonra müəllimin göstərişi ilə uşaqlar həyətin nə qədər təmiz olduğunu müşahidə edirlər, ətraf mühiti kim çirkləndirir və hansı daha cəlbedicidir: təmiz və ya çirkli ətraf mühit? Sonra müəllim uşaqların diqqətlərini məktəb binasına yönəldir ki, onların sinif otaqları neçənci mərtəbədədir. Buradaca müəllim diqqəti "uzaq/yaxın" anlayışına yönəldir və uşaqları çalışdırır (məs.,ağac daha yaxındır məktəb binasına və ya çəpər?.. ) Müəllim daha bir anlayışı daxil edir: "tərpənən/tərpənməyən". Şagirdlər məktəbin həyətində olduqları zaman tərpənən və tərpənməyən əşyaları tapmalıdırlar, canlı və cansız (insan kimi, quş və ya həşərat, eləcə də bulud tərpənəndir, avtomobil hərəkət edir,küləyin hərəkət etdirdiyi yarpaq və s.). Ola bilsin ki, müəllim (vaxtın imkan verdiyi təqdirdə) tərpənən və tərpənməyənin daha yaxşı anlaşılması məqsədilə uşaqlara onlar üçün tanış oyunu , b. a. "donmaq" oyununu təklif etsin. Şagirdlər müəllimin işarəsinə (əl çalma, "dayan!" sözü, fitin səsi...) müəyyən vaxta "donub qalırlar". Şagirdlər müəllimin işarəsinə sərbəst hərəkət etməyə başlayırlar, məs., hoppanırlar, qaçırlar. Müəllimin işarəsinə (əl çalma, "dayan!" sözü, fitin səsi...) müəyyən vaxta "donub qalırlar". Şagirdlər müəllimin işarəsinə yenə də sərbəst hərəkət etməyə başlayırlar, Bu qayda ilə dörd-beş dəfə təkrarlamaq olar. Bu çalışma nəinki tərpənənin və tərpənməyənin anlayışı, eləcə də diqqətin cəmləşdirilməsi bacarığının aşılanmasına xidmət edir.

**2. Dərslik üzərində iş – şəklin təsviri** (3-4 dəq.)

Vərəqin yuxarı hissəsində şəkil verilmişdir. Görünür ki, bizim həmyaşıdlarımız çanta çiyinlərində gedirlər. Gəlin, şəkli təsvir edək:

– Necə düşünürsünüz, şəkildə təsvir edilən uşaqlar kimdirlər? (şagirdlər)
– Sübut edin, nə üçün belə düşünürsünüz. (Çantaları var, məktəb binası görünür)
– Sizin fikrinizcə, bu bina nədir?
– Nə üçün belə düşünürsünüz?
– Neçə mərtəbəlidir?
– Biz indi içəridəyik və ya çöldə?
– Məktəbimizin binası ilə müqayisə edin.
– Məktəbimizin həyəti necədir?

**3. Çalışma dəftərində iş** (5-8 dəq.)

Şagirdlərə tapşırıq verilir ki, dəftərləri açsınlar, bir az öncə gördükləri məktəb binasını yada salsınlar və şəklini çəksinlər. Yaxşı olardı, uşaqlar yada salsınlar ki, məktəb neçə mərtəbəlidir və şəkildə təsvir etsinlər, eləcə də məktəbin həyətinin şəklini çəksinlər və bu "səyahətdən" yadlarında qaldıqlarını. Uşaqlar göstərişlər xaricində, bacardıqları və bəyəndikləri kimi şəkil çəkməlidirlər. Ötürmənin dəqiqliyi bu halda önəmli deyil, daha maraqlı odur ki, uşaq öz şəklini necə izah edir.

Prezentasiyada iştirak könüllüdür. Yaxşı oları ki, şagird öz işini xırdalıqlarla təsvir etsin. Müəllim isə ona suallarla yardım edir ki, işin təqdimatı daha ətraflı və maraqlı olsun.

## DƏRS 5

| | |
|---|---|
| **Mövzu:** | Mənim məktəbim |
| **Dərsin başlığı:** | Evdən məktəbə qədər yol |
| **Dərsin məqsədi:** | Şagirdlər lokal mühitdə lazımi davranış qaydalarını dərk edə və mühafizə zərurətini anlamalıdırlar;<br>Küçədə hərəkət qaydalarını əks etdirən şərti işarələri tanımalı və müdafiə zərurətini dərk edə bilməlidir;<br>Təhlükəsiz hərəkət qaydalarına əməl edilməsi zərurəti haqqında söhbət. |
| **MTP standartının nəticələri ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır. |
| **Nəticə əyanidir, əgər şagird:** | təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir;<br>cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;<br>müəllimin yardımı ilə, sinif yoldaşları ilə birlikdə lokal mühitdə (məs., sinifdə, məktəbdə, həyətdə, küçədə, evdə) davranış qaydalarını formalaşdırır və onlara əməl edir (məs., məktəbin təmizliyinə əməl edir);<br>küçədə hərəkət qaydalarını əks etdirən şərti işarələri tanıyır və izah edir, onlara əməl edilməsi zərurətini izah edir, təhlükəsiz hərəkət qaydalarına əməl edilməsi zərurəti barəsində danışır. |
| **Lazımi material:** | qələmlər, karandaşlar. |

**Dərsin gedişi:**

**1. Mövzu barəsində söhbət – evdən məktəbə qədər yol** (6-7 dəq.)

Müəllim uşaqlardan xahiş edir ki, dərsliyin müvafiq səhifəsini açsınlar və şəkilləri təsvir etsinlər. Sonra da evdən məktəbə qədər yolu xatırlasınlar – necə gedirlər, piyada və ya nəqliyyatla, çox məsafə keçməli olurlar və ya az məsafə, geniş küçədən keçməli olurlar və ya ensiz küçədən, küçəni kəsməli olurlar və s. Müəllim şagirdləri həvəsləndirməlidir ki, yollarındakı xırdalıqları xatırlasınlar (ağac, mağaza, keçid, çay, gölməçə, körpü və s.)

Bu söhbətin nəticəsində şagirdlər nəticə çıxarmalıdırlar ki, küçə insanların, nəqliyyatın hərəkət etdiyi yoldur.

**2. Məktəbin yaxınlığındakı küçələrdə ekskursiya** (15-18 dəq.)

Müəllim uşaqlara təklif edir ki, məktəbin binasından çıxsınlar və məktəbin yaxınlığındakı küçəyə (küçələrə) baxsınlar. Müəllim mütəşəkkil şəkildə şagirdləri məktəbin həyətinə çıxarır ki, onlar küçəni müşahidə edə bilsinlər (yaxşı olardı ki, bu zaman müəllimə valideyn və ya həmkarı yardım etsin).

Bu dərsdə şagirdlər bilməlidirlər ki, küçələrin adları vardır (onlar məktəbləri yerləşdikləri küçənin adını yadlarında saxlamalıdırlar), binaların isə nömrələri vardır (yəni şəhərlərdə küçədəki evlərin hamısı nömrələnmişdir). Müəllim məktəbin (və ya qonşu evin) divarında lövhəciyi göstərir, küçənin adını və nömrəsini oxuyur.

Məktəbin ərazisi bir, iki və ya üç küçə ilə qonşu ola bilər, küçələrin hamısını gəzmək və onların arasında

fərqləri qeyd etmək daha yaxşı olardı (ehtimal suallar: necə düşünürsünüz, hansı daha böyük küçədir? Harada daha çox nəqliyyat hərəkət edir?...).

Sonra müəllim diqqəti küçədə keçid yerlərinə yönəldir – işıqfor, keçidi bildirən nişan vardırmı. Söhbət etməlidirlər ki, küçəni nə vaxt keçməlidirlər –yolu təhlükəsiz keçmək üçün hansı qaydalara əməl etmək lazımdır, küçənin piyadaların gəzdiyi yeri necə adlanır (səki), Tbilisi küçələrində məktəblərin yaxınlığında xüsusi qabarıq sədlər düzəldilmişdir ki, maşınlar hərəkəti yavaşıtsınlar – belə bir səddin olmadığı və maşınların hərəkətinin intensiv olduğu halda, müzakirə etməlidirlər ki, belə bir səddin olması vacibdirmi və ya yox.

**3. "Küçədə təhlükə" mövzusu üzrə diskussiya** (6-7 dəq.)

Orada, məktəbin həyətində müəllim şagirdlərdən xahiş edir ki, küçədə hansı təhlükə ilə üzləşdiklərini və ya küçədə olduqda nədən qorxduqlarını yada salsınlar, hansı halda özlərini müdafiəsiz hiss edirlər.

Şəhərin, xüsusilə də böyük şəhərlərin küçələrində uşaqlar üçün çox təhlükələr vardır; bu, avtomobillərin izdihamı, istifadə olunmuş tüstü, yolları səhv salmaq və s. ola bilər. Diskussiya zamanı müəllimin yardımı ilə dəqiqləşdirilməlidir ki, hansı real təhlükədir, hansı isə - şişirdilmiş xəyallarının məhsuludur.

Müəllim diskussiyanın sonunda vurğulayır ki, bu mövzuya tez-tez qayıdacaqlar və birlikdə təhlükəsizlik ölçülərini düşünürlər.

**4. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

Keçilən dərsi qısaca yekunlaşdırın.

## DƏRS 6

| | |
|---|---|
| **Mövzu:** | Nəqliyyat və yol nişanları |
| **Dərsin başlığı:** | Yol hərəkatı qaydaları |
| **Dərsin məqsədi:** | Şagirdlər göstəricilərin toplanılması, qruplaşdırılması və elementar analitik bacarıqların inkişafa dəstək verə bilməlidirlər;<br>Küçədə hərəkat qaydalarına əməl edilməsi zərurətini dərk etməlidirlər;<br>Küçədə hərəkət etdikdə gözlənilən təhlükəni göstərilməsi və onun qarşısının alınması zərurəti barəsində müzakirə apara bilməlidirlər;<br>Küçədə hərəkət qaydalarını əks etdirən şərti işarələri tanımalı və izah edə bilməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə);<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;<br>müəllimin yardımı ilə, sinif yoldaşları ilə birlikdə lokal mühitdə (məs., sinifdə, məktəbdə, həyətdə, küçədə, evdə) davranış qaydalarını formalaşdırır və onlara əməl edir (məs., məktəbin təmizliyinə əməl edir); |

küçədə hərəkət qaydalarını əks etdirən şərti işarələri tanıyır və izah edir, onlara əməl edilməsi zərurətini izah edir, təhlükəsiz hərəkət qaydalarına əməl edilməsi zərurəti barəsində danışır.

**Dərsin gedişi:**

**1. Dərsin gedişi** (13-15 dəq.)

Dərsliyin müvafiq dərsinin yuxarı hissəsində şəhərin küçəsi təsvir edilmişdir: yolayırıcı, səkilər, keçid, nəqliyyat və insanlarla...

Əvvəlcə şagirdlər şəkli nəzərdən keçirir və frontal qaydada onu təsvir edirlər. Sonra müəllim uşaqlara cütlüklərdə və qruplarda işi tapşırır:

Cədvəl verilmişdir, nümunəyə əsasən şagirdlər başa düşməlidirlər ki, onlar şəkildə ayrı-ayrı uşaqları, qadınları, kişiləri, ağacları, avtomobilləri, evləri, itləri saymalı və cədvəlin müvafiq qrafalarında qeyd etməlidirlər (hələ ki yaza bilmədiklərinə görə, nöqtələrlə və ya dairələrlə qeyd edə bilərlər).

Prezentasiya zamanı məlum olacaqdır ki, qruplar (və ya cütlüklər) oxşar və ya fərqli cavablar almışlar.

Cədvəli doldurduqdan sonra onun sadə analizi arzu olunur: bu küçədə kim (nə) çox sayda müşahidə olunur? Kim (nə) – az miqdarda?)

**2. Dərslik üzərində işin davamı** (5-6 dəq.)

Müəllim uşaqlara xatırladır ki, həyətdə olan zaman bəzi təhlükələr haqqında onlara danışılmışdır. İndi yenə də bu mövzuya qayıtmalıdırlar.

Müəllim uşaqlardan xahiş edir ki, verilən şəkli yenə də müşahidə etsinlər, cütlüklərdə fikirləşsinlər və müzakirə etsinlər:

– Kimi isə təhlükə gözləyirmi? Kimi?

– Nə baş verə bilər? (məsələn, uşaq anasının əlini buraxdığında, maşının təkəri altına düşə bilər, yaxud da topa tərəf qaçan itə dolaşa bilər. İtin özünü və onun sahibini yalnız ön hissəsi görən göy rəngli avtomobilin təhlükəsi gözləyir. Eləcə də keçiddə velosipedli oğlan vaxtsız və təhlükəli hərəkət edir).

– Bu təhlükənin qarşısını necə ala bilərik?

– Necə düşünürsən, küçədə hərəkət qaydaları olmalıdırmı və ya yox? Nə üçün?

– Küçədə xəbərdarlıq yol nişanları olmalıdırmı və ya yox? Nə üçün?

**3. İsinmə hərəkəti – “Küçəni keçək”** (8-10 dəq.)

Müəllim şagirdlərə belə bir oyun təklif edir. İki şagird otağın müxtəlif küncündə durur. Onların gözləri bağlıdır. Hər biri yolu tapmalı və sinfin qarşı küncünə yaxınlaşmalıdır. Bu fəallığa 2-3 cütlüyün sıra ilə cəlb olunması kifayət edir. Sonra müəllim bu şagirdlərdən soruşur:

– Bu zaman nə hiss edirdiniz?

– Özünüzü təhlükəsiz hiss edirdiniz və ya yox? Nə üçün?

– Küçəni diqqətsiz keçən insanın başına nə gələ bilər?

Müəllim vurğulayır ki, küçəni keçən zaman piyadalar üçün əsas təhlükəni hərəkət edən avtomobillər təqdim edirlər. Bu təhlükənin qarşısını almaq üçün insanlar işıqforu və başqa yol nişanları düşünüb tapmışlar.

– Hər şey necə və nə vaxt başlamışdır?

Əlavə (yaxud da alternati) fəallıq

Müəllim söhbəti növbəti mövzu üzərində davam etdirir ki, küçədə uşaqlar bu və ya digər təhlükə ilə qarşılaşdıqlarında kimə və necə müraciət etməlidirlər.

**4. Kitabdan bir parçanın oxunulması** (2-3 dəq.)

“Yol hərəkatı qaydaları” (R, İantbelidze)

Təxminən 100 il öncə ilk dəfə küçələrdə avtomobillər görünməyə başladı. Onlar piyada gəzənləri qorxudurdular. “Buna görə də Londonda dünyada ilk, bir az da gülməli hərəkət qaydası qəbul edildi – daha çox insanın gəzdiyi yerdə yolun kənarında qırmızı lentli “asayişin keşikçisi” durmalı idi. Bu keşikçi yaxınlaşan maşını görən kimi bayrağı yuxarı qaldırırdı və ... yolda olan insanlar, kim necə bacarırdı, özünü elə xilas edirdi” – camaat ora-bura qaçıb özlərini qurtara bilməli idilər.

Bu zaman işıqfor hələ yox idi, maşınlar qaydasız gəzirdilər, kim necə istəyirdi və maşını da küçədə saxlayırdılar – küçələrdə tam intizamsızlıq idi. “1920-ci ildə Amerikada ilk işıqfor qoyuldu”, bununla yol qaydaları qəbul edildi.

Müəllim şagirdlərdən soruşur ki, işıqforda hansı rənglərin olduğunu xatırlayırlarmı? (yaşıl, sarı, qırmızı) və dərslikdə işıqforlu vərəqi axtarıb tapmağı xahiş edir).

– Yaşıl nişan nəyi bildirir? (hərəkətə yol verilir)

– Qırmızı nişan nəyi bildirir? (hərəkət olmaz)

– Necə düşünürsünüz, sarı nişan nəyi bildirməlidir?

(xəbərdarlıq verir – işıqforun rəngi dəyişmir)

Üçrəngli işıqfor avtomobil sürücüləri üçün nəzərdə tutulmuşdur, bəzi hallarda üçrəngli işıqforun yanında ikirəngli işıqfor durur, piyadalar üçün: yaşıl və qırmızı fonda insanın fiquru əks olunmuşdur: burada “yaşıl” küçədə keçid icazəsini verir, “qırmızı” – qadağan edir (Baxın Şagirdin kitabına).

**5. Dərsin yekunlaşdırılması** (3-4 dəq.)

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=Vyy2TkP0X1o7

## DƏRS 7

| | |
|---|---|
| **Mövzu:** | Nəqliyyat və yol nişanları |
| **Dərsin başlığı:** | Yol nişanları və nəqliyyat |
| **Dərsin məqsədi:** | Şagirdlər bəzi yol işarəsini tanımalıdırlar; nəqliyyat növləri ilə tanış olmalıdırlar; |
| | Nəqliyyat vasitələrinin özünəməxsusluğu və onlar arasında fərqləri dərk etməli, nəqliyyatla yerdəyişmə zamanı mümkün təhlükələri görməli və təhlükəsizlik ölçülərini xatırlamalıdırlar; |
| | Sadə praktiki fəallıqlarda iştirak etməlidirlər; |
| | Suala cavab vermək üçün lazımi göstəriciləri toplamalıdırlar/qeydə almalıdırlar; |
| | Şərti işarələrin tanımalı və müvafiq izahat verməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |
| | Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır. |
| **Nəticə əyanidir, əgər şagird:** | təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir; |
| | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |
| | suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə); |
| | fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir |
| | küçədə hərəkət qaydalarını əks etdirən şərti işarələri tanıyır və izah edir, onlara əməl edilməsi zərurətini izah edir, təhlükəsiz hərəkət qaydalarına əməl edilməsi zərurəti barəsində danışır. |
| **Lazımi material:** | A4 vərəqləri, qayçı. |

**Dərsin gedişi:**

**1. Yol nişanlarını çəkmək** (5-6 dəq.)

**Qruplarda iş:**

Müəllim şagirdlərdən xahiş edir ki, kitablarında 7-ci dərsi açsınlar və onlarla birlikdə yol nişanlarını təhlil edir. Sonra özü də onu hazırlayır (Baxın, Əlavəyə).

Müəllim sinfi 5 qrupa bölür, hər bir qrupa bir-bir təmiz vərəq verir və vərəqdə bir yol nişanının şəklini çəkməyi xahiş edir.

I qrup – qırmızı rəngli işıqfor;

II qrup – yaşıl rəngli işıqfor;

III qrup – sarı rəngli işıqfor;

IV qrup – göy kvadratda keçid;

V qrup – "daşların səpələnməsi"

**2. Cütlüklərdə iş** (5-7 dəq.)

Şagirdlər artıq 2 yol işarəsini və işıqforun üç variantını ayrı-ayrı vərəqlərdə hazırlamışlar (yaşıl, sarı və qırmızı rənglərlə).

Müəllimin yardımı ilə şagirdlər partaları ilə düzürlər ki, sinif otağında partalar arasında "mərkəzi küçə" yaranır.

Şagirdlər cütlüklərə bölünürlər, müəllim "küçənin" başında durur və növbə ilə müxtəlif yol nişanını qaldırır. Şagirdlər bu yol nişanının tələbini tanımalı, "küçədə" təhlükəsiz və qaydaya əməl etməklə hərəkət etməlidirlər və izah etməlidirlər ki, nə üçün belə hərəkət edirlər (yəni yol nişanı onlara nəyi işarə edir). Səhv buraxan cütlük oyundan kənar edilir.

**3. Dərslik üzərində iş** (5-6 dəqiqə)

Müəllim uşaqlardan xahiş edir ki, evdən məktəbə qədər olan yolu xatırlasınlar.

– Piyada gələnlər əllərini qaldırsınlar;

– Başqa vasitələrlə gələnlər əllərini qaldırsınlar;

Belələrinin olduğu halda, müəllim maraqlanır ki, bu uşaqlar məktəbə necə gəlirlər (avtobus, minik maşını, metro nəzərdə tutulur). Dərs kənd məktəbində keçdiyi halda, burada uşaqların hamısı məktəbə yalnız piyada gəlib-gedirlər, o zaman müəllim onlardan şəhərdə olub-olmadıqlarını soruşur ki, nə ilə getmişlər və s.

Sonda nəticə çıxarılmalıdır ki, insanlar bir yerdən başqa yerə piyada, maşınla, qatarla və ya başqa vasitələrlə hərəkət edirlər.

– Onların ümumi necə adlandıqlarını bilirsinizmi? (nəqliyyat) Sonra uşaqlar dərslikdə bu dərsin müvafiq səhifəsini axtarıb tapmalı və tanımalı olduqları yol nişanlarını gözdən keçirməlidirlər (müəllim göstərir ki, bu hansı səhifədir).

**4. Çalışma dəftərində iş** (4-5 dəq.)

İş şagirdin dəftərində davam etdirilir. Vərəqdə bizim qəhrəmanlar dalğındırlar – onlara məsələni həll etməkdə məhz birinci sinif şagirdlərimiz yardım etməlidirlər. Həmin səhifədə verilən kvadratlarda müxtəlif əşyaların şəkli çəkilmişdir, uşaqlar hər bir kvadratda rəssamın yersiz (məntiqsiz) yerləşdirdiyi bir əşyanı axtarıb tapmalı və dairəyə almalıdırlar; yəni onlar avtomobili, təyyarəni, qatarı, gəmini və avtobusu qeyd etməlidirlər (dairəyə almalıdırlar).

İş fərdi yerinə yetirilir və cütlüklərdə yoxlanılır.

Tapşırıq başa çatdıqdan sonra müəllim yenə də şagirdlərdən soruşur;

– Dairəyə aldığınız əşyaları adlandırın;

– İnsan bu əşyaları nə üçün istifadə edir?

– Bilirsinizmi, yerdəyişmə vasitələrinin ümumi adı nədir?

Heç kimin yenə də "nəqliyyat" sözünü xatırlaya bilmədiyi halda, müəllim bu sözü deyir və izah edir ki, insanın yerdəyişmə və yükün daşınması üçün istifadə etdiyi hər şey nəqliyyata aid edilir.

**5. Sinif diskussiyası** (3-6 dəq.)

Müəllim uşaqlardan xahiş edir ki, onlar tərəfindən işarə edilən nəqliyyat vasitələrini xarakterizə etsinlər: bu və ya digər nəqliyyat vasitəsilə səyahət ediblərmi, yavaş hərəkət edir və ya sürətlə, onlardan bəzilərinin hansı oxşar əlaməti vardır (təkərləri var, yanacaq sərf edir....), bir-birlərindən nə ilə fərqlənirlər.

Sonra müəllim şagirdlərdən soruşur ki, başqa nəqliyyat vasitələrini görüblərmi və onlar barəsində nə bilirlər.

Müəllim şagirdlərə bildirir ki, onlar tərəfindən təhlil edilən nəqliyyat öz-özünə hərəkət etmir. Onları insanlar idarə edirlər. Hər bir nəqliyyat vasitəsinin öz adı var. Müəllim frontal suallar verir, uşaqlar tapmalı və cavab verməlidirlər.

– Avtomobili idarə edən insan necə adlanır? (sürücü)
– Təyyarəni idarə edən insan necə adlanır? (təyyarəçi və ya pilot)
– Gəminin idarəetməsinə rəhbərlik edən insan necə adlanır? (gəmi kapitanı)

Burada belə suallar da verilə bilər:
– Gəmidə işləyən insan necə adlanır? (dənizçi)
– Nəqliyyatla yolçuluq edən insan necə adlanır? (sərnişin)

Müəllim növbəti suallardan istifadə etməklə söhbət aparır:
– Qədimlərdə nə üçün gəmilərə yelkən taxılırdı?
– Nə üçün müasir gəmilərə yelkən lazım deyil?
– Qayıqları necə üzdürürdülər? (avar çəkməklə);
– İnsan təkəri icad etməsəydi nə baş verərdi?
– Sürücülərə hərəkat qaydalarına əməl etmək lazımdırmı? Nə üçün?

**6. Dərsin yekunlaşdırılması** (1-2 dəq.)

**7. Ev tapşırığı**

Burada müəllim ev tapşırığı verir ki, növbəti dərs üçün evdən oyuncaq nəqliyyat gətirsinlər.

## DƏRS 8

| | |
|---|---|
| **Mövzu:** | Nəqliyyat və yol nişanları |
| **Dərsin başlığı:** | Hansı nəqliyyatla yol gedək? |
| **Dərsin məqsədi:** | Şagirdlər nəqliyyatın köhnə və müasir vasitələrini tanımalıdırlar; |
| | Nəqliyyatla yol gedərkən və təhlükəsizlik ölçülərinin müdafiəsi zərurətini dərk etməlidir; |
| | Parçalardan bütöv modelin quraşdırılması; |
| | Sadə praktiki fəallıqlarda iştirak; |
| | Cisimləri tanımalı, təsvir etməli, xarakterizə etməli; |
| | Cisimlərin tərkib maddələri, materialı üzrə müzakirələr aparmalı/ tanımalı; xarakterizə etməli. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |
| | Təb.1.4. Şagird tərkib əşyalarına/materialın xassələrinə əsasən cisimləri müqayisə edə bilir. |
| **Nəticə əyanidir, əgər şagird:** | özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir; |
| | təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir; |

| | |
|---|---|
| | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>ətrafındakı cisimləri təsvir edir və onların tərkib əşyaları/material barəsində (məs., qayçı- dəmir, dəftər-kağız, pozan- rezin) söhbət aparır;<br>gündəlik həyatda yayılmış əşyaları/materialları tanıyır və adlandırır;<br>əşyaları/materialları asanlıqla müşahidə edilən xassələrin (məs., şəffaflıq, elastiklik, səthə qalxma bacarığı, suyadavamlılıq) əsasında xarakterizə edir. |
| **Lazımi material:** | A4 vərəqləri, qayçı, yapışqan. |

**Dərsin gedişi:**

**1. Oyuncaqların sərgisi** (3-4 dəq.)

**Qruplarda iş**

Müəllim sinfi kiçik qruplara bölür və xahiş edir ki, masaların üzərinə evdən gətirdikləri b.a. "nəqliyyatı" düzsünlər. Hər bir qrup "nəqliyyatın sərgisini" təşkil edir. Şagirdlər sıra ilə hər hansı bir qrupun masasına "baş çəkirlər" və nəqliyyat növlərini gözdən keçirirlər. "Ev sahibləri" onlardan hər birini adlandırırlar və qısaca xarakterizə edirlər və bu və ya digər nəqliyyat növü əsasən nə üçün istifadə olunur (yolçuluq üçün, yük daşımaq üçün ....). Sonda, oyuncaqlar qutuya yerləşdirilməli və ya pəncərənin rəfinə düzülməlidir.

**2. Çalışma dəftərində iş – nəqliyyat növlərinin qruplaşdırılması** (3-4 dəq.)

Çalışma dəftərinin müvafiq səhifəsində iki sütunda cədvəl və nəqliyyatın keçmiş və müasir növləri verilmişdir (keçmiş: at belində atlı, məşqçi ilə fil, at arabası, dəvəçi, itlər xizəklə).

Müasir nəqliyyat: velosiped, müasir gəmi, vertolyot, avtomobil, metro vaqonu).

Müəllim sinfə qruplarda iş üçün tapşırıq verir.

Şagirdlər bilməlidirlər ki, şəkilləri hansı əlamətlə qruplaşdırmalı və hər bir şəkli xətlə cədvəlin boş xanalarına birləşdirməlidirlər (sol sütuna düşəcəkdir: dəvə, fil, xizək, araba; sağ sütuna: təyyarə, avtomobil, metro, gəmi).

Bu çalışmadan öncə (sonra da ola bilər) söhbət aparmaq lazımdır ki, qədimlərdə insanlar hərəkət üçün heyvanlardan istifadə edirdilər. Müxtəlif ölkələrdə bunun üçün müxtəlif heyvanları təlimatlandırırlar. Əsasən də atdan istifadə edirlər, çünki at başqa ev heyvanından çox sürətli və asanlıqla idarə olunandır.

**3. Dərslik üzərində iş** (4-5 dəq.)

Müasir nəqliyyat vasitələri barəsində danışdıqda müəllim dərslikdə verilən müvafiq illüstrasiyalardan istifadə edə bilər.

**4. Çalışma dəftərində iş – maşının "quruluşu"** (14-16 dəq.)

Şagirdlər dəftərdə müxtəlif rəngdə detalların şəkli çəkilmiş səhifəni axtarıb tapmalıdırlar. İş qruplarda davam etdirilir. Uşaqlar fiqurları kəsməli və tapmalıdırlar ki, bu fiqurlardan hansı nəqliyyatı qurmaq olar və sonra təmiz vərəqə yapışdırırlar (gəminin detalları sarı rəngdədir, helikopterinki – göy rəngdə, avtomobilin – qırmızı).

Qruplar hər üç növdə nəqliyyatı qura bilər və ya istəkləri əsasında – yalnız birini. İş başa çatdıqdan sonra yaxşı olardı ki, işlər divara yapışdırılsın.

**5. Sual-cavab** (3-4 dəq.)

Müəllim söhbəti növbəti suallardan istifadə etməklə davam etdirir:

– Sizin fikrinizcə, insanlar qədimlərdə təkəri nədən hazırlayırdılar?

– Necə düşünürsünüz, taxtadan hazırlanmış təkər necə ola bilər? (kim araba təkərini görmüşdür? Necədir?)

– Daha hansı nəqliyyatda taxta materialından istifadə olunur? Nə üçün? (gəmi, qayıq)

– Hansı nəqliyyatda dəmirdən və başqa metallardan istifadə olunur?
– Avtomobillərin təkərini nədən hazırlayırlar? (təkər nədir? Araba təkəri və maşın təkəri arasında hansı fərq vardır?)
– Avtomobilin sükanı nədən hazırlanır? (əksər hallarda plastmasdan). Sükanın hansı forması var?

**6. Nəqliyyatı tanımaq (pantomima)** (2-3 dəq.)

Müəllim uşaqlara tapmaq üçün oyun verir, amma bu halda şagirdlər sərnişinləri deyil, nəqliyyat vasitələrinin özlərini hərəkətləri və səsləri ilə canlandırırlar. Başqaları isə tapmalı və adlandırmalıdırlar.

Hər bir qrup üzvü pantomima vasitəsilə bu və ya digər nəqliyyatla yolçuluq (ehtimal ki, qatar, avtobus – cütlükdə otururlar, minik maşını, qayıq.....) vəziyyətini canlandırır. Başqa qrupların üzvləri tapmalıdırlar ki, onların yoldaşları hansı nəqliyyatla “yolçuluq edirlər”. Kim tapacaqdırsa (yaxud da hansı qrupun növbəsi gələrsə), indi o, pantomimanı oynamağa başlayır.

**7. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

Bu dərslərdə verilən fəallıqları müəllim öz nəzərinə əsasən istifadə edə bilər (bütün fəallıqların istifadəsi vacib deyil), sinfin əhval-ruhiyyəsini və imkanlarını nəzərə almaqla.

Tövsiyə üçün videomaterial: https://www.youtube.com/watch?v=pLnyhPsiiNM

## DƏRS 9

| | |
|---|---|
| **Mövzu:** | Ətrafımızda |
| **Dərsin başlığı:** | Təbii və süni |
| **Dərsin məqsədi:** | Məlumatların təşkili, qeydə alınması, təsnifatı;<br>Nəticələrin şifahi formada ötürülməsi;<br>Sadə elmi terminlərin istifadəsi;<br>Canlı cisimlərin əsas xassələrinin təsviri və cansızlardan fərqi;<br>Həyatın əsas əlamətlərini müşahidə etmək və onları təsvir etmək;<br>Verilən suallara cavab vermək üçün müşahidə nəticələrinə istinad etmək. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Nəticə əyanidir, əgər şagird:<br>cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə);<br>Verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır. |
| **Lazımi material:** | kukla, rəngli karandaşlar. |

**1. Təbii və süni** (5-10 dəq.)

Müəllim sinfə sualla müraciət edir:
– Ötən dərsdə biz hərəkət vasitələrini nəzərdən keçirdik, nəqliyyatı. Bir daha ötən dərsdə doldurduğumuz cədvələ qayıdaq. Sola qədim zamanlarda (hətta indi də) istifadə edilən nəqliyyat vasitələrini (at, fil, dəvə, it) qruplaşdırın, sağa – müasir nəqliyyatı.
– Sizin fikrinizcə, sola yerləşdirilən nəqliyyatı birləşdirən nədir? (canlı qüvvə ilə hərəkət edir).

– Sağda yerləşən? (canlı deyil - maşındır)
– Bunların arasında hansı təbiidir və hansı insan əli ilə yaradılmışdır, b.a. sünidir?
– Gündüz və ya gecə ətrafınızda nəyi görürsünüz? (Ehtimal ki: günəşi, ayı, suyu, çayları, dənizləri, meşəni, bitkiləri, heyvanları və biz, insanları). Bu, təbiidir və ya süni?
Ətrafımızda olan hər şey təbiidir, təbiətdə olan özbaşına mövcuddur.

**2. Kitab üzərində iş** (3-5 dəq.)

Şəkillərə diqqətlə baxın. Hansının təbii və hansının b.a. süni (insan əli ilə düzəldiyi) olduğunu müzakirə edin.

**3. Çalışma dəftərində iş** (4-5 dəq.)

Şəkilləri diqqətlər müşahidə et və müəyyən et ki, hansı təbiidir və hansı – yox? Sənin fikrincə, hansının təbii olduğunu yaşıl rənglə göstər, insan əli ilə düzəldiləni isə - qırmızı rənglə.

**4. Təbii mühit – canlı və cansız** (5-8 dəq.)

Müəllim dəftərdə verilən konturları göstərir və tapşırıq verir:
Canlı təbiəti əks etdirən şəkilləri rənglə. İş başa çatdıqdan sonra şagirdlərdən xahiş edir ki, rənglədikləri əşyaları adlandırsınlar və öz fikirlərini ən azı bir sübutla isbat etsinlər (nəfəs alır, gəzir, uçur, qidalanır, çoxalır və s.).

**5. Təsvir – əyani vəsait** (5-7 dəq.)

Yaxşı olardı ki, müəllim əyani vəsait üçün kukla gətirsin. Sinifdən bir könüllünü irəli çıxarsın və sinfə sualla müraciət etsin:
– Bunlardan hansı nəfəs alır?
– Hansı qidalanır?
– Hansı böyüyür?
– Hansı çoxalır?
– Hansı özbaşına hərəkət edir?
Yaxşı olardı ki, şagirdlərin özləri mövzunu cəmləşdirsinlər:
İnsan canlıdır, çünki nəfəs alır, qidalanır, böyüyür, özbaşına hərəkət edir, çoxalır və s.
Cansızı isə bütün bunlar xarakterizə etmir.

**6. Dərsin yekunlaşdırılması** (3-5 dəq.)

Müəllim dərsdə təhlil edilən materialı qısaca yekunlaşdırır və növbəti dərs üçün tapşırıq verir: yaşadığın mühiti müşahidə et. Onda canlı və cansız nə var?

## DƏRS 10

| | |
|---|---|
| **Mövzu:** | Ətrafımızda |
| **Dərsin başlığı:** | Canlı və cansız |
| **Dərsin məqsədi:** | Şagirdlər canlı və cansız cisimlərin əsas əlamət-xassələrini təsvir edə və bir-birlərindən fərqləndirə bilməlidirlər;<br>Həyatın əsas əlamətlərini müşahidə edə və onları təsvir edə bilməlidirlər;<br>Sadə praktiki işdə iştirak etməlidirlər;<br>Cisimləri tanımalı/çeşidlərə ayırmalı, təsvir etməlidirlər. |

| | |
|---|---|
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir; |
| | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |
| | verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır. |
| **Lazımi material:** | rəngli karandaşlar, qayçı, yapışqan. |

**1. Sual-cavab** (5-7 dəq.)

Tapşırığı soruşduqdan sonra müəllim sinfə müraciət edir:
– Yadınıza salın ki, təbiət nədir?
– “Təbiət” və “təbii” sözlərinə diqqət verin.
– Necə düşünürsünüz, onların arasında ümumi nə var?
Müəllim uşaqları bir daha həmin nəticəyə yönəldir ki, təbiətdə mövcud olan əşyalar təbii adlanırlar və xahiş edir ki, onların fikrincə təbii olan cisimləri sadalasınlar.

**2. Canlı təbiət** (5-10 dəq.)

Müəllim şagirdlərdən xahiş edir ki, kitabın müvafiq səhifəsini açsınlar və verilən fotoşəkillərə diqqətlə baxsınlar ki, onlar hansı əlamətləri ilə bir-birindən ayrılmışlar. Solda hansı təbiətdir, sağda? Canlı olan əşyaları adlandırsınlar, canlının nəyi bildirdiyi barədə danışsınlar (nəfəs alır, qidalanır, böyüyür, çoxalır).
– Sənə yaşamaq üçün nə lazımdır?

**3. Cansız təbiət** (2-5 dəq.)

Müəllim xahiş edir ki, cansız təbiəti adlandırsınlar və xarakterizə etsinlər (daş, günəş, ulduz və s.)

**4. Praktiki iş** (5-10 dəq.)

Müəllim şagirdlərə dəftərdə verilən şəkilləri göstərir və xahiş edir ki, artıq olan şəklin üzərindən xətt çəksinlər. Yaxşı olardı ki, öz fikirlərini izah etsinlər.
Sonra isə müəllim şagirdlərə tapşırıq verir. Dəftərlərində verilən şəkillərə baxsınlar, onları canlı və cansız təbiətə bölsünlər. Sonra isə dəftərdə verilən sxemə müvafiq olaraq yapışdırsınlar.

**5. Dərsin yekunlaşdırılması (2-3 dəq.)**

Müəllim dərsin mövzusunu yekunlaşdırır. Sonra şagirdlərə tapşırıq verir. Bu dəfə onlar müəyyən etməlidirlər ki, nəyi canlı və nəyi cansız təbiətə aid edəcəklər.
Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=UNF7eX84b4E&t=401s

## DƏRS 11

| | |
|---|---|
| **Mövzu:** | Ətrafımızda |
| **Dərsin başlığı:** | Ətrafımızda |
| **Dərsin məqsədi:** | Şagirdlər müşahidə nəticəsində lokal mühiti təsvir edə bilməlidirlər; |
| | Öz fikirlərini sübutlu şəkildə əsaslandırmalıdırlar; |
| | Şəkillər vasitəsilə məlumatları qeydə almalı-təşkil etməlidirlər; |
| | Alınan nəticələri müxtəlif kommunikasiya vasitələrindən (şəkillər, foroşəkillər) istifadə etməklə paylaşmalıdırlar; |

| | |
|---|---|
| | Cisimləri illüstrasiyalarda tanımalı, təsvir etməli, çeşidlərə ayırmalıdırlar. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | öyrənilən cisim/hadisə haqqında sadə suallar verir; |
| | özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir; |
| | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |
| | verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır. |
| | fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir. |
| **Lazımi material:** | format, rəngli karandaşlar, qayçı, lövhə maqnitləri. |

**Dərsin gedişi:**

**1. Təbii və süni mühit** (5-10 dəq.)

Müəllim uşaqlara ötən dərsdə təhlil edilən mövzuları xatırladır və tapşırığı soruşur (şəklin əsasında prezentasiya və ya şifahi təsvir):

Yaşadığın mühiti təsvir et.

**2. Kitab üzərində iş** (5-8 dəq.)

Müəllim şagirdlərdən xahiş edir ki, dərsliyin verilən səhifəsini açsınlar.

İnsan əli ilə yaradılmış, b.a. süni əşyaları müşahidə etsinlər, tapsınlar və adlandırsınlar. Bundan irəli gələrək, təbii və insan əli ilə hazırlanmış mühiti müzakirə etsinlər.

**3. Praktiki iş** (5-7 dəq.)

Müəllim şagirdlərdən xahiş edir ki, sinif otağını diqqətlə öyrənsinlər ki, sinifdə təbii və insan əli ilə düzəldilmiş əşyalar hansılardır.

Müəllim bir daha diqqəti ona yönəldir ki, yaşadığımız mühit –həm təbii, eləcə insan əli ilə düzəldilmiş mühitdir.

**4. Çalışma dəftərində iş** (5-7 dəq.)

Müəllim şagirdlərə göstəriş verir ki, çalışma dəftərini açsınlar və müvafiq səhifədə verilən şəkillərə diqqətlə baxsınlar. Sonra isə tapşırıq verir ki, yalnız onların fikrincə, təbii mühitə aid olan əşyaları dairəyə alsınlar.

Bundan sonra müəllim şagirdlərə təklif edir ki, onlardan hər biri 5 dəq. ərzində, səhifənin aşağı hissəsində verilmiş çərçivədə 1 təbii və 1 süni, insan əli ilə düzəldilmiş əşyanın şəklini çəksinlər və kəssinlər.

**5. Prezentasiya** (4-5 dəq.)

Müəllim lövhəyə yapışdırılan format kağızı iki hissəyə bölür və şagirdlərdən xahiş edir ki, şəkilləri müvafiq tərəfə yerləşdirsinlər. Onlar oxuya bilmədikləri üçün müəllim təbii əşyaları (cisimləri) qeyd etmək üçün şərti olaraq sxemin sol tərəfində şəkil çəkir, məs., ağacı, sağ tərəfdə isə - ev şəklini. Şagirdin özü şəkilləri müvafiq tərəflərdə yerləşdirir.

**6. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

Müəllim bir daha təbii və insan əli ilə düzəldilmişi, b.a. süni mühiti izah edir. Vurğulayır ki, bunların hər ikisi yaşadığımız mühitin ayrılmaz hissəsidirlər.

## DƏRS 12

| | |
|---|---|
| **Mövzu:** | Ətrafımızda |
| **Dərsin başlığı:** | Təbiətin keşiyində |
| **Dərsin məqsədi:** | Şagirdlər məlumatları təşkil edə, qeydə ala, təsnif edə bilməlidirlər;<br>Ehtimallarını söyləyə bilməlidirlər;<br>Nəticələri şifahi formada ötürə bilməlidirlər;<br>Sadə elmi terminlərdən istifadə edə bilməlidirlər;<br>Canlı cisimlərin əsas əlamət-xassələrini təsvir edə və cansızlardan fərqləndirə bilməlidirlər;<br>Ətraf mühitin orqanizmlərə təsirini araşdıra bilməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;<br>cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır.<br>fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir. |
| **Lazımi material:** | karandaşlar, təbiət haqqında videomaterial. |

**1. Kitabda iş** (5-7 dəq.)

Müəllim: şəkillərə diqqətlə baxın, nəyi görürsünüz?
Fikrinizi əsaslandırın.
(Canlıdır, çünki dünyaya gəlir, böyüyür, qidalanır, nəfəs alır, hərəkət edir, ölür...)

**2. Çalışma dəftərində iş** (3-5 dəq.)

Müəllim: artıq olanın üzərindən xətt çək.
Əsaslandır.

**3. Vəziyyət üzrə məsələ** (5-10 dəq.)

Bir dəqiqəlik təsəvvür et ki, günəş oyanmazsa, hava olmazsa, su yox olarsa, sizin fikrinizcə, nə baş verə bilər?
– Bitkilər yaşaya bilərmi?
– Heyvanlar?
– İnsanlar?

**4. Qısa mühazirə** (4-5 dəq.)

Müəllim şagirdlərin ehtimallarını diqqətlə dinləyir, onların fikirlərini sübut edir və vurğulayır:
1. Günəş işığı və istilik olmadan bitkilər (kiçik istisnalar xaricində) və heyvanlar, yəni canlı təbiət yaşaya bilməz.
2. Su olmadan bütün canlı varlıqlar məhv ola bilərlər.
3. Hər bir canlıya hava lazımdır.

**5. Diskussiya** (4-5 dəq.)

Müəllim sinfə müraciət edir:
–- Necə düşünürsünüz, insan cansız təbiət xaricində yaşaya bilərmi?
Fikrinizi əsaslandırın.
*(Ehtimal edilir ki: hava ilə nəfəs alırıq, susuzluğumuzu su ilə söndürürük, qidalanırıq – bitkilərlə və heyvanlarla)*

**6. Biz təbiəti qoruyuruq?!** (4-5 dəq.)

Müəllim: kitabınızda verilən şəkilləri diqqətlə müşahidə edin: nəyi görürsünüz?
Beləliklə, yaşamaq üçün balığa təmiz su lazımdır, quşa – təmiz hava, heyvana və quşlara – meşə, insana....

**7. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

Müəllim dərsi yekunlaşdırır və bildirir: biz təbiətin bir hissəsiyik, buna görə də onu qorumalıyıq və qayğı göstərməliyik.
Təbiəti qorumaq deməkdir ki, ölkəni sevməli və onu qorumalısan.

**8. Ev tapşırığı**

Sonra müəllim tapşırıq verir: bir canlı əşyanı seçin və onu (ev heyvanını, quşu, gülü), onun yaşadığı mühiti təsvir edin ki, yaşaması üçün ona nə lazımdır, ona kim qayğı göstərir, ona qulluq edilməsində iştirak edirsinizmi və ya yox, necə qulluq edirsiniz və s.

## DƏRS 13

| | |
|---|---|
| **Mövzu:** | Ətrafımızda |
| **Dərsin başlığı:** | Yaşayış mühiti |
| **Dərsin məqsədi:** | Şagirdlər canlı cisimlərin əsas əlamət-xassələrini təsvir edə bilməlidirlər;<br>Canlı və cansızı bir-birindən fərqləndirməlidirlər;<br>Həyat üçün əsas əlamətləri müşahidə etməli və onları təsvir etməlidirlər;<br>Orqanizmlər üçün həyat tələbatını başa düşməlidirlər;<br>Müşahidə nəticələrinin müxtəlif forması ilə şifahi ötürə bilməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;<br>müxtəlif mühitdə yaşayan bitkilərin/heyvanların müqayisəsi üçün sualları formalaşdırır. |
| **cavabları axtarır:** | sinif otağında, məktəbin həyətində, lokal mühitdə yetişən müxtəlif bitkiləri (məs., yarpaqların forması və ya ölçüsünə əsasən, gövdənin formasına, qalınlığına və ya uzunluğuna əsasən, çiçəklərin rəngi və ya ölçüsünə əsasən) və ya heyvanı (məs., soxulcanı, ilbizi, kəpənəyi, parabüzəni) müşahidə edir; müşahidə nəticələrini müxtəlif forma ilə |

|  |  |
|---|---|
|  | ötürür (şifahi nitq ilə, şəkillərlə, kollajla, fotoşəkillərin vasitəsilə). |
| **Lazımi material:** | karandaşlar, "Üç donuz balası" nağılı və ya cizgi filmi |

**1. Tapşırığın yoxlanılması** (5-7 dəq.)

Müəllim dərsi ev tapşırığını soruşmaqla başlayır. Könüllülər sinif yoldaşlarına sevimli heyvanları, quşları və ya bitkiləri haqqında danışırlar. Müəllim müvafiq suallarla çıxış edənlərə yardım edir (yaxşı olardı ki, şagird nəinki zahiri əlaməti təsvir etməklə kifayətlənsin, eləcə də ona necə qulluq etdiyi barəsində danışsın və s.)

**2. Kitab üzərində iş** (5-6 dəq.)

Dərs kitab üzərində işlə davam edir. Müəllim şagirdlərə müraciət edir ki, kitabda verilən şəkillərə diqqətlə baxsınlar, sonra da şəkildə təsvir edilən canlı varlıqları adlandırsınlar.
- Deyin, onlar barəsində nə bilirsiniz?
- Onlar harada yaşayırlar?
- Onlara həyat üçün nə lazımdır?
- Onlar nəyin xaricində yaşaya bilməzlər?

Müəllim sualların vasitəsilə şagirdləri nəticəyə yönəltməlidir ki, hər bir canlı orqanizmə yaşaması üçün su, hava, qida, istilik, işıq lazımdır.

**3. Çalışma dəftərində iş** (3-4 dəq.)

Sonra müəllim çalışma dəftərində verilən çalışmanı göstərir və şagirdlərdən xahiş edir ki, hər bir sakinə evini tapmaqda kömək etsinlər (xətlərlə birləşdirməlidirlər).

**4. Sual-cavab** (3-5 dəq.)

Siz şəkildə meşə (quru) və su sakinlərini gördünüz. Onlar canlı mühitin ayrılmaz hissələrini təqdim edirlər.

– Yadınıza salın ki, canlı aləm cansız aləmdən nə ilə fərqlənir?

*(Ehtimal ki, canlı dünyaya gəlir, böyüyür, qidalanır, çoxalır və s.)*

Siz, yəqin, onu da gördünüz ki, onlardan hər birinə yaşaması üçün "ev" lazımdır. O, burada özünü müdafiə olunmuş hiss edir.

Gəlin, yada salaq: quşun "evi" necə adlanır *(yuva)*

Ayının "evi" *(mağara)*

Tülkünün "evi" *(yuva)*

Pələngin evi *(mağara, yuva)*

İtin "evi" *(dam)*

Dələnin "evi" *(koğuş)*

**5. Sinif diskussiyası** (5-8 dəq.)

Müəllim diskussiya üçün sual verir:
- Sizin fikrinizcə, onların həyatı üçün təhlükəni yaradan nədir?

Yaxşı olardı ki, müəllim heyvanı adlandırsın, şagirdlər isə hansı heyvanların onunla qidalandığını adlandırsınlar. Bundan irəli gələrək, onun üçün təhlükə yaradır, onun düşmənidir. Ehtimal ki: siçana – pişik, marala – canavar, arıya – quş, quşa – pişik və s.

**6. Əyani vəsait ("Üç donuz balası" cizgi filmi)** (5-10 dəq.)

Müəllim şagirdlərə "Üç donuz balası" cizgi filmini göstərir və ya eyni adlı nağılı oxuyur. Gördüklərindən və ya dinlədiklərindən irəli gələrək, şagirdlər nəticə çıxarırlar ki, onlara düşməndən qorunmaq üçün "ev" lazımdır.

**7. Dərsin yekunlaşdırılması** (3-5 dəq.)

Müəllim dərsi qısaca yekunlaşdırır və ev tapşırığını verir – növbəti dərs üçün yaşadıqları evin şəklini çəksinlər.

Tövsiyə videomateriali: https://www.youtube.com/watch?v=swmbvGmB9R8

## DƏRS 14

**Mövzu:** Ətrafımızda

**Dərsin başlığı:** Nə nədən hazırlanır?

**Dərsin məqsədi:**
Şagirdlər müşahidə əsasında şəxsi fikirlərini qeyd etməlidirlər;
Yayılmış maddələri/materialları tanımalıdırlar;
Sualları verməli və ehtimalları söyləməlidirlər;
Analiz əsasında nəticələr çıxarmalıdırlar;
Tərkibini nəzərə almaqla ətrafda mövcud cisimləri təsvir etməlidirlər;
Göstəriciləri toplamalı və qeydə almalıdır;
Kommunikasiyanın müxtəlif formasından istifadə etməlidir;
Eyni materialdan hazırlanmış cisimləri qruplaşdırmalıdır.

**MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:**
Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.
Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.
Təb.1.4. Şagird tərkib maddəsinin/materialın xassələrinin əsasında cisimləri müqayisə etməlidir.

**Nəticə əyanidir, əgər şagird:**
özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;
cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;
suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə);
verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;
fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir;
şəxsi gigiyena əşyalarını (məs., daraq, diş fırçası, dəsmal) adlandırır, gigiyena qaydalarına riayət edilməsi əhəmiyyəti barəsində müzakirə edir;
ətrafındakı cisimləri təsvir edir və onların tərkib əşyaları/material barəsində (məs., qayçı- dəmir, dəftər-kağız, pozan- rezin) söhbət aparır;
gündəlik həyatda yayılmış əşyaları/materialları tanıyır və adlandırır;
eyni əşyalardan/materialdan hazırlanmış əşyaları qruplaşdırır.
gündəlik həyatda yayılmış əşyaları/materialları tanıyır və adlandırır;
eyni əşyalardan/materialdan hazırlanmış əşyaları qruplaşdırır.

**1. Dərslik üzərində iş – "Üç donuz balasının evləri"** (5-10 dəq.)

Müəllim uşaqlardan soruşur ki, üç donuz balasının nağılını xatırlayırlarmı:

– Üç donuz balalarının adı nə idi? *(Nif-nif, Nuf-nuf və Naf-naf)*

Müəllim könüllüyə imkan verir ki, yoldaşlarına nağıl danışsın. Müəllim, lazım gəldiyi halda, yardım edir, lazımi xırdalıqları xatırladır.

Sonra uşaqlar dərslikdə üç donuz balası və onların evlərinin şəkli çəkilmiş səhifəni açırlar. Şagirdlər fərdi olaraq tapmalıdırlar ki, hansı ev hansı donuz balasına aiddir və nə üçün belə düşünürlər.

Müəllimin sualları:

Hansı ev samandan düzəlmişdir? Bu ev hansı donuz balasına aiddir? Nə üçün belə düşünürsünüz?

Hansı ev taxtadan düzəldilmişdir? Taxta ev hansı donuz balasına aiddir?

Kərpic ev hansıdır? Kərpic ev kimə aiddir?

– Hansı materialdan düzəlmiş ev möhkəm və dayanıqlıdır? Nə üçün?

– Saman ev hansı təhlükə ilə üzləşə bilər? *(yağış asanlıqla isladır, küləyə, tufana tab gətirmir....)*

– Bir neçə ildən sonra taxta evlə nə baş verir? *(taxtalar asanlıqla çürüyürlər, qurd yeyir, asanlıqla alovlanır).*

– Kərpicdən başqa evlərin düzəldilməsi üçün , bu gün nədən istifadə edirlər? *(bloklardan)*

– Kərpic və blok evdə nə üçün taxta materialdan istifadə olunur?

– Nə üçün evə örtük düzəldilir?

**2. Praktiki iş** (5-10 dəq.)

Gəlin, virtual olaraq yaşayış evini inşa edək: materialla təchiz olunaq və başlayaq.... Müəllim fəallıqda iştirak edən şagirdlərin yardımı ilə lövhədə ev şəklini çəkir, müvafiq olaraq, hər bir şagird çalışma dəftərinin göstərilən səhifəsində göstərilən yerdə ev şəklini çəkir.

Müəllim, yaxşı olardı ki, şəkil çəkilən zaman diqqəti "bənnanın" istifadə etdiyi tikinti materiallarına yönəltsin ki, evin hər bir hissəsi nədən hazırlanır. Məs.: örtük – tənəkədən və ya kirəmitdən olur (gil, dəmir); divarlar (kərpic, qum, sement), qapı-pəncərə (taxta), nərdivan dəstəkləri (dəmir, taxta) və s.

Şəkil çəkməyi başa vurduqdan sonra müəllim uşaqların diqqətini ona yönəldir ki, bir çox hallarda, insanın əli ilə düzəldilmiş tikinti materialı da təbii tərkibli olur (taxta, daş, qum, gil...). Amma insan tərəfindən icad olunan süni material da olur (plastikat, rezin və s.), bu sonuncunu daha yaxşı ayırd etmək məqsədilə, yaxşı olardı ki, müəllim əlinin altında olan əyani vəsaitdən, məktəb əşyalarından (xətkeş, flomaster, pozan, b.a. pasta) istifadə etsin, məktəbdə olduğu halda, metal-plastmas pəncərələri göstərsin.

**3. Diskussiya** (4-5 dəq.)

Müəllim diskussiya üçün suallar verir:

– Necə düşünürsünüz, insan tərəfindən istifadə edilən təbii material ətraf mühitə ziyan vururmu?

– Ehtimalınızı bildirin və fikrinizi əsaslandırın.

– Təbiəti xilas etmək üçün nəyi dəyişərdiniz? Çıxış yolunu fikirləşib tapın.

Diskussiyanı müəllim aparır. O, məsələnin mahiyyətini daha yaxşı araşdırmaq üçün şagirdlərə lazımi suallarla yardım edir (ehtimal ki,çoxlu sayda ağacların doğranılması nəyə səbəb ola bilər? Çayın məcrasından çox sayda qumun və daşın çıxarılması və s.?).

**4. Çalışma dəftərində iş – şəklin başa çatdırılması** (3-5 dəq.)

Tapşırıq fərdi və ya cütlüklərdə iş üçün :

Şagirdin dəftərinin müvafiq səhifəsində evlərin və çəpərlərin konturlu şəkli verilmişdir. Elə görünür ki, birinci ev çəpərin o biri tərəfindədir, ikinci ev – çəpərin bu tərəfində. Tapşırıq belədir: şagirdlər şəkil çəkməyi elə davam etdirməlidirlər ki, ikinci ev də çəpərin o biri tərəfində olsun. (uşaqlar başa düşməlidirlər ki, bunun üçün çəpərləri bir-biri ilə birləşdirmək – çəkmək lazımdır). Sonra müəllim yoxlayır ki, tapşırıq necə yerinə yetirilmişdir və şagirdlərdən şəkli rəngləməyi xahiş edir.

Səhifənin aşağı hissəsindəki şəkli müşahidə edin:

– Necə düşünürsünüz, oğlan evi nə üçün qurur? Nöqtələri birləşdirin və rəngləyin.

**5. Görmə yaddaşını çalışdırmaq üçün oyun** (2-3 dəq.)

Müəllim uşaqlardan xahiş edir ki, bir nəzərdən keçirməklə (yəni təxminən 10 sayana qədər) səhifənin yuxarı hissəsində verilən şəkli müşahidə etsinlər və kitabları örtsünlər (yəni həmin səhifəni örtsünlər). Şagirdlər yada salmalı və müəllimin verdiyi növbəti suallara cavab verməlidirlər:

– Şəkildə neçə ev var idi?
– Hansı evin buxar borusu var (soldakı və ya sağdakı)?
– Neçə quş uçurdu?
– Çəpərdə nə oturmuşdu?
– Həyətdə hansı ağac var idi? Alma ağacı harada yerləşirdi?
– Ağacda neçə alma var idi?

**6. Yekunlaşdırma (2-3 dəq.)**

Müəllim dərsdə təhlil edilən mövzunu yekunlaşdırır.

**7. Ev tapşırığı**

Yaşadığın evi diqqətlə öyrən (divarları tikmək üçün hansı materialdan istifadə edilmişdir, qapı-pəncərə üçün və s.) və növbəti dərs üçün onu təsvir edir. Yaxşı olardı ki, bu tapşırıq ailə üzvləri ilə birlikdə yerinə yetirilsin.

## DƏRS 15

| | |
|---|---|
| **Mövzu:** | Ətrafımızda |
| **Dərsin başlığı:** | Ailə harada yaşayır? |
| **Dərsin məqsədi:** | şagirdlər müşahidə əsasında şəxsi fikirlərini qeyd edə bilməlidirlər;<br>Gündəlik həyatda geniş istifadə edilən materialları tanımalıdırlar;<br>Suallar verməli və ehtimallar söyləməlidirlər;<br>Analiz əsasında nəticələr çıxarmalıdırlar;<br>Ətrafda mövcud cisimləri tərkibini nəzərə almaqla təsvir etməlidirlər;<br>Müxtəlif kommunikasiya formasından istifadə etməlidirlər;<br>Əşyanın tərkibi haqqında danışmalıdırlar;<br>Eyni materialdan hazırlanmış əşyaları qruplaşdırmalıdırlar;<br>Gigiyenaya əməl edilməsi zərurəti barəsində müzakirə aparmalıdırlar. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.<br>Təb.1.4. Şagird tərkib maddəsinin/materialın xassələrinin əsasında cisimləri müqayisə etməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə);<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;<br>fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir; |

| | |
|---|---|
| | şəxsi gigiyena əşyalarını (məs., daraq, diş fırçası, dəsmal) adlandırır, gigiyena qaydalarına riayət edilməsi əhəmiyyəti barəsində müzakirə edir; |
| | ətrafındakı cisimləri təsvir edir və onların tərkib əşyaları/material barəsində (məs., qayçı- dəmir, dəftər-kağız, pozan- rezin) söhbət aparır; |
| | gündəlik həyatda yayılmış əşyaları/materialları tanıyır və adlandırır; |
| | eyni əşyalardan/materialdan hazırlanmış əşyaları qruplaşdırır; |
| | şəxsi gigiyena əşyalarını (məs., daraq, diş fırçası, dəsmal) adlandırır, gigiyena qaydalarına riayət edilməsi əhəmiyyəti barəsində müzakirə edir; |
| | ətrafındakı cisimləri təsvir edir və onların tərkib əşyaları/material barəsində (məs., qayçı- dəmir, dəftər-kağız, pozan- rezin) söhbət aparır; |
| | gündəlik həyatda yayılmış əşyaları/materialları tanıyır və adlandırır; |
| | eyni əşyalardan/materialdan hazırlanmış əşyaları qruplaşdırır. |
| **Lazımi material:** | rəngli karandaşlar, qayçı, yapışqan, Əlavənin rəngli vərəqləri. |

**Dərsin gedişi:**

**1. Prezentasiya** (3-5 dəq.)

Dərsin başlanğıcında müəllim ev tapşırığını soruşur, sonra suallar verir:
- Ailə harada yaşayır?
- İnsanlar kənddə necə evlərdə yaşayırlar?
- Şəhərdə necə yaşayış evləri ilə qarşılaşırıq?
- Çoxlu ailələrin yaşadıqları çoxmərtəbəli yaşayış evi necə adlanır? *(korpus)*
Müvafiq fotoşəkillərə dərslikdə baxa bilərlər.

**2. Çalışma dəftərində iş** (10-15 dəq.)

**Fərdi iş**

Müəllim şagirdlərdən xahiş edir ki, çalışma dəftərinin müvafiq səhifəsində işləsinlər (müəllim uşaqların şəkillərinin sərgisini təşkil edə bilər. Belə halda, yuxarıda verilən tapşırığı uşaqlar A4 vərəqlərində yerinə yetirə bilərlər). Uşaqlar kitab qəhrəmanlarının evini ”tikməlidirlər”. Şagirdlərdən bəziləri şəhər evini seçir, bəziləri - kənd evlərini. Şagirdlər Əlavədəki rəngli kağızlardan fiqurlar kəsməli (kvadratlar, düzbucaqlılar, üçbucaqlar), vərəqə yapışdırmalı və evlər “tikməlidirlər”.

Sonra tərtib edə bilərlər – rəngli kağızlardan günəşi, ağacları, buludları kəsə, yapışdıra və ya çəkə bilərlər....

**3. İşlərin təqdimatı və təsviri** (3-5 dəq.)

Müəllim könüllülərdən (iki-üç şagirddən) xahiş edir ki, öz işlərini təsvir etsinlər, məsələn:
– Bu, həmin evdir, hansında ..... (məs., oğlan yaşayır);
– Bu, həmin evdir, hansında ..... (məs., qız yaşayır);
– Bu evdə... (hər ikisi yaşayırlar, oğlan – II mərtəbədə, qız – IV mərtəbədə);
– Bu evdə .... (ailə yaşayır: nənə, baba, ana, ata...) və s. Başqa variantları da düşünmək olar.

Öz işlərinin təqdimatından sonra, şagirdlərin A4 vərəqində işlədikləri halda, müəllim onların işlərini divara yapışdırır, yaxud da divar boyu asılmış kəndirə bərkidir (bu halda, kəndir elə bərkidilməlidir ki, şagirdlər asanlıqla ondan yapışa bilməsinlər).

**4. Dərslik üzərində iş – otaqların təsviri** (8-10 dəq.)

İndi müəllim uşaqlara evin daxilinə “baxmağı” və otaqları gözdən keçirməyi təklif edir. Bunun üçün şagirdlər dərslikdən müvafiq səhifəni açmalı və kəsikdə verilən otaqların şəkillərini müşahidə etməlidirlər:

I otaq – yataq otağı – rəfiqəmiz yuxudan durur və çarpayıdan qalxır;

II otaq – vanna otağı - əl-üzünü yuyur;

III otaq – mətbəx – uşaqlar orada səhər yeməyini yeyirlər;

IV otaq – qonaq otağı – uşaqlar burada oynayır və ya kitab oxuyurlar.

Tapşırıq cütlüklərdə yerinə yetirilir: şagirdlər dərk etməlidirlər ki, hansı otağın hansı təyinatı var və necə adlanır. Nə üçün belə düşündüklərini açıqlayırlar.

Sonra şagirdlər cütlüklərdə bir-birinin yardımı ilə (yaxud da sıra ilə - 2 şəkil bir şagird, 2 şəkil – ikinci şagird) şəkilləri təsvir edir və otaqların adlarını çəkirlər.

Bir neçə cütlüyün sorğusu kifayət edir ki, yaşayış evində otaqların hansı adlarının olduğu ayırd edilsin və bu adlar bir neçə dəfə təkrar olunmalıdır.

Müəllim bütün sinfə müraciət edir, amma suallara ötən fəallıqda iştirak etməyən cütlüklərin cavab verməsi daha yaxşı olardı.

Söhbət üçün suallar (verilən şəkillədən istifadə etməklə):

– Yataq otağının döşəməsini kim göstərəcəkdir? Döşəmə nədir? Onu hansı materialdan düzəldirlər? (taxta, daş, laminat döşəmə)

– Döşəmə aşağıda olur və ya yuxarıda?

– Kim göstərə bilər ki, bu otağın küncü haradadır? Bizim sinif otağında künc haradadır?

– Bu otaqda tavan görünürmü? Tavan yuxarıdadır və ya aşağıda?

– Sizin fikrinizcə, bayırda hava necədir?

– Divar saatı hansı otaqda asılmışdır?

– Vanna otağından çıxış qapısı sağdadır və ya solda?

– Qapı harada görünür? Qapının hansı təyinatı var?

– Qapının dəstəyini kim göstərər? Dəstəyin hansı təyinatı vardır?

– Vanna otağının suvadılması üçün nədən istifadə olunur? Divarlar, döşəmə nədən hazırlanmışdır? Əsaslandırın.

**5. Sual-cavab** (2-3 dəq.)

Müəllim uşaqların diqqətini yenə də mətbəx şəklinə yönəldir. Bu şəkildə evin xanımı zibil qutusuna nəyisə atır..

Müəllimin sualları:

– Necə düşünürsünüz, evin xanımı nə edir?

– Ailədə zibil nə üçün yığılır?

– Zibili döşəmənin üzərinə atsaq və zibil qutusunda yerləşdirməsək nə baş verəcəkdir?

– Fikirləşin və sadalayın ki, bu zibil qutusuna nə atıla bilər;

– Evdə yığılmış zibillə nə etməliyik? Hara aparmalıyıq?

– Siz valideynlərinizə kömək edirsinizmi və zibili atırsınızmı?

– Zibili həyətə atmaq olarmı? Nə üçün?

– Hər kəsin zibili həyətə atdığında nə baş verə bilər?

– Zibili sinif otağına atsaq nə baş verəcəkdir?

Sonda, müəllim şagirdlərdən xahiş edir ki, ətrafa nəzər salsınlar ki, döşəmə çirkli deyil ki? Belə olduğu halda, kağız qırıntılarını və ya başqa tullantıları toplamalı və zibil qutusuna yerləşdirməlidirlər.

**6. Dərsin yekunlaşdırılması** (2 dəq.)

## DƏRS 16

| | |
|---|---|
| **Mövzu:** | Ətrafımızda |
| **Dərsin başlığı:** | Mebel və şəxsi əşyalar |
| **Dərsin məqsədi:** | şagirdlər şəxsi gigiyena əşyalarını adlandırmalı və gigiyena qaydalarına əməl etmə zərurəti barəsində müzakirə aparmalıdırlar;<br>ətrafda mövcud əşyaları təsvir etməli və onların tərkib əşyaları/material barəsində söhbət etməlidirlər;<br>materialları tanımalı və adlandırmalıdırlar;<br>materialları asanlıqla müşahidə edilən xassələrin əsasında xarakterizə edə bilməlidirlər;<br>eyni materialdan hazırlanmış əşyaları qruplaşdırmalıdırlar. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.1.4. Şagird tərkib maddəsinin/materialın xassələrinin əsasında cisimləri müqayisə etməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;<br>ətrafındakı cisimləri təsvir edir və onların tərkib əşyaları/material barəsində (məs., qayçı- dəmir, dəftər-kağız, pozan- rezin) söhbət aparır;<br>gündəlik həyatda geniş yayılmış əşyaları/materialları tanıyır və adlandırır;<br>eyni əşyalardan/materialdan hazırlanmış əşyaları qruplaşdırır; |
| **Lazımi material:** | rəngli karandaşlar. |

### 1. Çalışma dəftərində iş – mebellə tanışlıq (7-9 dəq.)

Müəllim uşaqları kiçik qruplara bölür və xahiş edir ki, hər bir qrupun bir ailə olduğunu təsvir etsinlər; ailə yeni evə köçür, buna görə də onların ev əşyalarını da köçürmək lazımdır.

Şagirdlər çalışma dəftərində "Mebel və şəxsi əşyalar" verilmiş vərəqi açmalıdırlar; qruplar vərəqin yuxarı hissəsində verilən şəkilləri müşahidə edirlər – "hər bir ailə" (yəni qrup) 4 əşyanı seçməlidir və bunlar da onun üçün çox önəmlidirlər və ilk növbədə bu əşyaları köçürmək istəyir (digər əşyaları yalnız üç gündən sonra köçürmək imkanları olacaqdır). Uşaqlar qruplarda razılaşmalı və seçdikləri 4 əşyanı rəngləməlidirlər.

Prezentasiya zamanı hər bir qrup seçdikləri əşyaları adlandırır və belə bir seçimi nə üçün etdiyini açıqlayır (yəni nə üçün düşünürlər ki, bu əşyalar onlar üçün çox önəmlidir). Paralel olaraq, şagirdlər hər bir əşyanın təyinatı və ailə üçün önəmli olması barəsində müzakirələr aparırlar.

Ehtimal ki, qruplar tərəfindən edilmiş seçim eyni olmayacaq və hər bir verilən əşyanı adlandırmaq və xarakterizə etmək lazım gələcəkdir. Məsələn, hər hansı bir əşyanın heç bir qrupa düşmədiyi halda, müəllim sual verir ki, nə üçün heç kim onu seçməmiş – ümumiyyətlə, bu əşya evdə onlara lazımdırmı və ya gələn dəfə aparacaqlar?

Fəallığın sonunda müəllim şagirdlərdən xahiş edir ki, əşyaların – kətil, masa, çarpayı, dolab, divan, kürsü – ümumi adını söyləsinlər. Heç kimin cavab verə bilmədiyi halda, izah edir ki, bütün bunlar mebel adlanırlar.

### 2. Sinif otağında oxşar təyinatlı əşyaları tapmaq (2-3 dəq.)

Müəllim sual verir: sinif otağında hansı mebel vardır?

Şagirdlər sinif otağını gözdən keçirirlər və buradakı mebeli adlandırırlar. Nəyisə unutduqları halda, müəllim əli ilə işarə edir və soruşur ki, bu əşya nədir? Necə düşünürsünüz, bu da mebelə aiddir və ya yox?

**3. Oyun – "səslə tapaq"** (5-6 dəq.)

Oyun iki böyük qrup arasında aparılır. Bir qrupun üzvləri divara tərəf çevrilirlər, onlar görməli deyillər ki, müəllim ikinci qrupa sinif otağında hansı əşyanı göstərir. Müəllim ikinci qrupun şagirdlərinə hər hansı bir əşyanı göstərir – onlar müxtəlif üsullarla şəkil çəkməli və onu təsvir etməlidirlər – böyükdür və ağırdır, yaxud da kiçik və yüngüldür. Nədən ibarət olduğunu, hansı hissələrinin olduğunu, açılıb-açılmadığını, hansı rəngdə olduğunu, səthinin necə olduğunu, qoxusunun olub-olmadığını, elastiki olub-olmadığını və s. adlandırmalıdırlar. Birinci qrupun şagirdləri müəllimin hansı əşyanı göstərdiyini başa düşməlidirlər (məs., dolabı göstəribsə – uşaqlar təkcə bunun dolab olmağını deyil, eləcə də ağır və böyük əşya olduğunu tapmalıdırlar; kitab göstərildiyi halda – şagirdlər əşyanı birinci qrupun üzvləri tapana qədər xarakterizə etməlidirlər).

Oyundan sonra yaxşı olardı ki, uşaqlar oyun zamanı necə qavradıqlarını və hansı təsəvvürlərinin, hansı duyğularının olduğunu açıqlasınlar.

**4. Çalışma dəftərində iş – şəxsi əşyalarla tanışlıq** (5-7 dəq.)

Müəllim uşaqlardan xahiş edir ki, yenə də çalışma dəftərinə qayıtsınlar və səhifənin aşağı hissəsini müşahidə etsinlər:

– Burada hansı əşyaların şəkli çəkilmişdir?

– Onları şəxsi əşyalar adlandıra bilərikmi?

– Nə üçün adlandırırıq, şəxsi əşyalar nəyi bildirirlər?

Cütlüklərdə iş üçün tapşırıq:

Müəllim izah edir ki, bəzi şəxsi əşyaları başqasına vermək olmaz, bəzilərini isə - olar. Şagirdlər cütlüklərdə razılaşmalı və tapmalıdırlar ki, verilən əşyalardan hansını vermək olmaz və şəkilləri rəngləməli və dairəyə almalıdırlar (məsələn, daraq, diş fırçası, dəsmal, yaylıq, sabun).

Müəllim növbə ilə cütlüklərdə yerinə yetirilmiş tapşırığı yoxlayır – uşaqlar seçdikləri əşyaları adlandırmalı və əsaslandırmalıdırlar ki, bu əşyaları başqasına nə üçün vermək (yəni başqası tərəfindən bunun istifadəsi) olmaz.

Müəllim bir neçə cütlüyə sual verir, sonra da qalan əşyaları da (qayçı, günəş eynəyi, paltar şotkası, ətir) şagirdlərə adlandırır və xahiş edir ki, fikirlərini bildirsinlər – onları nə üçün vermək olar, daha doğrusu, başqaları tərəfindən onların istifadəsi mümkündür.

**5. Dərslik üzərində iş – "Yoldaşımıza özünə qulluq etməyi öyrədək"** (5-7 dəq.)

Qruplarda iş üçün tapşırıq:

Dərsliyin növbəti səhifəsində oğlan şəkli verilmişdir (aşağıda onun dişləri və əl barmaqları görünür). Müəllim: oğlana nə olmuşdur, nə üçün belə görünür?

Qruplar fikirləşməlidirlər ki, həmyaşıdlarına necə yardım edə bilərlər ki, təmizlənsin və özünü səliqəyə salsın (əl-üzünü yumalı, dişlərini fırçalamalı, saçını daramalı, paltarını dəyişməli və dırnaqlarını kəsməlidir).

Qrup üzvləri öz çıxışlarında həmyaşıdlarına nəyi və necə edəcəyini məsləhət görürlər.

Sonra müəllim uşaqlara söyləyir ki, bu oğlan dişlərini necə fırçalayacağını bilmir. "Buna görə də ona dişlərini fırçalamaqda kömək etməliyik".

Müəllim uşaqlara izah edir ki, diş fırçasını necə istifadə etməlidirlər. Bunun üçün öz fırçasını götürür və (yaxud da verilən şəkildə) fırçanın hər bir istiqamətdə hərəkətini göstərir: yuxarı, aşağı, sola, sağa, daxili tərəfdən. Sonra izah edir ki, fırçanı istifadə etdikdən sonra yaxşı yumaq və saxlamaq lazımdır.

Sonda, müəllim ümid edir ki, bundan sonra kitabın qəhrəmanı və onun şagirdləri gündə iki dəfə, səhər-axşam, dişlərini düzgün fırçalayacaq və onların ağ, sağlam dişləri olacaqdır.

**6. Sinif diskussiyası** (3-5 dəq.)

Müəllim diskussiya üçün suallar verir:

– Şəxsi əşyalara daha nəyi aid etmək olar?

– Ayaqqabını (şalvarı, papağı...) başqasına vermək olarmı? Nə üçün?
– Şəxsi əşyalara necə qulluq etməliyik? Onları təmiz necə saxlaya bilərik?...

**7. Dərsin yekunlaşdırılması** (3-5 dəq.)

Tövsiyə üçün videomaterial: https://www.youtube.com/watch?v=DEWGBw95bJw

## DƏRS 17

**Mövzu:** Payız

**Dərsin başlığı:** Payız

**Dərsin məqsədi:**

Şagirdlər öyrənilən obyekti müşahidə edə bilməlidirlər;

Praktiki fəallıqlarda iştirak etməlidirlər;

Canlı cisimləri qruplaşdırmalıdırlar;

İlin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir etməlidirlər;

Bitkilər üçün xarakterik dəyişiklikləri təsvir etməli və müvafiq sübutlar gətirməlidirlər;

Canlı cisimlərin əsas əlamət-xassələrini təsvir etməli və onları cansızlardan fərqləndirməlidirlər;

Ətraf mühit amillərinin orqanizmlərə təsirini araşdırmalıdırlar.

**MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:**

Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.

Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.

Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir.

Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır.

Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir.

**Nəticə əyanidir, əgər şagird:**

özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;

təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir;

cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;

verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;

tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz“, “şokolad şirindir – dil” yaxud “qar ağdır və soyuqdur – göz və dəri”, “limon sarıdır və turşdur – göz və dil”);

tanış bitkilərin əsas hissələrini tanıyır və adlandırır (məs., gövdə, yarpaq, kök, çiçək, meyvə);

Məktəb mühitində (məs., sinif otağı, məktəbin dəhlizi, məktəbin həyəti, idman zalı, tualet, bufet, həkimin kabineti, böyükləri gözlədiyi yer) mövcud obyektləri tanıyır və sadalayır və onların təyinatı barəsində danışır;

| | |
|---|---|
| | ilin fəsillərini adlandırır və bir-biri ilə müqayisə edir, onları fərqləndirən işarələr barəsində müzakirələr aparır, onların hər biri üçün xarakterik hava barəsində danışır; |
| | ilin fəsillərinə əsasən insanın fəaliyyəti (məs., bitkilər əkmək, məhsul yetişdirmək, məhsul yığımı), heyvanların hərəkəti (məs., quşların uçuşu, qış yuxusu) və bitkilər üçün xarakterik dəyişikliklərin (məs., çiçəkləmə, yarpaq tökülməsi) misallarını sadalayır. |
| **Lazımi material:** | yapışqan, rəngli kağızlar, qayçı, rəngli karandaşlar və ya flomasterlər, yarpaqlar. |

**Dərsin gedişi:**

**1. Məktəbin həyətinə ekskursiya** (25 -30 dəq.)

Müəllim dərs başlayan kimi uşaqları planla tanış edir:

– Bu gün dərs məktəbin həyətində keçiləcəkdir, buna görə də diqqətli olun və həyətdə davranış qaydalarına əməl edin (ətrafa dağılmayın, səs salmayın və diqqətlə məni dinləyin...). Ekskursiya-dərs ilin müvafiq vaxtı – payızla əlaqədardır.

Müəllim uşaqları mütəşəkkil olaraq məktəbin həyətinə çıxarır və əkililəri nəzərdən keçirtdirir. Ağac-bitkilərdən, otlardan və kollardan artıq payızın izi görünür: bəzisinin yarpaqları narıncı-sarı rəngdədir, bəzisinin yarpaqları artıq tökülmüşdür. Müəllim suallarla uşaqlara bu hadisəni göstərməyə çalışır; əgər məktəbin həyətində üzüm və ya başqa meyvə yetişirsə, mütləq buna da diqqəti yönəltmək lazımdır, payızda bir çox meyvələrin yetişdiyini qeyd etməli və izah etməlidir.

Sonra müəllim suallar verir:

– Necə düşünürsünüz, bu daş payızda hər hansı bir dəyişikliyə məruz qalırmı?

– Nə üçün belə düşünürsünüz?

– Hansı canlıdır, ağac və ya daş? Kol və ya daş? Qarışqa və ya daş?

– Ətrafınızda daha hansı canlıları görürsünüz?

– Daşdan başqa cansız nələri görürsünüz?

(Bu və ya buna bənzər sualların vasitəsilə, təbiəti müşahidə etdikdə uşaqların özləri canlı və cansız obyektlərin əsas əlamət-xassələrini təsvir edə və müqayisə edə biləcəklər).

Müəllim uşaqlara izah edir ki, payız özünü cansız təbiətdə də göstərir: göyün üzünə baxın – yay ilə müqayisədə, payızda buludlar daha tünd və kölgəli olur. Günəş işıq saçanda, yaydan fərqli olaraq, şüaları qızğın olmur, buna görə də hiss ediləcək şəkildə sərin olur; yağış yağanda isə - bu, yayın leysan yağışı olmur, yağış uzun zaman dayanmadan və bezdirici şəkildə yağır, şimşək də nadir hallarda çaxır.

Sonra müəllim uşaqlardan xahiş edir ki, yerə düşmüş yarpaqlardan bir neçəsini seçsinlər və təsvir etsinlər. Məlum olacaqdır ki, yarpaqların hamısı eyni rəngdə deyillər – yarpaqların müxtəlif rəngləri olur, amma sarı rəng daha çoxdur.

Müəllim uşaqlardan xahiş edir ki, yarpaqları forması, böyüklüyü, rənginə əsasən bir-biri ilə müqayisə etsinlər – dəqiq iki eyni yarpaq tapmaq olarmı?

Bu tapşırığı yerinə yetirdikdən sonra uşaqlar nəticə çıxarmalıdırlar ki, iki eyni yarpağı axtarıb tapmaq mümkün deyil. Müəllim isə bildirir ki, təbiətdə belə bir şey yoxdur – yarpaqlar bir-birinə çox bənzəyə bilərlər, amma iki eyni dəqiqlikdə yarpaq yoxdur, hər biri təkrar olunmazdır. Şagirdlər yarpaqları özləri ilə sinif otağına gətirirlər.

Həyətdə olduqda, müəllim uşaqları zibilli yerə (belə birinin olduğu halda) aparır, - baxın, gözünüzə pis dəyən nədir? Ətraf mühiti çirkləndirən nədir. Müəllim uşaqları belə bir fikrə yönəltməlidir ki, zibil və tullantılar ətraf mühiti çirkləndirir və natəmiz edir. Bunları mütləq zibil qutusuna yerləşdirmək lazımdır. Müəllim zibilləri toplamaq üçün əvvəlcədən gigiyenik əlcəkləri hazırlayır. O, şagirdlərə əlcəkləri və zibil üçün ayrılmış polietilen paketləri paylayır və həyətdə tapılmış zibili yığmağı və zibil qutusuna atmağı xahiş edir. Müəllim uşaqların diqqətini yerə tökülmüş yarpaqlara yönəldir və sual verir: yarpaqları məişət tullantısı hesab edirsinizmi və cavabı əsaslandırmağı xahiş edir.

**Oyun – yarpaq tökümü** (5-6 dəq.)

Müəllim həyətdə (və ya sinif otağına qayıdıb orada oynaya bilərlər) uşaqları kiçik qruplara bölür. Hər bir qrup jest-mimikanın vasitəsilə sarı yarpağı canlandırmalıdır (tökülmə və ya havada küləyin oynatması səhnəsi: nəyi hiss edir, nəyi hiss edir, nədən qorxur, ağacdan düşməyə sevinirmi və ya yox, və s. – uşaqların fantaziyası bu cəhətdən sonsuzdur). Ola bilsin ki, oyunda bütün qrup iştirak etsin – yaxşı olardı ki, heç bir könüllü diqqətsiz qalmasın və hər birinə oyun imkanı verilsin.

**2. Çalışma dəftərində iş** (4-5 dəq.)

Müəllim şagirdlərdən xahiş edir ki, çalışma dəftərini açsınlar və payızın yarpaqlarını rəngləsinlər.

**3. Dərsin yekunlaşdırılması** (1-2 dəq.)

Müəllim dərsi yekunlaşdırır – şagirdlər yada salırlar ki, bu gün yeni və maraqlı nəyi gördülər və başa düşdülər, nəyi xatırladılar, nəyi bəyəndilər və ya bəyənmədilər....

**Tövsiyə:**

Bu cür dərsdə uşaqların bir çox sualı baş yaranır qaldırır. İmkan daxilində hər bir könüllüyə imkan verin ki, onları maraqlandıran barəsində suallar versinlər və bu sualların cavabını dərhal verməyə çalışmayın, əksinə imkan yaradın ki, istədikləri cavaba özləri çata bilsinlər.

Həyətdə olanda quşların uçmağa hazırlaşdıqlarını duyduğunuzda, mütləq şagirdlərin də diqqətini buna yönəldin ki, müşahidə etsinlər, fikirləşsinlər, onların davranışlarını müzakirə etsinlər və onu ilin müvafiq dövrü ilə əlaqələndirsinlər.

Tövsiyə materialı: https://www.youtube.com/watch?v=wq-CxSiOnjE

## DƏRS 18

| | |
|---|---|
| **Mövzu:** | Payız |
| **Dərsin başlığı:** | Payızın rəngləri |
| **Dərsin məqsədi:** | Şagirdlər ilin fəsillərinin bir-birini əvəz etməsi ilə bağlı dəyişiklikləri təsvir edə və müqayisə edə bilməlidirlər;<br>Təbiət hadisələrini müşahidə etməli və onları təsvir etməlidir;<br>Sutka ərzində müşahidə olunan dəyişikliklərin adları və bununla bağlı öz işini təsvir edə bilməlidir;<br>İlin fəsillərinə əsasən paltarı çeşidlərə ayırmalıdır;<br>Praktiki fəallıqlarda iştirak etməlidir;<br>Kollaj hazırlamalıdır. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir;<br>fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir.<br>gecə-gündüz ərzində müşahidə olunası dəyişiklikləri adlandırır;<br>ilin fəsillərini adlandırır və bir-biri ilə müqayisə edir, onları fərqləndirən işarələr barəsində müzakirələr aparır, onların hər biri üçün xarakterik hava barəsində danışır; |

**Lazımi material:** A4 vərəqləri, yapışqan, rəngli kağızlar, qayçı, rəngli karandaşlar və ya flomasterlər, yarpaqlar.

**Dərsin gedişi:**

**1. Ötən dərs mövzusu və məktəbin həyətində ekskursiya nəticəsində alınan təəssüratlar barəsində söhbət** (4-5 dəq.)

Müəllim şagirdlərdən soruşur ki, ötən dərsi yada salsınlar.
Ətraf mühitdə hansı rənglər çoxluq təşkil edirdi?
Ən çox nəyi yadda saxladılar?

**2. Sual-cavab** (4-5 dəq.)

Müəllim şagirdlərə uşaqlar üçün şeiri oxuyur (yaxşı olardı ki, əzbər öyrətsin):
Yaz, yay,
Payız, qış,
Budur sənin dörd fəslin,
İl hazırdır".
Qiorqi Sereteli

**3. Dərslik üzərində iş** (5-6 dəq.)

Müəllim dərslikdə verilən müvafiq dərsi göstərir və xahiş edir ki, verilən şəkillərə əsasən ilin fəsillərini təsvir etsinlər.

Sonra da suallar verir:
- İldə neçə fəsil vardır?
- Təbiət bu fəsillərə əsasən dəyişirmi?
- Təbiətin dəyişkənliyi insan həyatına və əməyinə təsir göstərirmi və ya yox?
- Heyvanlara?
- Bitkilərə?

**4. Tematik söhbət** (4-5 dəq.)

Payız sentyabr ayı ilə başlayır. Onun arxasında oktyabr və noyabr ayları gəlir. Gürcüstanda payızın əvvəlində, təbiətin dəyişməsi demək olar ki, hiss edilmir, amma sentyabrın axırlarından gecə uzanır, gündüz isə qısalır. Günəş şüaları yayda olduğu kimi o qədər qaynar və isti olmur. Oktyabrın sonunda isə hiss ediləcək şəkildə sərin olur.

Yayın təmiz səması göylüyü və bəzən də ağ buludları özünü bəyəndirirdisə, payız səmasında göyün üzündə boz rəngli buludlar çoxluq təşkil edir, tez-tez yağış yağır, payızın axırlarında isə dayanmadan yağış səpələyir. Torpaq gec quruyur. Müvafiq olaraq, torpaq və hava daha da soyuyur.

Ətrafda möcüzəvi rənglərdir, payızın rəngləri... Sanki ağaclar şənliyə hazırlaşırlar: müxtəlif paltar geyinir, amma yenə də ətrafda qəmli sükut və sakitlik vardır. Sarı, qırmızı, qızılı, bəzi yerlərdə yaşıl, qəhvəyi yarpaqlar külək əsdikdə havada fırlanırlar, əsirlər və çarəsiz torpağa düşürlər. Sonda yarpaqları tökülmüş ağaclar və kollar tam çılpaqlaşırlar. Sanki təbiət yorulub və uzun yuxuya hazırlaşır.

**5. Kollajın hazırlanması** (15-20 dəq.)

Müəllim sinfi cütlüklərə bölür, şagirdlərə ötən dərsdə topladıqları yarpaqları paylayır və tapşırıq verir ki, A4 kağızında payızın şəklini hazırlasınlar. Bunun üçün şagirdlər gətirdikləri yarpaqlardan i, çalışma dəftərinin sonunda verilən rəngli vərəqlərdən istifadə etməlidirlər; müxtəlif rəngdə fiqurlardan yarpaqlar kəsib yarpaqlarla birlikdə yapışdıra bilərlər. Şagirdlər iriölçülü yarpaqları kəsib və bunlardan istifadə edə bilərlər.

İşi başa çatdırdıqdan sonra prezentasiya keçirilir. Uşaqlara (və ya cütlüklərə) imkan verilməlidir ki, bütün sinfə işlərini göstərsinlər və təsvir etsinlər, öz hisslərini və fikirlərini bildirsinlər.

Müəllim hər irəli çıxan şagirdin işini sıra ilə toplayır və divara bərkidir. Bu yolla ümumi şəkil, kollaj yaranır.

**6. Dərsin yekunlaşdırılması** (2 dəq.)

Keçilən dərsi qısaca yekunlaşdırın.

**Tövsiyə:**

Belə bir dərs səs-küyə və canlanmaya səbəb olur. Şagirdlərə imkan verin ki,öz təəssüratlarını və fantaziyalarını məhdudiyyətsiz ötürə bilsinlər.

Diqqət verin ki, şagirdlərin partaları üzərində və sinif otağında toplanan tullantıları şagirdlərdən hər biri özü zibil qutusuna atsın.

Kollajların hamısını göstərməyə-təhlil etməyə vaxt qalmadığında, mütləq onların divarda və banerdə sərgisini təşkil edin və şagirdlərə izah edin ki, bütün bunlar uzun müddət burada qalacaq və hər kəsin gözdən keçirmək imkanı olacaqdır.

## DƏRS 19

| | |
|---|---|
| **Mövzu:** | Payız |
| **Dərsin başlığı:** | Məhsul yığımı |
| **Dərsin məqsədi:** | Şagirdlər ilin fəsilləri ilə, xüsusilə də payızla bağlı insan fəaliyyətini (məhsul yığımı, bitkilərin əkilməsi) təsvir etməlidirlər;<br>Payız aylarının adlarını yadda saxlamalıdırlar;<br>Hadisələri illüstrasiyada tanımalı və təsvir etməlidirlər;<br>Şəxsi fikirləri və müşahidə nəticələrini qeyd etməlidirlər;<br>Bitkilərin əsas hissələrini adlandırmalıdırlar. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir.<br>Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə);<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;<br>tanış bitkilərin əsas hissələrini tanıyır və adlandırır (məs., gövdə, yarpaq, kök, çiçək, meyvə);<br>ilin fəsillərini adlandırır və bir-biri ilə müqayisə edir, onları fərqləndirən işarələr barəsində müzakirələr aparır, onların hər biri üçün xarakterik hava barəsində danışır;<br>ilin fəsillərinə əsasən insanın fəaliyyəti (məs., bitkilər əkmək, məhsul yetişdirmək, məhsul yığımı), heyvanların hərəkəti (məs., quşların uçuşu, qış yuxusu) və bitkilər üçün xarakterik dəyişikliklərin (məs., çiçəkləmə, yarpaq tökülməsi) misallarını sadalayır. |
| **Lazımi material:** | rəngli karandaşlar və ya flomasterlər. |

**Dərsin gedişi:**

**1. Gürcüstan üzümçülük ölkəsidir – qısa mühazirə** (3-5 dəq.)

Bizim üzümlərimiz dünyada ən qədim üzümlərdəndir, bu da onu bildirir ki, çox qədim dövrlərdən gürcülər üzümçülüklə məşğul idilər.

Üzümün dərilməsi meyvə yığımı (gürcücə: rtveli) adlanır. Adətən, üzümün dərilməsi və şirəsinin süzülməsi Gürcüstanda oktyabrdan başlayır. Oktyabr ayı qədimlərdə məhsul yığımı ayı adlanırdı, bundan başqa bu ayı şərabçılıq ayı da adlandırırdılar.

Üzüm şirəsinin süzülməsi üçün ayrılmış yer "marani" adlanır, üzüm əzilən və süzdürülən qab isə - satsnaxeli adlanır. Qədimlərdə də, indi də üzümün süzülmüş şirəsini küpəyə doldururlar.

**2. "Məhsul yığımı" – şəklin təsviri** (5-8 dəq.)

Gürcüstanda payızda ənənəvi bayram keçirilir – məhsul yığımı (rtveli), yəni üzümün dərilməsi. Üzüm dərilməsində iştirak etmək hamı üçün maraqlı olur – qadınlar da, kişilər də, uşaqlar da və yaşlılar da sevinirlər.

Müəllim:

– Siz üzüm yığılmasında iştirak etmisinizmi?

– Üzüm yetişdirən bitki necə adlanır?

– Onun gövdəsi necə olur? Yarpağı?

– Hansı rəngdə meyvəsi olur?

Müəllim şagirdlərdən xahiş edir ki, üzüm dərilməsi ilə bağlı təəssüratları və hisləri ilə paylaşsınlar. Sonra da kitabları açıb Kaxeti bölgəsində üzüm yığımı üçün xarakterik olan parçalar təsvir edilmiş şəkilləri göstərir. Müəllim uşaqlardan xahiş edir ki, cütlüklərdə fikirləri ilə paylaşsınlar və şəkillərdə nəyin verildiyini təsvir etməyə çalışsınlar; ilin hansı mövsümü təsvir edilmişdir....

Sonra bir neçə şagird şəkillərdə əks olunmuş hərəkətləri təsvir edir, yaxşı olardı ki, onlar bir-birinin ifadələrini tamamlasınlar, müəllim də suallarla yardım edir və uşaqların üzüm yığımı haqqında az-çox tam təsəvvürləri yaranır.

**3. Rollarla oyun "Üzüm yığımında"** (6-7 dəq.)

Müəllim uşaqları kiçik qruplara bölür və tapşırıq verir: hər bir qrup fikirləşməli və pantomima vasitəsilə, sözsüz üzüm yığımının hər hansı bir parçasını təqdim etməlidir. Başqa qruplar isə tapmalıdırlar ki, dostları hansı parçanı canlandırmış, təsvir etmişlər. Qrupların hər biri sıra ilə tamaşa qururlar.

**4. Oyun "payız ayları"** (4-5 dəq.)

Müəllim suallar verir:

– Kim bilir, indi payızın hansı ayıdır?

– Payızın daha hansı aylarını tanıyırsınız?

– Kim payızın üç ayını ardıcıllıqla adlandıra bilər?

Bu suallara müəllim, ola bilsin ki, tam qənaətbəxş cavab ala bilər, amma ayların ardıcıllığını bilməyən şagirdlər də ola bilər. Bu halda, müəllim belə bir oyunu təklif edir:

Sentyabr bildirən bir dəfə əl çalmaq.

Oktyabrı – iki dəfə əl çalmaq.

Noyabr – 3 dəfə əl çalmaq.

Müəllim bir neçə dəfə qarışıq əl çalır – gah bir dəfə, gah üç dəfə, iki dəfə, yenə də üç dəfə və s. Uşaqlar ayları tapmalı və adlandırmalıdırlar. Sonra müəllim şagirdlərdən xahiş edir ki, daha diqqətlə qulaq assınlar, əvvəlcə bir dəfə əl çalacaq, sonra – 2 dəfə, axırda – 3 dəfə və deyir ki, payız ayları məhz bu ardıcıllıqla bir-birini əvəz edir və hər üç əl çalmanı yenə də təkrarlayır.

Şagirdlər bilməlidirlər ki, ardıcıllıq belədir: sentyabr, oktyabr, noyabr.

**5. Çalışma dəftərində iş – "Həmyaşıdlarımıza yardım edək"** (4-5 dəq.)

**Qruplarda iş:**

Çalışma dəftərində göstərilən səhifənin yuxarı hissəsində bizim bələdçilərimiz görünürlər. Onlar düşüncəli şəkildə iki kvadrata baxırlar. Kvadratların xanalarında şəkillər verilmiş, bir xana isə boşdur.

Şagirdlər tapmalıdırlar ki, bu xanalarda nəyin şəkli olmalıdır və çəkməlidirlər.(bir kvadratda üç eyni əşya olduğundan, boş xanada da əksik olan məhz həmin üçüncü əşyanın şəkli çəkilməlidir; bir halda yarpaq və ikinci halda – alma).

Müəllim şagirdlərdən müstəqil işləməyi xahiş edir.

Yerinə yetirilmiş tapşırıqları göstərdikdən sonra məlum olacaqdır ki, kim düzgün tapmışdır. Uşaqlar izah etməlidirlər ki, necə başa düşdülər, düzgün cavabı necə təyin etdilər.

**6. "Rəssam nəyi səhv salmışdır?"** (4-5 dəq.)

Həmin səhifənin aşağı hissəsində payızın sonunu əks etdirən şəkil verilmişdir – soyuq hava, yarpaqları tökülmüş ağaclar...

Şagirdlər qruplarda işləməli və tapmalıdırlar ki, bu şəkildə hansı uyğunsuzluq vardır: 1. Yuvada qaranquş balaları ilə birlikdə və II. Bənövşə gülü yerə tökülmüş yarpaqların arasında. Uşaqlar izah etməlidirlər ki, nə üçün bu halda rəssamın səhv saldığını düşünürlər.

**7. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

**Tövsiyə:**

Müəllim bu dərslərdə verilən fəallıqlardan öz nəzərinə əsasən istifadə edə bilər (fəallıqların hamısını istifadə etmək vacib deyil), sinfin əhval-ruhiyyəsini və imkanlarını nəzərə almaqla.

Dərs başlayana qədər yaxşı olardı ki, hansı fəallığa nə qədər vaxt sərf edəcəyinizi nəzərə alasınız ki, dərs vaxtında yaxşı yerləşə biləsiniz;

Şagirdlər suallar üzərində düşündüklərində çalışın ki, onların suallarının dərs mövzusundan – payızdan kənara çıxmamasına yardım edəsiniz.

Vaxtınız qaldığında, dərsin sonunda bir daha payız aylarını və onların ardıcıllığını təkrarlayın.

**8. Ev tapşırığı**

Müəllim dərsin sonunda şagirdlərdən soruşur ki, növbəti dərs üçün hər hansı bir meyvə (1 ədəd) gətirsinlər.

## DƏRS 20

| | |
|---|---|
| **Mövzu:** | Payız |
| **Dərsin başlığı:** | Biz meyvəni sevirik |
| **Dərsin məqsədləri:** | Şagirdlər əşyanı müxtəlif xüsusiyyətlərinə əsasən təsvir edə bilməlidirlər;<br>Bitkinin meyvəsini, xüsusilə də meyvəni faydalı qida məhsulu kimi dərk etməlidirlər;<br>Müxtəlif meyvəni tanımalı/xarakterizə etməlidirlər;<br>Hissiyyat orqanlarının vasitəsilə müşahidə etməlidirlər;<br>İllüstrasiya və gerçəklikdə əşyanı tanımalıdırlar;<br>Kommunikasiyanın müxtəlif formalarından istifadə etməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.<br>Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir; |

| | |
|---|---|
| | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |
| | fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir; |
| | tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz“, “şokolad şirindir – dil” yaxud “qar ağdır və soyuqdur – göz və dəri”, “limon sarıdır və turşdur – göz və dil”); |
| | insan üçün heyvanların və bitkilərin əhəmiyyəti barəsində müzakirələr aparır (məs., bitkilərin müxtəlif hissəsinin qida üçün, tikinti materialı üçün, ətraf mühitin gözəlləşdirilməsi üçün istifadəsi; heyvanların və insanların dostluğu; heyvanların verdikləri qida məhsulları). |
| **Lazımi material:** | müxtəlif meyvə, səbət, rəngli karandaşlar və ya flomasterlər, plastilin. |

**Dərsin gedişi:**

**1. Dərslik üzərində iş** (5-6 dəq.)

Dərsliyin müvafiq səhifəsində, yuxarı hissədə bazar şəkli verilmişdir, daxılın üzərində müxtəlif meyvə verilir – demək olar ki, payızda Gürcüstanda təsadüf edilən bütün meyvələr: şaftalı, armud, alma, üzüm və s. Bizim dostlarımız da buradadırlar, onları bazara meyvə seçmək və almaq üçün gətirmişlər.

Müəllim şagirdlərdən soruşur ki, cütlüklərdə şəklə diqqət yetirsinlər və sonra təsvir etsinlər. Şəkli təsvir etdikdə şagirdlər meyvəni tapmalı və adlandırmalıdırlar.

Müəllimin əlavə sualları:

– Siz hansı meyvəni sevirsiniz?

– Necə düşünürsünüz, meyvənin sağlamlıq üçün niyə faydalı olduğunu deyirlər?

Şəkli araşdırdıqdan və bu söhbətdən sonra müəllim uşaqlardan xahiş edir ki, çalışma dəftərinin müvafiq səhifəsini açsınlar, orada şəkli çəkilmiş meyvəni adlandırsınlar və sonra rəngləsinlər. Uşaqlara xatırladır ki, canlı və cansız təbiət vardır (onları təbiətdə bir dəfə bir-birindən ayırmışlar).

– Sizin fikrinizcə, canlı təbiət meyvə verir və ya cansız?

– Bitkilərə meyvəni və ya heyvanları aid etməliyik?

– Bilirsinizmi, meyvə verən ağaclar necə adlanırlar? *(meyvə ağacı)*

– Belə bir ağacların əkildiyi yer necə adlanır? *(meyvə bağı)*

**2. Sual-cavab** (3-5 dəq.)

Müəllim payız haqqında söhbəti davam edir və təkrar edir ki, payız ilin həmin fəslidir ki, bu zaman kəndli bütöv ilin məhsulunu yığır və yerləşdirir. Payız bərəkətli və bol olduğunda, müvafiq olaraq, qışın qorxusu olmur – bazar da dolu olur və ailə də təmin olunur.

– Necə düşünürsünüz, payızda quşların və heyvanların davranışı dəyişirmi?

Fikrini əsaslandır (köçəri quşlar, heyvanların hazırlığı və s.)

**3. Meyvə sərgisinin təşkili** (6-8 dəq.)

Qruplarda iş üçün tapşırıq:

Şagirdlərə bu dərs üçün evdən bir ədəd istənilən meyvəni gətirmək tapşırılmışdı. Müəllim sinfi qruplara bölür və uşaqlardan xahiş edir ki, gətirdikləri meyvəni çıxarsınlar və masanın üzərinə qoysunlar – qruplar meyvə sərgisini təşkil etməlidirlər.

Tapşırıq belədir: qrupdan bir şagird ayağa durur, onların masalarının üzərindəki meyvəni bir-bir götürür, bütün sinfə göstərir və adlandırır. Yaxşı olardı ki, ona qrupun ikinci şagirdi də yardım etsin – adı çəkilən meyvəni qısaca xarakterizə edir (şirindir, turşdur, şirəlidir, yumşaqdır, bərkdir, çoxlu çiyidləri var, ətri

var....). Bu qayda ilə, sıra ilə, qrupların hamısı iştirak edir. Müəllim meyvəni xarakterizə etmək üçün dərslikdə verilən şəkillərdən istifadə edə bilər.

**4. Oyun – "əllərimizlə görək"** (10-12 dəq.)

Müəllim böyük səbət və ya qutu hazırlamış və buna da uşaqlar gətirdikləri meyvələri düzürlər. Müəllim səbətin üzərini parça ilə örtür. Hər bir qrupdan müəllim bir şagirdi çağırır. O, əlini səbətə salmalı, hər hansı bir meyvəni barmaqları ilə yoxlamalı və adını deməlidir. Sonra seçdiyi meyvəni götürməlidir və məlum olacaq ki, düzgün tapıb və ya yox. Bu yolla növbə ilə qrupların hamısı iştirak edir (uşaqların hamısının bir-bir oyuna cəlb olunması vacib deyil, buna çox vaxt lazım gələcək). Meyvəni müəllim növbəti dərs üçün saxlamalıdır.

**Tövsiyə:**

Dərsdə vaxt qaldığında yaxşı olardı ki, müxtəlif meyvələrdən formalar düzəldilsin və sonra sərgi təşkil edilsin. Mümkün olmadığında, eyni tapşırığı incəsənət (rəsm) dərsində yerinə yetirmək olar.

**Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=7mH75_KM0mU

## DƏRS 21

| | |
|---|---|
| **Mövzu:** | Payız |
| **Dərsin başlığı:** | Meyvədir və ya tərəvəz? |
| **Dərsin məqsədi:** | Şagirdlər müxtəlif xüsusiyyətinə əsasən cismi təsvir edə bilməlidirlər;<br>Bitkinin meyvəsini, xüsusilə də tərəvəzi, faydalı qida məhsulu kimi təhlil edə bilməlidirlər;<br>Meyvəni və tərəvəzi tanımalı/çeşidlərə ayırmalıdırlar;<br>Tanış cismin xassələrini təsvir etməlidirlər;<br>İlin fəsillərinə əsasən, insanın məşğuliyyətini sadalamalıdırlar. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.<br>Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;<br>tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz“, "şokolad şirindir – dil" yaxud "qar ağdır və soyuqdur – göz və dəri", "limon sarıdır və turşdur – göz və dil");<br>ilin fəsillərinə əsasən insanın fəaliyyəti (məs., bitkilər əkmək, məhsul yetişdirmək, məhsul yığımı), heyvanların hərəkəti (məs., quşların uçuşu, qış yuxusu) və bitkilər üçün xarakterik dəyişikliklərin (məs., çiçəkləmə, yarpaq tökülməsi) misallarını sadalayır. |
| **Lazımi material:** | müxtəlif meyvə və tərəvəz, səbət və ya qutu, karandaşlar və ya flomasterlər. |

**Dərsin gedişi:**

**1. “Turp” nağılını yada salmaq** (5-7 dəq.)

Müəllim şagirdlərdən soruşur:

– “Turp” nağılını bilirsinizmi? Baba bostanda turp əkdi və o da çox böyük yetişdi?

Şagirdlərin bu nağılı bildikləri halda, müəllim onlardan xahiş edir ki, onun məzmununu xatırlasınlar və danışsınlar. Sinifdə heç kimin nağılı bilmədiyi məlum olarsa, müəllimin özü nağılı danışır. “Bostanda bu turp o qədər böyüdü ki, baba onu dartıb çıxara bilmədi, onunla bacarmadı. Baba nənəni köməyə çağırdı; dartdılar, amma birlikdə çıxara bilmədilər. Nənə nəvəni çağırdı. Qız nənədən yapışdı, nənə – babadan, baba – turpdan. Yenə də torpaqdan çıxara bilmədilər. Qız iti çağırdı, it də məstan pişiyi. Dartdılar, dartdılar, turpu çıxara bilmədilər. Məstan siçanı köməyə çağırdı və onun köməkliyi ilə hamı birlikdə böyük turpu kökündən çıxara bildi”.

**2. Rollarla oyun** (6-8 dəq.)

Müəllim sinfi iki və ya üç qrupa bölür. Hər bir qrup nağıla əsasən kiçik tamaşa qurmalıdır.

**3. Dərslik üzərində iş** (3-4 dəq.)

Qruplarda iş üçün tapşırıq:

Nağılı yada saldıqdan sonra müəllim şagirdlərdən xahiş edir ki, dərslikdə müvafiq dərsin səhifəsini axtarsınlar, hansında nağıl qəhrəmanlarının arasında turp və çuğundur şəkli çəkilmişdir.

Tapşırıq belədir: qruplarda fikirləşməli və hansının turp, hansının çuğundur olduğunu tapmalıdırlar. Öz fikirlərini təsvir etməli və əsaslandırmalıdırlar. Qruplar izah edirlər ki, nəyin nə olduğunu necə başa düşdülər.

**4. Söhbət – tərəvəz nədir?** (4-5 dəq.)

Müəllim növbəti suallardan istifadə etməklə söhbət aparır:

– Necə düşünürsünüz, turp meyvədir? Çuğundur?

– Bəs nədir?

Şagirdlərin düzgün cavab verə bilmədikləri və “tərəvəz” sözünü adlandıra bilmədikləri halda, müəllim köməkçi sualların vasitəsilə onlara kömək edir:

– Yadınıza salın ki, baba turpu harada əkmişdi? (bostanda)

– Bostanda daha nəyi səpirlər? (istisna olunmur ki, şəhərli uşaqlar bu suala cavab verə bilməsinlər, bu zaman müəllim kömək edir: sarımsağı hara səpirlər? Soğanı? Yerkökünü?...).

– Necə düşünürsünüz, bostanda yetişdirilən bu bitkilərin ümumi adları nədir?

Müəllim bu cür suallarla uşaqlara başa salmalıdır ki, bostanda yetişən qida bitkiləri tərəvəz adlanırlar. Uşaqlar dərslikdə verilən illüstrasiyalarda pomidorun necə yetişdirildiyini görə bilərlər.

**5. Çalışma dəftərində iş** (6-7 dəq.)

Çalışma dəftərində müxtəlif meyvə və tərəvəz şəkli çəkilmişdir.

Tapşırıq belədir: əlini götürmədən şagird meyvə və tərəvəz arasında xətti elə çəkməlidir ki, sol tərəfdə meyvə qalsın, sağ tərəfdə - tərəvəz. Sonra cütlüklər bir-birinin işini yoxlayır və müəllimin tələbi ilə tərəvəzi tək-tək tapır və adlandırırlar.

**6. Oyun – meyvədir və ya tərəvəz?** (4-5 dəq.)

Bu dərs üçün müəllim səbətdə müxtəlif meyvə və tərəvəz hazırlayır (tərəvəzlərin arasında arzu edilir ki, turp, çuğundur, sarımsaq, soğan kartof, pomidor, xiyar, lobya, bibər, yerkökü, kələm və müxtəlif göyərtilər olsun...). Müəllim şagirdləri oyunun şərti ilə tanış edir – uşaqlar müəllimin göstərdiyi meyvəni və ya tərəvəzi tapmalı və frontal şəkildə adlandırmalıdırlar. Belə ki, müəllim hər kəsə göstərmək üçün səbətdən gah birini çıxarır, gah o birini. Uşaqlar isə yerlərindən cavab verirlər: “meyvə” və ya “tərəvəz”.

Sonra oyun bir qədər mürəkkəbləşir:

Hər dəfəsində hər bir partadan sıra ilə iki şagird cavab verir (cütlük). Biri müəllimin göstərdiyinin adını çəkir, ikinci isə onun tərəvəz və ya meyvə olduğunu söyləyir. Məsələn, müəllim səbətdən sarımsağı çıxardır. İki şagird ayağa durur: biri deyir – bu, sarımsaqdır, ikinci: sarımsaq tərəvəzdir.

**7. Dərsin yekunlaşdırılması** (3-5 dəq.)

**Tövsiyə:**

Müəllim bu dərslərdə verilən fəallıqlardan şəxsi nəzərinə əsasən istifadə edə bilər (bütün fəallıqların istifadəsi vacib deyil), sinfin əhval-ruhiyyəsini və imkanlarını nəzərə almaqla.

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=j6Iz8mbCVfU

## DƏRS 22

| | |
|---|---|
| **Mövzu:** | Qida |
| **Dərsin başlığı:** | Tərəvəz – faydalı qida |
| **Dərsin məqsədləri:** | Şagirdlər təhlükəsizlik qaydalarına əməl etməklə, sadə praktiki fəallıqlarda iştirak etməlidirlər;<br>Öz fikirlərini və ya tədqiqat nəticələrini şifahi təqdim etməli/əsaslandırmalıdırlar;<br>Müxtəlif hissiyyat orqanlarının vasitəsilə konkret cismi təsvir etməlidirlər;<br>Cisimləri tapmalı, təsvir etməli və çeşidlərə ayırmalıdırlar;<br>Bitki qidasının insan üçün əhəmiyyəti barəsində müzakirə aparmalıdırlar. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir;<br>cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;<br>tanış bitkilərin əsas hissələrini tanıyır və adlandırır (məs., gövdə, yarpaq, kök, çiçək, meyvə);<br>insan üçün heyvanların və bitkilərin əhəmiyyəti barəsində müzakirələr aparır (məs., bitkilərin müxtəlif hissəsinin qida üçün, tikinti materialı üçün, ətraf mühitin gözəlləşdirilməsi üçün istifadəsi; heyvanların və insanların dostluğu; heyvanların verdikləri qida məhsulları); |
| **Lazımi material:** | karandaş, tərəvəz, tərəvəz salatı, qonağın dəvət edilməsi. |

**Dərsin gedişi:**

**1. Qruplarda söhbət – nə ilə qidalanırıq?** (3-4 dəq.)

Müəllim sinfə xatırladır ki, bu dərsdə tərəvəz mövzusu davam etdiriləcəkdir. Sinif qruplara bölünür. Müəllim hər bir qrupa müxtəlif tərəvəz paylayır (qrupa 3-4 dənə).

Şagirdlər fikirləşməli və sonra izah etməlidirlər ki, insan hansı tərəvəzin hansı hissəsini qida üçün istifadə edir. Buradaca qruplar bu tərəvəzdən istifadə edilən xörəkləri adlandırmalıdırlar.

**2. Dərslik üzərində iş – "Kitabın qəhrəmanları nə yeyirlər?"** (10 dəq.)

Dərslikdə, dərsin müvafiq səhifəsinin yuxarı hissəsində kitabımızın qəhrəmanları şorba yeyirlər. Göründüyü kimi, onlardan biri şorbanı iştahla yeyir, ikinci isə mızıldanır, - görünür ki, şorbada göyərtini, soğanı, yerkökünü .... sevmir. Bu, bir çox uşağın və valideynin həlli tapılmayan problemidir və yaxşı olardı ki, tərəvəzdən hazırlanmış şorbanın uşaqların bədəninin böyüməsi və sağlamlığı üçün vacib olduğu deyilsin. Buna görə də müəllim uşaqlardan xahiş edir ki, qıza məsləhət görsünlər və hər hansı bir yolla sübut etsinlər ki, mütləq şorbanı yeməlidir.

Müəllim uşaqların diqqətlərini dərsin sonunda verilmiş şəkillərə yönəldir. Burada tərəvəz şəkilləri verilmişdir və onlardan xahiş edir ki, tərəvəz adlarını sadalasınlar. Çətinlik çəkdikləri halda, müəllimin özü xatırladır. Sonra da sual verir.

Solda verilən tərəvəzin ümumi adını söyləyə bilərsinizmi? *(Göyərti)*

Evdar qadınlar göyərtidən tez-tez istifadə edirlər? Əsaslandır ki, sənin fikrincə, nə üçün?

*(Xörəyi dadlı edir, vitaminlərlə zəngindir, gözəlləşdirir və s.)*

**3. Çalışma dəftərində iş** (4-5 dəq.)

Qız mızıldayırsa, əksinə oğlan heç vaxt tərəvəzdən boyun qaçırmır. İndi də, çalışma dəftərinin verilən səhifəsində, yerkökünü öyrənməyə çalışsa da, bunun üçün labirintdə yolu axtarmaqda çətinlik çəkir.

Şagirdlər fərdi olaraq bu tapşırığı yerinə yetirməli və sonra da cütlüklərdə yoxlamalıdırlar.

**4. Canlı tərəvəz salatı** (10-12 dəq.)

Bu dərs üçün müəllim şagirdlərə sürpriz hazırlayır. Əlbəttə ki, imkan olduğu halda, dərsin bu sonuncu fəallığının məktəbin bufetində keçirilməsi daha yaxşı olardı. Müəllim əvvəlcədən 4 və ya 5 valideynlə yaxud da məktəbin aşpazı ilə razılaşmışdır və onlar da tərəvəzdən canlı salatlar hazırlamalıdırlar (ayrı-ayrı) və məktəbə gətirməlidirlər. Müəllim sinfi bu fəallıqda neçə valideynin iştirak etdiyi sayda qruplara bölür. Valideynlər daxil olurlar, müəllim şagirdlərə onların gəlişlərinin səbəbini açıqlayır və deyir ki, qruplar arasında yarışma olacaqdır.

Hər qrupa bir valideyn düşür, onlar əvvəlcədən hazırladıqları canlı salatı nimçəyə qoymalı və bu işdə uşaqların da iştirak etmələrinə çalışmalıdırlar.

Müsabiqənin şərtləri belədir:

I. Kim (hansı qrup) suala daha düzgün cavab verəcəkdir - nə üçün bu xörək canlı salat adlanır?

II. Hansı qrupun salatı daha gözəl və cazibədardır? (münsiflər təşkil oluna bilər: hər qrupdan bir şagird).

III. Kim səhvsiz sadalaya bilər – qarşıdakı salatda hansı tərəvəzlərdən istifadə olunmuşdur?

IV. Kim daha yaxşı sübut edə bilər – nə üçün canlı tərəvəz faydalı qidadır?

**5. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

## DƏRS 23

| | |
|---|---|
| **Mövzu:** | Qida |
| **Dərsin başlığı:** | Qida məhsulları |
| **Dərsin məqsədləri:** | Şagirdlər illüstrasiyalarda və həqiqətdə cisimləri tapmalı və çeşidlərə ayırmalıdırlar; |
| | Verilən suallara cavab vermək üçün müşahidə nəticələri və şəxsi fikirlərinə əsaslanmalıdırlar; |
| | Cismin xassələrini təsvir etməlidirlər; |
| | Qida məhsullarının etibarlılığını təyin etdikdə hissiyyat orqanlarının vacibliyini dərk etməlidirlər; |
| | Bitki və heyvan mənşəli qidanı fərqləndirməlidirlər; |
| | Yeniyetmənin böyüməsi-inkişafı üçün düzgün qida zərurətini dərk etməlidirlər; |

| | |
|---|---|
| | Praktiki fəallıqlarda iştirak etməlidirlər; |
| | Heyvan və bitki mənşəli qidanın insan üçün əhəmiyyətini müzakirə etməlidirlər; |
| | Gecə-gündüzün hissələrini fərqləndirməli və fəallıqlarını bunlarla əlaqələndirməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |
| | Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir. |
| | Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. |
| | Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir; |
| | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |
| | verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır; |
| | tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz“, “şokolad şirindir – dil” yaxud “qar ağdır və soyuqdur – göz və dəri”, “limon sarıdır və turşdur – göz və dil”); |
| | hislərin və hissiyyatın orqanlarının insan üçün (məs., qidanın yararlı olduğunun təyin edilməsi, küçədə təhlükəsiz hərəkət) və heyvanlar üçün (məs., təhlükənin vaxtında aşkar edilməsi, qidanın əldə edilməsi, sığınacağın axtarılıb tapılması) əhəmiyyəti barəsində müzakirələr aparır; |
| | canlı cisimləri bitkilər və heyvanlar kimi qruplaşdırır, öz qərarını əsaslandırır; |
| | insan üçün heyvanların və bitkilərin əhəmiyyəti barəsində müzakirələr aparır (məs., bitkilərin müxtəlif hissəsinin qida üçün, tikinti materialı üçün, ətraf mühitin gözəlləşdirilməsi üçün istifadəsi; heyvanların və insanların dostluğu; heyvanların verdikləri qida məhsulları); |
| | gecə-gündüzün sahələrini fərqləndirir – səhər, gündüz, axşam, gecə və öz fəallığı/məşğulluğu ilə əlaqələndirir; |
| **Lazımi material:** | rəngli karandaşlar, əyani vəsaitlər üçün: meyvə və tərəvəz, düyü, qarabaşaq, vermişel, makaron, kəsmik, xama, qatıq, mürəbbə, cem, qoz ləpəsi və s. |

**Dərsin gedişi:**

**1. Ərzağın tanınması və adlandırılması** (5-6 dəq.)

Ötən dərsdə meyvədən və tərəvəzdən söhbət aparmışdıq, müvafiq olaraq həmin məhsullar bu gün də köməyimizə gələcəklər. Bundan başqa, düyü, qarabaşaq, vermişel, makaron, kəsmik, xama, qatıq, mürəbbə, cem, qoz ləpəsi, balıq konservi və s. ilə də təchiz olunmalıyıq.

Müəllim ərzaqları bir-bir göstərir və suallar verir:

– Bu nədir *(şagirdlər adlandırırlar?)*

– Hansı xörəkdə istifadə olunur?
– Hazırlanması (qızardılması, qaynadılması, bişirilməsi) lazımdırsa, onu yemək olarmı?
– Bundan hazırlanan xörəyi kim sevir? Nə üçün? Dadı necədir?
– Daha hansı xörəyi sevirsiniz? Nə üçün?
Bu fəallıqlar zamanı uşaqlar meyvə-tərəvəzi də təkrar edirlər və yeni bilik də qazanırlar.

**2. Qruplarda iş** (5-10 dəq.)

Müəllim sinfi 3 və ya 4 qrupa bölür və əlində olduğu ərzaqları onların arasında elə bölür ki, qrupların hamısına həm bitki, eləcə də heyvan mənşəli ərzaqlar düşsün. Tapşırıq belədir: uşaqlar ərzaqları qruplaşdırmalıdırlar. Bir qrupda yalnız bitki mənşəli, digərində isə - heyvan mənşəli ərzaqlar seçilməlidir. Müəllim suallar verir:
Hansı xörək yalnız bitkilərdən hazırlanır?
Heyvan bizə hansı xörəyi verir?
Buna əsasən, ərzaqlarınızı iki qrupa bölün.
Prezentasiya zamanı hər bir qrup bitki və heyvan mənşəli qidaları adlandırmalıdır. Yaxşı olardı ki, hansı heyvanın bu və ya digər ərzaqla bizi təmin etdiyini də izah etsinlər.

**3. Qrup işi** (4-5 dəq.)

Eyni qruplara yeni tapşırıq verin:
Əllərində olan ərzaqları şagirdlər yenə də iki qruplara bölməlidirlər. Amma bu dəfə bir qrupa insanın çiy şəkildə yeyə biləcəyi ərzaqları yerləşdirirlər; ikinciyə - yeyilməsinə qədər mütləq üzərində işləniləsi (qaynadılası, qızardılası, bişiriləsi...) ərzaqları yerləşdirməlidirlər.
Şagirdlərə məlum olur ki, eyni ərzaqlar başqa cür qruplaşdırıldı, çünki tapşırığın şərti, tələbi dəyişdi.
Prezentasiya zamanı yaxşı olardı ki, diqqət ona yönəldilsin ki, hansı qidanı – heyvan və ya bitki mənşəlini həm çiy, eləcə də işlənilmiş halda yemək olar.

**4. Çalışma dəftərində iş** (5-6 dəq.)

Müəllimin yardımı ilə uşaqlar çalışma dəftərində müxtəlif məhsulların və xörəklərin verildiyi səhifəni tapırlar. İş həm fərdi, eləcə də cütlüklərdə yerinə yetirilə bilər. Şagirdlər tapmalıdırlar ki, hansı ərzağı hansı xörəkdə istifadə edirlər və onları xətlərlə birləşdirməlidirlər. Məs., yumurtanı – qayqanaqla; pendiri – xaçapuri ilə və s. İstisna edilmir ki, bəzi ərzaqları iki xörəklə əlaqələndirsinlər. Hər halda, prezentasiya zamanı şagirdlər nə üçün belə düşündüklərini əsaslandırmalıdırlar.

**5. Dərslik üzərində iş** (4-5 dəq.)

Dərslikdə verilən komikslərdə görünür ki, bizim tanış qəhrəmanımız gün ərzində səhər yeməyini yeyir, dərs oxuyur, nahar edir və s. Şagirdlər ardıcıllıqla şəkilləri təsvir etməlidirlər və bunların əsasında başa düşəcəklər ki, günün hansı hissəsində insanlar səhər yeməyini yeyirlər, nə vaxt nahar edirlər və nə vaxt şam yeməyini yeyirlər. Yəni təsvir prosesində sözlərin mənasını başa düşür və yadda saxlayırlar ki, növbəti sözlərdən nə vaxt istifadə etməlidirlər: səhər –səhər yeməyi, günorta – nahar, axşam – şam yeməyi.
Kitab üzərində iş həm fərdi, eləcə də cütlüklərdə aparıla bilər.

**6. Sinif diskussiyası** (3-4 dəq.)

Yaxşı olardı ki, müəllim sinif diskussiyasını keçirsin. Diskussiya üçün sualllar:
– Sizin fikrinizcə, hansı ərzaq uşaqlar üçün daha faydalıdır?
– Çox şirniyyat yemək hansı ziyanı gətirir?
– Çoxlu yemək faydalıdırmı və ya yox?
– Qidanın köhnə olduğunu necə başa düşə bilərik? Xarab olmamışdır ki? *(qoxusu ilə, dəyişmiş dadı ilə, vizual görüntüsü ilə...)*

**7. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

Dərsi qısaca yekunlaşdırın.

**Tövsiyə:**

Bu dərslərdə verilən fəallıqlardan müəllim öz nəzərinə əsasən istifadə edə bilər (fəallıqların hamısının istifadəsi məcburi deyil), sinfin əhval-ruhiyyəsini və imkanlarını nəzərə almaqla. Müəllim ərzaqların hamısını gətirə bilmədiyi halda, onu şəkillərlə əvəz edin.

**DƏRS 24**

| | |
|---|---|
| **Mövzu:** | Qida |
| **Dərsin başlığı:** | İçki |
| **Dərsin məqsədləri:** | Şagirdlər müşahidə nəticələri və şəxsi fikirlərinə əsaslanaraq, suallara cavab verməlidirlər;<br>Maddəni (suyu) xarakterizə etməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.<br>Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir.<br>Təb.1.4. Şagird tərkib əşyalarına/materialın xassələrinə əsasən cisimləri müqayisə edə bilir. |
| **Nəticə əyanidir, əgər şagird:** | suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə);<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;<br>tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz“, “şokolad şirindir – dil” yaxud “qar ağdır və soyuqdur – göz və dəri”, “limon sarıdır və turşdur – göz və dil”);<br>gündəlik həyatda yayılmış əşyaları/materialları tanıyır və adlandırır;<br>əşyaları/materialları asanlıqla müşahidə edilən xassələrin (məs., şəffaflıq, elastiklik, səthə qalxma bacarığı, suyadavamlılıq) əsasında xarakterizə edir;<br>eyni əşyalardan/materialdan hazırlanmış əşyaları qruplaşdırır. |
| **Lazımi material:** | rəngli karandaşlar, hər bir şagird üçün plastmas stəkanlar, içməli su, videomaterial. |

**Dərsin gedişi:**

**1. Sinif diskussiyası** (2-3 dəq.)

Müəllim uşaqlara xatırladır ki, ötən dərsdə onlar böyümə-inkişaf və həyat üçün insana qidanın lazım olduğunu təyin etmək üçün çox işlədilər. İndi müəllim sual verir:

– Necə düşünürsünüz, nə üçün yemək-içmək sözlərindən istifadə edirik?

Şagirdlər fikirləri və müzakirələri ilə nəticəyə yönəlməlidirlər ki, içki, xüsusilə də içməli su bizim həyatımız üçün önəmlidir. Sudan başqa hər gün çoxlu müxtəlif içkiləri qəbul edirik (şirələr, limonat, mineral sular, süd, kompot....).

**2. Praktiki – qrup işi** (5-7 dəq.)

Müəllim sinfi 4 nəfərlik qrupa bölür, sonra da hər bir şagirdə plastmas şəffaf stəkanları paylayır və onlara bir az su tökür. Sonra da onlardan xahiş edir ki, onu öyrənsinlər/təsvir etsinlər (dad, qoxu, şəffaflıq,

vəziyyəti). Prezentasiya zamanı hər bir qrupdan bir şagird sinfi qrupun müşahidə nəticəsi ilə tanış edir. Yaxşı olardı ki, müəllim sualların vasitəsilə təqdimatçıya fikrini daha yaxşı formalaşdırmaqda istiqamət versin.

**3. Qruplarda iş** (3-4 dəq.)

Müəllim sinfi 3 qrupa bölür və hər birinə fərqli tapşırıq verir:
I qrup fikirləşməlidir ki, insan nə üçün sudan istifadə edir?
II qrup - suyun bitkilər üçün hansı əhəmiyyəti vardır?
III qrup – suyun heyvanlar üçün hansı əhəmiyyəti vardır?
Qrup prezentasiyasından sonra müəllim əlavə suallar verə bilər ki, şagirdlər hər bir canlı oqanizm üçün suyun əhəmiyyətini və zərurətini daha yaxşı başa düşsünlər (anlasınlar ki, insanlar və heyvanlar sudan təkcə içmək üçün istifadə etmir, onun bir çox təyinatı vardır. Bunun üçün də suyun qənaətli sərfiyyatı, qorunması və təmizliyi həm evdə, eləcə də məktəbdə, təbiətdə lazımdır).

**4. Dərslik üzərində iş** (3-5 dəq.)

Müəllim şagirdlərdən xahiş edir ki, dərsliyin verilən səhifəsini açsınlar. Şagirdlər ardıcıllıqla sualları təsvir etməli, içməli suyun qaynaqdan qablaşdırılmış şüşələrə qədər keçdiyi yolu göstərməlidirlər.

**5. Çalışma dəftərində iş** (5-7dəq.)

Dərsliyin birinci tapşırığı cütlüklərdə işi nəzərdə tutur:
Səhifənin yuxarı hissəsində konturlarda müxtəlif yemək və içki göstərilir. Şagirdlər əvvəlcə bunun nə olduğunu tapmalı və rəngləməlidirlər. Sonra xətti elə keçirməlidirlər ki, bir tərəfdə yalnız yemək, digər tərəfdə isə içmək qalsın. Sonda nümunə üçün müəllim bir neçə cütlüyün işini nəzərdən keçirir ki, başqaları da tapşırığı nə dərəcədə düzgün yerinə yetirdiklərini yoxlaya bilsinlər.

**6. Qruplarda iş** (10-11 dəq.)

Müəllim sinfi kiçik qruplara bölür və çalışma dəftərinin eyni səhifəsində verilən ikinci tapşırıq üzərində işlədir (səhifənin aşağı hissəsində). Burada uşaqlar yoldaşlarına tapşırığın yerinə yetirilməsində yardım etməlidirlər.
Cədvəl üç sırada göstərilir. Hər bir sırada 5 xana var. (Müəllim: "sırada çəkilmiş əşyaları müşahidə edin. Nəyin şəkli nədən sonra çəkilmişdir? Tapın ki, boş xanada nəyin şəkli çəkilməlidir?")
I sırada bir-birini əvəz etməklə yerkökü və kələm çəkilmişdir. Bir xana boşdur (şagirdlər başa düşməlidirlər ki, burada kələm çatmır və onun şəklini çəkməlidirlər);
II sırada çörəyin və yumurtaların əvəz edilməsi verilir, amma iki boş xana ilə (bura da çörəyi və yumurtanı elə çəkməlidirlər ki, ardıcıllığa əməl edilsin);
III sırada uşaqlar süd və şirənin ardıcıllığını tapmalı və iki, bir-birindən aralı boş xanaları doldurmalıdırlar (onlar bir şirə və bir südün şəklini çəkməlidirlər).
Prezentasiya zamanı yaxşı olardı ki, bir qrup yalnız bir sıranın yerinə yetirilmiş variantını göstərsin. Eyni zamanda, çıxış edənlərin hamısı izah etməlidirlər ki, tapşırığı nə üçün belə yerinə yetirmişlər.

**7. Dərsin yekunlaşdırılması** (1-2 dəq.)

Əlavə (və ya alternativ) fəallıq
Bufetimizdə hansı içkilər var?
Müəllim uşaqlara tənəffüsdə məktəbin bufetinə getməyi və burada aşpazdan bufetdə hansı içkilərin olduğu barəsində məlumat almağı təklif edir.
Uşaqlar mütəşəkkil olaraq bufetə gedir və orada onlar içkiləri tapmalı və adlandırmalı, müzakirə etməlidirlər: kim hansı içkini sevir? Nə üçün? Burada olmayan daha hansı içkiləri bilirlər? İnsan, adətən, nə vaxt hansı içkidən istifadə edir?
Sonra müəllim aşpazdan xahiş edir ki, uşaqlara gün ərzində bufetdə içməli sudan necə istifadə etdiyini qısaca danışsın. O, eləcə də uşaqlara tövsiyə edə bilər ki, hansı içki sağlamlıq üçün daha faydalıdır (natural şirələr, kompotlar.... ). Əlbəttə ki, müəllim əvvəlcədən onunla bu məsələ barəsində razılaşmalıdır.
Müəllim içməli suyun əldə edilməsi üsulları barəsində də söhbət apara bilər. Gürcüstanda elə bir yerlər var

ki, camaat bulaqdan və ya quyu suyundan istifadə edir, bəzi kəndlərdə kiçik bulaqlardan da istifadə olunur.

Müəllim buradaca sual verməlidir ki, insanların içməli suyu çətinliklə əldə etdikləri yerlər barəsində eşidiblərmi? (Gürcüstanda beləsi yerlər çoxdur). Hər halda, dərs içməli suya ehtiyatla yanaşmanın gərək olduğunun təkrar edilməsi ilə başa çatdırılmalıdır.

## DƏRS 25

| | |
|---|---|
| **Mövzu:** | Qış |
| **Dərsin başlığı:** | Nə geyinirik? |
| **Dərsin məqsədləri:** | Şagirdlər bədən hissələrini tapmalı, təsvir etməli, çeşidlərə ayırmalıdırlar;<br>İlin fəsillərinə əsasən paltarı çeşidlərə ayırmalıdırlar;<br>Müxtəlif fəallıqların vasitəsilə müxtəlif idrak bacarığının ("hərtərəfli intellektin") inkişafına dəstək verməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>ilin fəsillərinə əsasən paltarı çeşidlərə ayırır. |
| **Lazımi material:** | qayçı, yapışqan, karton qutu, müxtəlif uşaq paltarları (o cümlədən yeni sözlərlə ötürülən), videomaterial, gürcü libası və ya şəkillər. |

**1. Qruplarda iş** (10-12 dəq.)

Şagirdlər çalışma dəftərinin yeni səhifəsini açırlar – burada da onların tanış qəhrəmanlarıdır, amma – paltar geyinməmişlər; görünür ki, soyuq, buludlu, yağışlı havadır. Səhifənin aşağı hissəsində müxtəlif mövsümə və havaya uyğun paltar şəkli çəkilmişdir, bunların arasında qəhrəmanlarımız üçün yalnız bu havaya xas şalvarlar, gödəkçələr və ayaqqabı "uyğundur". Şagirdlər düzgün tapmalı, lazımi əşyaları kəsməli və "geyindirməlidirlər" – qızın və oğlanın şəkillərinə yapışdırmalıdırlar; qruplar işlərini təqdim etməli və uşaqları nə üçün belə geyindirdiklərini izah etməlidirlər.

**2. Oyun "barmaqlarımızla görək"** (7-9 dəq.)

Şagirdlər yenə də qruplara bölünürlər. Müəllim karton qutu hazırlamışdır. Onun içərisində var: corablar, qısa şalvar, kaşne, baş örtüyü, əlcək, kəmər, önlük, gödəkçə, papaq, jaket, sviter.... Müəllim əşyaları bir-bir götürür və uşaqlara göstərir. Şagirdlər hər bir əşyanı adlandırmalıdırlar (adlandıra bilmədiklərini müəllim deyir və onlar da təkrar edirlər), soyuq havada və ya isti havada geyinildiyini və ya başqa təyinatının olduğunu anlamalıdırlar.

Sonra oyun başlayır. Hər qrupdan bir şagird sıra ilə qutuya yaxınlaşır. Müəllim onun gözlərini bağlayır. Gözübağlı qutudan bir əşyanı götürməli, barmaqları ilə yoxlamalı və tapmalıdır. Düzgün tapdığı halda, oyunu davam etdirir; səhv tapdığı halda – müəllim başqa qrupun şagirdini çağırır.

**3. Tədqiqat – paltar nədən tikilir?** (7-9 dəq.)

Müəllim uşaqları hər hansı bir əlamətlə (məs., bir qrupda ağ köynəklilər birləşə bilər, digər qrupda – jaket geyinmişlər, üçüncüdə - kəmər taxmışlar və s.) yenidən qruplaşdıra bilər. Sonra hər bir qrupa paltar qutusundan bir və ya iki əşya verilir – şagirdlər araşdırmalı və təyin etməlidirlər ki, bu paltarda hansı materialdan istifadə edilmişdir (sadə yolla, imkanları daxilində. Yetər ki, başa düşsünlər ki, bəzi halda dəridən istifadə olunmuş, bəzi halda – pambıq parçadan, dəmirdən, plastmas düymədən və ya xəzdən və s.).

Qruplar öz kəşflərini sinif qarşısında təqdim etməli və öz fikirlərini əsaslandırmalıdırlar. Yaxşı olardı ki, bu və ya digər paltarın "isti" və ya "sərin" olmasını, yəni isti havada və ya soyuq havada geyinildiyini (və ya hansı təyinatının olduğunu) qeyd etsinlər.

**4. Dərsin yekunlaşdırılması** (4-5 dəq.)

Müəllim bu gün nəyi öyrəndiklərini, paltarla bağlı hansı yeni sözlərin olduğunu qeyd edir; hansı oyunu bəyəndilər, nə üçün?

**Əlavə (və ya alternativ) fəallıq**

"Əl çalmaq və ayaq döymək"

Müəllim uşaqları dairəyə düzür. Oyunun qaydası belədir: şalvarlı şagird (fərqi yoxdur, oğlan və ya qız) iki dəfə əl çalmalı, donda olan – üç dəfə ayağını döyməlidir. Bu, sıra ilə baş verir. Bunun üçün müəllim şalvarda-donda olan uşaqları dairədə sıra ilə bölüşdürməyə çalışmalıdır. Bu zaman əl çalmaq və ayaq döymək həvəsli alınacaqdır (2 əl çalmaq + 3 ayaq vurmaq). Oyun bir neçə dəfə təkrar edilə bilər, yaxşı alınana qədər.

Müəllim əcdadlarımızın ənənəvi libaslarını hazırlamışdır – çuxa-yaxalıq və ya don (foto və ya videomaterial da ola bilər). Bu paltarın detalları, təyinatı, gözəlliyi haqqında danışırlar... Bu gün onlardan haradasa istifadə olunurmu? (rəqqaslar, xalq mahnılarının ifaçıları...). Kiminsə evdə belə bir paltarı varmı – kimindir, ondan istifadə edəcəkmi və ya yox? Nə vaxt? Və s.

**Tövsiyə:**

Bu dərslərdə verilən fəallıqları müəllim öz nəzərinə əsasən istifadə edə bilər (bütün fəallıqların istifadəsi vacib deyil), sinfin əhval-ruhiyyəsi və imkanlarını nəzərə almaqla.

Müəllim uşaqları həm bu dərsdə, eləcə də vaxtaşırı il ərzində məkan təsəvvürləri (sağa-sola, içəri-çölə..) üzrə çalışdırmalıdır. Bunun üçün müəllim həm dərslik illüstrasiyalarından, eləcə də sinif otağı və ya başqa mühitdən istifadə edir.

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=UA9j0i_SExg

## DƏRS 26

| | |
|---|---|
| **Mövzu:** | Qış |
| **Dərsin başlığı:** | Qış |
| **Dərsin məqsədləri:** | Şagirdlər ilin fəsillərini adlandırmalı və bir-biri ilə müqayisə etməlidirlər;<br>İlin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir etməlidirlər;<br>İlin müxtəlif fəsli üçün xas olan hava barəsində müzakirə və söhbət aparmalıdırlar;<br>Ilin fəsillərinə əsasən, insanın fəaliyyətini təsvir etməli, heyvanların hərəkətini dərk etməlidirlər;<br>İlin fəsillərinə əsasən, paltarları seçməlidirlər;<br>Sinifdə yeni il ab-havasının yaradılmasında iştirak etməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.<br>Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |

| | |
|---|---|
| | verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır; |
| | canlı cisimləri bitkilər və heyvanlar kimi qruplaşdırır, öz qərarını əsaslandırır; |
| | insanın hissiyyat orqanlarını və onların funksiyalarını adlandırır (məs., göz – “görürəm”, qulaq – “dinləyirəm”, dil – “dadı duyuram”, burun – “qoxunu hiss edirəm”, dəri – “istilik və soyuğu, hamar və ya nahamar səthi duyuram”); |
| | tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz“, “şokolad şirindir – dil” yaxud “qar ağdır və soyuqdur – göz və dəri”, “limon sarıdır və turşdur – göz və dil”); |
| | gecə-gündüz ərzində müşahidə olunan dəyişiklikləri adlandırır; |
| | gecə-gündüzün hissələrini fərqləndirir – səhər, gündüz, axşam, gecə və öz fəallığı/məşğulluğu ilə əlaqələndirir; |
| | ilin fəsillərini adlandırır və bir-biri ilə müqayisə edir, onları fərqləndirən işarələr barəsində müzakirələr aparır, onların hər biri üçün xarakterik hava barəsində danışır; |
| | ilin fəsillərinə əsasən insanın fəaliyyəti (məs., bitkilər əkmək, məhsul yetişdirmək, məhsul yığımı), heyvanların hərəkəti (məs., quşların uçuşu, qış yuxusu) və bitkilər üçün xarakterik dəyişikliklərin (məs., çiçəkləmə, yarpaq tökülməsi) misallarını sadalayır. |
| | ilin fəsillərinə əsasən paltarı bir-birindən ayırır. |
| **Lazımi material:** | rəngli karandaşlar və ya flomasterlər, qayçı, yapışqan, videofilm. |

**Dərsin gedişi:**

**1. Dərslik üzərində iş** (4-5 dəq.)

Dərsliyin müvafiq səhifəsində qış səhnələri verilmişdir: şəhərdə, kənddə qış, donmuş çay və qış kurortu təsvir edilmiş fotoşəkil.

Müəllim uşaqlardan xahiş edir ki, bu şəkilləri müşahidə etsinlər və təsvir etsinlər.

**2. Qış mövzusunda söhbət** (2-3 dəq.)

Bu söhbət müəllim tərəfindən təxminən belə aparılmalıdır:

– Siz deyirsiniz ki, bu şəkillərdə qış təsvir olunmuşdur. Siz də qışda xizəklə sürüşürsünüz? Xizəklə və konkilərlə sürüşməyi sevənlər əllərini qaldırsınlar....

– Kim deyər, indi ilin hansı fəslidir? Əsaslandırın, nə üçün belə düşünürsünüz?

– Məktəbə gəldiyinizdə, ilin hansı fəsli idi? Beləliklə, payızdan sonra hansı fəsil gəlir?

– Kim payız aylarını yada salıb sadalayar?

– İndi hansı aydır? *(bizim hesabımızla, dekabr və ya yanvar olmalıdır).*

– Beləliklə, dekabr (və ya yanvar) qış ayıdır. Qışda daha hansı aylar var?

*(Uşaqlar qış aylarını adlandıra bilmədiklərində, müəllim onları sadalayır).*

– Qışda neçə ay var? Payızda neçə ay var idi?

**3. Oyun “Qış ayları”** (2-3 dəq.)

Qış aylarını daha yaxşı yadda saxlamaq üçün müəllim şagirdlərə payız aylarında oynadıqları oyunun analoqunu təklif edir. Bu, əl çalmaqla oyun idi:

Dekabrı bildirən 1 dəfə əl çalmaq

Yanvarı – 2 dəfə əl çalmaq

Fevralı – 3 dəfə əl çalmaq

Müəllim bir neçə dəfə qarışıq əl çalır – gah bir dəfə, gah üç dəfə, iki dəfə, yenə də üç dəfə və s. Uşaqlar

ayları tapmalı və adlandırmalıdırlar. Sonra müəllim şagirdlərdən xahiş edir ki, daha diqqətlə qulaq assınlar, əvvəlcə bir dəfə əl çalacaq, sonra – 2 dəfə, axırda – 3 dəfə və deyir ki, qış ayları məhz bu ardıcıllıqla bir-birini əvəz edir və hər üç əl çalmanı yenə də təkrarlayır. Şagirdlər bilməlidirlər ki, qış aylarının ardıcıllığı belədir: dekabr, yanvar, fevral.

**4. Çalışma dəftərində iş** (4-5 dəq.)

Çalışma cütlüklərdə yerinə yetirilir. Dəftərin göstərilən səhifəsində yenə də qəhrəmanlarımızdır. Onların arasında iki dördbucaqlı verilmiş və onlara da əşyaların şəkli çəkilmişdir. Şagirdlər kitabın qəhrəmanlarına "artıq" (yersiz) əşyaları tapmaqda kömək etməlidirlər (dördbucaqlının birində qısa şalvar, yəni şortlar, ikincidə – yay ayaqqabıları çəkilmişdir). Onlar bu əşyaları dairəyə almalı və izah etməlidirlər ki, nə üçün düşünürlər ki, məhz bu və ya digər əşya "artıqdır". Şəkilləri rəngləməlidirlər.

**5. Dərslik üzərində iş – "rəssam nəyi səhv salmışdır?"** (4-5 dəq.)

**Qruplarda iş:**

Dərsliyin eyni səhifəsinin aşağı hissəsində qış mənzərəsi çəkilmişdir. Ətrafı qar bürüyüb. Bir ağacda yarpaqlar və əncirlər var. Oğlan qısaqollu mayka geyinmiş; kolda gül açmış; göyün üzərində köçəri quşların dəstəsi görünür. Şagirdlər bu "səhvləri" tapmalı və sonra izah etməlidirlər ki, "rəssam nəyi səhv etmişdir".

Müəllim şagirdlərdən xahiş edir ki, çöl heyvanlarının qışda davranışını yada salsınlar və təsvir etsinlər. Şagirdlər bu halda ötən biliklərini üzə çıxarırlar (məs., ayı qış yuxusundadır, dələ koğuşunda yemini saxlayır və s.).

Müəllim söhbəti davam etdirə və şagirdlərə insanın rolu və mümkün yardımı haqqında danışa bilər. Məsələn, quşlar üçün yemliklər düzəldə bilər. Yada sala bilər ki, elə hallar olmuşdur ki, sərt qış aylarında maral və cüyür zəifləmiş vəziyyətdə insanların yanına gəlmiş və onlardan yem almış, qışı keçirmiş, yəni insanların yaxşılığından faydalanmışlar və s. Yaxşı olardı ki, videofilm göstərilsin.

Bundan sonra müəllim qışda ev heyvanlarının hərəkətləri haqqında söhbəti davam etdirsin və şagirdlərdən xahiş etsin ki, sutka ərzində ev heyvanlarının hərəkətini təsvir etsinlər.

**6. Sinif otağının bəzədilməsi** (10-15 dəq.)

Çalışma dəftərinin növbəti səhifəsində müxtəlif qar dənələrinin şəkli çəkilmişdir. Şagirdlər fərdi və ya cütlüklərdə işləyirlər. Onlar bu qar dənələrini (seçim əsasında və ya hamısını) kəsməli və müəllimin yardımı ilə pəncərə şüşələrinə yapışdırmalıdırlar.

Müəllim uşaqlardan xahiş edir ki, öz xatirələri, qışda keçirdikləri ən yaxşı günlər haqqında danışsınlar (onların qarda oyunu, Yeni il hədiyyəsi və s. haqqında təəssüratları).

Müəllim sinifdə qısa diskussiya keçirir:

– Qışda təbiət necə olur? Qış təbiəti payızın təbiətindən nə ilə fərqlənir? (daha soyuq olur, tez-tez şaxta olur, gecə tez düşür, gündüz qısalır, gecə uzun olur, ağaclar yarpaqsız olur, qar yağır...)

Müəllim suallar verir:

– Sərt qış şəraitində, gecə-gündüzün hansı parçasında daha soyuq olur – səhər, gündüz və ya axşam?
– Qışda necə geyinirik və nə üçün?
– Necə hiss edirik ki, qar soyuqdur?
– Çılpaq əllərimizlə qar topasını düzəldə bilərikmi və nə üçün?
– Əlcəklərdən istifadə edirsinizmi və nə üçün?

Yaxşı olardı ki, müəllim uşaqları həmin nəticəyə yönəltsin ki, insan toxunmaqla əşyanın soyuq və ya isti olduğunu anlayır.

**7. Dərsin yekunlaşdırılması** (3-4 dəq.)

**Tövsiyə:**

Bu dərslərdə verilən fəallıqlardan müəllim öz nəzərlərinə əsasən istifadə edə bilər (bütün fəallıqların istifadəsi vacib deyil), sinfin əhval-ruhiyyəsini və imkanlarını nəzərə almaqla.

Yeni il şənliyinin bu dərsə qədər keçirildiyi halda, bu dərsi ötən həftənin mövzusu ilə əvəz edə bilərsiniz ki, otaq qar dənələri ilə yeni il şənliyinə qədər bəzədilmiş olsun.

## DƏRS 27

**Mövzu:** Qış

**Dərsin başlığı:** Yeni il də gəldi

**Dərsin məqsədləri:** Şagirdlər hissiyyat orqanları və sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə etməlidirlər;

Hissiyyat orqanlarının və onların funksiyalarının adlandırılması;

Müşahidə bacarığının inkişafı;

Şagirdlərin idrakının müxtəlif ("hərtərəfli intellektin") inkişafına dəstək verməlidir.

**MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.

Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.

**Nəticə əyanidir, əgər şagird:** özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;

təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir;

suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə);

insanın hissiyyat orqanlarını və onların funksiyalarını adlandırır (məs., göz – "görürəm", qulaq – "dinləyirəm", dil – "dadı duyuram", burun – "qoxunu hiss edirəm", dəri – "istilik və soyuğu, hamar və ya nahamar səthi duyuram");

tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz", "şokolad şirindir – dil" yaxud "qar ağdır və soyuqdur – göz və dəri", "limon sarıdır və turşdur – göz və dil");

müxtəlif sadə cihazlardan (lupa, fonendoskop) hissiyyatın gücləndirilməsi məqsədilə istifadə edir və bədən xassələrini təsvir edir ki, bunlar da bu cihazlardan istifadə edildikdə əyani görünür.

**Lazımi material:** rəngli karandaşlar və ya flomasterlər, lupa.

**Dərsin gedişi:**

**1. Söhbət – Yeni ili necə qarşıladıq?** (6-8 dəq.)

İş cütlüklərdə aparılmalıdır. İki-iki şagird bir-biri ilə yeni il təəssüratlarını bölüşür – kim harada və necə yeni ili qarşıladı, şaxta baba hansı hədiyyələri gətirdi və s.

Sonra uşaqlar bir-birinin söylədiklərini ötürməli, yəni hər bir şagirdin danışdığını yadda saxlamalı və nəql etməlidir. Yaxşı olardı ki, müəllim hər bir könüllüyə vaxt ayırsın, zamana nəzarət etsin. Burada müəllim bir neçə dəfə sual verir "Yeni il nə vaxt olur?" ki, şagirdlər yeni ilin gəlişini qışla, yanvarın 1-i ilə əlaqələndirsinlər.

**2. Çalışma dəftərində iş** (5-6 dəq.)

Çalışma dəftərinin müvafiq səhifəsində başa çatdırılmamış şəklin konturları verilir (uşaqlara hədiyyələr verən Şaxta baba xurcunu ilə). Uşaqlar şəkli tamamlamalı (şam ağacının başa çatdırılması nəzərdə tutulur) və rəngləməlidirlər. Sonra bir neçə şagirdə imkan verilir ki, şəkil barəsində söhbət aparsınlar.

**3. Çalışma dəftərində iş** (3-4 dəq.)

Eyni səhifəsinin aşağı hissəsində ləpirlər şəkli çəkilmişdir (toyuğun, itin, insanın). Müəllim:
– Qar üzərində gəzən zaman qarın üzərində nə görünür? – ayaq izləri, ləpirlər;
– Bu ləpirin kimin olduğunu tapa bilərsinizmi?
Uşaqlar cütlüklərdə işləməlidirlər. Onlar tapmalıdırlar ki, ayaq izləri kimə aiddir və xətt vasitəsilə müvafiq qəhrəmanla əlaqələndirməlidirlər.

**4. Oyun – "Qar dənələrini yaradaq"** (6-8 dəq.)

Müəllim dairədə əl-ələ tutan şagirdləri düzür və qar dənələrini təsəvvür edib onları yaratmağı təklif edir (yəni uşaqlar elə bölünməlidirlər ki, "qar dənəsinin" altı bucağı olsun).
Müəllim sualla oyunu çətinləşdirir:
– Dörd uşaq "qar dənəsini" yarada bilərmi? Beşi? Altısı?
Şagirdləri buna uyğun olaraq qruplaşdırır. Uşaqlar başa düşürlər ki, altıbucaqlı qar dənəsini yaratmaq üçün ən azı altı şagird lazımdır. Sonda bütün sinif dövrədə birləşir və müəllim tapşırıqla "qar topasını" yığmağa çalışır (bu, çox sadə və həm də maraqlı olur).

**5. Qar dənəsini lupa ilə müşahidə etmək** (5-8 dəq.)

Müəllim uşaqları məktəbin həyətinə çıxarır. Qar yağdığı halda, onlar qarı və qar dənəsini təsvir etməlidirlər (rəngi, dadı, qoxusu, forması, fakturası). Onu hissiyyat orqanları ilə əlaqələndirməlidirlər. Qar soyuqdur və ağdır. Göz – dəri. Sonra qar dənələrini lupa ilə müşahidə etməlidirlər. Bunun üçün çoxlu lupa lazım deyil, biri və ya ikisi də kifayət edir; müəllim şagirdləri növbə ilə yanına çağırır və onlar əlcəyin ətəyin üzərinə düşən qar dənələrini müşahidə edirlər. Müəllim bu zaman sual verir: lupa ilə müşahidə zamanı nə baş verir? (cismi böyüdülmüş görürük); qarın neçə tərəfi var (altı); qar dənələri eynidilər və ya müxtəlif? (qar dənələrinin hamısı fərqlidir, amma bir-birinə bənzəyirlər). Digər uşaqlar bu zaman orada durub öz növbələrini gözləyir və müəllim qulaq asırlar.(Buradaca yoxlamaq olar: həqiqətən də qarın üzərində iz qalırmı?)

**6. Dərsin yekunlaşdırılması** (1-2 dəq.)

## DƏRS 28

| | |
|---|---|
| **Mövzu:** | Qış |
| **Dərsin başlığı:** | Təhlükəli əşyalar |
| **Dərsin məqsədləri:** | Şagirdlər təhlükəsizliyin əsas tələblərini dərk etməlidirlər;<br>Yanğın baş verdiyi halda, təhlükəsiz hərəkət vərdiş-bacarıqlarını aşılamalıdırlar;<br>Hissiyyat orqanlarının əhəmiyyətini dərk etməlidirlər;<br>Hadisələri illüstrasiyada və ya həqiqətdə tanımalıdırlar;<br>Lokal mühitdə düzgün davranış qaydalarını formalaşdırmalı və əməl etməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.<br>Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |

| | |
|---|---|
| | insanın hissiyyat orqanlarını və onların funksiyalarını adlandırır (məs., göz – "görürəm", qulaq – "dinləyirəm", dil – "dadı duyuram", burun – "qoxunu hiss edirəm", dəri – "istilik və soyuğu, hamar və ya nahamar səthi duyuram"); |
| | insan üçün (məs., qidanın yararlı olduğunun təyin edilməsi, küçədə təhlükəsiz hərəkət) və heyvanlar üçün (məs., təhlükənin vaxtında aşkar edilməsi, qidanın əldə edilməsi, sığınacağın axtarılıb tapılması) hisslərin və hissiyyatın orqanlarının əhəmiyyəti barəsində müzakirə aparır; |
| | müəllimin yardımı ilə, sinif yoldaşları ilə birlikdə lokal mühitdə (məs., sinifdə, məktəbdə, həyətdə, küçədə, evdə) davranış qaydalarını formalaşdırır və onlara əməl edir (məs., məktəbin təmizliyinə əməl edir). |
| **Lazımi material:** | stəkan, kukla və ya maşın, rəngli karandaşlar, təhlükəli əşyalar: bıçaq, qayçı, iynə, mismar. |

**Dərsin gedişi:**

**1. Dairədə iş – "Təhlükəli əşyalar"** (8-10 dəq.)

Müəllim yeni il barəsində söhbət aparır və deyir ki, yeni ili fişənglər, feyerverklər, çoxlu işıqlandırıcılar və sairələr müşayiət edir.

Bütün bunlar gözəldir, amma heç də təhlükəsiz deyillər. Çoxlu xoşagəlməz hallar da baş verir (yanıqlar, müxtəlif travmalar..). Müəllim diqqəti təhlükəsizliyə və bu növ əşyalarla təmas zamanı lazımi davranışlara yönəldir.

Müəllimin iti və kəskin əşyalar (bıçaq, qayçı, iynə, mismar..) və təhlükəsiz əşyalar (stəkan, kitab, qələm, oyuncaq...) hazırlamışdır. Hər şeyi döşəmə üzərinə qoyur və uşaqlardan bu əşyaların ətrafında dövrə qurmağı xahiş edir (ya otursunlar və ya əyilsinlər). Müəllim izah edir ki, ailə əşyaları arasında təhlükəli əşyalar da təsadüf edilir, bununla da insana xəsarət dəyə bilər. "Gəlin, təhlükəli əşyaları tapaq", - müəllim deyir və əlinə kitabı və ya oyuncağı götürür, – "bu, təhlükəli əşyadır?" Şagirdlər cavab verirlər: - "xeyr".

Sonra müəllim bıçağı götürür və yenə də sual verir:

– Bu nədir? Təhlükəli əşyadır? (uşaqlar razılaşırlar).

– Nə üçün, sizin fikrinizcə, təhlükəlidir?

– İnsanlar bıçağı nə üçün istifadə edirlər?

Müəllim və şagirdlər uşağın bıçaqla oynamağa başladığı halda, nəyin baş verə biləcəyi haqqında danışırlar.

Bu qayda ilə bütün təhlükəli əşyanın təyinatı və təhlükəsi haqqında danışırlar. Bu söhbətlə müəllim uşaqları həmin nəticəyə yönəltməlidir ki, iti və kəskin əşyalarla oynamaq olmaz, iynə və mismarı ağıza qoymaq olmaz, yatağın və ya divanın üzərində qoymaq olmaz və s.

**2. Çalışma dəftərində iş – "Ailə elektrotexnikası"** (5-6 dəq.)

İş cütlüklərdə başa çatdırılır:

Çalışma dəftərinin müvafiq səhifəsində dörd "pəncərə" verilmişdir. Hər bir pəncərədə dörd əşyanın şəkli çəkilmişdir. Şagirdlər cütlüklərdə tapmalıdırlar ki, hər bir pəncərədə hansı əşya artıqdır və qırmızı karandaşla dairəyə almalıdırlar. Elektrik texnikasının dörd ailə əşyası veriləcəkdir: ütü, elektrik sobası, televizor, su qızdırıcısı.

Növbəti suallardan istifadə etməklə söhbət aparılır:

– Tərəfinizdən dairəyə alınan əşyaların hansı ümumi əlamətləri vardır?

– Evdə elektrik naqilində işləyən daha hansı əşyalardan istifadə edirsiniz?

– Bu əşyaya toxunduğu zaman uşağı hansı təhlükə gözləyir?

Müəllim izah etməlidir ki, uşaqlar iki əsas səbəb üzündən elektrik əşyalarından çəkinməlidirlər:

1. Elektrik keçirir; üzlüksüz naqilə toxunduqda ölümə səbəb ola bilər;
2. Yanğına səbəb ola bilər ki, nəticədə bədbəxt hadisə gözlənilir (yanıq, evin dağılması, ölüm).

Buna görə yaxşı olardı ki, uşaqlar belə bir əşyalardan ümumiyyətlə uzaq olsunlar, elektrik açarlarına

toxunmasınlar, işlək televizoru və ya başqa elektrik texnikasını təmizləməsinlər, islaq əlləri ilə naqilə toxunmasınlar, cihazı söndürmək üçün naqili dartmasınlar və s.

Müəllim uşaqlara xatırladır ki, qaz sobası ilə təmas da təhlükəlidir.

**3. Çalışma dəftərində iş – "Kitabımızın qəhrəmanlarını hansı təhlükə gözləyir?"** (2- 3 dəq.)

Çalışma dəftərinin eyni səhifəsində kitabımızın qəhrəmanlarının şəkilləri verilmişdir. Onlardan biri mismarı elektrik açarına keçirməyə çalışır, o biri isə - işlək ütünü ütü masasının üzərində qoyur.

Şagirdlər başa düşməlidirlər ki, kitabın qəhrəmanlarını hansı təhlükə gözləyir və onları vaxtında "xəbərdar etmək lazımdır".

**4. Diskussiya mövzu üzrə - "Evdə yanğın nəyə səbəb ola bilər?"** (3-5 dəq.)

Diskussiya prosesində müəllim şagirdləri nəticəyə yönəltməlidir ki, ailədə yanğının səbəbi alışqan, kibrit, işlək ütü, qaz sobasından düzgün istifadə edilməməsi (qaz sobası partlayış səbəbi də ola bilər), elektrikə qoşulmuş texnikanın (televizor, soyuducu, qızdırıcı, maqnitofon, elektrik sobası...) nasazlığı və s. ola bilər.

Buna görə də böyüklərin icazəsi olmadan bu əşyalardan istifadə etmək olmaz.

**5. Dərslik üzərində iş – "Dostlarımız yanğından necə xilas oldular?"** (7-8 dəq.)

Dərslikdə yanğın baş vermiş evdə uşaqların hərəkəti şəkillərlə verilmişdir. Tüstü qoxusunu hiss edən oğlan dərhal yataqdan döşəməyə sürüşdü (tüstü otaqda yuxarıdan başlayır yığılmağa), dərhal qapıya tərəf süründü, ehtiyatla qapını açdı, ikinci otaqda yanğının olmadığına əmin olduqdan sonra ora keçib qapını bağladı. Ata-anasını oyatdı, onlar dizləri üstdə başlarını aşağı əyərək mənzildən çıxdılar, sonra da – həyətə düşdülər. Onlar yanğın barəsində qonşulara xəbər verib dərhal yanğınsöndürənlərə və patrula zəng etməyi xahiş etdilər.

Bayıra çıxan oğlan həyətə toplaşmış qonşuları gördü. Bu zaman yanğınsöndürmə maşını da gəldi, yanğınsöndürənlər yanğını gur su ilə söndürdülər.

Şagirdlər qruplarda verilən şəkilləri gözdən keçirməli və eyni ardıcıllıqla yanğın zamanı hərəkətləri təsvir etməyə çalışmalıdırlar.

**6. Rollarla oyun – "Yanğından özümüzü qoruyaq"** (3-4 dəq.)

Prezentasiyadan sonra müəllim qruplardan xahiş edir ki, verilən şəkillərdə hər hansı bir səhnəni seçsinlər və oynasınlar (qışqırıq, səsləmək, pantomima və s. mümkündür). İstəyi olduğu halda, qrup başqa epizodu da fikirləşib oynaya bilər.

Başqa qrupun üzvləri (tamaşaçılar) qiymətləndirməlidirlər ki, onların yoldaşları "alov bürümüş evdə" nə dərəcədə düzgün və vaxtında hərəkət edirdilər.

**7. Bu təhlükəli əşyalardır** (2-4 dəq.)

Müəllim öz iş masasının üzərinə müxtəlif dərmanları, yuyucu tozları, həşəratlara qarşı aerozolu düzür. Masanın yanına sıra ilə hər bir qrupun üzvlərini çağırır - onlar "təhlükəli əşyaları" tapmalı və izah etməlidirlər ki, onların fikrincə, bu və ya digər əşya uşaqlar üçün niyə təhlükəlidir (yanlış, özbaşına qəbul edilmiş dərman zəhərli ola bilər, eləcə də yuyucu toz da, həşəratlara qarşı aeorozol da və başqa məişət kimyəvi maddələri zəhərləyici ola bilər).

**8. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

## DƏRS 29

| | |
|---|---|
| **Mövzu:** | Hissiyyat orqanları |
| **Dərsin başlığı:** | Əşyaları necə tanımalıyıq? |
| **Dərsin məqsədləri:** | Şagirdlər insanın hissiyyat orqanlarını adlandıra və onların funksiyalarını tanıya bilməlidirlər;<br>Tanış əşyanın xassələrini təsvir edə və müxtəlif hissiyyat orqanları ilə əlaqələndirə bilməlidir;<br>Şəxsi gigiyenaya əməl edilməsi əhəmiyyəti və zərurəti barəsində müzakirələr apara bilməlidir. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>insanın hissiyyat orqanlarını və onların funksiyalarını adlandırır (məs., göz – "görürəm", qulaq – "dinləyirəm", dil – "dadı duyuram", burun – "qoxunu hiss edirəm", dəri – "istilik və soyuğu, hamar və ya nahamar səthi duyuram");<br>tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz", "şokolad şirindir – dil" yaxud "qar ağdır və soyuqdur – göz və dəri", "limon sarıdır və turşdur – göz və dil");<br>insan üçün (məs., qidanın yararlı olduğunun təyin edilməsi, küçədə təhlükəsiz hərəkət) və heyvanlar üçün (məs., təhlükənin vaxtında aşkar edilməsi, qidanın əldə edilməsi, sığınacağın axtarılıb tapılması) hislər və hissiyyat orqanlarının əhəmiyyəti barəsində müzakirə aparır;<br>şəxsi gigiyena əşyalarını (məs., daraq, diş fırçası, dəsmal) adlandırır, gigiyena qaydalarına riayət edilməsi əhəmiyyəti barəsində müzakirə edir. |
| **Lazımi material:** | gözləri bağlamaq üçün yaylıq, sabun, audiomaterial (heyvanların səsləri ilə, təbii hadisənin: yağışın, şimşəyin, dənizin dalğasının, quşun cikkiltisinin və s.), videomaterial (küçədə vəziyyət). |

**Dərsin gedişi:**

**1. Oyun "Barmaqlarımızla görək"** (6-8 dəq.)

Müəllim dərsi sualla başlayır: əşyaları nə ilə görürsünüz? Sonra oyun təklif edir. Oyunun qaydaları belədir: müəllim sıra ilə yanına bir-bir şagird çağırır, onun gözlərini bağlayır və hər hansı bir əşyanı, məsələn, qələmi verir. Şagird barmaqları ilə əşyanı yoxlayır və onu adlandırır. Tapdığı halda müəllim başqa əşyaları da verir (qələm, pozan, kitab, papaq, oyuncaq və s.). Sinifdə çoxlu şagirdlər olduğunda, iki-üç əşyanı tapdıqdan sonra müəllim başqa şagirdi çağırmalıdır ki, könüllülərin hamısına iştirak etmək imkanı verilsin.

Oyundan sonra müəllimin sualları:

– Barmaqlarınızla toxunmaqla bütün (demək olar ki, bir çox) əşyanı tapa bildiniz, toxunmaqla daha nəyi başa düşürsünüz? (bu oyunla və əlavə suallar vasitəsilə müəllim uşaqlara çatdırmalıdır ki, toxunmaqla əşyanın hamar və ya kələ-kötür, iti və ya kəskin,soyuq və ya isti, hansı formada, bərk və ya yumşaq olduğunu başa düşürük).

Sonra müəllim sual verir:
– Əşyalara nə ilə toxunuruq? (təmas orqanı dəridir, amma uşaqlar barmaqları adlandıra bilərlər, çünki barmaqların dərisi xüsusilə həssasdır və barmaqlarla qavramaq daha münasibdir).

**2. Oyun – "Qulaqlarla görürük"** (5-6 dəq.)

Müəllim: – "Gördüyünüz kimi, əşyaları görməklə və toxunmaqla seçmək olar. Əşyaları eşitməklə seçmək olarmı?" Bu suala cavab vermək üçün müəllim uşaqlara yeni oyun təklif edir:

Uşaqlar ayağa dururlar və müəllimə arxalarını çevirirlər. Müəllim karandaşla, çubuqla və ya xətkeşlə sıra ilə müxtəlif əşyanı döyəcləyir (partanı, pəncərə şüşəsini, nimçəni, dəmiri və taxta əşyaları). Şagirdlər əşyanı səslə tapmalı və adlandırmalıdırlar. Bu halda, onlar birlikdə cavab verirlər. Sonra müəllim bir-bir şagirdləri çağırır və gözlərini sarıyır. Onlar yoldaşlarını "mən kiməm?" sualı ilə səslə tapmalıdırlar. Bir neçə şagirdi tanıdıqdan sonra başqasının növbəsi gəlir və könüllülərin hamısının iştirakı ilə davam edir. Fəallıq bu dəfə saatdan istifadə etməklə davam edir. Müəllim soruşur:

– Necə düşünürsünüz, dinləməklə tapa bilərikmi, məsələn, divar saatının işləyib-işləmədiyini? Sübut edin (tıqqıldayır, səs buraxır).

– Necə başa düşə bilərik ki, işləmir?

– Bu iki halda, hansı nəticəni çıxara bilərik? (tıqqıldayırsa – işləyir, səs buraxmırsa – işləmir).

Yaxşı olardı ki, bu fəallığın gedişində müəllim əyanilik üçün, kitabda verilən saat şəklindən başqa divar saatını gətirsin.

Yaxşı olardı ki, müəllim bu dərsin gedişində quşların və ya heyvanların səsi verilən audio- və video-materialdan istifadə etsin.

Oyun başa çatdıqdan sonra müəllim və şagirdlər nəticə çıxarırlar ki, nəinki görməklə və toxunmaqla, eləcə də dinləməklə əşyaları seçmək və qavramaq mümkündür. Məsələn, küçədə maşınların səs-küyü və siqnalla təhlükəni eşidirik.

**3. Dərslik üzərində iş** (5-6 dəq.)

Dərsliyin müvafiq səhifəsində barmaq, qulaq və gözlər şəkli çəkilmişdir. Burada üç ifadə göstərilir:
– Mənə tikan batdı;
– Top qırmızıdır;
– Quş mahnı oxuyur.

Şagirdlər cütlüklərdə işləyirlər. Onlar cümlələri oxumalı və adlandırmalıdırlar ki, hissiyatı hansı orqanının vasitəsilə duyuruq: tikanın batmasını – barmaqla, topun qırmızılığını – gözlə və quşun mahnısını – qulaqla.

Tapşırığı başa çatdırdıqdan sonra şagirdlər izah etməlidirlər ki, tapşırığı necə və nə üçün belə yerinə yetirdilər.

**4. Qrupda iş – rollarla oyun** (8-10 dəq.)

Müəllim sinfi 3 qrupa bölür və qrup üzvlərinə tapşırır ki, pantomima vasitəsilə oynasınlar:
I qrup – görə bilməyən insanları;
II qrup – eşidə bilməyən insanları.

Fəallığın məqsədi ondan ibarətdir ki, uşaqlar qrupun "rolunu" tapsınlar, çünki müəllim hər bir qrupa tapşırığı fərdi verir ki, başqaları eşitməsinlər.

Növbəti dəfə qrup üzvlərinin özləri bu iki variantdan istədikləri rolları seçir və pantomima ilə oynayırlar.

Müəllim:
– Bu insanların rolunda özünüzü necə hiss edirdiniz?
– Nə üçün gözlərə, qulaqlara, dəriyə (hissiyyat orqanlarına) ehtiyatla yanaşmaq vacibdir?

Müəllim söhbəti gigiyena normalarına əməl edilməsi zərurəti barəsində aparmalıdır (qulağa qulluq, gözün qorunması və s.)

Müəllim dərslikdə verilən kompüteri göstərir və kompüterdən istifadə qaydaları barəsində diskussiya aparır. Sinfin özü qaydaları formalaşdıra bilər ki, kompüterdən faydalandıqda bunlara əməl etmək lazımdır (ehtimal ki: kompüter arxasında uzun müddət oturmaq olmaz, özün və monitor arasında məsafəyə nəzarət etmək lazımdır və s.).

**5. Əllərimizi tez-tez yuyaq!** (4-5 dəq.)

Dərsdə vaxtımız qaldığı halda, yaxşı olardı ki, müəllim şagirdləri kranlar olan yerə aparsın (məs., ayaqyoluna). Müəllim 4 könüllüyə əvvəlcədən hazırlanmış kömürü sürtür və əyaniləşdirmək məqsədilə birinə yalnız soyuq su ilə çirki yuduzdurur, ikinciyə – soyuq su və sabunla, üçüncüyə yalnız isti su ilə, dördüncüyə isə – isti su və sabunla.

Digər şagirdlər yoldaşlarını izləyirlər, sonda isə yuyulmuş əlləri bir-biri ilə müqayisə edir və nəticə çıxarırlar: hansı su daha yaxşı yuyur – isti və ya soyuq? Çirk sabunla daha yaxşı yuyulur və ya sabunsuz?

**6. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

**Tövsiyə:**

Sonuncu fəallığın keçirilməsi üçün dərs vaxtının kifayət etmədiyi halda, müəllim bu fəallığı tənəffüsdə keçirə bilər.

## DƏRS 30

| | |
|---|---|
| **Mövzu:** | Hissiyyat orqanları |
| **Dərsin başlığı:** | Qoxu və dad |
| **Dərsin məqsədləri:** | Şagirdlər insanın hissiyyat orqanlarını adlandıra bilməli və onların funksiyalarını dərk etməlidirlər; |
| | Tanış əşyanın xassələrini təsvir edə və müxtəlif hissiyyat orqanları ilə əlaqələndirə bilməlidir; |
| | Şagirdlər dad və qoxu orqanlarının hansı olduğunu dərk etməlidirlər; |
| | Şagirdlərin müşahidə və analiz bacarığının inkişaf etdirilməsi; |
| | Hislər və hissiyyat orqanlarının əhəmiyyəti barəsində müzakirələr apara bilməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |
| | Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir; |
| | təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir; |
| | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |
| | suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə); |
| | insanın hissiyyat orqanlarını və onların funksiyalarını adlandırır (məs., göz – “görürəm”, qulaq – “dinləyirəm”, dil – “dadı duyuram”, burun – “qoxunu hiss edirəm”, dəri – “istilik və soyuğu, hamar və ya nahamar səthi duyuram”); |
| | tanış əşyanın xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz“, “şokolad şirindir – dil” yaxud “qar ağdır və soyuqdur – göz və dəri”, “limon sarıdır və turşdur – göz və dil”); |
| | insan üçün (məs., qidanın yararlı olduğunun təyin edilməsi, küçədə təhlükəsiz hərəkət) və heyvanlar üçün (məs., təhlükənin |

| | |
|---|---|
| | vaxtında aşkar edilməsi, qidanın əldə edilməsi, sığınacağın axtarılıb tapılması) hislər və hissiyyat orqanlarının əhəmiyyəti barəsində müzakirə aparır; |
| | müxtəlif sadə cihazlardan (lupa, fonendoskop) hissiyyatın gücləndirilməsi məqsədilə istifadə edir və bədən xassələrini təsvir edir ki, bunlar da bu cihazlardan istifadə edildikdə əyani görünür; |
| **Lazımi material:** | rəngli karandaşlar və ya flomasterlər, qızılgül və ya başqa ətirli gül, sirkə, limon, stəkanda qaynar çay, səs verən oyuncaq. |

**Dərsin gedişi:**

**1. Dərslik üzərində iş** (5-7 dəq.)

Müəllim ötən dərsin mövzusunu şagirdlərə xatırladır ki, ətraf mühiti qavramaqda onlara nə kömək etdi: əmin olduq ki, əşyaları gözlə – (görməklə), qulaqla – (eşitməklə), dəri ilə – (toxunmaqla) tanıyırıq (dərk edirik). Bədənin başqa hansı hissələri ilə əşyanı tanıya bilərik?

Bu suala cavab vermək üçün şagirdlər kitabımızın qəhrəmanlarının şəkli verilən dərsliyin müvafiq səhifəsini açmalıdırlar. Qızın üzü razı görünür, oğlan – narazıdır, onların qarşısında limon və şokolad şəkli çəkilmişdir. Şagirdlər tapmalıdırlar ki, hansı nəyi yemiş və adlandırmalıdırlar.

Müəllimin sualları:

– Nə üçün şokoladı qızla əlaqələndirdiniz?

– Şokoladın dadı necədir?

– Nə üçün limonu oğlanla əlaqələndirdiniz?

– Limonun dadı necədir?

– Sizin fikrinizcə, dadı necə hiss edirik (başa düşürük)?

Şagirdlər dilin əvəzinə ağız adlandırsalar, o zaman müəllim bir və ya iki şagirdi çağırır, onların gözlərini bağlayır və dodaqlarına limon şirəsini damızdırır (uşaqlar ağızlarını açmamalıdırlar).

– Dadı hiss etdinmi? – Müəllim sual verir. Sonra həmin şagirdin dilinə şirəni damızdırır və ya limonu qoyur, yenə də sualı təkrarlayır. Bu sınaqdan sonra uşaqlar başa düşməlidirlər ki, dadı yalnız dilin vasitəsilə başa düşürük.

**2. Oyun – “Burnumuzla görək”** (5-6 dəq.)

Müəllim bu dərsə qızılgül və ya başqa ətirli gül, sirkə şüşəsini (və ya başqa kəskin qoxusu olan əşyanı, məs., dırnaq boyasını (manikürü)) gətirir; iki-üç şagirdi çağırır, gözlərini bağlayır və bu əşyaları onların burunlarına yaxınlaşdırır, onlar qoxulamaqla başa düşməlidirlər ki, hansı əşyalardır. Müəllimin sualları:

– Əşyaların qoxusu eynidir və ya fərqli?

– Bədənimizin daha hansı hissəsi ilə əşyanı tanıya bilərik? (burunla).

– Sizin fikrinizcə, xarab olmuş xörəyin və ya meyvənin rəngi dəyişirmi? Qoxusu?

– Xoşagəlməz qoxu duyduğunuzda, həmin yemək yararlıdırmı və ya yox?

– İnsandan da yaxşı hansı heyvanın qoxu orqanı inkişaf etmişdir?

– Hansı heyvanın görmə qabiliyyəti daha yaxşı inkişaf etmişdir? Eşitmə?

(Müəllim və şagirdlər nəticə çıxarırlar ki, həm insanlar, eləcə də heyvanlar aləminin nümayəndələri ətrafı gözlərlə, burunla, qulaqlarla, dillə və dəri ilə - beş hissiyat orqanı ilə dərk edirlər).

**3. Hekayə – məsələ** (5-7 dəq.)

Müəllim şagirdlərə hekayəni oxuyur:

“Bir dəfə insan bədəninin üzvləri bir-birindən küsdülər. Gözlər dedilər: sizə keşik çəkməkdən yorulduq, sizin əvəzinizə baxmaq istəmirik!” Qulaqlar söylədilər: “Biz gözlərdən heç də əskik deyilik, bəsdir bu qədər səsi eşitmək!” Dil də deyinməyə başladı: “gah şirin yeyirəm, gah acı, daha mən də heç nəyin dadına baxmayacağam!”. Burun və dəri də bunlardan geri qalmadılar və onlar da acıq etdilər. Beləliklə, gözlər, qulaqlar, dil, burun və dəri bir-birinə yardım etməyi dayandırdılar. Necə düşünürsünüz, bu insanın bədəni ilə nə baş verə bilərdi?” (İ. Qoqebaşvilinin hekayəsi əsasında).

Sonuncu sualdan sonra müəllim əlavə suallar da verə bilər:

– Gözlərsiz bu insanla nə baş verə bilərdi? Qulaqlarsız insanla nə baş verə bilər? Burun olmadan insan nəyi hiss edə bilməz? Dili olmadan nəyi hiss edə bilməz? İnsan nəyi başa düşə bilməzdi, dərisi ona heç nəyi hiss etdirməsəydi? Gəlin, baxaq, əşyaları hiss etdiyimiz bədənin beş hissəsi hansılardır?

**4. Çalışma dəftərində iş** (4-5 dəq.)

Öyrənilən materialı bərkitmək üçün müəllim uşaqlara təklif edir ki, çalışma dəftərlərinin müvafiq səhifəsində verilən çalışmanı yerinə yetirsinlər. Vərəqdə kitabımızın qəhrəmanının şəkli verilir, onun ətrafında sözlər yazılmışdır: eşitmə, görmə, qoxu, dad, toxunma.

Şagirdlər cütlüklərdə işləyirlər, onlar bu sözləri oxumalı və oğlanın şəklini xətlərlə müvafiq hissiyyat orqanlarına birləşdirməlidirlər.

**5. Çalışma dəftərində iş** (3-4 dəq.)

Dəftərin həmin səhifəsində aşağı hissədə müxtəlif növdə yeməklər verilir. Şagirdlər tapmalıdırlar ki, onların arasında hansı şirindir və rəngləməlidirlər.

Uşaqlar fərdi işləyirlər.

**6. Praktiki iş** (3-4 dəq.)

"Daha yaxşı necə eşidə və görə bilərik?"

Müəllim əvvəlcə də lupadan istifadə etmişdi və indi də lupanı və ürəyi və ciyərləri eşitmək üçün tibbi cihazı fonendoskopu hazırlamışdır. Fonendoskop vasitəsilə şagirdlər bir-birlərinin ürək döyüntülərini eşidə bilərlər (bunun üçün paltarı soyundurmaq lazım deyil), lupa ilə kiçik əşyaları yaxşı görmək və seçmək mümkündür.

Şagirdlər dərk etməlidirlər ki, bəzi cihazların vasitəsilə əşyaları daha yaxşı qavramaq mümkündür.

**7. Dərsin yekunlaşdırılması** (1-2 dəq.)

**Tövsiyə:**

Bu dərslərdə verilən fəallıqlardan müəllim şəxsi nəzərinə əsasən istifadə edə bilər (fəallıqların hamısının istifadəsi vacib deyil), sinfin əhval-ruhiyyəsi və imkanlarını nəzərə almaqla.

## DƏRS 31

| | |
|---|---|
| **Mövzu:** | Hissiyyat orqanları |
| **Dərsin başlığı:** | Hissiyyat orqanları |
| **Dərsin məqsədləri:** | Şagirdlər təlimata əsasən, sadə tədqiqi fəallıqları təhlükəsiz keçirə bilməlidirlər;<br>Cisimləri fərdi orqanları ilə müşahidə etməlidirlər;<br>Nəticələri şifahi forma ilə ötürməlidirlər;<br>Müşahidə nəticələrinə istinad edərək, suallara cavab verməlidirlər;<br>Hissiyyat orqanlarının vasitəsilə cismin xassələrini təsvir etməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;<br>təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir; |

| | |
|---|---|
| | verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır; |
| | insanın hissiyyat orqanlarını və onların funksiyalarını adlandırır (məs., göz – "görürəm", qulaq – "dinləyirəm", dil – "dadı duyuram", burun – "qoxunu hiss edirəm", dəri – "istilik və soyuğu, hamar və ya nahamar səthi duyuram"); |
| | tanış əşyanın xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz", "şokolad şirindir – dil" yaxud "qar ağdır və soyuqdur – göz və dəri", "limon sarıdır və turşdur – göz və dil"); |
| **Lazımi material:** | yarpaqlar, lupa, ətirli gül, şokolad parçası, pambıq, müxtəlif formalı əşyalarla kisə, videomaterial. |

**1. Provokasiya** (3-5 dəq.)

Bu dərs keçilən materialın bir növ cəmləşdirilməsidir.

Müəllim sualla sinfə müraciət edir:

– Necə düşünürsünüz, ətrafımızdakı mühiti dərk etməkdə bizə nə yardım edir?

Bu suala, ola bilsin ki, şagirdlər ətraflı cavab verə bilməsinlər, amma bu növ suallar şagirdlərin sövq edilməsinə səbəb olurlar.

**2. Praktiki çalışma** (15-20 dəq.)

Müəllim şagirdlərə müxtəlif əşyaları göstərir və onlardan xahiş edir ki, göstərilən əşyaları adlandırsınlar. Sonda, uşaqlar nəticəyə yönəlirlər: görmə vasitəsilə insanlar və heyvanlar ətraf mühiti görürlər.

– Onlara bunda nə yardım edir?

Gözlər görmə orqanıdır.

Müəllim uşaqlara müxtəlif səsləri qulaq asdırır: quşların cikkiltisini, musiqi səsini, taqqıltını, pişiyin miyovultusunu, itin hürməsini...

Sonda uşaqlar nəticə çıxarırlar:

Eşitmə vasitəsilə insanlar və heyvanlar ətraflarında nəyin baş verdiyini eşidirlər.

– Onlara bunda nə yardım edir? (qulaqlar, eşitmə orqanı).

– Gülün, ətirlərin qoxusunu nə ilə qavrayırıq?

Müəllim hər bir uşağa pambıq parçasını verir və bir neçə dəfə onu bərk sıxmağı xahiş edir. Uşaqlar pambığa toxunduqlarında nə hiss etdiklərini təsvir edirlər. Pambıq necədir?

Müəllim: partanın səthinə əl vurun, nəyi hiss edirsiniz, necədir? (düzdür, hamardır... )

Müəllim əvvəlcədən kisəyə müxtəlif formada əşyaları yerləşdirir (kiçik topu, topu, kubiki, üçbucağı, xətkeşi, qələmi və s.). Şagirdlər bir-bir əllərini kisəyə salıb əşyanın hansı formasının olduğunu adlandırmalı və yalnız bundan sonra əşyanı çıxarıb sinfə göstərməlidirlər.

Sonda şagirdlər müşahidə əsasında nəticə çıxarırlar:

– Toxunmaqla əşyanın formasını, temperaturu, hamar və ya kələ-kötür, yumşaq və ya bərk olduğunu hiss edə bilərik.

Dəri hissiyyat orqanıdır.

Müəllim şokolad parçasını sinifdə şagirdlərin sayına uyğun olaraq bölür və onların arasında dadmaq üçün paylayır. Sonra isə xahiş edir ki, öz hislərini təsvir etsinlər (ehtimal ki: şirindir, ləzzətlidir və s.).

Dilin vasitəsilə insanlar və heyvanlar qidanı bir-birindən fərqləndirirlər. Dil hissiyyat orqanıdır.

Diskussiya sualı:

– Necə düşünürsünüz, sadaladığınız bütün hissiyyat orqanları lazımdırmı? Onlar nədə bizə yardım edirlər?

**3. Qısa mühazirə** (3-5 dəq.)

Ətraf mühitin qavranılması hissiyyat orqanlarının – gözün, qulağın, burunun, dilin və dərinin vasitəsilə mümkündür. Gündəlik həyatda hissiyyat orqanları insana qavramaqda və cisimləri xüsusiyyətlərinə əsasən (rəng, qoxu, faktura, forma, səs) tapmaqda yardım edir. Hissiyyatlar insanı təhlükədən (məs., küçədə hərəkət etdikdə) qoruyurlar, ətraf mühitdə baş verən dəyişiklikləri qavramağa imkan verirlər.

İnsan hissiyyat orqanlarını qorumalı və elementar gigiyena normalarına əməl etməlidir və bu sonuncu isə insanın sağlamlığı üçün önəmlidir.

Heyvanlar da ətraf aləmi hissiyyat orqanlarının vasitəsilə qavrayırlar. Onlar üçün hissiyyat orqanları düşməndən qorunmaq və yem tapmaq üçün xüsusilə önəmlidir.

Sizin fikrinizcə, heyvanlarda hansı hissiyyat orqanları xüsusilə inkişaf etmişdir?

**4. Videomaterialın nümayişi və təhlili** (4-5 dəq.)

**5. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

Müəllim dərsin sonunda şagirdlərə daha bir dəfə hissiyyat orqanlarını və onların canlı orqanizmlər üçün vacibliyini sadalatdırır.

**6. Ev tapşırığı:**

Valideynlərdən, nənə-babadan, qonşulardan heyvanlarla bağlı hər hansı maraqlı bir əhvalatı soruşun və növbəti dərsdə danışın.

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=1tTKLE72fJI

## DƏRS 32

| | |
|---|---|
| **Mövzu:** | Hissiyyat orqanları |
| **Dərsin başlığı:** | Həkim və dərmanlar |
| **Dərsin məqsədləri:** | Şagirdlər həkimin vacibliyini və ona olan ehtiyacı dərk etməlidirlər;<br>Müsahibə hazırlamalıdırlar (müalicə, sağlamlıq və dərmanlarla bağlı sualların düşünülməsi və formalaşdırılması);<br>Dərmanların istifadəsinə düzgün, ehtiyatlı yanaşmanı formalaşdırmalıdırlar;<br>Sadə suallar verməlidirlər (tematikadan irəli gələrək);<br>Lazımi məlumatı toplamalıdırlar;<br>Müxtəlif formada kommunikasiyadan istifadə etməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Nəticə əyanidir, əgər şagird:<br>öyrənilən cisim/hadisə haqqında sadə sualları verir;<br>təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir;<br>suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə);<br>fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir. |
| **Yeni sözlər:** | həb, məlhəm, resept, tənzif (bint), qrip, angina |
| **Lazımi material:** | rəngli karandaşlar və ya flomasterlər. |

**Dərsin gedişi:**

**1. Dərslik üzərində iş** (7-8 dəq.)

Müəllim uşaqlara bildirir ki, dərsliyin qəhrəmanlarından biri ilə nə isə baş vermişdir və ona “baş

çəkməyi” təklif edir. Bunun üçün onlar dərsliyin çarpayıya uzanmış oğlan və həkim şəkli çəkilmiş səhifəsini açmalıdırlar.

Şəklin təsviri və söhbət növbəti qaydada aparılmalıdır:

- Dostumuzla nə baş vermişdir? Nə üçün çarpayıda uzanmışdır?
- Onun yanına kim gəlmişdir?
- Həkimi kim çağırmışdır (dəvət etmişdir)?
- Necə düşünürsünüz, həkim necə hərəkət edəcəkdir?

Eyni səhifədə (aşağı hissədə) müxtəlif əşyaların şəkli çəkilmişdir, o cümlədən: termometr, fonendoskop, resept vərəqi, həblər. Şagirdlər cütlüklərdə işi davam etdirməli, tapmalıdırlar ki, oğlan üçün həkimə hansı əşyalar lazımdır və rəngləməlidirlər.

**2. Qrupda iş – rollarla oyun** (8-10 dəq.)

Müəllim sinfi 4 qrupa bölür və oynamaq (pantomima ilə) üçün növbəti səhnələri verir:

I qrup - uşaq diş həkimində;

II qrup – uşaq qulaq-boğaz həkimində;

III qrup – uşaq dəri həkimində;

IV qrup – uşaq göz həkimində.

Oyun zamanı uşaqlar jest-mimika ilə canlandırmalıdırlar ki, hansı həkimin xidməti onlara lazımdır. Hər bir qrup öz səhnəsini canlandırır, başqaları isə tapmalıdırlar ki, uşaqla “nə baş verib” və hansı həkim onu yoxlayır (və ya müalicə edir).

**3. Dərslik üzərində iş** (5-6 dəq.)

Müəllim söyləyir ki, xəstəlik və həkim barəsində danışdıqda bir neçə dəfə “dərman” sözündən istifadə etməli olduq.

– Hər birimiz dərmanı tapa bilərikmi?

Dərsliyin eyni səhifəsində şagirdlər yenə də aşağı hissədə verilmiş əşyaları müşahidə edirlər. Onlar dərmanları tapa bilməlidirlər.

Müəllimin sualları:

– Bu dərmanları necə tanıya bildiniz?

– Bu dərmanlar bir-birlərindən nə ilə fərqlənirlər?

(Dərslikdə həblər, məlhəm və damcılar verilir).

**4. Sinif diskussiyası** (6-7 dəq.)

Müəllim dərman mövzusunda söhbəti davam etdirir və diskussiya üçün suallar verir:

– Böyüklərin icazəsi olmadan dərman içmək olarmı və ya yox? Nə üçün?

Şagirdlər öz fikirlərini ifadə edirlər, diskussiyanın sonunda isə müəllim şərh edə və diskussiyanı cəmləşdirə bilər.

**5. Həkimin dəvət edilməsi**

Müəllim bu dərsə uşaq həkimini dəvət etmişdir (bu, valideyn, məktəbin həkimi və ya müəllimin yaxını ola bilər). Həkim əvvəlcədən bu dərsin məzmunu və fəallıq haqqında xəbərdar edilmişdir.

Həkim uşaqlarla tanış olur və öz peşəsinin zəruri xarici atributları barəsində danışır: nə üçün ağ xalat geyinirlər, nə üçün sarğı taxırlar və s.

Sonra həkim bu dövr üçün (qış üçün) xarakterik olan virus və ya başqa xəstəliklər və onların qarşısının alınması yolları barəsində danışır.

Yaxşı olardı ki, həkim sinifdən şərti olaraq bir neçə şagirdi seçsin (guya onlar qrip olmuşlar, öskürür və ya onlarda xəstəliyin hər hansı bir əlaməti var) və oradaca uşaqları yoxlayır. Həkim buradaca qeyd etməlidir ki, onun hər bir hərəkətinin hansı əhəmiyyəti vardır (məsələn, boğaza baxmaqla və ya ağciyərləri dinləməklə).

Sonra həkim “resept” sözünü xatırladır, onun əhəmiyyətini açıqlayır və müayinədən keçən uşaqlara şərti olaraq dərmanlar və təyinat “yazır” (xəstənin yoxlanılması oynanılır, simulyasiya).

**6. Qrupda iş – həkimə suallar** (4-6 dəq.)

İş mövcud 4 qrupda davam edir. Hər bir qrup onun üçün maraqlı 2 sualı fikirləşməli və həkimə verməlidir.

Həkim imkan daxilində qısaca bu suallara cavab verir, verilən suallara geniş cavabların verilməsi elə də vacib deyil.

- Müəllim lövhənin ortasına "dərman" sözünü yazır və uşaqlardan xahiş edir ki, dərmanla bağlı xatırladıqları bütün sozləri desinlər, müəllim bu sözləri lövhəyə yazır və assosiativ əlaqələr xəritəsini yaradır. Bu sözlər dərman adları, dərman təyinatları, təhlükələr və s. ola bilər. Ehtimal ki, bu assosiativ xəritənin istifadəsi dərman barəsində diskussiya aparılan zaman effektiv olacaqdır:




**7. Dərsin yekunlaşdırılması** (3-4 dəq.)

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=iFnRQn9bT8Y

## DƏRS 33

| | |
|---|---|
| **Mövzu:** | Sağlamlığın keşiyində |
| **Dərsin başlığı:** | Sağlam olmaq istəyirsənmi? |
| **Dərsin məqsədləri:** | Şagirdlər idmanın sağlamlıq üçün əhəmiyyətini dərk etməlidirlər; |
| | Şagirdlər idman etdikdə orqanizmdə baş verən bəzi dəyişiklikləri (ürək döyüntüsü, tənəffüs) araşdırmalıdırlar; |
| | Şagirdlər arasında idmana müsbət yanaşma formalaşmalıdır; |
| | Müxtəlif cihazların vasitəsilə cismin xassələri və vəziyyətini təsvir etməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |
| | Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |
| | suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə); |
| | verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır |
| | müxtəlif sadə cihazlardan (lupa, fonendoskop) hissiyyatın gücləndirilməsi məqsədilə istifadə edir və bədən xassələrini təsvir edir ki, bunlar da bu cihazlardan istifadə edildikdə əyani görünür. |
| **Lazımi material:** | dərslik, fonendoskop və ya stetoskop, qələmlər. |

**Dərsin gedişi:**

**1. Dərslik üzərində iş** (4-5 dəq.)

Dərsliyin müvafiq səhifəsində iki fotoşəkil verilir.
Müəllim şagirdlərdən xahiş edir ki, bu şəkilləri bir-biri ilə müqayisə etsinlər və suallara cavab versinlər:
– Bu insanların bədən quruluşu arasında hansı fərq vardır?
– Onların əzələləri arasında hansı fərq vardır?
– Hansı daha güclüdür?
– Hansının bədəni daha qəşəngdir?
– Hansı daha sağlam görünür?
– Hansı idman edir və hansı etmir?

**2. Sinif diskussiyası** (3-4 dəq.)

Müəllim sinif diskussiyasını növbəti suallarla aparır:
– Sağlam və güclü uşaq necə görünür?
– Sağlam olması üçün insan nə etməlidir?
(Müəllimə, cavabların arasında istədiyi variantı eşitmədiyinə qədər əlavə suallar da lazım ola bilər ki, insanın sağlamlığı üçün idman faydalıdır).

**3. Ürək döyüntüsü və tənəffüsün müşahidə edilməsi** (10-11 dəq.)

Müəllim uşaqlara təklif edir ki, idman etdikdə bədəndə hansı dəyişikliklərin baş verdiyini araşdırsınlar. Bunun üçün bir neçə şagirdə fonendoskopla və ya stetoskopla 2-3 sinif yoldaşlarının ürək döyüntüsünə qulaq asdırır. Sonra bütün sinif üçün 3-5 dəqiqəlik idman çalışmalarını keçirir (yerində hoppanmaq, çöməlmək...) İdman etdikdən sonra yenə də eyni şagirdlərə ürək döyüntülərini dinlədir.
Söhbət müəllimin növbəti suallarına əsasən aparılmalıdır:
– Ürək döyüntüsü nə vaxt daha bərk idi – idmandan əvvəl və ya sonra?
– Tənəffüsünüz sürətləndi və ya yavaşıdı?
– İdmandan sonra nəyi hiss etdiniz? (bədənin hərarəti artdı, yorğunluq, xoş hislər..)
– İdman sizin əhvalınızı dəyişdimi?
– İdman zamanı insanın dərisi nəyi ifraz edir?
– Tərləmiş bədənə nə lazımdır? (yuyunmaq, təri silmək)

**4. Cütlüklərdə iş** (5-6 dəq.)

Müəllimin tapşırığı ilə şagirdlər cütlüklərdə bir-birinə ötən gün etdikləri hərəkəti danışırlar (yəni gün ərzində nə etdiklərini yada salırlar) yuxudan oyandıqdan yatana qədər (yerindən durmaq, səhər yeməyi, məktəbə getmək, dərs oxumaq, oynamaq, televizora baxmaq...)
Sonra müəllim sual verir: kimsə idman etdiyini yada saldımı? Dünən idman edən şagird əlini qaldırsın.
Müəllim bu uşaqlardan xahiş edir ki, ayağa dursunlar və onun suallarına cavab versinlər:
– Adətən nə zaman idman edirsiniz?
– Nə üçün idman edirsiniz?
– İdman etdikdə özünüzü necə hiss edirsiniz? İdman etdikdən sonra? (insanlar, adətən, fiziki idman zamanı və ondan sonra özlərini çox yaxşı hiss edirlər və yaxşı əhvalda olurlar).
– Necə düşünürsünüz, hansı insan daha güclüdür: idman edən və ya idman etməyən?
– Hansı insan daha sağlamdır: kim idman edir və ya kim idman etmir?

**5. Dərslik üzərində iş** (4-5 dəq.)

Dərsliyin müvafiq səhifəsinin aşağı hissəsində sual verilmişdir – "Sağlamlıq üçün mənə nə lazımdır?". Müəllim sinfə sual verir və üç şəkli təsvir etməklərini xahiş edir: uşaqlar təbiətdə oynayırlar, uşaqlar idman edirlər və uşaqlar yemək yeyirlər. Sonra da çalışma dəftərini açmalıdırlar. Şəkillərin aşağısında müvafiq yazılar verilir. Şagirdlər bu yazıları oxumalı və müvafiq şəkillərə xətlərlə bağlamalıdırlar, yaxşı olardı ki, şagirdlər açıqlasınlar:
– Nə üçün təbiətdə, təmiz havada oynamaq vacib və faydalıdır?

– İdman nə üçün faydalıdır?
– Düzgün və müxtəlif qida nə üçün faydalıdır?

**6. Sinif diskussiyası** (2-3 dəq.)

Müəllim növbəti suallardan istifadə etməklə diskussiya keçirir:
– "Bərkimək" sözü nəyi bildirir?
– Bədənin bərkiməsi üçün nə lazımdır?

**7. Dərsin yekunlaşdırılması** (3-4 dəq.)

**Tövsiyə:**

Bu dərslərdə verilən fəallıqlardan müəllim öz nəzərinə əsasən istifadə edə bilər (bütün fəallıqların istifadəsi vacib deyil), sinfin əhval-ruhiyyəsi və imkanlarını nəzərə almaqla.

Tövsiyə edilən videomaterial: https://www.youtube.com/watch?v=BwPOZ6nOw8U
https://www.youtube.com/watch?v=FkLvSTXewNE

## DƏRS 34

| | |
|---|---|
| **Mövzu:** | Sağlamlığın keşiyində |
| **Dərsin başlığı:** | Hamı birlikdə idman edək! |
| **Dərsin məqsədləri:** | Şagirdlər müntəzəm fiziki çalışmaların yerinə yetirilməsi zərurətini dərk etməlidirlər; |
| | Şagirdlər sadə fiziki çalışmaları düzgün yerinə yetirə bilməli və yadda saxlamalıdırlar; |
| | Sadə suallar verməlidirlər; |
| | Praktiki fəallıqlarda iştirak etməlidirlər; |
| | Sadə təlimatlar verməli, özləri yerinə yetirə bilməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |
| | Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır. |
| **Nəticə əyanidir, əgər şagird:** | öyrənilən cisim/hadisə haqqında sadə sualları verir; |
| | təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir; |
| | suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə); |
| | məktəbin ərazisində səmtləşmək üçün sadə təlimatları yerinə yetirir və özü də təlimat verir, ən çoxu 1-2 istiqamətdə (məs., irəli və sağa). |
| **Lazımi material:** | rəngli karandaşlar və flomasterlər, fotoaparat. |

**Dərsin gedişi:**

**1. İdmanın zərurəti barəsində söhbət** (7-8 dəq.)

Müəllim düzgün qidalanmaq və yatmaq haqqında danışır. Qeyd edir ki, düzgün qidalanmamaq, çoxlu şirniyyat qəbul etmək dişləri xarab edir və eləcə də söyləyir ki, gözlərimizə qayğı göstərmək lazımdır. Müəllim göstərir ki, oxuduqda və dərs hazırladıqda düzgün oturmaq lazımdır: qeyd edir ki, kompüter arxasında uzun zaman oturmaq və oyun oynamaq gözlər, onurğa və ümumiyyətlə, orqanizm üçün ziyandır.

Müəllim idmanın sağlamlıq üçün əhəmiyyəti barəsində danışır.

**2. Dərslik üzərində iş** (6-7 dəq.)

Müəllim şagirdlərə dərsliyin müvafiq səhifəsini göstərir, hansında yoldaşlarımız idman edirlər və indi şagirdlərə öyrənmək iki çalışmanı təklif edir.

Həqiqətən də. Uşaqlar dərsliyin müvafiq səhifəsini görürlər, hansında kitab qəhrəmanları müxtəlif pozada dururlar. Şagirdlər tapmalıdırlar ki, şəkillərdə hansı hərəkətlər verilmişdir və yerinə yetirsinlər.

**3. Çalışmaların öyrənilməsi** (4-15 dəq.)

Müəllimin idman etmək istəyən şagirdlərin sayını təyin etdiyindən sonra müxtəlif idman təklif edir. Müəllim idman edən şagirdlərdən (bu da ötən dərsdə müəyyən edilmişdir) sıra ilə yaxınlaşsınlar və bir idman çalışmasını şagirdlərə öyrətsinlər. İrəli çıxan şagird bir neçə dəfə çalışmanı təkrar edir və izahatlar da verir; başqaları isə təkrar edir və yadda saxlamağa çalışırlar (idman zamanı otaqda pəncərə mütləq açılmalıdır). İdman çalışmaları yüngül və sadə olmalıdır ki, uşaqlar yorulmasınlar.

**4. Çalışma dəftərində iş** (5-6 dəq.)

Müəllim şagirdlərə bildirir ki, insanlar çalışmaq üçün tez-tez müxtəlif əşyalardan istifadə edirlər. Belə bir əşyalardan bir neçəsi onların dəftərlərində də verilmişdir. Onlar şəkillərə diqqət verməli, bu əşyaları tapmalı və xətlərlə müvafiq sözlərlə əlaqələndirməlidirlər. Sonra şagirdlər şəkli rəngləməlidirlər.

**5. Cütlüklərdə iş** (2-3 dəq.)

Şagirdlər fikirləşməli, qərara almalı və cütlük yoldaşlarına xatırlatmalıdırlar ki, öz gündəliklərini necə dəyişəcəklər – idman etməyə başlayacaqlar və ya yox? Başladıqları halda, günün hansı hissəsində idman edəcəklər?

Sonra cütlüklər deyirlər: kimin cütlük yoldaşı idman çalışmalarını etməyi düşünür və kiminki – düşünmür.

Müəllim idman çalışması ilə bağlı növbəti sözləri göstərir və öyrədir: əlləri belə qoymaq, əlləri eninə açmaq, çöməlmək, yana əyilmək (beli bükmək).

**6. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

**7. Qonaqla görüş** (5-6 dəq.)

Müəllim bu dərs üçün məktəbə həmin şəhərin (kəndin, rayonun...) məşhur idmançısını dəvət etmiş və onunla əvvəlcədən dərsin məqsədləri və məzmunu barəsində razılaşmışdır. Qonaq öz həyatından maraqlı parçaları yada salır, uşaqlara danışır, uşaqlıqda necə idman edirdi, bədənini necə bərkidirdi, müntəzəm idman məşğələləri ilə onun bədəni necə böyüyür və güclənirdi, idmanla məşğul olmaqla insanın gözəl bədəni necə formalaşır və artıq yağlar necə yox olur, gündəlik fiziki idman sağlamlıq üçün nə qədər vacibdir və s.

Şagirdlər dinləyirlər, suallar verirlər, öz fikirlərini söyləyirlər... Yaxşı olardı ki, xatirə olaraq qonaqla birlikdə şəkil çəkdirsinlər.

## DƏRS 35

| | |
|---|---|
| **Mövzu:** | Yaz |
| **Dərsin başlığı:** | Yazın gəlişi |
| **Dərsin məqsədləri:** | Şagirdlər ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir etməlidirlər;<br>İlin fəsillərini adlandırmalı və onların fərqli əlamətlərini müzakirə etməlidirlər;<br>İlin hər bir fəslinə xas olan hava barəsində söhbət etməlidirlər;<br>Heyvanlara və bitkilərə xas olan dəyişiklikləri dərk etməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |

| | |
|---|---|
| | Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |
| | verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır; |
| | fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir; |
| | gecə-gündüz ərzində müşahidə olunası dəyişiklikləri adlandırır; |
| | gecə-gündüzün parçalarını fərqləndirir – səhər, gündüz, axşam, gecə və öz fəallığı/məşğulluğu ilə əlaqələndirir; |
| | ilin fəsillərini adlandırır və bir-biri ilə müqayisə edir, onları fərqləndirən işarələr barəsində müzakirələr aparır, onların hər biri üçün xarakterik hava barəsində danışır. |
| **Lazımi material:** | rəngli karandaşlar və ya flomasterlər. |

**Dərsin gedişi:**

**1. Hekayənin dinlənilməsi və ilin fəsillərinin tanınması** (3-4 dəq.)

Müəllim hekayəni oxuyur və uşaqlardan xahiş edir ki, onda ilin hansı fəslinin təsvir edildiyini tapsınlar.

"Ölkəmiz yavaş-yavaş isinməyə başlayır. Qar çəmənlərdə və dağlarda əriyir... Çaylar aşıb daşır. İstilik Yeri oyatmışdır. Qar əriyən kimi, çəmənlikdə yaşıl ot dərhal baş qaldırır. Orada-burada erkən güllər də açmışlar. İstilik ağacları da qış yuxusundan oyadır: ağaclar əvvəlcə tumurcuqlayır, sonra ağ çiçəklər açır və sonda çoxlu yarpaqlarla örtülürlər.

İlin bu fəsli ilə çoxlu quşlar uçub gəlirlər. Baxın, göyün üzündə səhər zəngi kimi mahnı səsi eşidilir: yəqin torağay uçub gəlmişdir. Tezliklə qaranquşlar da uçub gələcəklər. Sığırçın, sarıköynək, çivdimdik, bildirçin, qu quşu bir-birinin ardınca ölkəmizə sevinclə qayıdırlar. Çəmənlik, meşə və ağaclıq müxtəlif quşlarla dolur. Bunların zümzüməsi və cikkiltisi, fiti və zümzüməsi təbiəti oyadır".

(İ. Qoqebaşvilinin "Yaz" hekayəsinə əsasən)

**2. Yaz haqqında söhbət** (4-5 dəq.)

Müəllim növbəti suallardan istifadə etməklə söhbəti aparır:

– Necə başa düşdünüz ki, bu hekayədə yaz təsvir edilmişdir?

– Yay ilin hansı fəslindən sonra gəlir?

– Yazda təbiət necə dəyişir?

*(hava isinir; gün uzanır, gecə qısalır. Günəş daha uzun müddət göyün üzərində olur. Qar əriyir (və ya ərimişdir), bitkilər yarpaqlanmağa və çiçəklənməyə başlayırlar; çöl-çəmənlik otla örtülür; quşlar ölkəmizə qayıdırlar və s.)*

– Kimin yadındadır, qışda hansı aylar vardır? Payızda?

– Yaz ayları hansılardır? (İndi hansı aydır?)

(Şagirdlərin diktəsindən sonra müəllim lövhəyə yaz aylarını yazır).

– Yazda neçə ay var?

– Yaz fəsli hansı ayla başlayır?

**3. Oyun "yaz ayları"** (5-7 dəq.)

Yaz aylarını daha yaxşı yadda saxlamaq üçün müəllim şagirdlərə qış aylarında oynadıqları oyunun analoqunu təklif edir. Bu, əl çalmaqla oyun idi. Müəllim lövhədə mart ayına 1 yazır, aprelə - iki və may ayına – 3. Bu onu bildirir ki, marta 1 dəfə əl çalmaq, aprelə – 2 dəfə əl çalmaq, maya – 3 dəfə əl çalmaq uyğundur.

Müəllim bir neçə dəfə qarışıq əl çalır – gah bir dəfə, gah üç dəfə, iki dəfə, yenə də üç dəfə və s. Uşaqlar ayları tapmalı və adlandırmalıdırlar. Sonra müəllim şagirdlərdən xahiş edir ki, daha diqqətlə qulaq assınlar,

əvvəlcə bir dəfə əl çalacaq, sonra – 2 dəfə, axırda – 3 dəfə və deyir ki, yaz ayları məhz bu ardıcıllıqla bir-birini əvəz edir və hər üç əl çalmanı yenə də şagirdlərə təkrarladır: mart, aprel, may.

**4. Çalışma dəftərində iş** (5-7 dəq.)

Çalışma dəftərinin müvafiq səhifəsində (yuxarı hissəsində) qəhrəmanlarımızın şəkli verilir. Onlar yazın gəlişinə sevinirlər. Şagirdlər əvvəlcə yaz mənzərəsini rəngləməli və sonra da şəklin əsasında təsvir etməlidirlər. Müəllim diqqəti rəngarəngliyə və yaz üçün xas olan əlamətlərə yönəltməlidir.

**5. Dərslik üzərində iş** (4-5 dəq.)

Dərsliyin verilən səhifəsinin aşağı hissəsində ("yazın müjdəçiləri") bənövşə və novruzgülü çəkilmişdir. Oradaca onların adları yazılmışdır. Şagirdlər hansının bənövşə və hansının novruzgülü olduğunu tapmalı, şəkilləri xətlərlə müvafiq yazılara birləşdirməlidirlər. Sonra müəllim sual ilə sinfə müraciət edir: "Yaz müjdəçiləri" ifadəsini necə başa düşürsünüz?

**6. Qruplarda iş** (4-5 dəq.)

Müəllim sinfi qruplara bölür və hər bir qrupa üç-üç A4 vərəqlərini paylayır. Bir vərəqə yazılmışdır: "payız", ikinciyə - "qış", üçüncüyə - "yaz". Şagirdlər hər bir vərəqi rəngləməlidirlər (heç nəyi çəkmirlər və yalnız rəngləri köçürürlər) və sonra qruplar izah etməlidirlər ki, bu və ya digər ilin fəslinin bu rənglərini nə üçün seçdilər.

**7. Dərsin yekunlaşdırılması** (1-2 dəq.)

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=Vrz1Wz-usuk

## DƏRS 36

| | |
|---|---|
| **Mövzu:** | Yaz |
| **Dərsin başlığı:** | Gecə və gündüz |
| **Dərsin məqsədləri:** | Şagirdlər gecə-gündüz və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir etməli/tapmalıdırlar;<br>Gecə-gündüz ərzində müşahidə olunası dəyişiklikləri adlandırmalıdırlar;<br>Gecə-gündüzün parçalarını fərqləndirməli və şəxsi məşğuliyyətləri ilə əlaqələndirməlidirlər;<br>Həftənin günlərinin adlarını sadalamalı/yadda saxlamalı və mühüm xüsusiyyətlərə əsasən bölməlidirlər;<br>Səmtləşdirici terminlərdən istifadə etməlidirlər;<br>Müşahidə əsasında şəkil yaratmalıdırlar. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır.<br>Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | öyrənilən cisim/hadisə haqqında sadə sualları verir;<br>cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>müxtəlif istiqamət terminlərindən istifadə edir (məs., uzaqda, |

| | |
|---|---|
| | yaxında, məndən sağda, məndən yuxarı, aşağıda) və məktəbin ərazisində mövcud obyektlərin yerini özü ilə münasibətdə müəyyən edir; |
| | müşahidə əsasında məktəbin şəklini çəkir, xüsusi diqqətini çəkən xırdalıqlar barəsində söhbət aparır; |
| | gecə-gündüz ərzində müşahidə olunası dəyişiklikləri adlandırır; |
| | gecə-gündüzün sahələrini fərqləndirir – səhər, gündüz, axşam, gecə və öz fəallığı/məşğulluğu ilə əlaqələndirir; |
| | həftənin günlərini sadalayır, həftənin günlərini onlar üçün önəmli xüsusiyyətlərə əsasən fərqləndirir (məs., dərs günü – istirahət günü). |
| **Lazımi material:** | rəngli karandaşlar və ya flomasterlər. |

**Dərsin gedişi:**

**1. Dərslik üzərində iş** (4-5 dəq.)

Müəllim uşaqlardan xahiş edir ki, göstərilən səhifədə iki fotoşəkli müşahidə etsinlər: birində şəhərin bir sahəsinin şəkli gündüz çəkilmişdir, ikincidə - gecə ərzində, bu zaman küçələr və evlər elektrik işıqları ilə işıqlandırılmışdır.

Müəllimin ehtimal sualları:

– I fotoşəkildə nə ilə işıqlandırılmışdır? II fotoşəkildə?

– I fotoşəkildə hansı vaxtdır – gecə və ya gündüz? İkincidə?

– Bu şəkillərdə gündüzün səması gecənin səmasından nə ilə fərqlənir?

– Gecə təmiz göy üzərində nə görünür? Gündüz?

(Nəticə: gündüz işığı günəşdən alırıq, günəş bizi işıqlandırır).

**2. Gecə-gündüz sahələri haqqında söhbət** (5-6 dəq.)

Müəllim: "işıq olmadığı yerdə qaranlıq olur. Hər günün sonunda günəş işığı azalır, işıq yerini qaranlıq tutur.

Bu zaman biz deyirik ki, gecədir. Gecə göyün üzündə ulduzlar və ay görünür. Onların işığı çox zəif olur, buna görə də bizdə, Yerdə, gecə qaranlıq olur.

Gecədən sonra yeni gün başlayır. Günəş oyanır və ətrafı işıqlandırır".

– Həmin vaxt necə adlanır? (şagirdlər tapmalıdırlar ki, bu vaxt səhərdir). Başqa sözlərlə desək, şəfəq, sübh, erkən, ala-toran.

– Gün ərzində günəş bizi qızdırır və bizə işıq verir. Günün sonunda isə günəş "aşağı enir" və yavaş-yavaş qaranlıq düşür. Tam qaranlıq düşənə qədər olan vaxta nə deyirik? (axşam). Başqa sözlərlə desək: axşam toranlığı.

– İnsanlar səhərlər nə edirlər? Siz nə edirsiniz? (şagirdlər sıra ilə yada salmalıdırlar ki, səhərlər nə edirlər).

– Gündüzlər nə edirsiniz?

– Axşamlar nə edirsiniz?

– Gecə nə edirsiniz?

– Bilirsinizmi, indi təxminən saat neçədə qaranlıq düşür? (yanvar ayında axşam saat 6-7-də artıq qaranlıq olur)

– Yayda da belə tez qaranlıq düşür?

– Nə vaxt daha uzun gecə olur, qışda və ya yayda?

(nəticə: qışda gecə tez düşür və gecə uzun olur, yayda gecə gec düşür və gecə qısa olur, gündüz isə - uzun olur. Sutkanın Yerin fırlanması ilə əlaqəsi barəsində söhbət bu yaşda uşaqlar üçün uyğun deyil, bunu növbəti siniflərdə öyrənəcəklər).

**3. Çalışma dəftərində iş** (5-6 dəq.)

Çalışma dəftərində müxtəlif işıqlandırıcı və qeyri-işıqlandırıcı əşyalar verilir. Şagirdlər cütlüklərdə işləyirlər. Onlar tapmalıdırlar ki, hansı əşya işıq verir və onu da rəngləməlidirlər.

Müəllimin sualları:

– Bu əşyalardan hansı insan əli ilə düzəldilmişdir? (hamısı, günəşdən və ulduzlardan başqa).
– Bunlardan hansı işığı təbii şəkildə (şüalandırır) verir? (günəş və ulduzlar).

**4. Həftənin günləri barəsində söhbət** (4-5 dəq.)

Müəllim uşaqlara izah edir ki, hər günün öz adı var və suallar verir?
– Bu gün hansı gündür?
– Daha hansı günlərin adlarını bilirsiniz?
– Gəlin birlikdə sadalayaq: bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümə, şənbə, bazar.
(Müəllim lövhədə bu sözləri yazır və bir neçə dəfə frontal qaydada təkrar etdirir. Şagirdlər bu vaxt üçün artıq hərflərin və sözlərin oxunuşunu bilirlər).
– Həftənin cəmi neçə günü var imiş?
– Həftənin günləri lövhədə yazıldığı ardıcıllıqla bir-birini əvəz edir. Belə ki, sizin fikrinizcə, yeni həftə hansı günlə başlayır?
– Bazar ertəsindən sonra hansı gün gəlir?..
– Cümə axşamından sonra hansı gün gəlir?
– Şənbədən əvvəlki gün hansıdır?
– Həftənin 7 günündən hansı sonuncudur?
– Həftənin hansı günlərində oxuyuruq?
– Hansı günlər asudə, yəni istirahət günləridir?
Müəllim bu cür sualları bir neçə dəfə təkrarlatdıra bilər ki, uşaqlar günlərin adlarını yaxşı yadda saxlasınlar.

**5. Həftənin günlərini yadda saxlamaq üçün oyun** (8-10 dəq.)

Müəllim bir şagirdi ayağa qaldırır və ona "bazar ertəsi" olduğunu deyir. Sonra ikinci şagirdi ayağa qaldırır və deyir: "sən növbəti günsən, deməli hansı günsən?" (çərşənbə axşamı) və belə davam edir, şagirdlərin hamısının öz sırası və günü düşdüyünə qədər. Belə ki, birinci yeddi şagirddən sonra, səkkizinci şagird yenə də "bazar ertəsi" olacaq, sonrakı – "çərşənbə axşamı" və s. Hər kəs ona hansı günün düşdüyünü yadında saxlamalıdır. İndi müəllim xahiş edir ki, "bazar ertələri", "çərşənbə axşamları", "çərşənbələr" və s. birlikdə dursunlar – qruplaşsınlar. Sinifdə 14 şagirdin olduğu halda, hər qrupa 2 uşaq düşəcək, çox olduqları halda, qrupda 2 nəfərdən çox şagird olacaqdır.
Müəllim uşaqlara növbəti tapşırığı verir:
I tapşırıq: şagirdlərin hamısı dairədə elə durmalıdırlar ki, həftənin günləri ardıcıllıqla bölünsün (uşaqlar başa düşməlidirlər ki, "çərşənbə axşamı" "bazar ertəsi"-ndən sonra durmalı, ondan sonra isə "çərşənbə" durmalıdır. "Həftənin" növbəti ardıcıllığı yenə də "bazar ertəsi" ilə başlayır və s.) Oyun dairənin bağlanılmasına qədər davam etməlidir (sonda ola bilsin ki, günlər bir-birinin "ardınca gəlməsin", buna görə də birinci və sonuncu şagirdin arasında müvəqqəti olaraq müəllim durur).
II tapşırıq: müəllim sual verir ki, "asudə gün"-ün mənasını bilirlərmi (yəni istirahət günləri – şənbə, bazar). İstirahət günləri dairədən çıxmalı və dairənin içərisində kiçik dairə yaratmalıdırlar (kiçik dairəni yalnız "şənbələr" və "bazarlar" yaratmalıdırlar).
III tapşırıq: hər iki dairədə uşaqlar əl-ələ verib dururlar.
Müəllim onlara təklif edir ki, günləri əl çalmaqla və ayaqlarını yerə vurmaqla bildirsinlər:
Bazar ertəsi – 1 dəfə əl çalmaq
Çərşənbə axşamı – 2 dəfə əl çalmaq
Çərşənbə - 3 dəfə əl çalmaq
Cümə axşamı – 4 dəfə əl çalmaq (ritmdə 2+2)
Cümə - 5 dəfə əl çalmaq (ritmdə 2+3)
Şənbə - 2 dəfə ayağı yerə vurmaq
Bazar – 3 dəfə ayağı yerə vurmaq
Müəllim bir dəfə əl çaldıqda, "bazar ertələri" aşağı əyilib yenə də ayağa durmalıdırlar; 2 dəfə əl çaldıqda "çərşənbə axşamları" aşağı əyilirlər və s. Hər dəfə əl çaldıqda və ya ayağı döydükdə müvafiq "günlər" reaksiya verirlər.

**6. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

Yekunlaşdırdıqdan sonra müəllim ev tapşırığını verir: onların çalışma dəftərində iki boş çərçivə verilir: gündüz və gecə. “Gündüz” çərçivəsində onlar pəncərədən gördükləri səmanı çəkməlidirlər (buludlu, göy, boz və s.), gecə isə, yatmazdan öncə, pəncərəyə baxmalı, göyün üzünü müşahidə etməli və çərçivədə gecənin səmasının şəklini çəkməlidirlər.

**Əlavə (və ya alternativ) fəallıq**

Qruplarda iş; müəllim sinfi kiçik qruplara bölür və tək-tək boş vərəqlər paylayır. Vərəqdə sütun şəklində həftənin günlərini yazmalıdırlar. Sonra müəllimin dəftərinin əlavə rəngli vərəqlərindən dairələr çəkməli, hər günə rənglər seçməli və onların yanına yapışdırmalıdırlar (kitabda 6 rəngdə kağız verilir, yeddinci ağ olacaqdır). Qruplar “izah etməlidirlər” ki, nə üçün həftənin bu və ya digər gününə bu və ya digər rəngi seçmişlər (bu çalışmanı sinfin əlifbanı tam keçdikləri halda yerinə yetirə bilərsiniz).

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=aXD_L5pEOzk
https://www.youtube.com/watch?v=SROPBql1q68

## DƏRS 37

**Mövzu:** Yaz

**Dərsin başlığı:** Həyətimizdə yaz

**Dərsin məqsədləri:**

Şagirdlər mövsüm xüsusiyyətlərinə əsasən, ilin fəsillərini seçməli-fərqləndirməlidirlər;

Təbiətdə baş verən dəyişiklikləri öz hissiyyat orqanları ilə əlaqələndirməlidirlər;

Öyrənilən obyekt üzərində müşahidələr aparmalıdırlar;

Cisimləri tanımalı, təsvir etməli, çeşidlərə ayırmalıdırlar;

Məntiqi təfəkkür bacarığının inkişafına dəstəyin verilməsi.

**MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:**

Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.

Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.

Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir.

**Nəticə əyanidir, əgər şagird:**

öyrənilən cisim/hadisə haqqında sadə sualları verir;

özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;

təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir;

cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;

tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz“, “şokolad şirindir – dil” yaxud “qar ağdır və soyuqdur – göz və dəri”, “limon sarıdır və turşdur – göz və dil”);

müxtəlif mühitdə yaşayan bitkilərin/heyvanların müqayisəsi üçün sualları formalaşdırır;

sinif otağında, məktəbin həyətində, lokal mühitdə yetişən müxtəlif bitkiləri (məs., yarpaqların forması və ya ölçüsünə əsasən, gövdənin

| | |
|---|---|
| | formasına, qalınlığına və ya uzunluğuna əsasən, çiçəklərin rəngi və ya ölçüsünə əsasən) və ya heyvanı (məs., soxulcanı, ilbizi, kəpənəyi, parabüzəni) müşahidə edir; müşahidə nəticələrini müxtəlif forma ilə ötürür (şifahi nitq ilə, şəkillərlə, kollajla, fotoşəkillərin vasitəsilə); |
| | ilin fəsillərinə əsasən insanın fəaliyyəti (məs., bitkilər əkmək, məhsul yetişdirmək, məhsul yığımı), heyvanların hərəkəti (məs., quşların uçuşu, qış yuxusu) və bitkilər üçün xarakterik dəyişikliklərin (məs., çiçəkləmə, yarpaq tökülməsi) misallarını sadalayır. |
| **Lazımi material:** | ağ vərəqlər, qələmlər, rəngli karandaşlar və ya flomasterlər. Audio-material: Vivaldinin "İlin fəsilləri" |

**Dərsin gedişi:**

**1. Qruplarda iş** (3-4 dəq.)

Müəllim uşaqlara xatırladır ki, ötən dərsdə yaz aylarını öyrəndilər. Şagirdlər yaz aylarını adlandırır və payız və qış aylarını da yada salırlar.

**2. Çalışma dəftərində iş** (8-10 dəq.)

Çalışma dəftərinin müvafiq səhifəsində yazı ifadə edən şəkil verilir. Onda rəssam səhvlər "buraxmışdır". Xüsusilə də, qadın üzüm dərir, oğlan xizəklə sürüşür, evin sağındakı ağacın yarpaqları isə saralmış və tökülür. Şagirdlər cütlüklərdə şəkli izləməlidirlər. Bu səhvləri tapmalı və dairəyə almalıdırlar; onlar izah etməlidirlər ki, rəssam nə üçün bu və ya digər halda səhv "buraxmışdır". Sonra da şəkli rəngləməlidirlər.

**3. Yaz mövzusunda şeirlərin oxunulması** (10-12 dəq.)

Müəllim uşaqlara deyir ki, yaz haqqında çoxlu şeirlər yazılmışdır, çünki insanlar yazın yoldaşlarımıza çox sevinirlər. Ana dili və ədəbiyyatı dərslərində onlar da yaz haqqında şeirlər öyrənmişlər. Müəllim uşaqlara yaz haqqında öyrəndikləri şeirləri oxutdurur; sonra həmin qruplara onlar üçün naməlum (yeni) iki şeirdən bir və ya iki misra verir. Birində yaz təsvir edilməlidir, ikincidə isə – ilin başqa hər hansı bir fəsli (müəllim bunun üçün A. Şaiqin "Gəl, gəl, a yaz günləri" şeirindən istifadə edə bilər). Şagirdlər tapmalıdırlar ki, hansı misra yaza həsr edilmiş və öz fikirlərini sübut etməlidirlər.

**4. Çalışma dəftərində iş** (4-5 dəq.)

Müəllim uşaqlara bildirir ki, çalışma dəftərində bir tapşırığı da yerinə yetirməlidirlər: yoldaşlatımıza boş xanaları doldurmaqda yardım edirik – onlar başa düşməlidirlər ki, bu boş xanalara nəyin şəklini çəksinlər. Dərsliyin müvafiq səhifəsində (aşağı hissədə) iki müxtəlif sırada ardıcıllıqlar verilmişdir. Şagirdlər bu ardıcıllıqların qanunauyğunluqlarını tapmalı və boş xanalara döes gilas (yuxarı sırada) və iki yarpaq (ağaı sırada) şəklini çəkməlidirlər.

Müəllim vaxtaşırı belə bir suallar verir:

– Yarpaqların yaşıl olmasını nə ilə hiss edirsiniz (qavrayırsınız)? *(gözlərlə)*

– Gülün ətrinin olmasını nə ilə hiss edirsiniz? *(burunla)*

– Quşların cikkiltisini nə ilə hiss edirsiniz? *(qulaqlarla)*

– Havanın isti olduğunu nə ilə hiss edirsiniz? (dəri ilə)

Sonra yaxşı olardı ki, müəllim şagirdlərə canlı və cansız obyektləri xatırlatsın; bunun üçün o, müvafiq suallar verməlidir:

– Ağac, qarışqa, quş, torpaq, daş, yarpaq, su, günəş canlı təbiətə aiddir və ya cansız təbiətə?

Burada ola bilsin ki, şagirdlər cansız təbiətə pəncərə, bina, gödəkçə, papaq və s. kimi əyani əşyaları cansız təbiətə aid edə bilərlər. Bu halda, müəllimə yaxşı imkan verilir ki, ətrafımızdakı əşyaların həm təbii, eləcə də insan tərəfindən hazırlandığını izah etsin. Canlı və cansız təbiəti insan tərəfindən hazırlanana aid etmirlər.

**5. Məktəbin həyətində təbiətin müşahidəsi** (5-7 dəq.)

Müəllim şagirdləri məktəbin həyətinə çıxarır. Həyətin çıxışın məqsədi təbiətin müşahidə edilməsidir. Şagirdlər yazda, canlı təbiətdə baş verən dəyişiklikləri müşahidə etməli və tanımalıdırlar; eləcə də şagirdlər cansız təbiətdə baş verən dəyişiklikləri də müşahidə etməlidirlər. Onlar həyətdə bir çox şeyləri müşahidə edə bilərlər: ağacın budağında və ya kolda tumurcuqlar necə şişib və partlayıblar, bitki necə yarpaq açır, gül necə açmağa başlayır, quşların necə cikkildəşirlər, günəş ətrafı necə qızdırır, torpaqda yeni, körpə ot necə bitmişdir, həşəratlar necə canlanıblar, havada xoş ətir hiss edilir və s.

**6. Dərsin yekunlaşdırılması** (1-2 dəq.)

Müəllim Vivaldinin "İlin fəsilləri" simfoniyasını axtarıb tapmışdır. Onu şagirdlərə dinlədir və ilin fəsillərini tapmağı xahiş edir.

## DƏRS 38

| | |
|---|---|
| **Mövzu:** | Bitkilər |
| **Dərsin başlığı:** | Bitkilər aləmi |
| **Dərsin məqsədi:** | Şagirdlər əsas hissələri tapmalı və adlandırmalıdırlar;<br>Parçalardan bitki modelini quraşdırmalıdırlar;<br>Bitkinin insan üçün əhəmiyyəti barəsində müzakirələr aparmalıdırlar;<br>Lokal mühitdə bitki üzərində müşahidə və bu müşahidə nəticələrinin müxtəlif şəkildə ötürülmə bacarığını inkişaf etdirməlidirlər;<br>Lazımi göstəriciləri toplamalı/qeyd etməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.<br>Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə);<br>tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz", "şokolad şirindir – dil" yaxud "qar ağdır və soyuqdur – göz və dəri", "limon sarıdır və turşdur – göz və dil");<br>tanış bitkilərin əsas hissələrini tanıyır və adlandırır (məs., gövdə, yarpaq, kök, çiçək, meyvə);<br>insan üçün heyvanların və bitkilərin əhəmiyyəti barəsində müzakirələr aparır (məs., bitkilərin müxtəlif hissəsinin qida üçün, tikinti materialı üçün, ətraf mühitin gözəlləşdirilməsi üçün istifadəsi; heyvanların və insanların dostluğu; heyvanların verdikləri qida məhsulları);<br>müxtəlif mühitdə yaşayan bitkilərin/heyvanların müqayisəsi üçün sualları formalaşdırır.<br>sinif otağında, məktəbin həyətində, lokal mühitdə yetişən müxtəlif bitkiləri (məs., yarpaqların forması və ya ölçüsünə əsasən, gövdənin formasına, qalınlığına və ya uzunluğuna əsasən, çiçəklərin rəngi və ya ölçüsünə əsasən) və ya heyvanı (məs., soxulcanı, ilbizi, kəpənəyi, |

| | |
|---|---|
| | parabüzəni) müşahidə edir; müşahidə nəticələrini müxtəlif forma ilə ötürür (şifahi nitq ilə, şəkillərlə, kollajla, fotoşəkillərin vasitəsilə). |
| **Lazımi material:** | Bitkilərin müxtəlifliyi və onların böyüməsi-inkişafı haqqında videomaterial; |

**Dərsin gedişi:**

**1. Dərslik üzərində iş** (5-6 dəq.)

**Müəllim:**

Diqqətlə bu üç şəkli izlə.

• Bu bitkilər bir-biri ilə nə ilə bənzərdirlər və nə ilə fərqlənirlər?







Bitkilər ağac bitkilərinə, kollara, otlara bölünürlər.
Bitkiləri tap və nə üçün belə ayırdığını izah et.
Ehtimal olaraq: ağacın bir əsas, möhkəm kökü var, kolun – bir neçə, otun gövdəsi yumşaq və körpədir.
Müəllim kitabda ağacı göstərir və onun hissələrini göstərir.

**2. Çalışma dəftərində iş** (4-5 dəq.)



Müəllim dəftərin müvafiq səhifəsini göstərir ki, bunda da müəllimin lövhədə çəkdiyi kimi kontur vardır. Şagirdlər konturu rəngləməli və şəklin əsasında suallara cavab verməlidirlər;

• Bitki hansı hissələrdən ibarətdir? *(kök və gövdə qəhvəyi rəngdə rənglənməli, yarpaq – yaşıl rəngdə, gül və çiçək/toxum – rəngli rənglərlə).*

Bitkilər müxtəlifdirlər, amma onların hamısının eyni quruluşları vardır.

**3. Diskussiya** (2-3 dəq.)

Müəllim sinfə sualla müraciət edir:

– Necə düşünürsünüz, bitkilərə yaşamaq üçün nə lazımdır?

Şagirdlər nəticəyə yönəlməlidirlər ki, bitkilərə yaşamaqları üçün hava, istilik, qida, işıq, su lazımdır.

**4. Bitkilərin böyüməsi-inkişafı barəsində maarifləndirici videofilmin nümayişi** (5-7 dəq.)

Müəllim videomaterialı göstərməklə yanaşı şagirdlər üçün aydın dildə bitkinin böyümə-inkişafı prosesini izah edir. Sonra da şagirdlərə suallarla müraciət edir:

– Bitkiləri harada yetişdirirlər?

– Bilirsinizmi, ilin hansı fəslində onları əkirlər?

Şagirdlər yəqin ki, bu suallara az-çox ətraflı cavab verəcəklər. Yaxşı olardı ki, müəllim onların cavablarını genişləndirsin və şagirdlərə torpaq sözünü xatırlatsın və izah etsin (torpaq yerin üst səthidir, onda bitkilər üçün lazımi qida var).

Bitkilərin əkilməsinə gəldikdə isə, yaxşı olardı ki, müəllim şəkil və ya videomaterialı axtarıb tapsın ki, bunda da ilin fəsilləri aydın görünürlər. Şagirdlərə isə növbəti məzmunda suallar kömək edəcəkdir ki, düzgün cavabları dəqiq müəyyənləşdirsinlər:

– Necə düşünürsünüz, qışda bitki əkmək mümkündürmü? (fikrinizi əsaslandırın).

– Yayda? Sübut edin (isti olur və əlverişli olmur).

– Bitkilərin səpilməsi və əkilməsi üçün ən uyğun dövr əsas yazda olur (payızda da əkirlər). Necə düşünürsünüz, nə üçün? Sübut edin.

**5. Dərslik üzərində iş** (2-5 dəq.)

Kitabda verilən şəkillərə diqqətlə baxın:

– Pomidorun, zəncirotunun, almanın, limonun, gilasın, qarpızın toxumu harada gizlənir?









**6. Dərslik üzərində iş** (4-5 dəq.)

Müəllim dərslikdə verilən şəkilləri göstərir və şagirdlərdən xahiş edir ki, hansının artıq olduğunu adlandırsınlar? Öz fikirlərini sübut etməlidirlər.

Bitki hansı hissələrdən ibarətdir? (kök, gövdə, yarpaq, çiçək, meyvə/toxum). Müəllim lövhədə bitkinin konturunu çəkir və onu şagirdlərin cavabları ilə doldurur.


tozağacı


zanbaq


şabalıd


palıd


böyürtkən


qara qarağat


nərgiz


qırmızı qarağat


ağcaqayın


çobanyastığı


inciçiçəyi


çayırçiçəyi

**7. Dərsin yekunlaşdırılması** (2-4 dəq.)

Ev tapşırığı:

Növbəti dərs üçün həyatinizdəki bitkiləri müşahidə edin, onları bir-birindən ayırın və çalışma dəftərində verilən cədvəli doldurun:

| BITKI | MIQDARI |
|---|---|
| Ağac | |
| Kol | |
| Ot (gül) | |

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=0TAmgYIBkFk
https://www.youtube.com/watch?v=H_0dAUgC-Xs

## DƏRS 39

| | |
|---|---|
| **Mövzu:** | Bitkilər |
| **Dərsin başlığı:** | Çəmənliyi gözəlləşdirən nədir? |
| **Dərsin məqsədləri:** | Şagirdlər bitkilərin əsas hissəsini tanımalı və sadalamalıdırlar;<br>Parçalardan bitkinin bütöv modelini quraşdırmalıdırlar;<br>Parçalardan aplikasiyalar yaratmalı və divar qəzetini düzəltməlidirlər;<br>Hissiyyat orqanlarının vasitəsilə müşahidə etməlidirlər;<br>Cismi təsvir etməlidirlər;<br>Şagirdlər arasında estetik zövqün inkişafına dəstək verilməlidir. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.<br>Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;<br>cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir.<br>tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz“, “şokolad şirindir – dil” yaxud “qar ağdır və soyuqdur – göz və dəri”, “limon sarıdır və turşdur – göz və dil”);<br>tanış bitkilərin əsas hissələrini tanıyır və adlandırır (məs., gövdə, yarpaq, kök, çiçək, meyvə);<br>parçalardan bitkilərin, heyvanların və insanın bütöv bədəninin modelini quraşdırır. |
| **Lazımi material:** | rəngli karandaşlar və ya flomasterlər, çöl güllərinin çələngi (qızılgül, bənövşə, yasəmən yarpaqları ilə), müxtəlif meyvələr, müxtəlif yarpaqlar, qayçı, yapışqan, əlavənin rəngli vərəqləri, A4 vərəqləri, kolun budaqları, ağacın budağı. |

**Dərsin gedişi:**

**1. Dərslik üzərində iş – şəklin təsviri** (4-5 dəq.)

Dərsliyin müvafiq səhifəsində (yuxarı hissədə) rəngli şəkil veririk: bizim kitabımızın qəhrəmanı başqa oğlanlarla birlikdə çəmənlikdə top oynayır; burada qız gül dərir. Şagirdlər təsvir etməli və çəmənliyi təsvir etməlidirlər (müəllimin köməkçi sualları: çəmənlik necə bir yerdir – hamar və ya kələ-kötür? Otlu və ya daşlı? Sizlərdən kimsə çəmənlikdə olmuşdurmu?Nə üçün çəmənlikdə oynamağı sevirsiniz? Yazda çəmənliyi bəzəyən nədir?... )

**2. Praktiki çalışma** (5-7 dəq.)

Müəllim şagirdlərə müxtəlif bitkiləri/onların hissələrini paylayır və onları öyrənməyi xahiş edir ki, onları növbəti kriterilərə əsasən bir-biri ilə müqayisə etsinlər (yarpaqlar – formaya əsasən, gövdələr – qalınlığa, hündürlüyə və möhkəmliyə əsasən, çiçək və meyvə - rəngin, formanın, ölçünün və s. əsasında).

**3. Çalışma dəftərində iş** (4-5 dəq.)

Çalışma dəftərinin növbəti səhifəsində gül bitkiləri verilir: növruzgülü, lalə, zanbaq, qərənfil və çobanyastığı. Buradaca bu bitkilərin adları verilir. Şagirdlər cütlüklərdə işləməlidirlər. Onlar gülləri tapmalı və xətlərlə onları müvafiq sözlərlə əlaqələndirməlidirlər. Sonra tapşırığın yoxlanılması frontal qaydada aparılmalıdır.

Sonra oyun başlanılır. Müəllim sinfi qruplara bölür, bir nümayəndəni çağırır, bir neçə gülü göstərir, şagird onları müşahidə etməli, qoxumalı və əli ilə toxunmalıdır. Sonra bu şagirdin gözlərini bağlayır və o da yalnız əli ilə toxunmaqla və qoxulamaqla gülü adlandıra bilməlidir.

**4. Qruplarda iş** (8-10 dəq.)

Müəllim sinfi qruplara bölür və A4 vərəqlərini paylayır. Vərəqlərdə qruplar aplikasiyalar hazırlamalıdırlar. Müəllim uşaqlara izah edir ki, onlar rəngli vərəqlərdən ot bitkilərini kəsməli, A4 vərəqlərinə yapışdırmalı və "Yazda çəmənlik" aplikasiyasını hazırlamalıdırlar.

Təqdimat zamanı şagirdlər izah edirlər ki, onların qrupu hansı gülləri seçmişlər, bu gülləri nə üçün bəyənirlər, onların çəmənliklərində hansı rənglər var və s.

Yaxşı olardı ki, divarda yer tapsınlar və burada da uşaqlar işlərini yapışdırıb saxlasınlar.

Müəllimin vaxtı qaldığı halda, şagirdlərə ədəbiyyatımızda tez-tez təsadüf edilən güllər haqqında şeirlər oxusun.

**5. Dərsin yekunlaşdırılması** (1-2 dəq.)

**6. Ev tapşırığı**

Müəllim uşaqlara tapşırır ki, növbəti dərs üçün çəmənlik güllərini gətirsinlər.

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=rIT-5hnUxY4

## DƏRS 40

| | |
|---|---|
| **Mövzu:** | Bitkilər |
| **Dərsin başlığı:** | Otaq bitkiləri |
| **Dərsin məqsədləri:** | Şagirdlər bitkinin həyatı üçün lazımi şərtləri adlandırmalı və dərk etməlidirlər; |
| | Bitkilərə olan qayğıkeş yanaşmanı aşılamalıdırlar; |
| | İllüstrasiyada və gerçəklikdə cismi tanımalı, təsvir etməlidirlər; |
| | Şəxsi fikirlərinə əsaslanaraq suala cavab verməlidirlər; |
| | Bitkilərin əsas hissələrini tanımalıdırlar; |
| | Bitkiləri müşahidə etməli və nəticələri müxtəlif formada ötürməlidirlər; |
| | Öz fikirlərini söyləməli – sübut etməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |
| | Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |
| | verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır; |

| | |
|---|---|
| | tanış bitkilərin əsas hissələrini tanıyır və adlandırır (məs., gövdə, yarpaq, kök, çiçək, meyvə); |
| | parçalardan bitkilərin, heyvanların və insanın bütöv bədəninin modelini quraşdırır; |
| | müxtəlif mühitdə yaşayan bitkilərin/heyvanların müqayisəsi üçün sualları formalaşdırır; |
| | sinif otağında, məktəbin həyətində, lokal mühitdə yetişən müxtəlif bitkiləri (məs., yarpaqların forması və ya ölçüsünə əsasən, gövdənin formasına, qalınlığına və ya uzunluğuna əsasən, çiçəklərin rəngi və ya ölçüsünə əsasən) və ya heyvanı (məs., soxulcanı, ilbizi, kəpənəyi, parabüzəni) müşahidə edir; müşahidə nəticələrini müxtəlif forma ilə ötürür (şifahi nitq ilə, şəkillərlə, kollajla, fotoşəkillərin vasitəsilə). |
| **Lazımi material:** | müxtəlif güllər, çələng üçün nazik məftil və ya saplar, A4 vərəqləri, qayçı, yapışqan, rəngli karandaşlar və ya flomasterlər. |

**Dərsin gedişi:**

**1. Söhbət – güllərə necə qulluq etmək lazımdır?** (6-8 dəq.)

Müəllim növbəti suallardan istifadə etməklə sinifdə söhbət aparır:
– Yadınıza salın ki, yaşaması üçün bitkiyə nə lazımdır?
– Bitki suyu hansı hissəsi ilə sovurur?
– Susuz bitki ilə nə baş verə bilər?
– Bitkiyə işıq və istilik lazımdırmı? Nə üçün belə düşünürsünüz?..
– Kimin evdə otaq bitkiləri vardır?
– Otaq bitkilərinə necə qulluq edirsiniz?

**2. Diqqətin çalışdırılması üçün oyun** (5-7 dəq.)

Müəllim vazaya 4-5 müxtəlif gül qoyur və sinfə göstərir. Şagirdlər yarım dəqiqə ərzində müşahidə etməlidirlər. Sonra müəllim şagirdlərdən gizlicə vazada gülləri dəyişir (bir gülü azaldır və ya əlavə edir) və uşaqlara sual verir: “Vazada nə dəyişdi?” Şagirdlər dəyişikliyi tapmalı və adlandırmalıdırlar. Oyun bir neçə dəfə təkrar olunmalıdır.

**3. Çalışma dəftərində iş** (15-17 dəq.)

Çalışma dəftərinin verilən səhifəsində, aşağı hissəsində gül şəkli çəkilmişdir. Müəllim tapşırıq verir ki, gülü müvafiq rənglərlə rəngləsinlər, yarpıq – yaşıl, gül – göy və s.

Dəftərin müvafiq səhifəsində kitabımızın qəhrəmanlarının iştirakı ilə komikslər verilmişdir. Amma bu altı şəkil ardıcıllıqla düzülməmişdir.

İş qruplarda aparılmalıdır. Müəllim qruplara vərəqləri paylayır. Vərəqlərdə bu komikslərə cümlələr yazılmışdır. Bunlardır:

1. Anası qızına gül toxumlarını aldı.
2. Dostlarımız həyətdə torpağı bellədilər.
3. Qız bellənmiş torpağa toxum səpdi.
4. Sonra toxum səpilmiş yeri suvardı.
5. Bir neçə gündən sonra torpaqdan bitkilər cücərdilər.
6. Bir müddətdən sonra uşaqlar bu yerdə gözəl güllər gördülər.

Şagirdlər şəkilləri kəsməli, hansı cümlənin hansı şəkli təsvir etdiyini tapmalı, A 4 vərəqində komiksləri düzgün ardıcıllıqla yerləşdirməlidirlər (yapışdırmalı və müvafiq cümlələri yanına yapışdırmalı və ya yazmalıdırlar). Sonda isə rəngləməlidirlər.

**4. Qruplarda iş**

Tapşırığa uyğun olaraq, şagirdlər bu dərs üçün güllər gətirməlidirlər. Müəllim bu gülləri bir qutuya qoyur. Müəllim sinfi növbəti metodla qruplara bölür: müxtəlif növdə gülləri (bir-bir gül) dörd masanın üzərinə qoyur (məsələn, bunlar bənövşə, zanbaq, qərənfil, çobanyastığı ola bilər). Sonra qutu ilə şagirdlərə yaxınlaşır. Uşaqlar əllərini qutuya salıb bu və ya digər gülü götürürlər. Kimə hansı gül düşərsə, həmin gül olan masanın arxasında əyləşir. Bu qayda ilə bənövşələrin, zanbaqların, qərənfillərin və çobanyastıqlarının qrupları yaranır (müəllim müəyyən düzəlişlər edə bilər ki, şagirdlər eyni sayda bölünsünlər).

Qrupların iş tapşırıqları belədir:

Onlar gülü təsvir etməlidirlər (xarici əlaməti, rəngi, ətri və s.).

Müəllim uşaqları məktəbin həyətindəki güllü bitkiləri müşahidə etmək üçün həyətə çıxara bilər. Burada diqqəti ona yönəltmək lazımdır ki, çiçək həm ot bitkilərində, eləcə də kollarda (məsələn, qızılgül, yasəmən) və ağaclarda (bunu da müşahidə edə bilərlər, əlbəttə ki, bu zaman məktəbin həyətində hər hansı bir ağac çiçək açmış olarsa) inkişaf edə bilər.

**5. Yekunlaşdırma** (2-3 dəq.)

## DƏRS 41

| | |
|---|---|
| **Mövzu:** | Bitkilər |
| **Dərsin başlığı:** | Bizim meşə |
| **Dərsin məqsədləri:** | şagirdlər meşəni, bitkilərin, heyvanların və başqa canlı orqanizmlərin yaşadığı bir mühit kimi, b. a. ev kimi təhlil etməlidirlər;<br>İynəyarpaqlı və enliyarpaqlı ağacları tanımalı, müqayisə etməli və sadə dildə xarakterizə etməlidirlər;<br>Cismi tanımalı, təsvir etməli və çeşidlərə ayırmalıdırlar;<br>Suala cavab vermək üçün şəxsi fikirlərinə istinad etməlidirlər;<br>Müxtəlif kommunikasiya formalarından istifadə etməlidirlər;<br>Meşəyə olan müsbət və qayğıkeş yanaşmanın aşılanmasına dəstəyin verilməsi;<br>Bitkilərin əhəmiyyətini dərk etməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir.<br>Təb.1.4. Şagird tərkib əşyalarına/materialın xassələrinə əsasən cisimləri müqayisə edə bilir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>şəxsi fikirlərin və ya tədqiqat nəticələrinin təqdimatında kommunikasiyanın müxtəlif formasından istifadə edir;<br>fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir;<br>tanış bitkilərin əsas hissələrini tanıyır və adlandırır (məs., gövdə, yarpaq, kök, çiçək, meyvə);<br>insan üçün heyvanların və bitkilərin əhəmiyyəti barəsində müzakirələr aparır (məs., bitkilərin müxtəlif hissəsinin qida |

|  |  |
|---|---|
|  | üçün, tikinti materialı üçün, ətraf mühitin gözəlləşdirilməsi üçün istifadəsi; heyvanların və insanların dostluğu; heyvanların verdikləri qida məhsulları); |
|  | gündəlik həyatda yayılmış əşyaları/materialları tanıyır və adlandırır; |
|  | eyni əşyalardan/materialdan hazırlanmış əşyaları qruplaşdırır. |
| **Lazımi material:** | iri formatlı kağız, qayçı, yapışqan, rəngli karandaşlar və ya flomasterlər. |

**Dərsin gedişi:**

**1. Meşə barəsində söhbət** (5-7 dəq.)

**Müəllim:**

– Ağaclar harada böyüyürlər? Təbiətdə çoxlu ağacların birlikdə yetişdiyi yer necə adlanır?
– Sizlərdən hansınız meşədə olmusunuz?
– Ağaclardan başqa, meşədə daha nələr böyüyürlər? (otlar, kollar, göbələklər)
– İsti havada nə üçün meşə sərin olur?
– Nə üçün meşədə kölgə çox olur?
– Göbələklərə harada təsadüf edirik? (torpaqda, ağaclarda)
– Kim meşənin yaratdığı təəssüratını yada salmaq istəyir?

Bu suallardan sonra müəllim könüllülərə imkan verir ki, meşə ilə bağlı xatirələrini yada salsınlar və danışsınlar.

**2. Çalışma dəftərində iş** (10-12 dəq.)

Dəftərin müvafiq səhifəsinin yuxarı hissəsində şam və palıd ağaclarının kontur şəkilləri verilir. Orada onların adları yazılmışdır. Şagirdlər şəkillərdəki ağacları tapmalı və xətlərlə müvafiq sözlərlə birləşdirməlidirlər.

Buradaca müəllim bu iki ağacı bir-biri ilə müqayisə etdirir və suallar verir:
– Palıd və şam ağacı arasında hansı fərqi görürsünüz?
– Bu iki bitki arasında hansı oxşarlıq vardır?
– Kim bilir, palıdın meyvəsi necə adlanır? (qoza)
– Necə düşünürsünüz, hansının daha çox kölgəsi vardır – palıdın və ya şamın? Nə üçün?
– Daha hansı iynəyarpaqlı ağacları tanıyırsınız? Hansı enliyarpaqlı ağacları tanıyırsınız?

**3. Praktiki çalışma** (12-13 dəq.)

Eyni səhifənin aşağı hissəsində küknar yarpaqları və palıd yarpaqlarının şəkilləri verilmişdir. Şagirdlər onları tapmalıdırlar və xətlərlə müvafiq sözlərə birləşdirməlidirlər ki, bunlar da ayrılıqda verilmişlər (“Yarpaq və iynə yarpaq arasında hansı fərq vardır?”)

Müəllim uşaqlara qəribə bir sual verir: - sinfimizdə də meşə salmaq istərdinizmi?

Uşaqların çox hissəsi yəqin təəccüblənəcəklər (necə?), başqaları isə sevinclə razılaşacaqlar.

Müəllimin göstərişi ilə uşaqların hamısı çalışma dəftərinin həmin səhifəsini açır, hansında bizə artıq tanış olan iki ağacın konturu çəkilmişdir (biri - enliyarpaqlı, ikincisi – iynəyarpaqlı). Şagirdlər fərdi olaraq çalışmalıdırlar. Onlar bu ağaclardan birini seçməli, rəngləməli və kəsməlidirlər. Sonra divardan asılmış iri formatlı kağıza yapışdırmalıdırlar (sinfin çoxsaylı olduğunda, müəllimə 2 bu cür format lazım gələcəkdir).

Uşaqların rəngləməyə və kəsməyə müxtəlif vaxt ayırdıqlarına görə, ümid edirik ki, hamı birlikdə divarda işləməyəcəkdir. Müəllim şagirdlərə yardım etməlidir ki, bir-birinə mane olmasınlar. İşi tez başa çatdıran uşaqlar dəftərlərinə qayıtmalı və onda verilən ikinci ağacın konturunu rəngləməlidirlər, amma kəsməli deyillər.

Sinfin meşəsi bu qaydada yaranacaqdır. Vaxt qaldığı halda, müəllim növbəti suallardan istifadə edərək uşaqlarla söhbət aparır:
– Sizin fikrinizcə, qalın meşə nə deməkdir? Qalın meşəni başqa necə adlandırırlar? (sıx meşə)
– Sizin fikrinizcə, seyrək meşə nə deməkdir?
– Bizim divarımızda hansı meşə alındı – seyrək və ya qalın?
– Meşəmizdə ağaclar qurudur və ya canlı? Nə üçün belə düşünürsünüz?

– Necə düşünürsünüz, meşəni qorumaq lazımdırmı? (meşənin qorunması və ona qulluq zərurəti haqqında müzakirə etməlidirlər).

– Necə düşünürsünüz, meşəni nə məhv edə bilər?

**4. Söhbət “Ağacdan nə hazırlanır?”**

Bu mövzu barəsində əvvəllər də söhbət aparılmışdı, amma indi yaxşı olardı ki, bu söhbət təkrarlansın. Müəllim şagirdlərdən xahiş edir ki, sinifdə mövcud əşyalardan hansının ağacdan hazırlandığını tapsınlar. Şagirdlər maksimal olaraq əşyaların hamısını sadalamağa çalışmalı və izah etməlidirlər ki, onların fikrincə, nə üçün bu əşyalar ağacdan hazırlanmışdır.

**5. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

## DƏRS 42

| | |
|---|---|
| **Mövzu:** | Bitkilər |
| **Dərsin başlığı:** | Meşə sakinləri |
| **Dərsin məqsədləri:** | Şagirdlər meşəyə olan müsbət və qayğıkeş yanaşmanın formalaşmasına dəstək verməlidirlər.<br>Meşə sakinlərini və onların yaşadıqları mühiti tanımalıdırlar;<br>Zəhərli və faydalı göbələklərin olduğunu və onlarla ünsiyyət qaydalarına əməl etmək zərurətini bilməlidirlər;<br>Cisimləri tanımalı, təsvir etməli və bir-birindən ayırmalıdırlar;<br>Müxtəlif heyvanları təsvir etməli və müqayisə etməlidirlər;<br>Canlı cisimləri qruplaşdırmalıdırlar – müvafiq olaraq qərarlarını əsaslandırmalıdırlar;<br>B.a. “sinif meşəsində” yırtıcını yerləşdirməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz“, “şokolad şirindir – dil” yaxud “qar ağdır və soyuqdur – göz və dəri”, “limon sarıdır və turşdur – göz və dil”);<br>müxtəlif sadə cihazlardan (lupa, fonendoskop) hissiyyatın gücləndirilməsi məqsədilə istifadə edir və bədən xassələrini təsvir edir ki, bunlar da bu cihazlardan istifadə edildikdə əyani görünür. |
| **Lazımi material:** | rəngli karandaşlar və ya flomasterlər, qayçı, yapışqan. Videomaterial – göbələklər haqqında. |

**Dərsin gedişi:**

**1. Çalışma dəftərində iş – “Rəssam nəyi səhv etmişdir?”** (5-7 dəq.)

Çalışma dəftərinin müvafiq səhifəsində (yuxarı hissədə) yay meşəsinin şəkli çəkilmişdir: ağacdələn yarpaqlı ağacda, ağacın altında göbələklər, kitabımızın qəhrəmanları səbətlə göbələk toplayırlar. Oradaca, torpaqda az-az qar var.

Şagirdlər başa düşməlidirlər ki, qar şəkli olmamalıdır, çünki yazın axırıdır və ya yaydır. Şagirdlər şəkli rəngləməli və rəssamın səhvini düzəltməyə çalışmalıdırlar. Müəllim onlardan soruşur: rəssamın səhvini necə düzəltmək olar? Fikirləşin və işləyin (bu səhvi düzəltmək asandır – torpağın qarlı səthini yaşıl rəngləməlidirlər – otlarla).

**2. Dərslik üzərində iş** (8-10 dəq.)

Dərslikdə dörd müxtəlif göbələk şəkli verilir. Bunlardır: narıncı südləyən, sarı göbələk, milçəkqıran, zəhərli göbələk. Onların adları yazılmışdır. Müəllim şagirdləri bu göbələklərlə tanış etməli və izah etməlidir ki, zəhərli göbələklər yemək üçün deyillər və zəhərlənməyə, bir çox hallarda ölümə də səbəb ola bilərlər. Onları tanımaq elə də asan olmur və təcrübəli böyüklərin nəzarəti xaricində göbələk yığmaq olmaz.

Müəllim şagirdlərə tapşırmalıdır ki, çalışma dəftərində yalnız yemək üçün yararlı olan göbələkləri seçsinlər, onları kəssinlər, istəkləri olduğu halda, onlardan birini ötən dərsdə yaradılmış "sinif meşəsinə" yerləşdirsinlər (yapışdırsınlar).

Buradaca müəllim bir neçə sual verir:

– Nə üçün göbələk topladıqda ehtiyat göstərmək lazımdır?

– Eşitmisinizmi, göbələkdən zəhərləndikdə hansı fəsadlar olur?

– Təhlükənin qarşısını almaq üçün necə davranmaq lazımdır?

**3. Qrupda iş – "Yırtıcının meşədə məskunlaşdırılması"** (13-15 dəq.)

Dəftərin növbəti səhifəsində meşə heyvanları verilir: ayı, maral, canavar, tülkü, dələ, çöl donuzu.

Müəllim sinfi qruplara bölür və tapşırıqlar verir. Şagirdlər vəhşi heyvanın şəkillərini rəngləməlidirlər. Sonra qrupda şəkli çəkilmiş heyvanları elə bölməlidirlər ki, hər bir şagirdə kəsmək üçün fərqli heyvan düşsün (məsələn, qrupda 6 şagird vardırsa, altısına da bir-bir heyvan düşəcək, altıdan az şagird olduğu halda, seçim imkanları olacaqdır ki, istədikləri heyvanın şəklini kəssinlər). Sonra hər bir şagird ona düşən heyvanın şəklini kəsir və onu məskunlaşdırır ("sinfin meşəsinə" yapışdırır).

Sonra şagirdlər ikinci tapşırığı yerinə yetirməlidirlər: hər bir qrup bir əhvalat düşünməlidir ki, bu da onların meşələri ilə əlaqədar olacaqdır. Təqdimat zamanı şagirdlər onlar tərəfindən yaradılmış meşədən əyani vəsait kimi istifadə edə biləcək və əhvalatı danışacaqlar.

(Müəllimin əlavə sualları:

- Meşəmizdə nə və hansı vəhşi heyvan yaşayır?

- Onlardan hansı yırtıcıdır?

- Hansı vəhşi heyvan yalnız bitkilərlər qidalanır?...)

**4. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

**Əlavə (və ya alternativ) fəallıq**

Müəllim uşaqlara göbələklər haqqında R. Avalianinin "Meşə cığırları ilə" kitabından mətni oxuyur:

"Meşəni göbələksiz təsəvvür etmək çətindir. Hansı meşədə ona təsadüf edilmir ki: enliyarpaqlı, iynəyarpaqlı və ya qarışıq meşədə. Göbələk axtarmaq üçün çoxlu kilometrlər keçsən də yorğunluğu hiss etmirsən. Göbələk yığanın əsas aləti səbət və çubuqdur. O, səhər tezdən, günəş oyanana qədər göbələk yığmağa gedir, şeh hələ qurumayana qədər. Bu zaman göbələk daha yaxşı görünür, ara-sıra parıltı verir, amma heç kim bilməz ki, göbələyə harada təsadüf edəcəkdir.

Yağışlardan sonra isti havalar düşdükdə, meşədə, ağacın dibində, otlarda, kollarda, ağaclarda və ya mamırlarda sezar amanitasına, şampinyona, ağ göbələyə, narıncı südləyənə, zəhərli göbələyə və s. rast gəlmək olar. Onlardan bəziləri piyaləyə, bəzisi cama, bəzisi yabanı gülə, bəziləri topa bənzəyirlər. Rəngi? Göbələklərin rəng "palitrası" olduqca zəngindir – ağdan qaraya qədər hər rəngdə və hər çalarda.

Gürcüstanda 100-dən çox yeməli və 15-ə yaxın zəhərli göbələk növü vardır. Doğrudur, meşələrimizdə zəhərli göbələklər çox deyillər, amma onlar səbətə düşə və insanı zəhərləyə bilərlər. Hər il göbələklə zəhərlənmə və ölüm halları baş verir.

Meşədə, göbələk axtardıqda, adətən aşağı, torpağa baxırlar. Amma ağaclarda o qədər göbələk böyüyür ki! Burada ağacda Kaxetidə çox sevilən qov göbələyini tapa bilərsiniz. Qov göbələyinə asanlıqla od düşür və küləkdə də asanlıqla sönmür. Çoxları onu görmüş, amma bilmirlər ki, qov göbələyi yeməli göbələkdir.

Onun yüngül, xoş ətirli ləti var. Qov göbələyi ağacda böyüyür və onun şirəsini sorur. Ağacda qov göbələyinin olduğu halda, bu onu bildirir ki, ağac içərisindən tam çürümüşdür".

**Tövsiyə:**

Bu dərslərdə verilən fəallıqları müəllim öz nəzərinə əsasən istifadə edə bilər (bütün fəallıqların istifadəsi vacib deyil), sinfin əhval-ruhiyyəsi və imkanlarını nəzərə almaqla.

## DƏRS 43

| | |
|---|---|
| **Mövzu:** | Heyvanlar aləmi |
| **Dərsin başlığı:** | Bizim dördayaqlı "dostlarımız" |
| **Dərsin məqsədləri:** | Şagirdlər ev və çöl heyvanlarını fərqləndirməlidirlər.<br>Ev heyvanlarını (məməliləri) tanımalı və sadalamalıdırlar;<br>Müəyyən əlamət-xassələrinə (davranışları, səs) ev heyvanlarını bir-birindən seçməlidirlər.<br>Cisimləri tanımalı, təsvir etməli və çeşidlərə ayırmalıdırlar;<br>Heyvanları qruplaşdırmalıdırlar;<br>İnsan üçün heyvanın əhəmiyyəti haqqında söhbət aparmalıdırlar. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>tanış cismin xassələrini təsvir edir (məs., rəng, qoxu, forma, dad, faktura) və onları müxtəlif hissiyyat orqanı ilə əlaqələndirir (məs., „top qırmızı – göz", "şokolad şirindir – dil" yaxud "qar ağdır və soyuqdur – göz və dəri", "limon sarıdır və turşdur – göz və dil");<br>şəxsi gigiyena əşyalarını (məs., daraq, diş fırçası, dəsmal) adlandırır, gigiyena qaydalarına riayət edilməsi əhəmiyyəti barəsində müzakirə edir. |
| **Lazımi material:** | qayçı, rəngli karandaşlar və ya flomasterlər, heyvanların səsləri ilə audiomaterial. |

**Dərsin gedişi:**

**1. Çalışma dəftərində iş** (12-15 dəq.)

Çalışma dəftərinin müvafiq səhifəsində növbəti heyvanların şəkli verilmişdir: it, pişik, at, donuz, eşşək, inək, keçi və qoyun. Aşağıda belə bir yazı göstərilir: "ev heyvanları", "çöl heyvanları".

Müəllim şagirdlərdən xahiş edir ki, cütlüklərdə bu şəkilləri gözdən keçirsinlər və yazıları oxusunlar; birlikfə müzakirələr aparsınlar və qərar qəbul etsinlər: bu heyvanlara uyğun yazını saxlasınlar, ikincinin üzərindən isə xətt çəksinlər.

Tapşırığı yoxladıqdan sonra müəllim sual verir ki, "ev heyvanlarının" nəyi bildirdiyini necə başa düşürlər? Nə üçün bu adı vermişik? İnsan ev heyvanına nə üçün qulluq edir və nə üçün onun ev heyvanı var? Onlardan nə üçün istifadə edir?

Sonra şagirdlər heyvanların şəkillərini rəngləməli və kəsməlidirlər.

**2. Heyvanların qruplaşdırılması** (8-10 dəq.)

Ötən fəallıqda kəsilmiş ev heyvanlarının şəkilləri vasitəsilə şagirdlər bir neçə tapşırığı yerinə yetirirlər. Onlar yenə də cütlüklərdə işləyirlər.

I. Bir neçə şagird sıra ilə sinfə bütün bu heyvanları göstərir və onların adlarını sadalayır;

II. Cütlüklər qruplaşdırırlar;

a) Ot yeyən heyvanları;

b) ət yeyən heyvanları;

III. Şagirdlər caynaqları olan heyvanları adlandırmalı və göstərməlidirlər; (it və pişik);

IV. Şagirdlər dırnaqları olan heyvanları adlandırmalı və göstərməlidirlər; (it və pişikdən başqa digər heyvanları);

V. Şagirdlər buynuzları olan heyvanları adlandırmalı və göstərməlidirlər; (inək, qoyun, keçi).

**3. Çalışma dəftərində iş** (5-6 dəq.)

Çalışma dəftərinin növbəti səhifəsində (yuxarı hissədə) bir neçə ev heyvanının şəkli verilmiş və orada ayrıca sözlər yazılmışdır: kişnəyir, miyovuldayır, xoruldayır...

Şagirdlər tapmalıdırlar ki, hansı heyvanın səsinə hansı sözlər uyğundur və xətlərlə əlaqələndirməlidirlər.

**4. Qrupda iş** (3-5 dəq.)

Müəllim sinfi qruplara bölür, sonra hər bir uşaqdan (müvəqqəti) kəsdikləri şəkilləri alır və belə bir tapşırıq verir: qrup üzvləri müəllimin həmin qrupun masası üzərinə şəklini qoyduğu ev heyvanını pantomima vasitəsilə canlandırmalıdır. Başqa qrupların şagirdləri isə nəyin canlandırıldığını tapmalıdırlar. Aydındır ki, bu halda heyvanların səsləri deyil, hərəkətləri vurğulanır.

**5. Tapın, görək!** (2-3 dəq.)

Müəllim ev heyvanlarının səsləri lentini hazırlamışdır. Uşaqlara lentə alınmış səsləri qulaq asdırır və onlar da hər heyvanı səsi ilə tapmalıdırlar.

**6. Neçədir?** (2-3 dəq.)

Dərs dəftərdə (səhifənin aşağı hissəsində) verilən daha bir çalışma ilə başa çatır. Bir neçə müxtəlif ev heyvanının konturu üst-üstə qoyulmuşdur, şagirdlər cəmi neçə heyvan olduğunu tapmalı və onları adlandırmalıdırlar (inək, at, it...).

**7. Dərsin yekunlaşdırılması** (1-2 dəq.)

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=HgP34DdyYuI
https://www.youtube.com/watch?v=HwPeYXwcwXk
https://www.youtube.com/watch?v=9uO3u7JoUIk

## DƏRS 44

| | |
|---|---|
| **Mövzu:** | Heyvanlar aləmi |
| **Dərsin başlığı:** | Ev quşları |
| **Dərsin məqsədləri:** | Şagirdlər quşları məməlilərlə müqayisə etməli və fərqləndirici əyani əlamətləri adlandırmalıdırlar; |
| | Ev quşlarını tanımalı və adlandırmalıdırlar; |
| | Səslərinə əsasən ev quşlarını ayırmalıdırlar; |
| | Cisimləri tanımalı, təsvir etməli və bir-birindən ayırmalıdırlar; |
| | Fərdi fikirlərinə istinad edərək suallara cavab verməlidirlər; |
| | Müxtəlif kommunikasiya formasından istifadə etməlidirlər; |

Müxtəlif heyvanların bədən hissələrini təsvir etməli/müqayisə etməlidirlər.

**MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.

Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir.

**Nəticə əyanidir, əgər şagird:** cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;

verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;

fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir;

bədən hissələrinə əsasən müxtəlif heyvanları təsvir və müqayisə edir (məs., baş, əl-ayaqlar, quyruq, qulaqlar, dimdik, qanadlar, xortum);

müxtəlif mühitdə yaşayan bitkilərin/heyvanların müqayisəsi üçün sualları formalaşdırır;

sinif otağında, məktəbin həyətində, lokal mühitdə yetişən müxtəlif bitkiləri (məs., yarpaqların forması və ya ölçüsünə əsasən, gövdənin formasına, qalınlığına və ya uzunluğuna əsasən, çiçəklərin rəngi və ya ölçüsünə əsasən) və ya heyvanı (məs., soxulcanı, ilbizi, kəpənəyi, parabüzəni) müşahidə edir; müşahidə nəticələrini müxtəlif forma ilə ötürür (şifahi nitq ilə, şəkillərlə, kollajla, fotoşəkillərin vasitəsilə).

**Lazımi material:** kiçik yapışqanlı kağızlar (stikerlər), rəngli karandaşlar və ya flomasterlər; xoruz, toyuq, qaz və hind toyuğu şəkilləri.

**Dərsin gedişi:**

**1. Çalışma dəftərində iş** (4-5 dəq.)

Dəftərin müvafiq səhifəsində ev quşlarının şəkli çəkilmişdir və oradaca sözlər yazılmışdır: hind toyuğu, qaz, toyuq, ördək.

Müəllim uşaqlardan xahiş edir ki, şəkilləri tapsınlar və xətlərlə müvafiq sözlərə birləşdirsinlər.

Sonra müəllim söhbət aparır ki, quşlar ötən həftə öyrəndikləri heyvanlardan (yəni – məməlilərdən) nə ilə fərqlənirlər. Şagirdlər şəkilləri müşahidə etməklə başa düşməlidirlər ki, quşların fərqləndirici əlamətləridir: qanadlar, dimdik, lələk, iki ayaq....

**2. Dərslik üzərində iş** (13-14 dəq.)

Şagirdin çalışma dəftərində xoruz konturu verilmişdir ki, şagirdlər quşun quruluş xüsusiyyətləri ilə ətraflı tanış ola bilsinlər.

İlk növbədə, müəllim uşaqlara İ. Qoqebaşvilinin hekayəsinə əsasən "Xoruz" haqqında tərtib edilmiş kiçik mətni oxuyur:

"Sübh açılar-açılmaz xoruz dərhal tardan düşüb ağayana çölə çıxdı. Arxasınca fərələr və kürd toyuqlar öz cücələri ilə çıxmağa başladılar.

Xoruz toyuqların önündə başını dik tutaraq özündən razı addımlayır və xəyala dalır: qəribə quşam, mənim bədənim, gözəlliyim görəsən kimdə var? Hansı toyuğun pipiyi mənim hündür və nar kimi qırmızı pipiyimə tay ola bilər? Hansı toyuğun mənim kimi rəngli və gözəl tükləri var? Hansı toyuğun ayaqlarında mənimki kimi gözəl mahmızları var? Hansının mənimki kimi böyük və güclü dimdiyi var? Hansı quş sübhün açılmasını mənim kimi birinci hiss edir və insanları yuxudan oyadır? Yalnız mən və başqa heç kim".

Müəllim lövhədə bu mətndən bir neçə söz yazır və bunlar da uşaqlar üçün naməlum ola bilər. Bunlardır:

fərə, kürd, dimdik, mahmız, pipik. Bu sözləri yaxşı başa düşmək üçün şagirdlər cütlüklərdə birləşir və onlara çalışma dəftərində yerinə yetirmək üçün tapşırıq verilir:

a) Xoruzun verilən şəkildə pipiyini, mahmızlarını, dimdiyini tapmalı və onları müvafiq sözlərə birləşdirməlidirlər (müəllimin əlavə sualları: xoruzun pipiyi harasındadır? Mahmızı? Dimdiyi?);
b) Xoruzun şəklini rəngləməlidirlər (xoruzun lələklərinin rəngbərəngliyi göstərilməlidir);
c) Fikirləşməli, bir-birinin arasında müzakirələr aparmalı və suallara cavab verməlidirlər;
   – Hansı toyuq kürd adlanır? (cücələri olan);
   – Hansı toyuq fərə adlanır? (hələ yumurta qoymağa başlamamış böyüməkdə olan toyuq, yumurta qoyana qədər)

**3. Sinif diskussiyası** (2-3 dəq.)

Müəllim yenə də dərslikdə verilən ev quşlarının şəkillərindən istifadə edir, uşaqlardan xahiş edir ki, onları müşahidə etsinlər və növbəti suallara öz fikirlərini bildirsinlər:
– Hansı ev quşları suda üzə bilirlər?
– Ayaqları bu quşlara üzməkdə necə yardım edir?

**4. Qrupda iş** (9-10 dəq.)

Müəllim 4 fotoşəkli və ya şəkli hazırlamışdır: xoruzun, toyuğun, qazın və hind toyuğunun. Bunları divara və ya lövhəyə bərkidir (şəkilləri tapa bilmədiyi halda, o zaman plakatda bu 4 sözü ayrıca yazmalı və divardan asmalıdır).

Sonra müəllim sinfi kiçik qruplara bölür və hər bir qrupa dörd kiçik yapışqanlı kağızlar (b.a. stikerlər) paylayır (bir vərəqdə - bir söz): banlamaq, qaqqıldamaq, fısıldamaq, hökküldəmək.

Şagirdlər qruplarda müzakirələr etməli və tapmalıdırlar ki, hansı söz hansı quş tərəfindən buraxılmış səsləri ifadə edir və sözləri (vərəqləri) plakatda müvafiq şəkillərə yapışdırmalıdırlar.

Sonda fəallıq cəmləşdirilməlidir: xoruz – banlamaq, toyuq – qaqqıldamaq, qaz – fısıldamaq, hind toyuğu – hökküldəyir.

Müəllim maraqlanmalıdır: qruplarda cavabların hansı variantları var idi və nə üçün belə bir seçim etdilər.

**5. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

Əlavə və ya alternativ fəallıq

Yaxşı olardı ki, müəllim ev quşlarının səslərinin lent yazısını uşaqlara qulaq asdırsın. Uşaqlara bu yazını dinlətdirir və onlar səslə hər bir quşu tapmalıdırlar.

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=z4pavVM-fM0

## DƏRS 45

| | |
|---|---|
| **Mövzu:** | Heyvanlar aləmi |
| **Dərsin başlığı:** | Bəzisi gəzir, bəzisi sürünür |
| **Dərsin məqsədləri:** | Şagirdlər canlı cisimləri əsas əlamət-xassələrinə əsasən təsvir etməlidirlər;<br>Sürünənlərin və məməlilərin fərqini aşkar etməli və adlandırmalıdırlar;<br>Bədənin hissələrinə əsasən müxtəlif heyvanları müqayisə etməlidirlər;<br>Şagirdlərin analitik təfəkkür bacarıqlarının inkişafına dəstəyin verilməsi. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |

| | |
|---|---|
| | Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |
| | verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır; |
| | bədən hissələrinə əsasən müxtəlif heyvanları təsvir və müqayisə edir (məs., baş, əl-ayaqlar, quyruq, qulaqlar, dimdik, qanadlar, xortum); |
| | canlı cisimləri bitkilərə və heyvanlara qruplaşdırır, öz qərarını əsaslandırır; |
| | müxtəlif mühitdə yaşayan bitkilərin/heyvanların müqayisəsi üçün sualları formalaşdırır; |
| | sinif otağında, məktəbin həyətində, lokal mühitdə yetişən müxtəlif bitkiləri (məs., yarpaqların forması və ya ölçüsünə əsasən, gövdənin formasına, qalınlığına və ya uzunluğuna əsasən, çiçəklərin rəngi və ya ölçüsünə əsasən) və ya heyvanı (məs., soxulcanı, ilbizi, kəpənəyi, parabüzəni) müşahidə edir; müşahidə nəticələrini müxtəlif forma ilə ötürür (şifahi nitq ilə, şəkillərlə, kollajla, fotoşəkillərin vasitəsilə). |
| **Lazımi material:** | qayçı, rəngli karandaşlar və ya flomasterlər; heyvan adları ilə şəkillər. |

**Dərsin gedişi:**

**1. Söhbətə giriş** (2-3 dəq.)

Dərsin başlanğıcında müəllim şagirdlərlə növbəti suallardan istifadə etməklə söhbət aparır:
- Biz ev heyvanlarını öyrənirik; ev heyvanlarından başqa daha hansı heyvanlar vardır?
- Sizin fikrinizcə, nə üçün onlar çöl heyvanları adlanırlar?
- Hansı çöl heyvanlarını tanıyırsınız?

**2. Dərslik üzərində iş (3-5 dəq.)**

Müəllim dərsliyin müvafiq səhifəsini göstərir və şagirdlərdən xahiş edir ki, şəkillərdə təsvir edilən çöl heyvanlarını adlandırsınlar, sonra sürünənləri, onlar arasında oxşarlıqları və fərqləri tapsınlar.

**3. Çalışma dəftərində iş (12-16 dəq.)**

Çalışma dəftərinin müvafiq səhifəsinin aşağı hissəsində bir neçə heyvanın konturu iki sırada çəkilmişdir. Bunlardır: pələng, cüyür, kirpi, kenquru, kərtənkələ, timsah, ilan, tısbağa.

Şagirdlər fərdi olaraq işləməlidirlər.

Onlara növbəti tapşırıqlar verilir:

a) Verilən konturları rəngləməlidirlər;
b) Çərçivə xətlərində bütün şəkilləri kəssinlər;
c) Verilən heyvanları sadalasınlar (bu, frontal da ola bilər).
d) Vərəqləri arxa tərəfindən nömrələməlidirlər:

Kərtənkələ - 1
Kirpi – 2
Timsah – 3
Pələng – 4
Tısbağa – 5
İlan – 6
Cüyür – 7
Kenquru – 8

**4. Verilən fiqurlarla oyun** (6-8 dəq.)

Şagirdlər yenə də fərdi işi davam etdirirlər (oyunu).

Bu lotoyabənzər oyunun şərti belədir. Çalışma dəftərinin verilən səhifəsinin yuxarı hissəsində iki sırada cədvəl təqdim edilmişdir (hər birində 4 xana). Xanalara heyvanların adları yazılmışdır. Müəllim qarışıq şəkildə və sıra ilə bu heyvanların adlarını oxuyur. Şagirdlər əllərində olan kartlardan adı çəkilən heyvanları tapmalı və cədvəlin müvafiq xanasına qoymalıdırlar. Xanaların hamısı dolduqda və oyun başa çatdıqda, müəllim uşaqlara öyrədir ki, tapşırığı düzgün yerinə yetirib-yetirmədiklərini necə yoxlasınlar. Şagirdlər yerindəcə kartları çevirməli və rəqəmlərin ardıcıllığını izləməlidirlər. Rəqəmlərin ardıcıllığı düzgün olduğunda (1,2,3; 4,5,6,7,8) tapşırıq da doğru yerinə yetirilmiş olacaqdır.

Bu oyunun bir qalibi olmayacaqdır, müəllim iştirakçıların hamısını tərifləyə bilər.

**5. Cütlüklərdə iş** (4-5 dəq.)

Müəllim uşaqlara cütlüklərdə yerinə yetirmək üçün tapşırıqlar verir:

a) Verilən kartları yenə də toplamalı, heyvanları müşahidə etməli və onları gəzə bilən heyvanlara (bir qrup) və sürünən (ikinci qrup) heyvanlara qruplaşdırırlar;

b) Müəllim sual verir ki, sürünən heyvanların (ilan, kərtənkələ, timsah, tısbağa) hansı ümumi adlarının olduğunu eşidiblərmi? (sürünənlər). Müəllim bu sözü lövhəyə yazır və uşaqlara təkrarlatdırır.

**6. Qrupda iş**

Müəllim sinfi qruplara bölür (yaxşı olardı ki, 4 və ya 5 qrup olsun). Qruplardan bir-bir nümayəndə otağın boş yerinə keçirlər, burada döşəmədə vərəqlər dairəvi şəkildə düzülmüşlər. Vərəqlərin üzərində çöl heyvanların adları yazılmışdır (şir, ayı, cüyür, dovşan, ilan). Musiqinin və ya mahnının müşayiəti ilə şagirdlər vərəqlər dairəsində gəzməyə başlayırlar. Mahnı bitən kimi onlar dayanmalıdırlar. Şagirdlər onlara düşən vərəqdə özləri üçün yazıları oxuyurlar (heyvan adı) və qruplarına qayıdırlar. Qruplar bu heyvan haqqında fikirləşməli və qısaca onu xarakterizə etməli və onun balasının adının nə olduğunu söyləməyə çalışmalıdır (şirin – şir balası, ayının –ayı balası, cüyürün – cüyür balası, dovşanın – dovşan balası, ilanın – ilan balası).

Müəllim bəzi çöl heyvanının səs yazılarını axtarıb tapmışdır. Şagirdlərə dinlədir və onlar da səsləri ilə heyvanları tanımalıdırlar.

**7. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

## DƏRS 46

| | |
|---|---|
| **Mövzu:** | Heyvanlar aləmi |
| **Dərsin başlığı:** | Su sakinləri |
| **Dərsin məqsədləri:** | Şagirdlər suda yaşayan bəzi heyvanları tanımalı və adlandırmalıdırlar;<br>Müşahidə bacarığını inkişaf etdirməlidirlər;<br>Sadə tədqiqatın əsasında nəticələr çıxarmalıdırlar (pulcuqların, üzgəclərin əhəmiyyətini təyin etmək);<br>Parçalardan heyvanın bütöv modelini yaratmalıdırlar;<br>Suda yaşayan heyvanların yerdəyişmə vasitələri üzrə müzakirələr aparmalıdırlar. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |

verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;

fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir;

bədən hissələrinə əsasən müxtəlif heyvanları təsvir və müqayisə edir (məs., baş, əl-ayaqlar, quyruq, qulaqlar, dimdik, qanadlar, xortum);

parçalardan bitkilərin, heyvanların və insanın bütöv bədəninin modelini quraşdırır;

müxtəlif mühitdə yaşayan bitkilərin/heyvanların müqayisəsi üçün sualları formalaşdırır;

sinif otağında, məktəbin həyətində, lokal mühitdə yetişən müxtəlif bitkiləri (məs., yarpaqların forması və ya ölçüsünə əsasən, gövdənin formasına, qalınlığına və ya uzunluğuna əsasən, çiçəklərin rəngi və ya ölçüsünə əsasən) və ya heyvanı (məs., soxulcanı, ilbizi, kəpənəyi, parabüzəni) müşahidə edir; müşahidə nəticələrini müxtəlif forma ilə ötürür (şifahi nitq ilə, şəkillərlə, kollajla, fotoşəkillərin vasitəsilə).

**Lazımi material:** qayçı, rəngli karandaşlar və ya flomasterlər; yapışqan, Əlavədən rəngli vərəqlər, A4 vərəqləri.

**Dərsin gedişi:**

**1. Dərslik üzərində iş** (10-12 dəq.)

Müəllim uşaqlara söyləyir ki, bu dərsdə yenə də heyvanlar barəsində danışacaqlar, amma bu dəfə suda yaşayan heyvanlar barəsində.

Dərsliyin müvafiq səhifəsində suda üzən balıqlar, meduza, delfin və balina şəkilləri var, dibdə molyuskalar görünürlər. Oradaca sözlər yazılmışdır: balıq, meduza, molyuska, delfin, balina, öz şərti işarələri ilə.

Tapşırıq belədir: iş fərdi və ya cütlüklərdə yerinə yetirilir. Müəllim qısa mətnləri oxuyur, uşaqlar dinləyirlər və xarakterizə edilən heyvanı tapırlar və onların sıra nömrələrini adlandırırlar. Müəllimin məlumatları:

I. Bu suda yaşayan heyvanın dərisi pulcuqlarla örtülüdür, gözləri hər zaman açıqdır, çünki kirpikləri yoxdur. Onun xırda yumurtalarından – kürülərindən – xırda balaları, lifsitlər çıxırlar. Onlar dərhal üzməyə başlayırlar“. (balıq)

II. “Bu uzun heyvan balığa bənzəyir, amma balıq deyil. Onun balaları canlı doğulurlar və südlə qidalanırlar. O, insan üçün təhlükəsiz və ağıllı bir varlıqdır, buna görə də insanlar onları asanlıqla təlimatlandırırlar”. (delfin)

III. “Bu, dünyanın ən böyük heyvanıdır. O, fildən çox böyükdür... O da balalarını südlə qidalandırır. Şəkillərdə onu tez-tez fəvvarələrlə təsvir edirlər. Bunun səbəbi odur ki, nəfəsini buraxdıqda bu suda yaşayan nəhəng heyvan hava ilə birlikdə suyu fəvvarə kimi püskürür”. (balina)

IV. “Bu kiçik yumşaqbədənli heyvanlar çanaqlarda yaşayırlar. Çanaq onları düşməndən qoruyur. Suyun altında, dibində və ya qayada yerləşirlər və çox yavaş hərəkət edirlər” (molyuska)

V. “Bu qeyri-adi heyvanın nə sümüyü var, nə gözləri və nə də ki, ağzı... Jele kimi yumşaqdır və demək olar ki, bütövlükdə sudan ibarətdir. Onun şəffaf bədəni açıq çətirə bənzəyir. İnsanlar tez-tez onu dənizdə, sahil yaxınlığında görürlər”. (meduza)

**2. Qruplarda iş** (14-16 dəq.)

Müəllim sinfi qruplara bölür və çalışma dəftərinin müvafiq səhifəsində verilən tapşırığı yerinə yetirməyi tapşırır (uşaqlar kitabın qəhrəmanlarına tapşırığı yerinə yetirməkdə yardım etməlidirlər). Vərəqin yuxarı hissəsində kitabımızın qəhrəmanları balıqlara pulcuqlar yapışdırmalıdırlar. Yəni balıq konturu verilir, pulcuqlar xaricində. Eyni səhifənin aşağı hissəsində rəngli pulcuqlar göstərilir. Şagirdlər bu rəngli pulcuqları kəsməli və quyruğundan başlayaraq balığın konturuna onları yapışdırmalıdırlar.

İşi başa çatdırdıqdan sonra müəllim uşaqlara müraciət edir:

– Əlinizi balığın başından quyruğuna qədər çəkin və əksinə. Hansı fərqi hiss etdiniz?
– Necə düşünürsünüz, balıq suda azad hərəkət edə bilir?

**3. Sinif diskussiyası** (3-4 dəq.)

Müəllim növbəti suallardan istifadə etməklə diskussiya keçirir:
– Sizin fikrinizcə, balıqlar nə ilə qidalanırlar?
– Delfinlər nə ilə qidalanırlar?

**4. Aplikasiya üzərində iş**

Müəllim uşaqlara tapşırıq verir ki, cütlüklərdə aplikasiyaların hazırlanması üzərində işləsinlər. O, cütlüklərə boş A4 vərəqlərini paylayır. Şagird Çalışma dəftərinin əlavəsinin rəngli vərəqlərindən müxtəlif ölçüdə və rəngdə üçbucaq kəsməlidirlər. Müəllim sual verir: “Üç üçbucaqdan balıq fiqurunu necə almaq mümkündür?” Uşaqların başa düşə bilmədikləri halda, müəllimin özü lövhədə şəklini çəkir. Buna oxşar olaraq, uşaqlar A4 vərəqlərində işləyirlər, üçbucaqları yapışdırır və balıqların fiqurlarını hazırlayırlar. İş başa çatdıqdan sonra yaxşı olardı ki, işlər divara yapışdırılsın və əyani olsun.

**5. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

## DƏRS 47

| | |
|---|---|
| **Mövzu:** | Heyvanlar aləmi |
| **Dərsin başlığı:** | Quşların səsləri |
| **Dərsin məqsədləri:** | Şagirdlər bəzi çöl quşlarını tanımalı və adlandırmalıdırlar; |
| | Səslərinə əsasən bəzi quşları ayırmalıdırlar; |
| | Quşların yerdəyişmə vasitələri barəsində müzakirələr aparmalıdırlar. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir. |
| | Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud, həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |
| | verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır; |
| | fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir; |
| | bədən hissələrinə əsasən müxtəlif heyvanları təsvir və müqayisə edir (məs., baş, əl-ayaqlar, quyruq, qulaqlar, dimdik, qanadlar, xortum); |
| **Lazımi material:** | rəngli karandaşlar və ya flomasterlər. |

**Dərsin gedişi:**

**1. Dərslik üzərində iş** (10-12 dəq.)

Müəllim uşaqlara xatırladır ki, ev quşlarından başqa (bunları artıq öyrənmişlər) çöl quşları da vardır. Dərsliyin müvafiq səhifəsi onlardan bəziləri ilə sizi tanış etmək məqsədini daşıyır ki, burada çöl quşları verilmişdir (ağacdələn, bayquş, şanapipik, leylək, qırqovul....) və bunları bildirən sözlər yazılmışdır.

Müəllim uşaqlara tapşırır ki, cütlüklərdə işləsinlər. Cütlüklər quşları tapmalı və müvafiq yazını oxumalıdırlar, adlarını çəkməli və imkan daxilində təsvir etməlidirlər. Sonra öz fikirlərini söyləyə bilərlər ki, hansı quşu daha çox bəyənirlər və nə üçün.

**2. Çalışma dəftərində iş** (6-8 dəq.)

Çalışma dəftərinin müvafiq səhifəsinin yuxarı hissəsində iki çərçivə verilmişdir. Birində ("ev quşları" yazılmış) toyuq, qaz, ördək və qaranquş şəkli çəkilmiş, ikincidə ("çöl heyvanları" yazılmış) – bayquş, qartal, şanapipik və hind toyuğu.

Şagirdlər fərdi olaraq tapmalıdırlar ki, hansı çərçivədə hansı quş "artıqdır" (birincidə qaranquş, ikincidə - hind quşu), dairəyə almalı və izah etməlidirlər ki, nə üçün belə düşünürlər; şəkilləri rəngləməlidirlər.

**3. Lövhədə iş** (10-12 dəq.)

Müəllim lövhədə və ya iri formatlı kağızda (bunu divara yerləşdirir) bir sütunda növbəti quş adlarını yazır: göyərçin, qarğa, qaranquş, sərçə, bülbül. Onun yanında ikinci sütunda növbəti sözləri yazır: cəh-cəh vurur, çikkildəyir, qarıldayır, qığıldayır, civildəyir.

Müəllim uşaqlara söyləyir ki, quşlar müxtəlif səslər buraxırlar, bəziləri cəh-cəh vurur, bəziləri cikkildəyir, bəziləri civildəyir və s. Bəzilərinin səsi olduqca xoş dinləniləndir (cəh-cəh vurur, cikkildəyirlər....) Bəzi quşların səsləri xoşagəlməz olur.

"Necə düşünürsünüz, sadalanan quşlardan hansı cikkildəyir?" – müəllim şagirdlərdən soruşur və cavabı aldıqdan sonra qaranquşu xətlə "cikkilti" sözü ilə əlaqələndirir. Digər hallarda da belə edir. Yalnız uşaqların tapmadıqları halda,  müəllim onlara yardım edir. Sonda təyin etməlidirlər ki, göyərçin qığıldayır, qarğa qırıldayır, bülbül cəh-cəh vurur və sərçə civildəyir.

**4. Tapmacaların həlli** (2-3dəq.)

Şagirdlər yenə də həmin qruplarda qalırlar. Müəllim uşaqlara quşlar haqqında tapmacalar verir. Hansı qrup daha çox tapmaca taparsa, qalib də həmin qrup olacaqdır.

**5. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

Yaxşı olardı ki, bu dərs üçün müəllim quşların səsləri olan lent yazısını hazırlasın və uşaqlara qulaq asdırsın. Onlar səslə tanımalıdırlar ki, quş cəh-cəh vurur, civildəyir, qığıldayır və ya başqa səs buraxır. Şagirdlər səslərə əsasən quşların növlərini də tapmağa çalışmalıdırlar.

## DƏRS 48

| | |
|---|---|
| **Mövzu:** | Heyvanlar aləmi |
| **Dərsin başlığı:** | kiçik altıayaqlı heyvanlar |
| **Dərsin məqsədləri:** | şagirdlər faydalı və ziyan gətirən həşəratları adlandırmalı və asan dildə təsvir etməlidirlər;<br>Sadə cihazlardan istifadə etməklə öyrənilən obyekt üzərində müşahidə aparmalıdırlar;<br>İllüstrasiyada cismi tanımalı və adlandırmalıdırlar;<br>Şagirdlərin yaradıcılıq bacarıqlarının inkişafına dəstəyin verilməsi. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;<br>cisimləri və ya hadisələri illüstrasiyalarda, yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır; |

| | |
|---|---|
| | tanış bitkilərin əsas hissələrini tanıyır və adlandırır (məs., gövdə, yarpaq, kök, çiçək, meyvə); |
| | müxtəlif mühitdə yaşayan bitkilərin/heyvanların müqayisəsi üçün sualları formalaşdırır. |
| | sinif otağında, məktəbin həyətində, lokal mühitdə yetişən müxtəlif bitkiləri (məs., yarpaqların forması və ya ölçüsünə əsasən, gövdənin formasına, qalınlığına və ya uzunluğuna əsasən, çiçəklərin rəngi və ya ölçüsünə əsasən) və ya heyvanı (məs., soxulcanı, ilbizi, kəpənəyi, parabüzəni) müşahidə edir; müşahidə nəticələrini müxtəlif forma ilə ötürür (şifahi nitq ilə, şəkillərlə, kollajla, fotoşəkillərin vasitəsilə). |
| **Lazımi material:** | rəngli karandaşlar və ya flomasterlər, kibrit dənələri. |

**Dərsin gedişi:**

**1. Dərslik üzərində iş** (7-8 dəq.)

Bu dəfə şagirdləri insanların demək olar ki, hər gün qarşılaşdıqları heyvanların rəngarəng qrupu ilə tanış etməliyik. Bunlar həşəratlardır.

Dərsliyin müvafiq səhifəsində həşəratların şəkli verilir: çəyirtkə, böcək, milçək, tarakan, kəpənək, arı, iynəcə, qarışqa, ağcaqanad. Şagirdlər cütlüklərdə işləməli, həşəratları tapmalı və adlandırmalıdırlar.

Sonda müəllim şagirdlərdən xahiş edir ki, bir daha həşəratları müşahidə etsinlər və təyin etsinlər ki, həşəratın neçə ayağı vardır (həşəratların hamısının 6 ayağı var. Məhz bu onları xarakterizə edən əlamətlərdən biridir).

**2. Çalışma dəftərində iş** (7-8 dəq.)

İki çərçivə verilmişdir. “Quş hansıdır” yazısı olan bir çərçivədə kəpənək, milçək, qaranquş və iynəcə şəkli çəkilmişdir; ikinci çərçivədə (“həşərat” olmayan yazısı ilə) – arı, böcək, soxulcan, qarışqa şəkli. Şagird bu dəfə fərdi işləyir, birinci çərçivədə quşu tapmalıdır (qaranquş) və dairəyə almalıdır. İkinci çərçivədə hansının həşərat olmadığını tapmalı (soxulcan) və dairəyə almalıdır. Sonra yenə də frontal olaraq tapşırıq yoxlanılmalı və müzakirələr aparılmalıdır. Sonda şagirdlər şəkilləri rəngləməlidirlər.

**3. Çalışma dəftərində iş** (2-3 dəq.)

Müəllimin vaxtı qaldığı (digər halda ev tapşırığı kimi verə bilər) halda, şagirdlərə həmin səhifədə aşağıda verilən konturu göstərir. Onlardan xahiş edir ki, nöqtələri birləşdirsinlər və alınan şəkli rəngləsinlər. Müəllim həşərat barəsində danışır ki, bu da şəkildə verilmişdir: o necədir? Nə rəngdədir və s. Sonda müəllim şagirdlərə suallar verir: bilirsinizmi ki, dostlarımız may böcəyindən nəyi soruşurlar. Ehtimal ki: may, may, may böcəyi, sabah hava necədir?

**4. Dərslik üzərində iş (qrup işi)** (7-9 dəq.)

Müəllim sinfi qruplara bölür və tapşırıq verir, kitabda verilən iki şəklin əsasında kiçik hekayə tərtib etsinlər.

Birinci şəkildə arıçının şəkli verilir. O, şərti olaraq pətəklərlə işləyir. Ona uşaqlar yaxınlaşırlar. İkinci şəkildə görünür ki, uşaqlar geri qaçırlar və arılar onları qovurlar. Müəllim bu mövzuda söhbətə başlayır. Bunun üçün növbəti suallardan istifadə edir:

– Arılar insan üçün hansı xeyri verirlər?
– Pətək nədir? Şanı? Mum?...
– Mumdan nə hazırlayırlar? (şam)
– Nə üçün arı ətirli gülləri sevir?
– Arıya zəhərli neştər nə üçün lazımdır?

Müəllim şagirdlərlə birlikdə nəticə çıxarır ki, faydalı və ziyan gətirən həşəratlar vardır. O, təxminən belə bir suallar verir:

– “Hansı həşərat/lar insanların evlərində yaşayırlar?”
– “Hansı həşərat insanı dişləyir və qanını sorur?”

– “Hansı həşərat paltarı yeyir və xarab edir?”
– “Hansı həşəratlar xəstəlikləri yayırlar?”

**5. Çalışma dəftərində iş** (4-5 dəq.)

Bu dəfə şagirdlər fərdi olaraq işləyirlər. Növbəti səhifədə bir-birinin ardınca kəpənək, çəyirtkə, iynəcə və böcək konturları verilir. Burada 6 söz yazılmışdır (arı, böcək, çəyirtkə, qarışqa, kəpənək, milçək, iynəcə). Şagird tapmalıdır ki, şəkildə hansı həşəratlar verilmiş və müvafiq sözləri vurğulayır.

**6. Müşahidə**

Həşəratların səsini tapmaq
Müəllim uşaqlara həşəratların səsini tapmaqda yardım edir.
Yaxşı hava şərtlərində müəllim şagirdləri məktəbin həyatinə çıxarmalı və bitkilərdə və torpaqda həşəratların hərəkətlərini izləməlidir; ən əlverişli olanı qarışqaları müşahidə etməkdir. Yaxşı olardı ki, kiçik həşəratları lupa ilə müşahidə etsinlər.
– Hansı əşyanı görürsünüz?
– Diqqətinizi nə cəlb etdi?
– Necə düşünürsünüz, nə üçün belə davranırlar? (hansı tərəfə hərəkət edirlər, nə edirlər?....)
– Sizin fikrinizcə, bu həşəratlar təkcə yaşayırlar və ya çoxsaylı ailələrdə?....

**7. Dərsin yekunlaşdırılması** (1-2 dəq.)

**8. Ev tapşırığı**

Müəllim uşaqlardan xahiş edir ki, növbəti dərs üçün evdən oyuncaq heyvanları gətirsinlər.

## DƏRS 49

| | |
|---|---|
| **Mövzu:** | Heyvanlar aləmi |
| **Dərsin başlığı:** | Zooparkda |
| **Dərsin məqsədləri:** | Şagirdlər dərk etməlidirlər ki, zooparkda qəfəslərə ev heyvanlarını deyil, əsasən çöl heyvanlarını yerləşdirirlər;<br>Şagirdlər “zoopark” heyvanlarını adlandırmalı və onları asan dildə təsvir etməlidirlər;<br>Cismi tanımalı, təsvir etməli, çeşidlərə ayırmalıdırlar;<br>Müxtəlif kommunikasiya formalarından istifadə etməlidirlər;<br>Müxtəlif heyvanları təsvir etməli, qruplaşdırmalı və müqayisə etməlidirlər.<br>Şagirdlərin müxtəlif əqli bacarıqlarının (“çoxtərəfli intellektin”) inkişafına dəstəyin verilməsinə dəstək verilməlidir. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.3. Şagird əlamət-xassələrə əsasən canlı cisimləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;<br>fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif |

| | |
|---|---|
| | kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir |
| | bədən hissələrinə əsasən müxtəlif heyvanları təsvir və müqayisə edir (məs., baş, əl-ayaqlar, quyruq, qulaqlar, dimdik, qanadlar, xortum); |
| | canlı cisimləri bitkilər və heyvanlar kimi qruplaşdırır, öz qərarını əsaslandırır; |
| | müxtəlif mühitdə yaşayan bitkilərin/heyvanların müqayisəsi üçün sualları formalaşdırır. |
| | sinif otağında, məktəbin həyətində, lokal mühitdə yetişən müxtəlif bitkiləri (məs., yarpaqların forması və ya ölçüsünə əsasən, gövdənin formasına, qalınlığına və ya uzunluğuna əsasən, çiçəklərin rəngi və ya ölçüsünə əsasən) və ya heyvanı (məs., soxulcanı, ilbizi, kəpənəyi, parabüzəni) müşahidə edir; müşahidə nəticələrini müxtəlif forma ilə ötürür (şifahi nitq ilə, şəkillərlə, kollajla, fotoşəkillərin vasitəsilə). |
| **Lazımi material:** | Oyuncaq heyvanlar, rəngli karandaşlar və ya flomasterlər. |

**Dərsin gedişi:**

**1. Qruplarda iş** (15-18 dəq.)

Bu dərs üçün uşaqlar evlərindən oyuncaq heyvanları gətirdilər. Müəllim sinfi qruplara bölür və bu qruplarda təxminən eyni sayda oyuncaqları bölür. Şagirdlərə bir neçə tapşırıq verilir:

I. Verilən heyvanlardan quşları ayırmalıdırlar;

II. Heyvanları ev və çöl heyvanlarına ayırmalıdırlar;

III. Şagirdlərin hər bir qrupu üçün sinif otağında divar boyunca müəllim yer ayırmalıdır. Bu yerdə uşaqlar kətillər düzməli və üzərinə öz "heyvanlarını" yerləşdirməlidirlər. Hər bir qrupun işi nəticəsində bir böyük "zoopark" yaranır. Uşaqlar başa düşməlidirlər ki, ev heyvanlarını (məsələn: oyuncaqları arasında it, pişik, inək, qoyun, toyuq... vardırsa) zooparka yerləşdirməməlidirlər.

Sonra "zooparkı" seyr etməyə başlayırlar, hər bir qrupun şagirdləri öz yerlərində başqa qrupları qəbul edir, heyvanları təqdim edir, adlarını çəkir və imkan daxilində xarakterizə edirlər (məsələn, bu fildir, fil çox böyük heyvandır. Onun burun əvəzinə uzun xortumu var; fil xortumu ilə ot götürür və ağzına qoyur. Filə yaxınlaşmaq təhlükəlidir...).

**2. Çalışma dəftərində iş** (8-10 dəq.)

Dəftərin müvafiq səhifəsində, yuxarı hissədə balıqlar və quşlar verilmişdir. Şagirdlər əllərini qaldırmadan xətt çəkməklə balıqları və quşları bir-birindən ayırmalıdırlar.

Müəllimin sualları:

– Bu şəkildə hansı heyvanlar verilmişdir?

– Balıqlar harada yaşayırlar?

– Evdə insanların balıqları yerləşdirdikləri və qulluq etdikləri qab necə adlanır? (akvarium)

– Aranızda kimin akvariumu vardır (kim görmüşdür)?

– O necədir?

Dəftərdə verilən səhifənin aşağı hissəsində zürafə, timsah və fil şəkli çəkilmişdir. Buradaca üç müxtəlif qəfəs şəkli çəkilmişdir. Şagirdlər başa düşməlidirlər ki, hansı qəfəs hansı heyvan üçün nəzərdə tutulmuş və xətlərlə əlaqələndirməlidirlər. Sonra şəkli rəngləməlidirlər.

**3. Rollarla oyun** (5-7 dəq.)

Müəllim sinfi qruplara bölür və onlara rollarla oyunu təklif edir. Qruplardan bir-bir (yaxud da bir neçə) şagird hər hansı bir heyvanı zoopark qəfəsində canlandırır. Digər uşaqlar isə tapmalıdırlar ki, onların qarşısında hansı heyvandır. Sonra hər qrupdan şagirdlər bu "heyvana" onlar üçün maraqlı suallar verir və bu "heyvan" da cavab verir.

**4. Yekunlaşdırma** (2-3 dəq.)

## DƏRS 50

**Mövzu:** Kosmos

**Dərsin başlığı:** Teleskop, mikroskop

**Dərsin məqsədləri:** Şagirdlər səma cisimlərini müşahidə etməlidirlər;

Sadə suallar verməli və ehtimallarını söyləməlidirlər;

Sadə cihazlardan istifadə etməklə öyrənilən obyekti müşahidə etməlidirlər;

Öyrənilən hadisə haqqında sadə suallar verməlidirlər;

Sadə cihazların vasitəsilə müşahidə aparmalıdırlar;

Praktiki fəallıqlarda iştirak etməlidirlər;

İnsanın hissiyyat orqanlarının (gözün) əhəmiyyətini dərk etməlidirlər;

Nəticələri şifahi və ya arzu etdikləri forma ilə ötürməlidirlər.

**MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.

Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.

**Nəticə əyanidir, əgər şagird:** öyrənilən cisim/hadisə haqqında sadə sualları verir;

özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;

təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir;

verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;

fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir;

insanın hissiyyat orqanlarını və onların funksiyalarını adlandırır (məs., göz – “görürəm”, qulaq – “dinləyirəm”, dil – “dadı duyuram”, burun – “qoxunu hiss edirəm”, dəri – “istilik və soyuğu, hamar və ya nahamar səthi duyuram”);

insan üçün (məs., qidanın yararlı olduğunun təyin edilməsi, küçədə təhlükəsiz hərəkət) və heyvanlar üçün (məs., təhlükənin vaxtında aşkar edilməsi, qidanın əldə edilməsi, sığınacağın axtarılıb tapılması) hislər və hissiyyat orqanlarının əhəmiyyəti barəsində müzakirə aparmalıdır;

müxtəlif sadə cihazlardan (lupa, fonendoskop) hissiyyatın gücləndirilməsi məqsədilə istifadə edir və bədən xassələrini təsvir edir ki, bunlar da bu cihazlardan istifadə edildikdə əyani görünür.

**Lazımi material:** lupa, yarpaq – hər bir şagird üçün, 1 mikroskop, videofilm.

**Dərsin gedişi:**

**1. Elm və texnika** (4-5 dəq.)

Müəllim sinfə müraciət edir:

– Yəqin sizə maraqlıdır ki, nəhəng olan dünyada nə baş verir ? Axı biz, Yer kürəsinin sakinləri, onun yalnız xırda bir hissəsiyik. İnsanları hər zaman dünyanı öyrənmək maraqlandırırdı. Bunun üçün əsrlər boyunca cihazlardan istifadə edirdilər. Astronomiya adlanan xüsusi bir elm də yaradıldı və s. Kitabında

verilən şəkillərə diqqətlə bax. Gördüyün hər şeyi insan ixtira etmiş, yaratmışdır. Necə düşünürsən, nə üçün? Onlardan hər biri bizə nədə yardım edir?

**2. Tədqiqi iş: cütlüklərdə iş** (10-20 dəq.)

Müəllim böyüdücü şüşə - lupa gətirmişdir. Hər bir şagirdə tədqiqat materialını paylayır. Bu halda yarpaq ola bilər.

a) Şagirdlər 1 dəqiqə ərzində yarpağın səthini müşahidə etməlidirlər. Nəyi gördüklərini təsvir etməlidirlər.

b) Sonra müəllim hər bir cütlüyə böyüdücü şüşəni verir – lupanı. Lupanın vasitəsilə onlar bir daha yarpaqları diqqətlə müşahidə etməlidirlər. Onlar aşkar edəcəklər ki, adi gözdən fərqli olaraq, lupanın vasitəsilə yarpağın ən xırda xətlərini də görə bilirlər.

c) Müəllim uşaqlara mikroskopu göstərir və izah edir ki, insanlar elə bir cihaz ixtira etmişlər ki, bunun vasitəsilə də ən xırda hissələri də görmək mümkündür. Müəllim könüllülərə imkan verir ki, mikroskopa nəzər salsınlar. Ola bilsin ki, tədqiq edilən material yenə də yarpaq olsun. Şagirdlər böyüdücü şüşənin və mikroskopun imkanlarını müqayisə edəcək, nəticə çıxaracaqlar.

**3. Dərslik üzərində iş** (5-7 dəq.)

Müəllim:

– Gecəyarı göyün üzünə baxmısınızmı? Gecə göyün üzərində nəyi görürsünüz?

Adi gözlə görə bildiyimiz ulduzlardan başqa göyün üzərində çoxsaylı ulduzlar var və biz onları görmürük. Onları görməkdə bizə teleskop yardım edir.

**4. Teleskop və onun məqsədi** (3-5 dəq.)

– Yadınızda saxlayın ki, teleskop bir cihazdır, bundan səma obyektlərini müşahidə etmək üçün istifadə edirlər.

Teleskop mikroskopa bənzəyir, hər ikisi insana gözəgörünməyən cisimləri görməkdə yardım edirlər.

Siz mikroskop vasitəsilə yarpağın ən kiçik hissəciklərini görə bildiniz. Siz bunu adi gözlə görə bilməzdiniz.

Teleskopun ixtirası ilə insan uzunmüddətli xəyalını gerçəkləşdirə bildi, bizdən çox uzaqda olan səma cisimlərini yaxınlaşdıra və onları müşahidə edə bildi.

Bu mövzunu növbəti dərsdə daha ətraflı təhlil edə biləcəyik.

**5. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

Müəllim qısaca dərsdə keçilən mövzunu yekunlaşdırır və növbəti dərs üçün şagirdlərdən xahiş edir ki, yatmazdan öncə göyün üzünə baxsınlar, ulduzları, ayı müşahidə etsinlər və yadda saxlasınlar yaxud da yaxşı olardı ki, gecə səmasının şəklini çəksinlər.

## DƏRS 51

| | |
|---|---|
| **Mövzu:** | Kosmos |
| **Dərsin başlığı:** | Səma cisimləri |
| **Dərsin məqsədləri:** | Şagirdlər səma cisimlərini müşahidə etməlidirlər; |
| | Sadə suallar verməli və ehtimallarını söyləməlidirlər; |
| | Sadə cihazlardan istifadə etməklə öyrənilən obyekti müşahidə etməlidirlər; |
| | Öyrənilən hadisə haqqında sadə suallar verməlidirlər. |
| **Dərsin gedişi:** | Şagirdlər praktiki fəallıqda iştirak etməlidirlər; |
| | Sadə cihazlardan istifadə etməklə müşahidə bacarığını inkişaf etdirməlidirlər; |
| | Səma cisimlərini tanımalı və təsvir etməlidirlər; |

| | |
|---|---|
| | Şəxsi fikirlərini/müşahidə nəticələrini ötürməli və əsaslandırmalıdırlar. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.1.4. Şagird tərkib əşyalarına/materialın xassələrinə əsasən cisimləri müqayisə edə bilir.<br>Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır. |
| **Nəticə əyanidir, əgər şagird:** | öyrənilən cisim/hadisə haqqında sadə sualları verir;<br>özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;<br>cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir;<br>ətrafındakı cisimləri təsvir edir və onların tərkib əşyaları/material barəsində (məs., qayçı- dəmir, dəftər-kağız, pozan- rezin) söhbət aparır;<br>eyni əşyalardan/materialdan hazırlanmış əşyaları qruplaşdırır;<br>müxtəlif istiqamət terminlərindən istifadə edir (məs., uzaqda, yaxında, məndən sağda, məndən yuxarı, aşağıda) və məktəbin ərazisində mövcud obyektlərin yerini özü ilə münasibətdə müəyyən edir;<br>müşahidə əsasında məktəbin şəklini çəkir, xüsusi diqqətini çəkən xırdalıqlar barəsində söhbət aparır. |
| **Lazımi material:** | kəndir, kosmos haqqında videomaterial (günəş və Yer kürəsi), rəngli karandaşlar və ya flomasterlər. |

**Dərsin gedişi:**

**1. Söhbət** (10-15 dəq.)

Yəqin hamınız gecə göyün üzünü görmüsünüz. Xüsusilə də, təmiz olduğunda çox maraqlı olur.

– Göyün üzərində nəyi görürsünüz?

Siz təsəvvür edin ki, görə bildiyimiz ulduzlardan başqa, çoxlu başqa ulduzlar da vardır ki, onları biz görə bilmirik. Onları görməkdə bizə teleskop adlanan cihaz yardım edir.

Gürcüstanda ən böyük teleskop Abastumani rəsədxanasıdır.

Rəsədxanada teleskopun yardımı ilə günəşi, ayı, ulduzları və planetlərin hərəkətini və göyün tağında onların yerdəyişməsini müşahidə edirlər. Əksər hallarda rəsədxanaları dağda tikirlər, burada hava təmiz, şəffaf və görüntü də daha yaxşı olur. Hal-hazırda kosmik gəmilərdə də rəsədxanalar quraşdırılmışdır.

Unutmayın ki, teleskop elə bir vasitədir ki, ondan səma obyektlərini müşahidə etmək üçün istifadə edirlər.

Kainatda milyardlarla ulduz vardır. Ulduzlar planetlərdən fərqlənirlər. Onlar torpaq kimi bərk deyillər, çünki onların tərkibləri fərqlidir. Ulduz qaynar qazlardan ibarətdir və qızğın havaya, buxara bənzəyir. Məhz bu qaynarlığa görə ulduzlar işıq saçırlar, daha doğru sayrışırlar və istilik verirlər. Amma bu istilik bizə qədər gəlib çatmır. Bilirsinizmi, nə üçün? (uzaqdadırlar).

Ulduz canlı orqanizmə uyğun olaraq, yaranır (meydana gəlir), yaşayır və ölür.

Planetlər isə ulduzlardan onunla fərqlənirlər ki, onlardan ölçüləri ilə çox kiçikdirlər və ulduz kimi qaynar deyillər. Onlar işıq da saçmırlar.

Yerdən başqa günəşin ətrafında başqa planetlər də hərəkət edirlər.

Bəzi planeti bir növ dairə əhatə edir (4 planet). Planet nə qədər uzaq olarsa, bir o qədər də günəşdən az istilik alır və daha soyuqdur.

Günəş ulduzdur. O, bizə ən yaxında yerləşir. O da başqa ulduzlar kimi, qızmardır və buna görə də işıq saçır. Günəş yeganə ulduzdur ki, biz onu gündüz görə bilirik. Daha doğrusu, Yer öz istiliyini və işığını ondan götürür və bu da Yerdə həyatın olmasının başlıca şərtidir. Günəş işığı bizə təxminən 8 dəqiqəyə gəlib çatır.

İnsanlar qədim zamanlardan səma cisimlərini müşahidə edir və öyrənirdilər. Bu gün, texnikanın inkişafı ilə yanaşı, planetləri və ulduzları da yerdən müşahidə edirlər. Bundan başqa, kosmosa gəmilər də buraxılır və buradan onlar üçün yaxın məsafədən fotoşəkillər çəkir, müşahidə edir, tədqiq edirlər və s.

Kosmosdan Yer kürəsi mavi rəngdə görünür, çünki onun səthinin çox hissəsi su ilə örtülüdür.

Yer kürəsi planetdir və günəşin ətrafında fırlanır.

Məlumatı daha yaxşı başa düşməkdə şagirdlərə planetlər haqqında videomaterial yardım edəcəkdir. Müəllim materialı əvvəlcədən axtarıb tapmalıdır.

Şagirdlər dərslikdə planetlərin yerləşməsinə baxa bilərlər, teleskop necədir və s.

**2. Tematik oyun “Yer kürəsinin fırlanması”** (4-5 dəq.)

Yaxşı olardı ki, müəllim bu dərs üçün kəndir hazırlasın. Fəallığın əvvəlində müəllim 2 könüllünü irəli çıxarır. Şərti olaraq biri günəş olur, biri də yer kürəsi. “Günəş” kəndirin bir ucunu tutur, “Yer kürəsi” – digər ucundan. Müəllimin işarəsinə “Yer kürəsi” hərəkət etməyə başlayır və günəşin ətrafında fırlanır, “Günəş” isə bir yerdə durur. Müəllim diqqəti ona yönəldir ki, bu, Yerin günəş ətrafında keçdiyi yoldur, dəyişməzdir. Müəllim “orbita” sözünü də adlandıra bilər. Bu sözü yadda saxlamaq şagirdlər üçün vacib deyil. Amma termin onlar üçün başqa vaxt tanış olacaqdır. Müəllim, paralel olaraq, Yerin günəş ətrafında bir dövrə vurması üçün keçdiyi vaxta da diqqəti yönəltməlidir. Cütlüklər müntəzəm olaraq dəyişirlər.

**3. Sual-cavab** (3-5 dəq.)

– Necə düşünürsən, günəşə yaxın olan planetdə daha çox istilik olacaqdır və ya ondan uzaqda olan planetdə?

– Sənin fikrincə, hansı planetdə həyat mümkündür, çox soyuq olan planetdə, çox isti olanda və ya mülayim temperaturu olanda?

– Kosmik gəmi ilə səyahət edən insan necə adlanır?

– Necə düşünürsünüz, başqa planetdə də həyat ola bilərmi?

– Istilikdən başqa, həyat üçün daha nə lazımdır?

Həyat üçün lazımi olan hər şeyi sadalayın (istilik, su, hava). Sonda şagirdlər nəticə çıxarmalıdırlar ki, bütün bunlar Yer kürəsində vardır.

Kitabında verilən şəklə diqqətlə bax və suala cavab ver:

– Bilirsinizmi ki, Yerin Günəş ətrafında fırlanmasına nə qədər vaxt lazım gələcəkdir? (1 il).

– Qışda istilik daha az olur, tapın nə üçün? Yazda?

**4. Dəftərdə iş** (4-5 dəq.)

Müəllim şagirdlərdən xahiş edir ki, dərsliyin növbəti səhifəsini açsınlar:

- Kimi hansı avadanlıqlarla hara səyahətə göndərərdin?

Xətlərlə birləşdir.

**5. Dəftərdə rənglə** (3-5 dəq.)

Müəllim çalışma dəftərində verilən xəritəni göstərir. Şagirdlər ötən dərslərdə dinlədikləri məlumata istinad edərək özləri başa düşməlidirlər ki, xəritəni tamamlamaq, Yerin səthini bərpa etmək üçün hansı rəng onlara lazımdır.

**6. Yekunlaşdırma** (2-3 dəq.)

Tövsiyə edilən videomaterial: https://www.youtube.com/watch?v=XdGQMgF-BSA

## DƏRS 52

| | |
|---|---|
| **Mövzu:** | Kosmos |
| **Dərsin başlığı:** | Kosmosa səyahət |
| **Dərsin məqsədləri:** | Şagirdlər öyrənilən obyekti müşahidə etməlidirlər;<br>Onun ətrafında mövcud cisimləri təsvir etməlidirlər;<br>İllüstrasiyada və həqiqətdə cisimləri tanımalı, təsvir etməli və çeşidlərə ayırmalıdırlar;<br>Müşahidə əsasında suallara cavab verməlidirlər;<br>Şagirdlər böyüklüyünə əsasən günəşi, yeri və ayı müqayisə etməlidirlər. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.1.4. Şagird tərkib əşyalarına/materialın xassələrinə əsasən cisimləri müqayisə edə bilir.<br>Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır. |
| **Nəticə əyanidir, əgər şagird:** | öyrənilən cisim/hadisə haqqında sadə sualları verir;<br>özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;<br>cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>verilən suala cavab vermək üçün fərdi fikirlərinə və ya müşahidə nəticələrinə istinad edir;<br>fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir;<br>ətrafındakı cisimləri təsvir edir və onların tərkib əşyaları/material barəsində (məs., qayçı- dəmir, dəftər-kağız, pozan- rezin) söhbət aparır;<br>müxtəlif yanaşma terminlərindən istifadə edir (məs., uzaqda, yaxında, məndən sağda, məndən yuxarı, aşağıda) və məktəbin ərazisində mövcud obyektlərin yerini özü ilə münasibətdə müəyyən edir; |
| **Lazımi material:** | üç müxtəlif ölçüdə top, kosmos haqqında videomaterial. |

### 1. Dərslik üzərində iş (6-7 dəq.)

Müəllim ötən dərsdə başladığı mövzunu davam etdirir, kosmos haqqında danışır, kosmosun, kosmik gəminin nə olduğunu izah edir və dərslikdə verilən illüstrasiyaları göstərir: müasir kosmik gəmi və Ayda insan.

Dərslikdə kosmosdan çəkilən günəşin, ayın və yer kürəsinin şəkilləri verilir.

Müəllimin göstərişi ilə şagirdlər bu fotoşəkilləri müşahidə edir və müəllimin suallarına cavab verirlər:

– Siz də günəşi, ayı, yer kürəsini belə təsəvvür edirdiniz?

– Həqiqətdə Yer kürəsi necə imiş (və ya - həqiqətən də Yer kürəsi necə imiş? – şagirdlər “kürə” terminini hələ ki bilmirlər. Bunun üçün də top şəklində olduğunu söyləyirik).

– Günəş necə imiş? Ay?

– Bilmədiyiniz nəyi gördünüz?

**2. Çalışma dəftərində iş** (4-6 dəq.)

Çalışma dəftərinin müvafiq səhifəsində kosmik gəmi şəkli çəkilmişdir. Qəhrəmanlarımız onda oturublar. “Uşaqlar kosmosda nəyi görürlər?” Şagirdlər günəşi, yeri, ayı, ulduzları çəkməlidirlər.

İşi başa çatdırdıqdan və şəkilləri gözdən keçirdikdən sonra müəllim bir neçə şagirdə sual verir:

– Sənin şəklində Yerin hansı forması var – bucaq forması? Bəs, necə?

– Günəş hansı formadadır? Ay?

– Sənin fikrincə, ulduzlar doğrudanmı balacadırlar?

**3. Söhbət** (5-7 dəq.)

Uşaqların şəkillərinə və kosmik fotoşəkillərə istinad edərək, müəllim növbəti suallardan istifadə edərək söhbət edir:

– Hansı işıq saçır: günəş, yer və ya ay? Nə üçün belə düşünürsünüz?

– Sizin fikrinizcə, nə üçün  ay işıqlıdır?

– Nə üçün Yer işıqlıdır?

– Yerdə bizim yaşadığımız yer hər zaman işıqlı olur?

– Yerdə işıq olanda nə deyirik – gündüzdür və ya gecə?

– Yerdə qaranlıq olanda nə deyirik - gündüzdür və ya gecə?

– Sizin fikrinizcə, ulduzları da günəş işıqlandırır və ya onlar özləri işıq saçırlar? (ulduzların özləri işıq saçırlar).

– İşıqdan başqa, günəş yer kürəsinə nə verir? (istilik)

**4. Formaların yaradılması üçün oyun** (10-12 dəq.)

Müəllimin tapşırığı ilə uşaqlar dururlar və partaları divara yaxınlaşdırırlar ki, otaq boşalsın. Sonra tapşırıq verilir ki:

1. Bir-birinin əlindən tutsunlar və günəş yaratsınlar (böyük dairə);
2. Yer kürəsi yaratsınlar (bir az balaca dairə);
3. Ay yaratsınlar (kiçik dairədə qruplaşa bilərlər);
4. Ulduzlar yaratsınlar (“ulduzlar kimi səpələnə” bilərlər);

Oyun yeni tapşırıqla davam edir:

1. Hamınız günəşə düşdünüz, nəyi hiss etdiyinizi ifadə edin?
2. Hamınız aya düşdünüz (burada möhkəm buzlardır), nəyi hiss edirsiniz?
3. Hamımız geri Yerə qayıtdıq, özünüzü necə hiss edirsiniz?

**5.  Toplarla illüstrasiyalar**

Müəllim öz masasına 3 top qoyur: biri – futbol və ya basketbol topudur, ikinci – tennis və ya bu ölçüdə başqa top, üçüncü – daha bir kiçik top (məsələn, masaüstü tennis topu). Razılaşırlar: şərti olaraq hər hansı biri günəş olmalıdır, biri – yer kürəsi və biri də – ay. Şagirdlər müəyyənləşdirməlidirlər ki, hər hansı bir top günəşdir, hansı – Yer kürəsi və Ay və nə üçün belə düşündüklərini izah etsinlər.

Bununla günəşin aydan böyük olması, ayın isə yerdən kiçik olması fikri təsdiq edilməlidir.

Günəşin istiliyi necə saçdığını başa salmaq üçün müəllim masaüstü lampanı qoşur. Müəllimin göstərişi ilə hər hansı bir şagird əlini yanan lampaya yaxınlaşdırır və ondan gələn istiliyi hiss edir. Əlini lampadan uzaqlaşdırdıqda, istiliyi də bir o qədər az qəbul edir. Böyük məsafədən lampanın istiliyi hiss edilmir, amma onun işığını görürük. Eləcə də ulduzlar, onlardan işıq bizə qədər gəlib çatır, istilik isə uzaqlığa görə gəlib çatmır. Günəşdən isə hər zaman istilik və işıq alırıq.

**6. Dərsin yekunlaşdırılması** (2-3 dəq.)

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=PPME-JnwrAA

## DƏRS 53

| | |
|---|---|
| **Mövzu:** | Kosmos |
| **Dərsin başlığı:** | Günəş "sönərsə", nə baş verər? |
| **Dərsin məqsədləri:** | şagirdlər sutka ərzində müşahidə olunası dəyişiklikləri adlandıra bilməlidirlər;<br>İlin fəsillərini adlandırmalı, müqayisə etməlidirlər;<br>Səmtləşdirici terminlərdən istifadə etməlidirlər;<br>Praktiki fəallıqlarda iştirak etməlidirlər;<br>Cisimləri və hadisələri illüstrasiya və gerçəklikdə tapmalı, təsvir etməlidirlər;<br>Müxtəlif kommunikasiya vasitələrindən istifadə etməlidirlər;<br>Şagirdlərdə təsviri və fantaziya bacarığının inkişafına dəstək verilməlidir. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır.<br>Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir;<br>cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>verilən suala cavab vermək üçün fərdi fikirlərinə və ya müşahidə nəticələrinə istinad edir;<br>fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir;<br>müxtəlif səmtləşmə terminlərindən istifadə edir (məs., uzaqda, yaxında, məndən sağda, məndən yuxarı, aşağıda) və məktəbin ərazisində mövcud obyektlərin yerini özü ilə münasibətdə müəyyən edir;<br>gecə-gündüz ərzində müşahidə olunası dəyişiklikləri adlandırır;<br>ilin fəsillərini adlandırır və bir-biri ilə müqayisə edir, onları fərqləndirən işarələr barəsində müzakirələr aparır, onların hər biri üçün xarakterik hava barəsində danışır; |
| **Lazımi material:** | fənər, top, rəngli karandaşlar və ya flomasterlər, A4 vərəqləri. |

**Dərsin gedişi:**

**1. Dərslik üzərində iş** (5-6 dəq.)

Şagirdlər ötən dərsdən artıq bilirlər ki, günəş öz şüaları ilə Yeri qızdırır. İndi müəllim sual verir:

– Günəş hər zaman Yeri eyni şəkildə qızdırır? (yəni ilin bütün fəsillərində ölkəmiz eyni şəkildə günəş şüaları ilə qızdırılır?)

Bu sual üzrə diskussiyanın aparılması daha yaxşı olardı. Fikir bildirilməlidir ki, yazda, yayda, payız və qışda ölkəmiz günəş şüaları ilə eyni şəkildə qızmır (bunun səbəbləri haqqında indi danışmırıq).

Dərsliyin müvafiq səhifəsində dörd şəkil və yazılar verilmişdir: yaz, yay, payız, qış.

Şagirdlər bu tapşırıq üzərində müstəqil işləməlidirlər, hər bir şəklin ilin hansı fəslini ifadə etdiyini başa düşməlidirlər. Öz fikrini izah etməli və sübut etməlidirlər.

**2. Topla və fənərlə oyun** (8-10 dəq.)

Müəllim yeni sual verir:

– Yerdə gecə və gündüz nə üçün bir-birini əvəz edir (yəni nə üçün gecədən sonra gündüz gəlir, gündüzdən sonra gecə)?

– Bu suala cavab vermək üçün müəllim şagirdlərə fənərdən və topdan istifadə etməklə modelləşdirməni təklif edir. Yanan fənər günəşdir, top – yer kürəsidir. “Yer kürəsinin” işıqlı tərəfində gündüzdür, qaranlıq tərəfində - gecədir. Gecə və gündüz bir-birini necə əvəz edirlər? Topu fırlasaq məlum olacaqdır ki, onun işıqlı tərəfi qaranlığa düşür (qaranlıq düşdü), qaranlıq tərəfi isə - işığa (səhər açılır). Bax, həqiqətdə məhz belə olur: Yer kürəsi bu top kimi fırlanır, buna görə də onun bir tərəfində gündüz olanda, əks tərəfində gecə olur. Fırlandığına görə, gecə və gündüz bir-birini əvəz edir (bu nəticəni yaxşı olardı ki, şagirdlərin özləri etsinlər). İnsanlar isə elə zənn edirlər ki, günəş səma tağında hərəkət edir – qalxır və düşür.

Eyni modelə daha çox əyanilik vermək məqsədilə, müəllim uşaqlara təklif edir ki, özləri gecə və gündüzü oynasınlar. Şagirdlər dairədə dururlar – amma üzlərini çölə tuturlar. Onların dairələri “Yer kürəsidir”. Müəllim fənəri işıqlandırır (şərti olaraq, bir neçə şagirdə işıq düşəcək yəni dairənin ön, işıqlı tərəfində gündüzdür) və deyir: “gündüz haradadır? Fənərin işıqlandırdığı uşaqlar əllərini qaldırsınlar”. Uşaqların özləri nəticə çıxarırlar ki, bu tərəfdə gündüzdür. “İndi əllərini “günəş” işığını görməyən uşaqlar qaldırsınlar, beləliklə, burada gecədir”.

Sonra dairə fırlanır və müvafiq olaraq “gecə və gündüz” bir-birini əvəz edir.

**3. Sinif diskussiyası** (3-4 dəq.)

Müəllim növbəti mövzu üzrə sinif diskussiyasını təşkil edir:

– Günəşin “söndüyü” halda, nə baş verəcəkdir?

**4. Qruplarda iş** (7-8 dəq.)

Müəllim sinfi 4 qrupa bölür. Qruplara tək-tək A4 vərəqləri verilir, birində günəş yazılmış, digərində - ay, üçüncüdə - ulduzlar, dördüncüdə - Yer. Müvafiq olaraq, bir qrup – günəşdir, ikinci – ay, üçüncü – ulduzlar, dördüncü – yer.

Sonra sıra ilə hər bir qrupa başqa qrupların şagirdləri onlar üçün maraqlı sualları verir və cavabları dinləyirlər (məsələn, “aya” ayın barəsində suallar verilir, “ayın uşaqları” isə öz təsəvvürlərinə istinad edərək orijinal cavablar verirlər).

**5. Çalışma dəftərində iş** (4-5 dəq.)

Çalışma dəftərinin verilən səhifəsində dostlarımıza yardım etmək lazımdır ki, tapşırığı yerinə yetirə bilsinlər. Şagirdlər onlara bu şəkildə müəyyən qanunauyğunluqları tapmaqda və boş xanaları doldurmaqda yardım etməlidirlər.

**6. Bu, maraqlıdır!** (1-2 dəq.)

Müəllim uşaqlara qədim yunan əfsanəsi Helios barəsində oxuyur və ya qısaca nəql edir.

“Uzaqlarda şərqə tərəf, göylərdə Günəşin – Heliosun qızıl sarayı dururdu. Hər səhər, şərq qırmızı rəngə boyandıqda, şüalar düşən qızıl darvazada Heliosun qızıl faytonu görünürdü. Ona qar kimi dörd ağ at bağlanmışdı. Helios qeyzli atlarının cilovlarını bərk-bərk tuturdu. Onun libası və qızıl saçan tacı güclü işıq saçırdı və ətrafa səpələnirdi.

Heliosun faytonu səma enişində yuxarı və yuxarı qalxırdı və Yeri işıqlandırırdı, istilik və həyat verirdi. Səmanın ortasına çatdıqdan sonra yavaş-yavaş qərbə tərəf aşağı düşür və okean sularına qərq olurdu. Burada Heliosu artıq qızıl qayıq gözləyirdi. Bu qayığa minir və öz faytonu və atları ilə qızıl sarayına yollanırdı; sarayda gecəni keçirib sübh tezdən yenə də yuxarı qalxır və hər kəsə sevinc bəxş edirdi”.

Anqel Bonovun “Əsatirlər və əfsanələri” əsasında

**Təsviri ifadələr üzərində iş**

Müəllim uşaqlara bildirir ki, ana dilində “günəşlə” bağlı çoxlu ifadələr bağlıdır. Bunlardan bəzilərini söyləyir və lövhəyə yazır, şagirdlər isə tapmalıdırlar ki, müəllim nəyi nəzərdə tutur. Həqiqətən, də müəllim sıra ilə aşağıda söylənilən ifadələri yazır və şagirdlərin tapmadıqları halda, onları izah edir:

– Doqquz gözlü günəş (qızmar günəş);
– Günəş əl-üzünü yuyur (günəş işıqlandırdığı və eyni zamanda yağış yağdığı halda);
– Səhər vaxtı günəş işıq saçdığında (açıq-aşkar, hər kəsin gözü önündə);
– Günəş və ay onunla qalxır (balasını çox sevən ana haqqında deyirlər);
– Günəş oğlan (gözəl, qədd-qamətli oğlan)
– Günəşlə görünməyən (olduqca gözəl qadın);
– Günəş qadın (gözəl qadın);
– Günəş dişləyir (günəşin şüaları o qədər qızmar olur ki, dərini yandırır)

(Müəllimin istəyi və vaxtı olduğunda, bu ifadələrə ona məlum olan başqa ifadələri də əlavə edə bilər).

**7. Yekunlaşdırma** (1-2 dəq.)

## DƏRS 54

| | |
|---|---|
| **Mövzu:** | Yay |
| **Dərsin başlığı:** | Yay da gəldi |
| **Dərsin məqsədləri:** | Şagirdlər ilin fəsillərindən biri kimi yayı xarakterizə edə bilməlidirlər;<br>İllüstrasiyalarda və həqiqətdə hadisələri tanımalı və təsvir etməlidirlər;<br>Hissiyyat orqanlarını adlandırmalı və onların funksiyalarını tapmalıdırlar;<br>Müşahidə olunan dəyişiklikləri adlandırmalıdırlar;<br>İlin fəsillərinə əsasən paltarları bir-birindən ayırmalıdırlar;<br>Yay aylarını sadalamalı və təbiətdə baş verən əyani dəyişiklikləri təsvir etməlidirlər;<br>Şagirdlərin məntiqi təfəkkür bacarığının inkişafına dəstək verilməlidir. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.<br>Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>verilən suala cavab vermək üçün fərdi fikirlərinə və ya müşahidə nəticələrinə istinad edir;<br>insanın hissiyyat orqanlarını və onların funksiyalarını adlandırır (məs., göz – “görürəm”, qulaq – “dinləyirəm”, dil – “dadı duyuram”, burun – “qoxunu hiss edirəm”, dəri – “istilik və soyuğu, hamar və ya nahamar səthi duyuram”);<br>insan üçün (məs., qidanın yararlı olduğunun təyin edilməsi, küçədə təhlükəsiz hərəkət) və heyvanlar üçün (məs., təhlükənin |

vaxtında aşkar edilməsi, qidanın əldə edilməsi, sığınacağın axtarılıb tapılması) hislər və hissiyyat orqanlarının əhəmiyyəti barəsində;

gecə-gündüz ərzində müşahidə olunası dəyişiklikləri adlandırır;

gecə-gündüzün sahələrini fərqləndirir – səhər, gündüz, axşam, gecə və öz fəallığı/məşğulluğu ilə əlaqələndirir;

ilin fəsillərini adlandırır və bir-biri ilə müqayisə edir, onları fərqləndirən işarələr barəsində müzakirələr aparır, onların hər biri üçün xarakterik hava barəsində danışır;

ilin fəsillərinə əsasən insanın fəaliyyəti (məs., bitkilər əkmək, məhsul yetişdirmək, məhsul yığımı), heyvanların hərəkəti (məs., quşların uçuşu, qış yuxusu) və bitkilər üçün xarakterik dəyişikliklərin (məs., çiçəkləmə, yarpaq tökülməsi) misallarını sadalayır.

**Lazımi material:** rəngli karandaşlar və ya flomasterlər.

**Dərsin gedişi:**

**1. Hekayənin dinlənilməsi və ilin fəsillərinin tapılması** (4-5 dəq.)

Müəllim uşaqlara belə bir tapşırıq verir: onlar müəllimin oxuduğu mətni dinləməli və ilin hansı fəslinin təsvir edildiyini tapmalıdırlar.

"Bu zaman günlər çox uzun olur: on dörd saat ərzində günəş göyün üzündə olur. Baxın, günortadır, günəş zirvəyə qalxıb və Yerə məhz göyün ortasından baxır. Bu zaman insan gözünü günəşə tutub baxa bilmir, işıqlı səmaya və Yerə də baxmaq çətin olur. Səma da, düzənlik də, çaylar da, hava da çox parlaq işığa qərq olur. Dəhşət isti, bürkü olur. Meşədə və ağaclıqda istidən zəifləmiş quşlar dillərini çıxarıb yazıq-yazıq nəfəslərini dərirlər.

Bu zaman çəmənliyi müxtəlif həşəratlar bürüyürlər, çoxsaylı ala-bəzək kəpənəklər uçurlar. Qızıl rəngli arı bu zaman ehtiyatla cökə ağacının və ətirli güllərin üzərinə qonur və bal hazırlamaq üçün onların şirin şirələrini udur... Bir yerdə durmayan qarışqa torpağın altında qış ehtiyatını toplayır; dələ qurumuş qozları toplayır və koğuşlarına daşıyır. Bütün canlılar bu yolla çiçək açır, zəhmət çəkir və zövq alırlar".

(İ. Qoqebaşvilinin "Yay" hekayəsinə əsasən)

**2. Yay haqqında söhbət** (4-5 dəq.)

Müəllim növbəti suallardan istifadə etməklə söhbət aparır:
– Bu hekayədə yayın təsvir olunduğunu necə başa düşdünüz?
– Yay ilin hansı fəslindən sonra gəlir?
– Yayda təbiət necə dəyişir?
– Payız aylarını kim sadalaya bilər?
– Qış aylarını kim sadalaya bilər?
– Yaz aylarını kim sadalaya bilər?
– İndi hansı aydır? (dərsin iyunda keçirildiyi nəzərdə tutulur);
– Yayda daha hansı aylar var?
(Müəllim lövhədə yay aylarını yazır).

**3.Qruplarda iş** (5-7 dəq.)

Müəllim sinfi 4 qrupa bölür və hər birinə yazılarla tək-tək vərəq paylayır: yaz, yay, payız, qış. Şagirdlər qruplarda onlar üçün nəzərdə tutulmuş vərəqdə müvafiq fəslin adlarını düzgün ardıcıllıqla yazmalıdırlar. Sonra hər bir qrup səssiz, mimika və jestlərlə ilin verilən vaxtını elə canlandırmalıdır ki, başqa qruplar tapa bilsinlər.

Sonra müəllim sinfə müraciət edir:

Yadınıza salın ki, ad gününüz ilin hansı fəslindədir. Adını çəkməyin, yalnız təsvir edin ki, biz də tapa bilək.

Sonra müəllim suallarla söhbəti davam edir:
– Ad günündə hava necə olur?

– Sən və yoldaşların nə geyinirlər?
– Yağış/qar olmuşdurmu?
– Güllər çox olur? Ağaclar yarpaq açır?
– Adətən, necə geyinirsiniz? (qalın, nazik)?

**4. Çalışma dəftərində iş** (8-10 dəq.)

Çalışma dəftərinin müvafiq səhifəsində (yuxarı hissədə) kontur şəkli verilmiş və onda Qara dəniz sahilində (çimərlikdə) kitabımızın qəhrəmanları təsvir edilmişlər. Şagirdlər şəkli rəngləməli və sonra da təsvir etməlidirlər.

(Müəllimin yardımçı sualları: - sizin fikrinizcə, uşaqlar hansı dənizdədirlər?)
– Vətənimiz hansı dənizin sahilində yerləşir?
– Sizlərdən kim dənizdə olmuşdur?
– Adətən, insanlar dəniz sahilində nə edirlər?..

**5. Çalışma dəftərində iş** (4-5 dəq.)

Eyni səhifənin aşağı hissəsində həmyaşıdlarınız məntiqi məsələni həll etməlidirlər – verilən kvadratda boş xananı tapmalı və doldurmalıdırlar. Müəllim şagirdlərdən xahiş edir ki, kitabın qəhrəmanlarına tapşırığı yerinə yetirməkdə kömək etsinlər (tapşırıq cütlüklərdə və ya fərdi yerinə yetirilə bilər).

**6. Rollarla oyun** (2-3 dəq.)

Müəllim sinfi 4 qrupa bölür və onlara qutuya tökülmüş rəngli vərəqlərdən birini çıxarmağı və onu ilin fəsli ilə əlaqələndirməyi təklif edir. Şagirdlər izah etməlidirlər ki, onu nə üçün ilin bu fəsli ilə əlaqələndirdilər. Sonra hər bir qrup fikirləşməli və sıra ilə bu fəsli səhnələşdirməlidir. Hər dəfə başqa qrupun şagirdləri tamaşanın məzmununu tapmalıdırlar.

**7. Yekunlaşdırma** (2-3 dəq.)

Tövsiyə videomaterialı: https://www.youtube.com/watch?v=Z7S2Ay-pDhw
https://www.youtube.com/watch?v=1E54pW2kn44

## DƏRS 55

**Mövzu:** Yay

**Dərsin başlığı:** Kəndimiz

**Dərsin məqsədləri:**

Şagirdlər şəhərin və kəndin mühitini müqayisə etməli, təsvir etməli və xarakterizə etməlidirlər;

Kənddə və şəhərdə yaşayış evlərini müqayisə və təsvir etməlidirlər;

Şəhər sakinləri və kənd sakinlərinin fəaliyyətini təsvir etməlidirlər;

İllüstrasiya əsasında cisimləri tanımalı və təsvir etməlidirlər;

Lazımi məlumatı toplamalıdırlar;

Şəxsi fikirlərinə istinad etməlidirlər;

Müxtəlif kommunikasiya formalarından istifadə etməlidirlər;

Müşahidə əsasında şəkil hazırlamalıdırlar;

İlin fəsillərinə əsasən, insanın fəaliyyətini təsvir etməlidirlər.

**MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:**

Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.

Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır.

| | |
|---|---|
| | Təb.I.6. Şagird gecə-gündüzü və ilin fəsilləri ilə bağlı dəyişiklikləri təsvir edə bilməlidir. |
| **Nəticə əyanidir, əgər şagird:** | cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır; |
| | suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə); |
| | verilən suala cavab vermək üçün fərdi fikirlərinə və ya müşahidə nəticələrinə istinad edir; |
| | fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir; |
| | müşahidə əsasında məktəbin şəklini çəkir, xüsusi diqqətini çəkən xırdalıqlar barəsində söhbət aparır; |
| | ilin fəsillərinə əsasən insanın fəaliyyəti (məs., bitkilər əkmək, məhsul yetişdirmək, məhsul yığımı), heyvanların hərəkəti (məs., quşların uçuşu, qış yuxusu) və bitkilər üçün xarakterik dəyişikliklərin (məs., çiçəkləmə, yarpaq tökülməsi) misallarını sadalayır. |
| **Lazımi material:** | rəngli karandaşlar və ya flomasterlər, A4 və ya iri formatlı vərəqlər. |

**Dərsin gedişi:**

**1. Kənd barəsində söhbət** (5-6 dəq.)

Müəllim belə bir suallardan istifadə etməklə şagirdlərlə söhbət aparır:
– Yayda şəhərdən uşaqları dincəlmək üçün hara aparırlar?
– Sizlərdən kim kənddə olmuşdur?
– Yayda kənd nə ilə cəlbedici olur?
– Şəhər və kənd arasında hansı fərq vardır?
– Kim kənd haqqında xoş xatirələrini yada salar? (müəllim könüllülərə imkan verməlidir ki, kənddə keçirdikləri günlər barəsində xatirələrini ötürsünlər. Dərs kənd məktəbində keçirildiyi halda, suallarda kənddə yayın yazdan nə ilə fərqləndiyinə diqqət yönəldilməlidir? İnsanlar yayda hansı işlərlə məşğul olurlar və s.).

**2. Dərslik üzərində iş** (7-8 dəq.)

Dərsliyin müvafiq səhifəsində (yuxarı hissəsində) iki növdə yaşayış evi verilir: şəhər və kənd. Şagirdlər tapmalı və onları xarakterizə etməlidirlər (“şəhər evi”, “kənd evi”).

Sonra müəllim şagirdlərdən xahiş edir ki, bu iki növdə evi bir-biri ilə müqayisə etsinlər və suallara cavab versinlər:
- Şəhər və kənd evləri arasında hansı oxşarlıq vardır?
- Onlar arasında hansı fərq vardır?
- Şəhər evini necə tanıdınız?

Sonra çalışma dəftərini açmalı və rəngləməlidirlər.

**3. Çalışma dəftərində iş** (15-17 dəq.)

Müəllim uşaqlardan xahiş edir ki, işi çalışma dəftərində davam etdirsinlər. Burada (aşağı hissədə) qəhrəmanlarımızdan biri komikslərdə verilmişdir. Ardıcıllıqsız 4 şəkil çəkilmişdir.

İş mövcud qruplarda davam etdirilməlidir. Müəllim qruplara bu komiksləri müşayiət edən nömrələnmiş cümlələri verməlidir. Bunlardır:

1. Anası yayda Nikolozu kəndə apardı;
2. Nənəsi Nikolozdan xahiş etdi ki, bostanda pomidor yığsın;
3. Nikoloz dəymiş pomidorları seçib yığdı;
4. Nənəsi pomidorlardan salat hazırladı.

Şagirdlər tapmalıdırlar ki, bu cümlələrə uyğun şəkillər hansılardır və nömrələməlidirlər; sonra şəkilləri rəngləməlidirlər.

**4. Mövzu üzrə söhbət “Kənddə kim nə işi görür?”** (3-4 dəq.)

Müəllim köməkçi sualların vasitəsilə söhbət aparır ki, şagirdlərin təsəvvürləri ilə yayda kəndlilərin (kişilər, qadınlar, uşaqlar) kənddə nə işlə məşğul olduqları aydın olsun. Nə geyinirlər?

**5. Qruplarda iş**

Müəllim sinfi qruplara bölür və lövhədə sütunda sözləri yazır: koma, dəyirman, tövlə, çəpər, kənd yolu, bostan, ot tayası, quyu, çay, gölməçə, meyvə bağı, ev heyvanları.

İlk növbədə, bu sözləri seçirlər, çünki onlardan bəziləri uşaqların bir qismi üçün tanış olmaya bilər.

Sonra müəllim qruplardan xahiş edir ki, A4 (və ya 3 format) vərəqində kənd şəklini çəksinlər. Bunda lövhədə verilən sözlər (hamısı və ya qismən) təsvir ediləcəkdir.

Prezentasiya zamanı qrupların hamısı öz şəkillərini təqdim edir və hansı əşyaların lövhədən vərəqə köçürdüklərini qeyd edirlər.

**5. Yekunlaşdırma** (3-4 dəq.)

## DƏRS 56

| | |
|---|---|
| **Mövzu:** | Yay |
| **Dərsin başlığı:** | Sinif “meşəsinə” ekskursiya |
| **Dərsin məqsədləri:** | Şagirdlər təbiətə ekskursiya üçün lazımi əşyaları düzgün seçə bilməlidirlər;<br>Ətraf mühitdə təmizliyə riayət edilmə tələblərini formalaşdırmalıdırlar;<br>Sadə suallar verməlidirlər;<br>Suala cavab vermək üçün lazımi göstəriciləri toplamalı, qeydə almalıdırlar. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Nəticə əyanidir, əgər şagird:<br>öyrənilən cisim/hadisə haqqında sadə sualları verir;<br>suala cavab vermək üçün lazımi göstəriciləri toplayır və qeyd edir (şəkillərin, şərti işarələrin vasitəsilə);<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;<br>fərdi fikirlərini və ya tədqiqat nəticələrini təqdim etdiyində müxtəlif kommunikasiya formasından (məs., şəkil, şifahi nitq, İKT) istifadə edir. |
| **Lazımi material:** | A4 vərəqləri, rəngli karandaşlar və ya flomasterlər, bel çantası, birdəfəlik boşqablar, stəkanlar və qaşıqlar, su termosu, fotoaparat, salfetkalar, dəsmal, pambıq, tənzif, yod, top, konfetlər, paketdə yemək, şəkil çəkmək üçün fırça, diş məcunu, ütü. |

**Dərsin gedişi:**

**1. Ekskursiya barəsində söhbət** (4-5 dəq.)

Qruplarda iş

Müəllim müvafiq şəkilləri göstərir ki, bunlarda da təbiətdə ekskursiyada olan həmyaşıdlar təsvir edilmişdir və sual verir: ekskursiyaya getmək istəyirsinizmi? Şagirdlərin cavablarını dinlədikdən sonra müəllim bu mövzu üzrə söhbətini davam etdirir.

**2. Ekskursiya üçün hazırlıq** (8-10 dəq.)

Yay təbiətdə ekskursiya üçün ən yaxşı vaxtdır. Təbiətə çıxış üçün bilik və hazırlıq gərəkdir. Müəllim bu dərs üçün sinfə bel çantasını və ekskursiya üçün lazım olan əşyaları gətirmişdir: birdəfəlik boşqablar, stəkanlar və qaşıqlar, su termosu və ya plastmas şüşə, günəş papağı, fotoaparat, salfetkalar, dəsmal, pambıq, tənzif, plaş, yod, top, paketdə yemək azuqəsi..... Eləcə də "əlavə" əşyaları: kitab, xətkeş, fırça, diş məcunu, qayçı, ütü, gül dibçəyi...

Əvvəlcə müəllim yuxarıda sadalanan əşyaları bir-bir uşaqlara göstərir və masanın üzərinə qoyur: şagirdlər hansı əşyanı gördüklərini adlandırmalıdırlar. Hər kəsin burada toplanmış əşyalarla tanışlığından sonra müəllim sinfi qruplara bölür və tapşırıq verir. Hər bir qrupa əşyaların siyahısını paylayır və bunu da sxem şəklində təqdim edə bilər. Sonra onlardan xahiş edir ki, ekskursiyaya getməzdən öncə bel çantalarına yerləşdirəcəkləri əşyaları "+" ilə işarə etsinlər.

Aparılası əşyalar
Stəkan +
Qaşıq
Birdəfəlik boşqab +

Təqdimat zamanı şagirdlər həqiqətən də bel çantasına yazdıqları əşyaları yığışdırmalı və həm də izah etməlidirlər ki, nə üçün belə seçim ediblər (yəni hər bir əşya nədə onlara lazım olacaqdır). Dolu bel çantasını əllərinə götürməlidirlər ki, onun kifayət qədər ağır olduğunu və artıq əşyaların həqiqətən də lazım olmadığını başa düşsünlər. Sonra müəllim bel çantasını boşaldır ki, başqa qruplar da təqdimat keçirə bilsinlər.

Təqdimatlardan sonra müəllim əlavə sualları frontal verə bilər:

– Ekskursiya zamanı ayağınıza nə geyinməlisiniz? Nə üçün?
– Hansı havada ekskursiya təşkil etmək yaxşı olar? Nə üçün?
– Nə vaxt ekskursiyaya getmək yaxşı olar (səhər, gündüz, axşam). Nə üçün?

**3. "Sinif meşəsinə" təsviri səyahət** (5-8 dəq.)

Uşaqların ekskursiya üçün lazımi əşyaları seçdiklərindən sonra müəllim onlara təklif edir ki, "sinif meşəsinə" ekskursiya təşkil etsinlər. Meşəni onlar ötən dərsdə yaratmışdılar.

İş mövcud qruplarda davam edir. Hər bir qrup sinif ekskursiyası barəsində kiçik əhvalatı fikirləşib tapmalıdır. Qruplarda uşaqlar fikirləşib müzakirə aparana qədər müəllim meşənin plakatına konfet kağızlarını, polietilen paket cırıqlarını, birdəfəlik stəkanları və qaşıqları bərkidir.

Müəllim: – uşaqlar, meşəyə girdikdə, belə bir şəkillə qarşılaşdınız. Əhvalatınızda bunu da nəzərə alın və nə edəcəyinizi fikirləşin.

Təqdimatlardan sonra və ya təqdimat prosesində müəllim köməkçi sualları da verə bilər:

– Meşəmiz nə vaxt cəlbedici idi – çirkləndiriləne qədər və ya indi?
– Təbiət necə çirkləndirildi?Onu kim çirkləndirir?
– Belə bir mühitdə nəyi sevmirsiniz?
– Bəs o zaman nə edək ki, təbiəti çirkləndirməyək? Bu zibili hara aparmalıyıq?

Şagirdlərin yardımı ilə müəllim sinif meşəsini "tullantılardan" təmizləyir və bir böyük polietilen paketə yığır ("bu zibili özümüzlə götürməli və bunkerə yerləşdirməliyik").

**4. Cizgilərin yerinə yetirilməsi – "Mənim sevimli təbiət rənglərim"** (8-10 dəq.)

Müəllim uşaqlardan xahiş edir ki, fərdi iş üçün təbiətlə bağlı təəssüratlarını yada salsınlar. Hansı təbiət onların fikirlərində gözəl qalmışdır və ya necə təsəvvür edirlər və cizgilər çəkməlidirlər.

Şəkillərin təhlili zamanı qeyd edilməlidir ki, uşaqların hamısı təmiz təbiəti sevir, təmiz təbiət cəlbedicidir, buna görə də onların şəkilləri də belə gözəldir.

**5. Yekunlaşdırma** (2-3 dəq.)

## DƏRS 57

**Mövzu:** Yay

**Dərsin başlığı:** Təbiətdə davranış qaydaları

**Dərsin məqsədləri:** Şagirdlər təbiətdə davranış qaydalarını formalaşdırmağı bacarmalıdırlar;

Təbiətdə davranış qaydalarından təcrübədə istifadə edə bilməlidirlər;

Məişət tullantılarını düzgün yerləşdirməli və ətraf mühitin təmizliyinə qayğı göstərməlidirlər;

Sadə praktiki fəallıqlarda iştirak etməlidirlər;

Şəxsi fikirlərinə istinad edərək, suallara cavab verməlidirlər;

Qidanın yararlı olub-olmadığını təyin etməkdə hissiyyat orqanlarının zərurətini dərk etməlidirlər;

Gigiyena qaydalarının əməl edilməsi üzrə müzakirələr aparmalıdırlar.

**MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.

Təb. 1.2. Şagird hissiyyat orqanlarının əhəmiyyətini dərk edə bilməlidir.

**Nəticə əyanidir, əgər şagird:** təhlükəsizlik qaydalarına əməl etməklə sadə praktiki fəallıqlarda iştirak edir;

verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;

insan üçün (məs., qidanın yararlı olduğunun təyin edilməsi, küçədə təhlükəsiz hərəkət) və heyvanlar üçün (məs., təhlükənin vaxtında aşkar edilməsi, qidanın əldə edilməsi, sığınacağın axtarılıb tapılması) hislər və hissiyyat orqanlarının əhəmiyyəti barəsində müzakirə aparır;

şəxsi gigiyena əşyalarını (məs., daraq, diş fırçası, dəsmal) adlandırır, gigiyena qaydalarına riayət edilməsi əhəmiyyəti barəsində müzakirə edir.

**Lazımi material:** lövhə, təbaşir, gigiyenik əlcəklər, bel çantası, ekskursiya əşyaları, polietilen paketlər, fotoaparat.

**Dərsin gedişi:**

**1. Qrupda iş** (8-10 dəq.)

Müəllim şagirdlərə deyir ki, ekskursiya zamanı mütləq davranış qaydalarını işləyib hazırlamalı və onlara əməl etməlidirlər, əks halda qrup səpələnə bilər və uşaqlar hər hansı bir təhlükə ilə qarşılaşa bilərlər (yırtıcı ilə qarşılaşma, meşədə itmək, dərəyə düşmək və s.). Bütün bunların baş verməməsinə görə, müəllim uşaqlara təbiətdə yürüş və davranış qaydalarını təklif edir. Bunun üçün müəllim uşaqları qruplara bölür və tapşırır ki, hər bir qrup 1 və ya 2 qaydanı fikirləşsinlər.

Sonra müəllim qrupların fikirləşdikləri qaydaları lövhəyə və ya plakat vərəqinə yazır, birlikdə təhlil edir və müqayisə edirlər.

Bundan sonra müəllim uşaqlara təbiətə çıxmağı və bu qaydalara əsasən davranmağı təklif edir, təbiətdə olduqda bəzi başqa qaydaları da əlavə etmək olar.

**2. Ətraf mühitə kiçik ekskursiya** (10-15 dəq.)

Müəllim uşaqları bayıra çıxarır (həyətə, məktəbin yaxınlığındakı parka və ya başqa təbii mühitə) və təbiətdə davranış qaydalarını aşılamaq üçün praktiki çalışmaları keçirirlər. Sinifdə hazırladıqları qaydalardan başqa müəllim növbəti davranışlar üzrə da onları çalışdırır:

a) Birlikdə gəzinti – hamı bir-birinin yanında, cığırla və ya yolla gəzməlidir; qrup dağılmamalıdır;

b) Diqqətlə gəzinti – hər kəs önündə gedən yoldaşını görməli və ayağını hara qoyduğunu da görməlidir;

c) Çətinliklərin dəf edilməsi – şagirdləri öyrətmək lazımdır ki, təhlükəsiz və bir-birinin yardımı ilə kiçik maneələri necə aşmaq lazımdır (uçmuş ağac, bulaq, dərə, tikanlı yerlər....);

d) İstirahət və qəlyanaltı üçün yerin seçilməsi (kölgədə, suyun yaxınlığında, oturmaq üçün künclər və böyük daşlar.....);

e) Yemək tullantılarının saxlanılması – yenə də yemək üçün yararlı ola biləcək yeməyi necə seçməlidirlər; tullantıları necə saxlamalıdılar ki, ətraf mühiti çirkləndirməsinlər.

Ekskursiyanın sonunda ərazini gözdən keçirməli və təmizləməlidirlər. Bunun üçün müəllim gigiyenik əlcəklər hazırlamış və bunları da şagirdlərə paylayır. Toplanılan zibili böyük polietilen paketə yığır və sonra zibil qutusuna atırlar.

Yaxşı olardı ki, xatirə fotoşəklini çəksinlər və dərsliyin müvafiq səhifəsinə yapışdırsınlar.

**3. Dərsin yekunlaşdırılması və məktəbə qayıtmaq** (8-10 dəq.)

Sonda, dərsi yekunlaşdırdıqda, ekskursiyada lazım olan apardıqları əşyaları da analiz etsinlər; artıq əşyaları olmamışdı ki; hansı təcrübəni əldə etdilər, nəyi öyrəndilər və s.

## DƏRS 58

| | |
|---|---|
| **Mövzu:** | Mənim vətənim |
| **Dərsin məqsədləri:** | Şagirdlər sadə suallar verə bilməlidirlər;<br>Öyrəndikləri obyektlər üzərində müşahidə aparmalıdırlar;<br>Cismi/hadisəni tanımalı, təsvir etməli və bir-birindən fərqləndirməlidirlər;<br>Şəxsi fikirlərə əsaslanaraq və müşahidə ilə suallara cavab verməlidirlər;<br>Maraqlarını oyadan xırdalıqlar barəsində söhbət aparmalıdırlar. |
| **MTP standartının nəticəsi ilə əlaqə və indikatorlar:** | Təb.I.1. Şagird praktiki fəallıqlarda iştirak edə bilməli və elementar vərdiş-bacarıqları nümayiş etdirə bilməlidir.<br>Təb.I.5. Şagird lokal mühiti təsvir edə və onda səmtləşməyi bacarmalıdır. |
| **Nəticə əyanidir, əgər şagird:** | öyrənilən cisim/hadisə haqqında sadə sualları verir;<br>özünün fərdi hissiyyat orqanları və ya sadə cihazların istifadəsi ilə öyrənilən obyekti müşahidə edir;<br>cisimləri və ya hadisələri illüstrasiyalarda yaxud da həqiqətdə tanıyır, təsvir edir və çeşidlərə ayırır;<br>verilən suala cavab vermək üçün fərdi fikirlərə və ya müşahidə nəticələrinə əsaslanır;<br>müşahidə əsasında məktəbin şəklini çəkir, xüsusi diqqətini çəkən xırdalıqlar barəsində söhbət aparır. |
| **Lazımi material:** | Gürcüstan haqqında videofilmlər. Gürcüstanın himni – audioyazı. |

**1. Tematik söhbət** (5-8 dəq.)

Müstəqil ərazisi olan, əsasən bir dildə danışan xalqın yaşadığı yer ölkə adlanır. Onun özünün hökuməti, dövlət dili, öz pul vahidi vardır.

Hər bir ölkənin özünün adı və sərhədləri vardır ki, bunu da başqa ölkələr tanıyırlar. Ölkənin özünün bayrağı və himni (musiqisi) vardır. Öz qanunları və qaydaları var ki, bunlara da ölkə vətəndaşları əməl edirlər.

Ölkələrdən bəzilərinin ərazisi böyükdür, bəziləri çoxlu əhalisi ilə seçilir. Ölkələrin sayı dəyişməz qalmır, bəziləri parçalanır/bölünür, bəziləri birləşirlər.

– Necə düşünürsünüz, Yer kürəsində qurunun elə bir hissəsi varmı ki, burada ölkələr olmasın və müvafiq olaraq insanlar da yaşamasınlar?

Əlbəttə ki, vardır. Bu, Antarktidadır. Burada nə hökumət və nə də ki bayraq vardır. Hətta bir çox ölkələr Antarktidanın toxunulmaz təbiət növü kimi qalması qanununa imza atmışlar. O, yalnız elmi tədqiqatlar və müşahidələr üçün olacaqdır.

Qeyd etdiyimiz kimi, bəzi ölkələrin əhalisi miqdar baxımından çoxdurlar, bəzilərininki isə - azdır.

Müxtəlif ölkələrin əhalisi bəzən zahiri görünüşü ilə də bir-birindən fərqlənirlər. Çox isti olan yerlərin əhalisi əsasən qaradərili və ya sarıdərili olurlar.

– Sizin fikrinizcə, Afrikada isti paltar lazımdırmı? Nə üçün?

– Necə düşünürsünüz, nə üçün payızda quşlar isti ölkələrə köçüb gedirlər?

– Quşların hamısı uçub gedir?

– “İlk qaranquş” ifadəsini eşitmisinizmi? Bu ifadəni nə ilə əlaqələndirirlər? (yazın gəlişi ilə)

Müxtəlif ölkədə və diyarda, təbii şərtlərdən irəli gələrək, fərqli bitkilərə, heyvanlara və quşlara rast gəlinir.

**2. Dərslik üzərində iş** (4-5 dəq.)

Dərslikdə verilən şəkilləri diqqətlə müşahidə edin:

- Necə düşünürsünüz, meşələrimizdə hansı qrupun heyvanları yaşayırlar?
- Müvafiq olaraq, ölkəmizdə hansı təbii şərtlər vardır?
- Mülayim şərtlər, başqa cür desək, mülayim iqlim nəyi bildirir?
- Ölkəmizdə hansı bitkilərin yetişdiyini sadala.

Dərsliyin növbəti səhifəsində fotoşəkilləri verilən müxtəlif yaşayış mühitləri barəsində müzakirələr aparın, onlardan hər birində hansı heyvanlar yaşaya bilərdilər.

**3. Audio və videomaterial** (10-15 dəq.)

Müəllim bu dərs üçün audio və videomaterialı seçmişdir. İlk növbədə, yaxşı olardı ki, uşaqlara Gürcüstan himnini qulaq asdıraq. Sonra Gürcüstanın mənzərələri ilə videomaterialı göstərək.

Sonda, müəllim ilin sonuncu dərsi olan dərsi yekunlaşdırır: seyr etdiyiniz filmi bəyəndinizmi? Filmdə göstərilən ətraf mühit sənin vətənindir. Vətənini qorumaq və ona qayğı göstərmək-qulluq etmək lazımdır. Vətənini qoru!

# 9. TƏBİƏTŞÜNASLIĞIN TƏDRİSİ METODLARI

## KİÇİK QRUPLARDA VƏ CÜTLÜKLƏRDƏ İŞ

Məktəbin təhsil sistemində şagirdyönümlü yanaşma əməkdaşlıq peqaqogikasının inkişafına güclü təkan vermiş və müasir dünyada geniş yayılmışdır. Dərs prosesinin təşkili formaları arasında cütlüklərdə və qruplarda iş xüsusilə diqqətəlayiqdir. Ənənəvi dərs zamanı frontal sorğudan çox istifadə edildiyində, əsasən güclü şagirdlər fəallıq göstərirlər. Onlar yeni materialı asanlıqla qəbul edir, dərhal mənimsəyir və müəllim də onlara istinad edir. Zəif şagird isə kölgədə qalır və onun geridə qalmasına zəmin yaranır, çünki vaxt çatmır ki, hər şeyi aydın təsəvvür edə bilsin və müəllimə də sualla müraciət etməyə cəsarəti çatmır; sual verdikdə dərhal cavab verə bilmir və ya səhv cavab verir və ..., qısası, dərsin gedişinə mane olur.

İndi, gəlin, ikinci variantı nəzərdən keçirək. Bu zaman şagirdə fərdi tapşırıqlar veririk və o da özü üçün çalışır. Bir çox hallarda, özünün nailiyyətləri və ya nailiyyətsizlikləri ilə öz qabığında qalır. Onu narahat etmir ki, yoldaşının işləri necə gedir və əsasən öz problemləri ilə məşğul olur.

Əməkdaşlıq pedaqogikası isə başqa cür təlimi təklif edir – şagirdin yanında yardım etməli və ya soruşmalı olduğu, yaxud da anlaşılmazlığı ayırd edən yoldaşları vardır; birlikdə müzakirələr edə və nəticələr çıxara bilərlər. Qrupun nailiyyətinin səndən asılı olduğu halda, özünün və qrupun qarşısında məsuliyyətini dərk edirsən ki, öyrənməlisən,işləməlisən, tənbəllik etməməlisən və s.

Təcrübə göstərir ki, birlikdə təlim nəinki asan və maraqlıdır, eləcə də effektlidir. Qeyd etmək lazımdır ki, bu effektlilik həm akademik nailiyyətə və intellektual inkişafa, eləcə də əxlaqi tərbiyəyə aid olunur.

Əməkdaşlıqla tədris öz məqsədini əldə etmək üçün tez-tez sinifdə cütlüklərdə və qruplarda iş metodundan istifadə edir. Yeni pedaqoji texnologiyaların həyata keçirilməsi də bir çox hallarda qrup işi metodu ilə bağlı olur.

## CÜTLÜKLƏRDƏ IŞ

Cütlüklərdə iş üçün müəllim sinfi cütlüklərə bölür və tapşırıq verir (hər hansı bir şagirdin tək qaldığı halda, müəllim özü onunla cütlük yoldaşı ola bilər və ya üç uşağı birlikdə əyləşdirə bilər). İşin müddətini müəllimin özü müəyyən edir və əvvəlcədən şagirdləri xəbərdar edir. İş başa çatdıqdan sonra müəllimin hər hansı bir cütlüyün işini qiymətləndirdiyi halda, bu qiymətləndirmə hər iki cütlük yoldaşına aid olmalıdır. Bununla uşaqlar başa düşürlər ki, onlar cütlük yoldaşı qarşısında məsuliyyət daşıyırlar və təlimdə bir-birinə yardım etməyə çalışacaqlar. Onlar birlikdə müşahidə edir, fikirləşir, müzakirə edir, işləyir, şəkil çəkirlər... Sonra isə bir-birinin işlərini yoxlayır-nəzarət edirlər. Belə bir əməkdaşlıq kiçik qruplarda münaqişəsiz işin əsasını yaradır.

## QRUPLARDA IŞ

Biz məktəbdə qrup işini kollektiv intellektual iş kimi nəzərdən keçirəcəyik və bu da uşağın əqli inkişafının ən yaxşı şərtlərini yaradır.

Münasibətlər nöqteyi-nəzərindən qrup işinin təyinatı qrupun müəllimə tabe olması deyil. Onun təyinatı qrupun hər bir şagirdinin özünü rahat hiss etməsi, maksimal nəticələr əldə etməsi və yoldaşları və müəllimlə əməkdaşlıq etməsidir. Belə bir hallarda qrup işi şagirdin şəxsi inkişafına növbəti təsiri göstərir:

– Qrup intellektual gərginlik sahəsini yaradır;

– Qrup emosional boşalma sahəsini yaradır;
– Qrup insana davranış təcrübəsini verir;
– Qrupda şagird yoldaşları ilə əməkdaşlıq etməyi öyrənir;
– Qrup şagirdin müstəqil iş bacarığının inkişafına dəstək verir;
– Qrup insanın məsuliyyət hissini inkişaf etdirir və s.

Müəllim tərəfindən təşkil edilmiş qrup işinin mənası yalnız şagirdlərin fərdi inkişafları baş verdiyində olur. Qrup çox yaxşı imkan verir ki, qrup üzvlərinin inkişafını təmin edən yaradıcılıq mühiti yaradılsın.

Dərsdə qrup işinin təşkilinin əsas xüsusiyyətləridir:

1) Konkret dərs məsələlərinin həlli üçün sinif 3-6 nəfərlik qruplara bölünür;
2) Hər bir qrupa konkret tapşırıq verilir (tapşırıq hər bir qrup üçün bir və ya müxtəlif ola bilər). Qrup liderin və ya müəllimin rəhbərliyi ilə birlikdə tapşırığı yerinə yetirir;
3) Qrupda tapşırıq şagirdlər arasında elə bölünür və yerinə yetirilir ki, qrupun hər bir üzvü fərdi töhfəsini qeydə edə və qiymətləndirə bilər;
4) Başdan qrupun tərkibi dəyişkən olur, onların komplektləşdirilməsi onu nəzərə almaqla baş verir ki, hər bir şagirdin imkanlarının gerçəkləşdirilməsinə və şəxsi xarakterlərin maneəsiz bir araya gəlməsinə maksimal dəstək verilsin;
5) Qrup növbəti prinsiplə formalaşır ki, onda müxtəlif gücü və bilik səviyyəsi olan, fərqli xarakterli şagirdlər birləşsinlər. Bu da onlara qarşılıqlı qəbuletmə və kamilləşmə imkanını verir;
6) Qrup razılıqlı, münaqişəsiz işləməli, heç bir uşaq sıxışdırılmamalıdır;
7) İş müəllim tərəfindən əvvəlcədən müəyyən edilmiş vaxtda yerinə yetirilməlidir;
8) Qrup bir masa ətrafında işləyir;
9) Dəstədə formalaşdırılmış qrupları vaxtaşırı dəyişirik və ya müəyyən vaxt ərzində dəyişməz saxlayırıq (bir və ya iki ay, dərs semestri).

Qrup işi zamanı işin gedişini və nəticələrin birgə müzakirəsini, bir-birinə müraciəti və qarşılıqlı yardımı həvəsləndirməliyik.

Bu zaman hər lazımi halda, şagirdlər tərəfindən yoldaşlarına yardım önəmli şəkildə artır. Qeyd etmək lazımdır ki, bu zaman kömək edən şagird də çox fayda götürür, çünki sinif yoldaşına izah etmə prosesində onun biliyi konkretləşir, aktivləşir, möhkəmlənir.

Qrup işi zamanı müəllim müxtəlif funksiyanı yerinə yetirir: işin gedişini yoxlayır, suallara reaksiya verir, mübahisəni və işin ardıcıllığını tənzimləyir, lazım gəldiyi halda, ayrı-ayrı şagirdə və ya bütöv qrupa yardım edir. Bununla yanaşı, nəticələrin təhlilinə və qarşılıqlı məsləhətləşməyə maksimal dəstək verir.

Müəllim bütöv sinfin işinə nəzarət etməlidir, amma təəssürat yaranmalı deyil ki, hər hansı bir qrupun başı üzərində durur. Müəllim qrupun işinə müdaxilə etməli deyil, yalnız şagirdlərin hər hansı bir izahatı tələb etmədikləri haldan başqa.

İşi başa çatdırdıqdan sonra qruplar öz işlərini təqdim edirlər (qrupun hər hansı bir üzvü yerinə yetirdiyi tapşırığı izah edir və ya şərh üçün ondan istifadə edir). Müəllimin özü təqdimatçını (çıxış edəni) seçə bilər və ya bu hüququ qrupa verə bilər. Təqdimat zamanı mübahisəyə yol verilmir ki, həmsöhbətin fikrini yarımçıq kəsməyək. Suallar yalnız təqdimatdan sonra verilməlidir (təqdimat barəsində daha ətraflı aşağıda danışacağıq).

Qrup işinin nailiyyətlə keçirilməsi üçün müəllim sinfi yaxşı tanımalıdır (nəinki şagirdlərin bilik səviyyəsi, eləcə də onların xarakterləri və ünsiyyətlərin özünəməxsusluqları nəzərdə tutulur), qrup işinə əvvəlcədən hazırlaşmaq və onu planlaşdırmaq lazımdır. Doğrudur, belə bir iş müəllimdən əlavə vaxt sərf etməyi tələb edir, amma əvəzinə, pedaqoji effekt hiss ediləcək şəkildə yüksəkdir.

Qrup işindən yeni materialı ötürdükdə, eləcə də öyrənilən materialı yoxladıqda və qiymətləndirdikdə nailiyyətlə istifadə etmək olar. Əsas odur ki, müəllim qrup işinin hədəf deyil, məqsədin əldə edilməsi üçün və qarşıya qoyulan məsələlərin həlli üçün əməli vasitə olduğunu qarışıq salmasın.

Növbəti mərhələdə yaxşı olardı ki, diskussiya təşkil edilsin. Diskussiya zərurəti təbii ki, yaranır,

çünki təqdimat prosesində müəllimin də, şagirdlərin də sualları yaranır. Təqdimat zamanı sual-lar vermək olmaz. Çünki müzakirənin dayandırılması təqdimatın bütövlüyü və quruluşunu pozur. Təqdimat başa çatdıqdan sonra baş qaldırılan suallar ətrafında diskussiya aparılmalıdır. Məsələnin dərinliyinə çatdırılmadan başqa, diskussiya bir çox faydalı vərdiş-bacarıqların formalaşmasına dəstək verir, məsələn: aktiv dinləmə, öz fikrini ifadə etmək, onu əsaslandırmaq, mübahisə zamanı avtoritet qarşısında yaranan qorxuya üstün gəlmək, müzakirə və başqasının fikrini qiymətləndirmək bacarığı, fərqli fikrə olan dözümlülük. Diskussiya prosesi isə bu xassələrin formalaşdırılmasına o zaman dəstək verir ki, müəllimin özü nümunədir ki, başqalarını da təhsilə çağırır.

Diskussiya hər zaman həmin qaydalara əməl etməklə davam edir ki, bunlar da müəllim və şagirdlər arasında bəri başdan birlikdə hazırlanmışdır. Diskussiyaların qaydaları, ümumiyyətlə, belə görünməlidirlər:

– Biri danışanda, başqaları onu dinləməlidirlər;
– Nəyi isə söyləmək istədiyində əlini qaldır;
– Başqasının sözünü yarımçıq kəsmə;
– Başqası danışanda gülmə, yalnız zarafat edildiyi hallardan başqa;
– Mübahisədə hər kəs iştirak edir.

Diskussiyadan sonra, adətən, qiymətləndirmə baş verir (ibtidai siniflərdə qiymətlər qoyulmur).

Qiymətləndirmə olduqca həssas bir prosesdir və obyektiv və ehtiyatlı yanaşmanı tələb edir. Müəllim qiymət xaricində qiymətləndirir.

**Şagird ona əsasən qiymətləndirilir ki, verilən tapşırığa nə qədər ciddi və səylə yanaşmışdır, "özünü necə sərf etmişdir", özünün imkanlarının neçə faizini aşkar etmişdir.**

Qrup prezentasiyasından sonra müəllim lövhəni neçə qrupun olduğu sayda bölür və nömrələyir. Fərdi deyil, qrupun işi qiymətləndirilir. Müəllimlər deyil, qrup üzvləri qiymətləndirirlər. Qiymətləndirmədə hər kəs iştirak edir, hər bir şagird öz fikrini bildirir və ən yaxşı hesab etdiyi qrupun nömrəsini yazır (öz qrupundan başqa). Müəllim lövhədə müvafiq qrupun nömrəsinin aşağısına qeydlər edir. Qrup nömrəsinin adı ilə birlikdə, yaxşı olardı ki, şagird ona nə üçün üstünlük verdiyini izah etsin. Sonda, qeydlərin sayına əsasən, ən yaxşı qrup aşkar edilir.

Qrup işinin sonunda b.a. refleksiyanın keçirilməsi məqsədəuyğundur.

"Refleksiya" termini öz fikirləri və hislərinin analiz edilməsini, şəxsi psixi vəziyyəti haqqında fikri bildirir ki, bu zaman müşahidə idrakın daxili hərəkətinə yönəlmişdir. Qısaca, pedaqoji refleksiya həm öz davranışının, bu halda, təlim-təhsil fəaliyyətinin dərk edilməsi kimi izah edilə bilər. Birinci sinifdə refleksiya zamanı şagirdlər tərəfindən bu dərsdə nəyi öyrəndiklərini, onlar üçün nəyin maraqlı və yadda qalan olduğunu, nəyi başa düşməkdə çətinlik çəkdiklərini və s. dərk etmək kifayət edər.

Dərsin yekun mərhələsində dərsin gedişinin yada salınması və iştirakçıların refleksiyası önəmli təlim və tərbiyə funksiyasının daşıyıcısıdır.

# 10. ŞAGİRDİ NECƏ QİYMƏTLƏNDİRƏK?

Milli Tədris Planına əsasən, tədrisin I pilləsində (1-4 siniflərdə) qiymət vermək tövsiyə olunmur. Amma bu onu bildirmir ki, şagirdləri ümumiyyətlə qiymətləndirmirik. Əksinə qiymətsiz qiymətləndirdikdə, düşünürük ki, şagirdlərin bilik və yaradıcılıqlarını nümayiş etdirmək üçün daha çox imkan verilir.

Bizim fikrimizcə, yaxşı olardı ki, şagirdləri bu fənnin tədrisinin nəzərdə tutduğu məqsədlərdən və bilavasitə dərsdə planlaşdırdığımız (yəni tədris prosesində qiymətləndiririk ki, şagird konkret tapşırıqların öhdəsindən necə gəldi) konkret (lokal) məqsədlərdən irəli gələrək (bilik, vərdiş-bacarıqlar, yanaşma) qiymətləndirək.

Müəllim əvvəlcədən bilməlidir ki, şagirdi hansı kriterilərin əsasında qiymətləndirməlidir. Bu kriterilərdə şagird tərəfindən fənnin öyrənilməsi-mənimsənilməsi səviyyəsi və keyfiyyəti xırdalıqları ilə öz əksini tapmalıdır.

Müəllim şagirdləri tez-tez və müxtəlif istiqamətlərdə qiymətləndirməlidir. Qiymətləndirmə müəllimin hər bir şagirdi müşahidə etməsi nəticəsində toplanılmış göstəricilərə əsaslanmalıdır.

Qiymətləndirmə növbəti kriteriləri əhatə edə bilər:

- Şagird əşyaları və ya hadisələri nə dərəcədə düzgün tapır və adlandırır;
- Fikrini nə dərəcədə aydın formalaşdıra bilir;
- Oxşar və fərqli əlamətlərə əsasən əşyaların və ya hadisələrin qruplaşdırılması;
- Cədvəllərin və diaqramların tərtib edilməsi – doldurulması;
- Öyrənilən məsələ ilə münasibətdə adekvat sualların formalaşdırılması;
- Təqdimat – bilik və bacarıqların nümayiş etdirilməsi;
- Məntiqi nəticələrin çıxarılması.

Biz hesab edirik ki, “əşyaların tanınması və adlandırılması” şagirdin bilik səviyyəsinin nisbətən aşağı, I səviyyəsinin göstəricisidir;

Daha yüksək, II səviyyənin kriteriləridir: “fikrin aydın formalaşdırılması”, “əşyaların və hadisələrin qruplaşdırılması” və “təqdimat”;

Ən yüksək, III səviyyənin kriteriləridir: “cədvəllərin doldurulması”, “adekvat sualların formalaşdırılması” və “məntiqi nəticələrin çıxarılması”.

Bununla yanaşı, hər növbəti səviyyə ötən səviyyənin kriterilərinin tələblərini də nəzərdə tutur.

Təcrübə göstərir ki, cütlüklərdə və qruplarda yerinə yetirilən fəallıq şagirdlər arasında əməkdaşlıq vərdişinin aşılanmasına dəstək verir. Belə bir iş zamanı şagirdlər bir-birini dinləməyi, başqasının fikri ilə paylaşmağı, tənqidi, yaradıcılıq və məntiqi təfəkkür və qiymətləndirməni, öz fikrini söyləməyi-əsaslandırmağı və s. öyrənirlər. Onlar funksiyaları bölməyi və vaxtdan rasional istifadə etməyi öyrənirlər.

Müəllim qrup işini qiymətləndirən zaman, yaxşı olardı ki, müsbət tərəflərə diqqət versin: bəziləri yazını daha yaxşı yazmağı bacarırlar, bəziləri – oxumağı, bəziləri – şəkil çəkməyi. Müəllim qiymətləndirdikdə uşağın nəyi bacarmadığını vurğulamalı deyil. Əksinə, hər zaman şagirdin xüsusilə nümayiş etdirdiyi dəyərini qeyd etməlidir. Bununla ona stimul verir ki, daha yaxşı işini görsün, daha yaxşı oxusun, başqaları üçün nümunə olsun. Sonda isə, bütün bunlar uşaqlara özünü bərqərar etmək və öz imkanlarına əmin olmaq imkanını verir.

Müəllim əvvəlcədən qrup işlərinin qiymətləndirmə formasını müəyyən etməlidir. Qrup işi zamanı, yaxşı olardı ki, uşaqların özləri başqa qrupun işlərini qiymətləndirsinlər. Təqdimatın gedişində vacibdir ki, qrupun təqdim etdiyi iş lövhəyə yapışdırılsın və müvafiq qrupun nömrəsi yazılsın ki, şagirdlərə bir-birinin işini qiymətləndirmək imkanı verilsin: hər bir şagird, onun fikrincə, ən yaxşı qrup işini (öz qrupundan başqa) adlandırır və sübut edir ki, nə üçün belə düşünür. Müəllim hər bir çıxış edənin fikrini lövhəyə, qrupun nömrəsinin yanına yazır, “+” işarəsi ilə qeyd edir. +-ların sayı qalib qrupu müəyyən edir.

Ola bilsin ki, müəllim qiymətləndirmənin vahid şərti işarələrini təsis etsin (günəş, ulduzlar, gülümsər insancığaz və s.) və ya qısa şərh kimi üsuldan istifadə edə bilər. Bu halda müəllim hər bir şagirdin yerinə yetirdiyi işi (testi, sxemi, aplikasiyanı, şəkli və s.) tək-tək (yazılı və ya şifahi) qiymətləndirir. O, hər bir işə qısaca öz qiymətini yazmalıdır və bunda yerinə yetirilən işin dəyərləri və nöqsanları barəsində söhbət aparılacaqdır. Yaxşı olardı ki, şagirdlərə eləcə də lazımi məsləhətlər verilsin:

Məsələn:

– Tatia! Sən tapşırığı nailiyyətlə yerinə yetirmisən: vaxtı düzgün bölmüsən, yoldaşlarınla razılıqda işləyirdin və problemin həlli yollarını axtarırdın. Afərin!

– Qiqa! Sən tapşırığı yaxşı yerinə yetirmisən. Amma düşünürəm ki, vaxt itirməsəydin, inanıram ki, səhvini özün tapa bilərdin və onun üzərində düzəlişlər aparardın. Məsləhət görürəm ki, tapşırığın şərtini daha diqqətlə oxuyasan. Bu yolla daha çox nailiyyət əldə edərsən. Sənə böyük ümid bəsləyirəm!

Müəllim belə bir yekunlaşdırıcı şərhi, yaxşı olardı ki, hər bir şagirdə semestrin sonunda da yazsın. Şərhdə şagirdin tam semestr ərzində işini təsvir edəcək və şəxsi imkanlarını daha yaxşı aşkarlamaq üçün məsləhətlər verəcəkdir. Yaxşı olardı ki, müəllim kəskin mənfi qiymətləndirmədən boyun qaçırsın ki, şagirdin özünə və imkanlarına inamı sönməsin. Bunun əksinə, uşaqlara işin yaxşılaşdırılması yollarını təklif etmək, onları öz imkanlarına inandırmaq daha effekt verəcək və imkan daxilində onları həvəsləndirmək, motivləşdirmək lazımdır.

Ola bilsin ki, məktəbin özü xüsusi nailiyyətləri qeyd etmək üçün şərti işarələri işləyib hazırlasın və tətbiq etsin və ya müəllimin özü qiymətləndirmə sxemini təyin etsin. Qiymətləndirmənin sadə sxemini təklif edirik:

| **ADI, SOYADI** | **ƏLDƏ EDILƏSI NƏTICƏ** | **ƏLDƏ EDILƏSI NƏTICƏ** | **ƏLDƏ EDILƏSI NƏTICƏ** | **ƏLDƏ EDILƏSI NƏTICƏ** |
|---|---|---|---|---|
| | **1 ...............................** | **2 ...............................** | **3 ...............................** | **4 ...............................** |
| 1 Saba Zaalişvili | Tam ödəmiş | Tam ödəmiş | Qismən ödəmiş | Tam ödəmiş |
| 2 Mariam Çoxeli | Tam ödəmiş | Yaxşılaşdırmalıdır | Tam ödəmiş | Qismən ödəmiş |